ჩემს რელიგიას ვსწავლობ

DİNİMİ ÖYRƏNİRƏM

TBİLİSİ-2022

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

Kitabın adı:
«DİNİMİ ÖYRƏNİRƏM»

Nəşrə hazırlayanlar:
t.f.d. Abbas QURBANOV
Fuad QULİYEV
Hacı BƏKİROĞLU

Redaktor:
Əziz SULTANOV

Hazırlayanlar:
f.f.d. Anar QURBANOV
f.f.d. Rafiz MANAFOV
f.f.d. Azad DƏDƏYEV
Saleh ŞİRİNOV
Mustafa Mayis ABBAS

Dizayn:
Əflatun MƏMMƏDOV

Qapaq:
Ülvi MƏMMƏDOV
Elsevər Əhmədov

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatına təşəkkür edir.

Esma Oniani st, Tbilisi Georgia, #23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E-mail: info.amag77@gmail.com

ÖN SÖZ

Gözümüzün nuru olan əziz və dəyərli uşaqlar!

Bizi gözəl dinimiz İslamla şərəfləndirən Uca Rəbbimizə şükürlər olsun!

Dinimizi ən gözəl şəkildə yaşayaraq bəşəriyyətə öyrədən Peyğəmbərimizə, Onun əhli-beytinə və ali-əshabına salətu-səlam olsun!

Əziz uşaqlar!

Vətənimiz bizim ən dəyərli nemətimizdir. İslam böyüklərindən biri demişdir ki: "Azad vətəndə yaşamaq Allahın ən böyük nemətlərindən biridir". Ata-babalarımız uzun əsrlərdən bəri vətənimizi qoruyaraq bizə əmanət qoyub getmişlər. Millətimizin ümummilli lideri Heydər Əliyev "dinimiz milli-mənəvi sərvətimizdir" demişdir. Deməli bu əmanəti layiqli şəkildə öyrənmək, qorumaq və gələcək nəsillərə ötürmək qarşımızda ən şərəfli vəzifələrimizdən biri kimi durur. Əlinizdəki bu kitab sizlərə gözəl əxlaq, vətən sevgisi və iman duyğusu aşılamaq məqsədilə hazırlanmışdır.

Sevgi ürəklərdə başlayır, sonra da davranışlarda özünü göstərir. Sevgilərin də ən böyüyü olan Allah sevgisi əvvəlcə qəlbimizdə yer tutur. Sonra isə bizi yaxşı insan olmağa, Allahın əmr və qadağalarını yerinə yetirməyə istiqamətləndirir. Etdiyimiz ibadətlər və gözəl davranışlar da daxilimizdəki sevgi və imanı artırır. Sizin könül və bilik dünyanızı daha da zənginləşdirmək üçün hazırlanmış bu kitabda aşağıdakı xüsusiyyətlər nəzərə alınmışdır.

• Gözəl dinimizi sevgi və həyəcanla oxumanız üçün mövzularla əlaqəli hekayələrə -oxu mətnlərinə yer verilmişdir.

• Dinimizin qaynağı olan Qurani-Kərim və Peyğəmbərimizin (s.ə.s) hədislərinə diqqət çəkmək üçün onlar xüsusi tərzdə yazılmışdır (mavi rəngdə çərçivə ayələr, yaşıl rəngdə çərçivə hədislər).

• Dinimizin əmr və qadağanlarından heç biri boşuna deyildir. Hamısında çox gözəl incəliklər vardır. Bu hikmət və faydaların bilinməsi, yerinə yetirdiyimiz

əmrləri sevməyə və daha şüurlu şəkildə həyata keçirməyə vasitə olacaqdır. Bu səbəblə hər ibadətin hikmət və faydalarından bəhs etdik.

• Mövzuları daha yaxşı qavramanız və biliklərinizi yoxlamaq üçün hər mövzunun sonuna bir qisim suallar yerləşdirdik.

• Rəsmlərdən xoşunuz gəldiyini bildiyimiz üçün mövzuları rəsmlərlə bəzədik.

• Həzrət Peyğəmbərdən, onun vəfalı dostlarından və İslam böyüklərindən olan xoş xatirələri könül dünyanıza əks etdirməyə çalışdıq.

• Mövzuları yeri gəldikdə tablo və şəkillərlə anlatdıq.

• Mövzuların arasına bəzən əziz Peyğəmbərimizdən xüsusi kəlamlar -hədisi-şəriflər yerləşdirdik, hədis biliyimizin artması üçün.

• Əllərinizi səmaya qaldıraraq dua edəsiniz deyə əziz Peyğəmbərimizin mübarək dilindən çıxan dualara da yer ayırdıq.

Əlinizdəki bu kitab uşaq yaradılışınızdakı gözəllikləri ortaya çıxarma məsuliyyəti ilə hazırlandı. Buna görə də duyğu və davranış dünyamıza anlamlı təsirlər bəxş edəcəyinə inanırıq. Çünki bu kitabda dinin əhəmiyyət verib öyrədilməsini istədiyi faydalı bilikləri tapacaq və öyrənəcəksiniz. Allahın adı ilə başlamağın verdiyi mənəvi ləzzəti və salamlaşmağın yaxınlaşdıran gücünü hiss edəcəksiniz. Söz və davranış bütünlüyü içində ən yaxşı nümunəni, ailə və cəmiyyət həyatı üçün təməl əxlaq prinsiplərini oxuyacaqsınız.

Əziz uşaqlar!

Siz bizim gələcəyimizsiniz. Sahib olduğumuz maddi-mənəvi dəyərlərimizin davam etməsində və sonrakı nəsillərə çatdırılmasından siz məsulsunuz. Həzrət Peyğəmbərimizin (s.ə.s) başlatdığı müqəddəs iman yürüşünü siz davam etdirərsiniz. Sizin ən ülvi vəzifələrinizdən biri özünü bu şərəfli vəzifəyə hazırlamaqdır.

Allah-Təala yolunuzu açıq, addımlarınızı qəti və uğurlu etsin!

f.f.d. Anar Qurbanov
f.f.d. Rafiz Manafov
f.f.d. Azad Dədəyev
Saleh Şirinov
Mustafa Mayis Abbas

MÜNDƏRİCAT

ƏQİDƏ

Din İslam İman 12
Din nədir? 12
Son din: İslam 12
İslam dininin xüsusiyyətləri 13
İslam 5 əsas üzərində qurulmuşdur 14
Kəlmeyi-tövhid və kəlmeyi-şəhadət 14
İman nədir? 15
İmanın bizə faydaları 15
Allaha iman 16
Allah vardır və birdir 16
Allahın rəhməti və mərhəməti sonsuzdur 17
Allaha imanın bizə faydaları 17
Allaha iman gətirmək 17
Allahın zati sifətləri 18
Allahın sübuti sifətləri 19
Əsmayi-hüsna 20
Dua edək! 31
Peyğəmbərlərə iman 32
Peyğəmbərlərə ehtiyac vardır 32
Peyğəmbərlərin xüsusiyyətləri 33
Quranda adı çəkilən peyğəmbərlər 34
Peyğəmbərlər nümunəvi şəxsiyyətlərdir 34
Peyğəmbərimizin möcüzələri 35
Peyğəmbərlərə imanın bizə faydaları 35
Oxu, düşün! (oxu mətni) 36
Axirətə iman 37
Axirət gününə iman gətirmək 37
Dünya həyatı müvəqqətidir 38
Dünya həyatı bir imtahandır 38
Südçünün qızı (oxu mətni) 39
Qiyamət 40
Yenidən diriliş 41
Həzrət Əlidən bir məktub (oxu mətni) 42
Cənnət 43
Cəhənnəm 44
Dua (oxu mətni) 45
Axirətə imanın faydaları 45
Mələklərə iman 46
Mələklərə iman gətirmək 46
Mələklərin xüsusiyyətləri 46
Mələklərin vəzifələri 47
Mələklərə imanın faydaları 47
Mələklərdən başqa görünməz varlıqlar: Cin və Şeytan 48
Mələklər, şeytan və insan (oxu mətni) 49

İlahi kitablara iman 51
Tövrat 52
Zəbur 52
İncil 53
Qurani-Kərim 53
Kitabımızı dərindən tanıyaq! 54
Vəhyin bizə öyrətdiklərinin faydaları 54
Qədərə iman 55
Qədər və qəza nədir? 55
Qədər və məsuliyyət 55
Qədərdən qədərə (oxu mətni) 56
Ruzi 58
Əcəl 58
Təvəkkül 58
Qədərə imanın faydaları 59
Suallar 60

İBADƏT

İbadətlər 62
İbadət nədir? 62
Nə üçün ibadət edirik? 62
İbadətin faydaları 63
Əməli-saleh (yaxşılıq / xeyirxahlıq) 64
Mükəlləfin davranışları ilə əlaqədar terminlər 64
Təmizlik 66
Təmizlik və ibadət 66
Dəstəmaz 67
Dəstəmazın alınma qaydası 68
Dəstəmazı pozan hallar 69
Dəstəmazsız bunları etmək olmaz 69
Muhammməd ümmətinin nuru (oxu mətni) 69
Qüsl 70
Qüslün fərzləri 70
Qüslün alınma qaydası 70
Təyəmmüm 71
Təyəmmümün edilmə qaydası 71
Təyəmmümün fərzləri 71
Təyəmmümü pozan hallar 71
Dəstəmaz, qüsl və təyəmmümün əsas məqsədi və mənası 71
Namaz 72
Namaza başlayırıq 72
Namazın şərtləri 72
Namazın rüknləri 73
Azan 74
Azanın sözləri 74
Azanın oxunşu 74
Azanın mənası 74
Azan duası 75

İqamə 75
İqamənin sözləri 75
İqamənin oxunuşu 75
Gündə beş namaz 76
Namazın vacibləri 76
Namazın sünnələri 77
Namazın ədəbləri 78
Namazın məkruhları 79
Namazı pozan hallar 80
Namaz qılmağın bizə faydaları 80
Namazını yenidən qıl! (oxu mətni) 80
Namaz qılmayan şəxsə Şeytanın cavabı (oxu mətni) 81
Oruc 82
Oruc Nədir? 82
Orucun əhəmiyyəti və faydaları? 82
Oruc ibadəti ilə bağlı əsas terminlər 83
İftar Duası 83
Orucu pozan hallar hansılardır? 84
Oruc tutmağın bizə faydaları 84
Ramazan ayı 84
Zəkat 85
Zəkat və sədəqə 85
Zəkatın faydaları 86
Kimlər zəkat verməlidir? 87
Nələrdən zəkat verilir? 89
Zəkat kimlərə verilməlidir? 89
Zəkat verməyin bizə faydaları 89
Həcc 90
Həcc nədir? 90
Həccin əhəmiyyəti və faydaları 90
Həcc ilə bağlı əsas terminlər 91
Gəlin həcc edək 92
Həcc ibadəti ilə əlaqədar məkanları tanıyaq 94
Ümrə 95
Qurban 96
Qurban nədir? 96
Qurban ibadətinin əhəmiyyəti 96
Qurban kəsərkən nələrə diqqət edilməlidir? 97
Qurbanı kimlər kəsməlidir? 97
Qurban bayramı 97
Suallar 98

ƏXLAQ

Əxlaq 100
Əxlaq nədir? 100
Əxlaqa duyulan ehtiyac 101
Din-əxlaq münasibətləri 101
İslama görə gözəl əxlaq 102

Əxlaqın faydaları 102
Əxlaqi vəzifələrimiz 103
1. Allaha qarşı vəzifələrimiz 103
2. Peyğəmbərimizə qarşı vəzifələrimiz 103
3. Qurani-Kərimə qarşı vəzifələrimiz 104
4. Ata-anaya qarşı vəzifələrimiz 104
Cənnətə gedən yol (oxu mətni) 105
5. Yaxınlarımıza və qohumlarımıza qarşı vəzifələrimiz 106
6. Qonşularımıza qarşı vəzifələrimiz 106
7. Vətənə qarşı vəzifələrimiz 107
Vətən sizin üçün nə ifadə edir? (oxu mətni) 107
Hicrət (oxu mətni) 108
8. Şəhidlik və qazilik 109
9. Bayraq sevgisi 110
10. Böyüklərə qarşı vəzifələrimiz 110
11. Məsciddə diqqət ediləcək ədəblər 111
Məscidi təmizləyən qadın (oxu mətni) 112
12. Müəllimə qarşı vəzifələrimiz 113
Müəllimlərin könlünü fəth edən sultan (oxu mətni) 114
Məişət ədəbləri 116
Yemək-içmək ədəbləri 116
Tualet ədəbləri 117
İctimai davranışlarda ədəb qaydaları 118
Salam vermə ədəbləri 118
Şəfqətli olmaq 118
Çalışqan və səbirli olmaq 118
Çalışan qazanır! (oxu mətni) 119
Ailəyə qarşı məsuliyyətimiz 120
Qardaş-bacı (oxu mətni) 120
İkinci ana (oxu mətni) 122
Dostluq 123
Yalnızlıq Allaha məxsusdur! (oxu mətni) 123
Kimlərlə dostsunuz? (oxu mətni) 123
Allah üçün (oxu mətni) 124
Həqiqi dost (oxu mətni) 124
Sözündə durmaq 125
Söz ağızdan bir dəfə çıxar (oxu mətni) 125
Allah Rəsulunun sözündə durması (oxu mətni) 127
Əfv edici olmaq 128
Quyudan saraya (oxu mətni) 128
Nəzakət qaydalarına diqqət etmək 130
Müsəlman nəzakəti (oxu mətni) 130
Rəsulullahın qonağı (oxu mətni) 131
Utanma hissi 132
Ədəb və həya (oxu mətni) 132
Həya abidəsi Hz.Osman (oxu mətni) 133
İslam əxlaqında xoş qarşılanmayan hallar 135
1. Yalan danışmaq 135
2. Özündən razılıq 135

3. Həsəd 136
4. Böhtan 137
5. Qeybət 137
6. Oğurluq 138
7. İçki və qumar 139
8. Rüşvət almaq və vermək 140
9. Zina və fühuş 141
10. İsraf 142
11. Adam öldürmək 143
Suallar 144

SİYƏRİ-NƏBİ

Hz. Muhammədin (s.ə.s) anadan olması və uşaqlığı 146
İslamiyyətdən əvvəl Ərəbistanın vəziyyəti 146
Həzrət Muhammədin (s.ə.s) nəsli 146
Həzrət Muhammədin (s.ə.s) anadan olması 148
Həzrət Muhammədin (s.ə.s) uşaqlığı 148
Bir şey üçün ağlaram və bir şey üçün gülərəm (oxu mətni) 149
Hz. Muhammədin (s.ə.s) gəncliyi və evliliyi 150
Həzrət Muhammədin (s.ə.s) səyahətləri və ticarət həyatı 150
Həzrət Muhammədin (s.ə.s) Həzrət Xədicə ilə evlənməsi və uşaqları 150
Həzrət Muhammədin (s.ə.s) Kəbənin təmiri əsnasındakı hakimliyi 151
Kəbənin Allah tərəfindən qorunması: Fil hadisəsi (oxu mətni) 152
Hz. Muhammədin (s.ə.s) peyğəmbər olması: Məkkə dövrü 153
İlk vəhyin gəlməsi 153
İslama dəvətin başlaması və ilk müsəlmanlar 154
Həbəşistana hicrət edilməsi 154
Dəvətin açıqdan edilməsi 155
Həzrət Muhammədə (s.ə.s) ən çox düşmənçilik edənlər 156
İslamın ilk şəhidləri 156
İlk müsəlmanlara verilən işgəncələr 157
Həzrət Muhammədin (s.ə.s) Taif səfəri 158
Həzrət Muhammədin (s.ə.s) Mədinəyə hicrəti və qarşılanması 159
Həzrət Həmzənin müsəlman olması (oxu mətni) 162
Hz. Muhammədin (s.ə.s) Mədinə dövrü 163
Mədinədə ilk fəaliyyətlər və Məscidi-Nəbəvinin tikilməsi 163
Azani Muhammədi 163
Ənsar və Muhacir arasında qardaşlıq 164
Peyğəmbər (s.ə.s) məktəbi və əshabi-suffə 165
Bədir döyüşü (miladi: 624) 166
Raci hadisəsi 166
Uhud döyüşü (miladi: 625) 167
Xəndək döyüşü (miladi: 627) 169
Hüdeybiyə müqaviləsi (miladi: 628) 170
Məkkənin fəthi və əfv bayramı (miladi: 630) 172
Peyğəmbərimizin (s.ə.s) Vida həcci 174
Həzrət Muhammədin (s.ə.s) Xəstələnməsi və Vəfatı 174
Peyğəmbərimizin (s.ə.s) xrolonoji həyatı 176

Peyğəmbərimizin (s.ə.s) Vida xütbəsindən parçalar 177
Həzrət Peyğəmbərimizin (s.ə.s) əxlaqı Quran əxlaqı idi 178
Həzrət Peyğəmbərimizə (s.ə.s) tabe olmaq..... 179
Həzrət Peyğəmbərimiz nizam-intizama çox əhəmiyyət verərdi 180
Ən gözəl örnək Həzrət Muhammməd Mustafa (s.ə.s) 180
Nur içində nur 181
Suallar 182

NAMAZIMI ÖYRƏNİRƏM

Namaz 184
Namaz nədir? 184
Namazın faydaları 184
Namazın qılınma qaydası 185
Beş vaxt namazın qılınış qaydası 192
Sübh namazı 192
Günorta namazı 193
İkindi namazı 194
Axşam namazı 195
Yatsı namazı 196
Cümə namazı 198
Bayram namazı 198
Təraveh namazı 198
Namazdan sonra oxunan təsbihat - zikrlər 199
Namazda oxunan dualar 200
Subhanəkə duası 200
Əttəhiyyat Duası 200
Allahummə Salli Duası 200
Allahummə Barik Duası 200
Rabbənə Duaları 201
Qunut Duaları 201
İftitah duası 202
Təhiyyat Duası 202
Salli - Bərik Duaları 202
Qunut Duaları 203
Namazda oxunan surələr 204
Fatihə Surəsi 204
Fil surəsi 204
Qureyş Surəsi 204
Maun Surəsi 205
Kövsər surəsi 205
Kafirun surəsi 205
Nəsr surəsi 205
Təbbət surəsi 206
İxlas Surəsi 206
Fələq surəsi 206
Nas surəsi 206
Ayətəl-kürsi 207

ƏQİDƏ

- Din İslam İman 12
- Allaha iman 16
- Peyğəmbərlərə iman 32
- Axirətə iman 37
- Mələklərə iman 46
- İlahi kitablara iman 51
- Qədərə iman 55

Din nədir?

Din bizə dünya və axirət xoşbəxtliyi təmin edən yoldur. Uca Rəbbimiz kainatı yaradaraq insan oğlunun istifadəsinə vermişdir. Digər varlıqlardan fərqli olaraq insana inanc və davranışlarını seçmə sərbəstliyi verilmişdir. İnsan həm yaxşılıq, həm də pislik etməyə meyilli şəkildə yaradılmışdır.

Sonsuz mərhəmət sahibi olan Uca Rəbbimiz saysız-hesabsız nemətlərin əhatəsində yaratdığı insanı seçim sərbəstliyində də köməksiz qoymamışdır. Doğru seçim edə bilsin deyə ona ağıl neməti vermişdir. Üstəlik peyğəmbərlər də göndərmişdir. İnsanları yaxşılığa yönəldib pislikdən uzaqlaşdıracaq, onların xoşbəxt olmalarını təmin edəcək qanun və tövsiyələr göndərmişdir. İnsanın xoşbəxtliyi bu ilahi qaydalar və tövsiyələrin içində gizlidir. İnsan bunları öyrənər və əməl edərsə, həyatının müvazinətini qoruyar. Dünyada və axirətdə səadətə çatar. Uca Rəbbimizin insanların dünya və axirətdə xoşbəxt olmalarını təmin etmək üçün göndərdiyi bu qayda və tövsiyələrə din deyilir.

> **“Bu gün sizin dininizi tamamladım və sizin üçün nemətlərimi kamilləşdirdim və din olaraq sizin üçün İslamı seçdim.”**
>
> **(Maidə surəsi, 3)**

Ətrafımızdakı varlıqların nə üçün yaradıldıqlarını fikirləşin. Bunların arasında sizə boş yerə yaradılmış kimi görünənlər varmı? Bu mövzunu yoldaşlarınızla müzakirə edin. Hər varlığın yaradılış məqsədini tapmağa çalışın.

Son din: İslam

Allah tərəfindən göndərilən və bir olan Allaha inanıb yalnız Ona qulluq etməyi əmr edən dinə haqq din deyilir.

Bizi həm bu dünyada, həm də axirətdə xoşbəxt edəcək ən doğru qaydaları, yəni dini yalnız Allah-Təala müəyyən edə bilər. Ondan başqa heç kimin din qurmaq, dinin qaydalarını dəyişdirmək və ləğv etmək səlahiyyəti yoxdur.

Bütün Peyğəmbərlərin gətirdiyi haqq dinin ortaq adı İslamdır.

Onlara bildirilən dinlərin əsası da “tək Allah əqidəsi”, yəni “tövhid” dini idi.

Peyğəmbərimiz Həzrət Muhammməd (s.ə.s) İslam dininin son təbliğçisi olmuşdur. Ondan sonra peyğəmbər və Qurani-Kərimdən sonra da kitab gəlməyəcəkdir.

Bir olan Allaha imanı (tövhidi) əmr etməyən dinlər batildir.

* Uca Allah tərəfindən göndərilməyən uydurma dinlərə batil dinlər deyilir. Buddizm, hinduizm və s.

* Uca Allah tərəfindən göndərildiyi halda sonradan insanlar tərəfindən pozulan dinlər də var. Bunlara dinin əslində olmayan bəzi xürafələr və batil inanclar qarışmışdır. Bu kimi dinlərin inanc əsaslarında və ibadətlərində bir çox dəyişiklik edilmişdir. Belə dinlərə əsli pozulmuş (muxərrəf) dinlər deyilir. Xristianlıq, yəhudilik kimi.

İslam dininin xüsusiyyətləri

Allahın bəşəriyyətə göndərdiyi ən son din İslamdır. Dinimizin mühüm xüsusiyyətlərindən bir neçəsi bunlardır:

• İslam hər əsrə və hər insana xitab edən bir dindir. Həzrət Peyğəmbər qiyamətə qədər gələcək olan bütün insanlara göndərilmişdir. Onun gətirdiyi din bütün insanların ehtiyaclarına cavab verəcək səviyyədədir.

• İslam dini asanlıq dinidir. İnsanlara gücü çatacağı şeyləri əmr edər. Məsələn, ayaq üstə dura bilməyən xəstələr namazlarını oturub qıla bilərlər. Su tapa bilməyən bir adam dəstəmaz yerinə təyəmmüm edə bilər. Uzun bir səfərə çıxan bir adam səfər əsnasında Ramazan orucunu tutmayıb sonra qəza edə bilər.

• İslam dini insanlar arasında heç bir işdə ayrı-seçkilik salmaz. Heç kimi irqi, dili və rənginə görə üstün saymaz. Cəmiyyətdəki mövqeyindən asılı olmayaraq heç kimin başqalarından üstünlüyü yoxdur.

"Şübhəsiz ki, Allah dərgahında həqiqi din İslamdır"
(Ali-İmran surəsi, 19)

Dinə inanmaq

* Bizi məqsədsizlik və başıboşluq duyğusundan qurtarır.
* Yaradılış, ölüm və ölümdən sonrakı həyatla bağlı suallarımıza cavab verir.
* Uca Allaha necə qulluq edəcəyimizi öyrədir.
* İnsanlarla və kainatdakı digər varlıqlarla necə rəftar edəcəyimizi göstərir.
* Gözəl əxlaqa sahib olmağımıza təkan verir.
* Bizə həm dünyada, həm də axirətdə xoşbəxt olmağın yolunu göstərir.

• İslamın hədəfi insanı həm bu dünyada, həm də axirətdə xoşbəxt etməkdir. İslam insanı dünyadakı nemətlərdən istifadə etməyə və bunlarla cənnəti qazanmağa sövq edir. Dünyaya görə axirəti, axirətə görə də dünyanı tərk etməyi xoş qarşılamır.

• İslam təmizliyə böyük əhəmiyyət verir. İslam dininin əmr etdiyi ibadətlər bədən təmizliyi ilə birlikdə ruh təmizliyini də təmin edir. Məsələn, dəstəmaz, qüsl, namaz, oruc, həcc və zəkat kimi ibadətlər insanları həm maddi, həm də mənəvi pisliklərdən təmizləyir.

• İslamın əmr və qadağaları insanın yaradılışına uyğundur. İslam içkini, qumarı, zinanı, yalan danışmağı, zülm və haqsızlığı qadağan etmişdir. Yaxşılığı, yardımlaşmağı, ədaləti, ata-anaya xoş rəftarı, yoxsulları və miskinləri himayə etməyi əmr etmişdir.

İslam 5 əsas üzərində qurulmuşdur

Peyğəmbərimiz (s.ə.s) bir hədisdə İslam dinini 5 dirək üstündə qurulmuş bir binaya bənzətmişdir. Bu 5 əsas dinimizin ən əhəmiyyətli məsələləridir. İslam dininin iman, ibadət və əxlaq kimi qaydaları bu 5 əsasla birbaşa bağlıdır. Bina yalnız bünövrədən ibarət deyil. Binanın eyni zamanda divarları, damı və otaqları var. Biz İslam deyərkən də bu 5 təməl əsas üstündə qurulmuş iman, ibadət, məsuliyyət, nəsihət və əxlaq qaydalarını əhatə edən binadan bəhs etmiş oluruq.

İslamın 5 əsası:

01 Kəlmeyi-şəhadət gətirmək*

02 Namaz qılmaq

03 Zəkat vermək

04 Həccə getmək

05 Ramazan orucu tutmaq

* Mən şahidlik edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. Mən yenə şahidlik edirəm ki, Hz. Muhammad (s.ə.s) Allahın qulu və elçisidir

Kəlmeyi-tövhid və kəlmeyi-şəhadət

Qəlbimizdəki imanı dilə gətirən cümlə kəlmeyi-tövhiddir. Kəlmeyi-tövhid iki hissədən ibarətdir: **"Lə iləhə illəllah, Muhammədun rəsulullah"**. Mənası "Allahdan başqa ilah yoxdur, Muhammad onun rəsuludur" deməkdir. **"Lə iləhə illəllah"** qismiylə Allahdan başqa ilah olduğu iddia edilən bütün varlıqları rədd edirik. **"Muhammədun rəsulullah"** deyərkən də Allahın son dinini bizə çatdıran Həzrət Muhammədin də son və həqiqi rəsul olduğunu təsdiq etmiş oluruq.

Peyğəmbərimiz (s.ə.s) buyurur:

"Ən fəzilətli zikr "Lə iləhə illəllah", ən fəzilətli dua da "Əlhəmdülillahdır". (Tirmizi, Dəavat 9)

Allaha və Peyğəmbərə iman etdiyimizi göstərən başqa bir ifadə də kəlmeyi-şəhadətdir. Kəlmeyi-şəhadət ilə iman etdiyimizi, İslamın əmr və qadağalarını qəbul etdiyimizi elan edirik. Beləliklə, İslam dininin müsəlmanlara verdiyi bütün haqq və məsuliyyətlərə sahib oluruq və İslam ümmətinin bir üzvünə çevrilirik.

İmanın hədəfi, لا اله الا الله (Lə iləhə illəllah) tövhidini yaşayaraq, ürəyi tək Allaha yönəldə bilməkdir. Bu baxımdan iman və tövhidin idrakı elmi, əxlaqi və mənəvi dəyərlərə sahib olmaqla mümkündür.

Kəlmeyi-tövhid

لَا إِلٰهَ إِلاَّ اللهُ مُحَمَّدٌ رَسُولُ اللهِ

“Lə ilə̲hə illəlla̲h
Muhammədun rəsu̲lullah”.

Allahdan başqa heç bir ilah yoxdur. Hz. Muhammməd (s.ə.s) Allahın elçisidir.

Kəlmeyi-şəhadət

أَشْهَدُ أَنْ لَا إِلٰهَ إِلاَّ اللهُ
وَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ

“Əşhədu ən lə ilə̲hə illəlla̲h
və əşhədu ənnə Muhammədən
abduhu̲ və rəsu̲luh”.

Mən şahidlik edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. Mən yenə şahidlik edirəm ki, Hz. Muhammməd (s.ə.s) Allahın qulu və elçisidir.

Kəlmeyi-şəhadəti söyləyərək nə ifadə etmiş oluruq?

Kəlmeyi-şəhadət ilə ▶

* Allahın varlığına və birliyinə inandığımızı,
* Allahdan başqa heç bir varlığın məbudluğa layiq olmadığını,
* Həyatımızı Onun əmr və qadağalarına uyğun yaşayacağımızı,
* Peyğəmbərimizə və Onun Allahdan gətirdiyi bütün xəbərlərə inandığımızı ifadə etmiş oluruq.

İman nədir?

iman etmək bir şəxsin heç bir şübhə duymadan bir məlumatı qəbul etməsi deməkdir. Dinimizdə iman kəlməsi Peyğəmbərimizin Allahdan aldığı xəbərləri, əmr və hökmləri qəbul etmək, onların doğru olduğunu ürəkdən təsdiq etməkdir. İman cümlələri “kəlmeyi-tövhid” və “kəlmeyi-şəhadət” hesab olunur.

İnsan din və inam sayəsində həqiqi xoşbəxtliyi əldə edir. İman insanlara daha mənalı, daha gözəl həyat bəxş edir.

İmanin bizə faydaları

☑ cəhənnəmdən xilas olub cənnətə girməyimizi təmin edir.

☑ Müsibətlərə və bəlalara qarşı dözümlü olmağımıza səbəb olur.

☑ Qardaşlıq və yardımlaşma duyğularımızı canlandırır.

☑ Duyğu, düşüncə və davranışlarımızı yaxşı istiqamətə yönəldir.

☑ Ümidsizlikdən qurtarır.

☑ Əxlaqımızı və davranışlarımızı tənzimləyir

Allaha iman

Allah vardır və birdir

Hər insan üçün Allahın varlığına inanmaq həm asan, həm də təbiidir. Çünki Allahın varlığını qəbul etmək və Ona inanmaq bütün insanların fitrətində olan bir duyğudur. İnsan həm özündə, həm də kainatda mövcud olan bir çox dəlilə baxaraq Allahın varlığını hiss edə bilər. Hər bir əsərin sənətkarı, hər bir hadisənin səbəbkarı olduğu kimi...

> "De ki: O, Allah təkdir.O, Səməddir (Hər şey Ona möhtacdır. O, heç bir şeyə möhtac deyil.) O, doğmamışdır və doğulmamışdır. Heç bir şey Onun tayı deyil və Ona bənzər deyil! "
>
> **(İxlas surəsi, 1-4)**

İnsan daxili aləmindəki vicdanıyla baş-başa qalanda da, xarici aləmdəki saysız nemətlərə nəzər salanda da Allahı dərk etməməsi qeyri-mümkündür. Nə ucsuz-bucaqsız kainat, nə də dünyadakı çox mürəkkəb quruluşa malik xırda canlılar, bunların heç biri öz-özünə yarana bilməz. Bu torpaq, su və hava necə yarandı? Ağıl insana belə söyləyir: Bütün bunların yaradıcısı olan Allah **VARDIR**. Aləmdəki nizam-intizam Allahın **BİR** olduğunun əlamətidir. Çünki kainata nəzər saldıqda, onun hər hissəsində və hər zərrəsində eyni qanunların olduğunu görürük. Qurani-Kərim də bəzi ayələrində Allahın **BİR** olduğunun dəlili kimi bu nizam-intizamı nümunə göstərmişdir.

> "...Kim Allaha iman gətirsə, (Allah) onun qəlbini haqqa doğru yönəldər. Allah hər şeyi biləndir. "
>
> **(Maidə surəsi, 3)**

Duyğu orqanlarımız kimi, ağlımızın da qavrama və dərk etmə imkanları məhduddur. Ağlımızın qavramaqda çətinlik çəkdiyi sahələrdən biri də Allah-Təalanın zatı və sifətləridir. Ağlımızdan istifadə edərək, kainatdakı dəlilləri fikirləşərək Allahın bir olduğunu anlaya bilərik. Lakin Onun zatı haqqında öyrənə bilmərik. Allah özünü necə tanıdırsa, biz Onu ancaq bildirdiyi xüsusiyyətləri ilə tanıyar və elə inanarıq. Uca Rəbbimiz Onu daha yaxşı tanıyaq deyə Qurani-Kərimdə öz sifətlərindən bəhs edir. Allahı anlaya bilmək və Ona lazımi şəkildə inana bilmək üçün bu sifətləri öyrənməliyik.

Allah-Təala buyurur:

"Gözlər Onu (görüb) **dərk etməz. O, gözləri dərk edər."** (Ənam surəsi, 103)

Peyğəmbərimiz də buyurmuşdur ki:

"Allahın zatı haqqında ağlınıza nə gəlirsə gəlsin, Allah ondan fərqlidir. Siz Allahın yaratdığı şeylər haqqında düşünün, Onun zatı (özü) haqda düşünməyin! Çünki Allahın zatını qavraya bilməzsiniz." (Heysəmi, Məcmauz-zəvaid, I, 81)

Allahın rəhməti və mərhəməti sonsuzdur

"Bismilləhir-rahmənir-rahim" deyəndə Allahın "Rəhman" və "Rəhim" adlarını çəkirik.

Allah Rəhmandır. Bu səbəblə dünyada bütün varlıqlara mərhəmət edir. Mömin və kafir ayrı-seçkiliyi etmədən hər kəsə ruzi verir. Allahın rəhməti hər şeyi əhatə etmişdir. Qulları günah işləməsinə baxmayaraq Allahın onlara saysız nemətlər verməsi Onun rəhmətinin genişliyindəndir.

> "(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"
>
> **(Zumər surəsi, 53)**

Allah Rəhimdir. Axirət günündə möminlərə rəhməti sonsuz olacaq. Üstəlik Allahın axirətdəki rəhməti və mərhəməti dünyadakından qat-qat çox olacaq. Ürəyində zərrə qədər iman olan kimsə Allahın mərhəmətindən faydalanacaq, cənnətə girəcək. Allahın rəhmətinin genişliyini Sevimli Peyğəmbərimiz belə xəbər verir:

"Allah-Təalanın rəhməti yüzdür. Bunlardan birini insanlar, cinlər, heyvanlar və böcəklər arasına endirmişdir. Onlar bu səbəblə bir-birlərini sevər və bir-birlərinin hallarına acıyarlar. Vəhşi heyvan balasına bu səbəblə şəfqət göstərər.

Allah geri qalan doxsan doqquz rəhmətini isə qiyamət günü qullarına mərhəmət etmək üçün öz qatında saxlamışdır."
(Buxari, Ədəb 19; Müslim, Tövbə 17)

Mömin qorxu ilə ümid arasında yaşayar. Yəni həm Allahın əmrlərini pozmaqdan qorxar, həm də Allahın onu bağışlayacağına ümid bəsləyər. Çünki, Allah tövbə edərək günahlara peşman olanları bağışlayar. Onun mərhəməti sonsuzdur.

Allaha imanın bizə faydaları

Allaha iman gətirmək

☑ Bizə sonsuz güvən duyğusu verər.

☑ Yaradılmışlara mərhəmətli və şəfqətli davranmağı öyrədər.

☑ Hərəkətlərimizi düzgün istiqamətləndirməkdə bizə yardımçı olar.

☑ Doğru və güvənilən insan olmağımızı təmin edər.

☑ Dünya və axirət xoşbəxtliyimizə səbəb olar.

☑ Bir-birimizi sevməyimizə səbəb olar.

☑ Vətənimizi və millətimizi sevməyimizi təmin edər.



Allahın



Zati sifətləri

Allahın zati sifətləri

Allahın **Zati Sifətləri** yalnız Uca Rəbbimizə aid olan, Ondan başqa heç bir varlıqda olmayan xüsusiyyətlərdir. Bunlar aşağıdakılardır:

Vücud
Allah vardır, Onun var olmaması mümkün deyil.

Qidəm
Allah əzəlidir, varlığının başlanğıcı yoxdur. Allahın var olmadığı bir zaman düşünmək mümkün deyil.

Bəqa
Allah əbədidir, varlığının sonu yoxdur. Zaman baxımından nə qədər irəli gedilsə də, Allahın sonunun olduğu zaman düşünmək qeyri-mümkündür.

Vəhdaniyyət
Allahın tək olması deməkdir. Allahdan başqa heç bir yaradıcı və Onun xüsusiyyətlərinə sahib olan başqa bir varlıq yoxdur.

Müxalifətun lil-həvadis
Allah heç bir varlığa bənzəməz. O, insanın ağlına gələ biləcək bütün şəkil və düşüncələrdən uzaqdır.

Qiyam binəfsihi
Allah var olmaq və varlığını davam etdirmək üçün başqa heç bir varlığa möhtac deyildir. Allahı başqa biri var etməmişdir. Onun varlığı özündəndir.

Sübuti sifətləri

Allahın sübuti sifətləri

Allahın **sübuti sifətləri** Onun varlığını sübut edən, feilləri ilə ortaya çıxan sifətləridir. Digər varlıqlara da buna bənzər sifətlər bəxş etsə də, bunların ən mükəmməl və sonsuz şəkli yenə Ona məxsusdur. Bu sifətlər Allahın kainatı necə yaratdığını və idarə etdiyini dərk etməyimizi təmin edir. Sübuti sifətlər aşağıdakılardır:

Həyat
Allah diri və canlıdır. Onun həyatı yaradılmışların həyatı kimi zamana, məkana və səbəbə bağlı deyildir. Hər canlıya həyat verən Odur.

İradə
Hər şey Uca Allahın istəməsiylə olur. Onun istəyi və əmri olmadan heç nə etmək mümkün deyil. Onun iradəsini geri çevirəcək, verdiyi hökmün qarşısına keçəcək heç bir güc yoxdur.

Elm
Allah-Təala göylərdə və yerdə olan hər şeyi bilir. Onun bilmədiyi heç bir şey yoxdur. Allahın elmi sərhədsizdir.

Qüdrət
Gücünün çatmayacağı heç nə yoxdur.

Səmi
Uzaqlıq və ya yaxınlıq Onun üçün problem deyil. Allahın eşitmə gücü nöqsansız və sərhədsizdir. Bir şeyi eşitməsi eyni anda başqa şeyləri eşitməsinə əngəl deyil.

Kəlam
Allah danışır. Ancaq onun danışması yaratdıqları kimi deyil. Danışması üçün hər hansı vasitəyə (dilə, dişə, ağıza) ehtiyacı yoxdur.

Bəsər
Hər hansı bir şeyin uzaqda və ya yaxında olması, gizli və ya açıq olması, kiçik və ya böyük olması Onun üçün fərq etməz. Bizim harada nə edəcəyimizi görür. Görmək üçün bizim kimi gözə ehtiyacı yoxdur.

Təkvin
Kainat və kainatdakı bütün varlıqların yaradıcısı Allahdır. Mikroskopla görülə bilən ən kiçik canlılardan böyük ulduzlara qədər hər şeyi O yaratmışdır.

Əsmayi-hüsna

Peyğəmbərimiz (s.ə.s) bir hədisində Uca Allahın 99 adının olduğunu, bu adlara inanan və inancı istiqamətində davranan kimsənin cənnətə girəcəyini xəbər vermişdir. Ancaq ilahi adlar təkcə 99 addan ibarət deyil. Allahın ayə və hədislərdə keçən başqa adları da vardır. Hədisdə 99 sayının zikr edilməsi bu adların Allahın ən məşhur adları olması səbəbilədir. Bir hədisdə bu 99 ad tək-tək sayılmışdır. Bu adlar belədir:

1	**ALLAH** O Allah ki, ondan başqa ilah yoxdur. Bütün gözəl adları özündə birləşdirən.	اَللّٰهُ
2	**ƏR-RAHMƏN** Dünyada hər quluna qarşı mərhəmətli olan.	أَلرَّحْمَنُ
3	**ƏR-RAHİM** Axirətdə sadəcə mömin qullarına qarşı mərhəmətli olan.	أَلرَّحِيمُ
4	**ƏL-MƏLİK** Hər şeyin (kainatın, mülkün) tək sahibi.	أَلْمَلِكُ
5	**ƏL-QUDDÜS** Bütün nöqsanlıqlardan uzaq olan, bütün kamil sifətlərə sahib olan.	أَلْقُدُّوسُ
6	**ƏS-SƏLAM** Səlamətə çatdıran, əminamanlıq verən.	أَلسَّلَامُ
7	**ƏL-MU`MİN** İman edən qulunu qoruyan, güvən və iman bəxş edən. Ona sığınanları qoruyan.	أَلْمُؤْمِنُ
8	**ƏL-MUHƏYMİN** Qoruyub mühafizə edən, himayə edən.	أَلْمُهَيْمِنُ

أَلْعَزِيزُ	**ƏL-AZİZ** Üstün, qüvvətli olan, məğlub edilməsi mümkün olmayan, hər şeyə qalib olan.	9
أَلْجَبَّارُ	**ƏL-CƏBBAR** İstədiyini zorla etdirməyə gücü çatan, qadir olan. Əskikləri tamamlayan.	10
أَلْمُتَكَبِّرُ	**ƏL-MUTƏKƏBBİR** Hər hadisədə öz böyüklüyünü göstərən, hiss etdirən.	11
أَلْخَالِقُ	**ƏL-XALİQ** Yaradıcı, hər şeyi yerli yerində yaradan.	12
أَلْبَارِئُ	**ƏL-BƏRİ`** Hər şeyi nümunəsiz, bir-birinə bənzəməyən şəkildə yaradan.	13
أَلْمُصَوِّرُ	**ƏL-MUSAVVİR** Hər şeyə şəkil, surət verən.	14
أَلْغَفَّارُ	**ƏL-ĞAFFƏR** Günahları bağışlayan, məğfirət və əfvi çox olan, təkrarlanan günahları da bağışlayan.	15
أَلْقَهَّارُ	**ƏL-QAHHƏR** Hər şeyə hər istədiyini edəcək şəkildə qalib və hakim olan, hər şeyi hakimiyyəti altında, kontrolunda saxlayan. Məğlub olmayan.	16
أَلْوَهَّابُ	**ƏL-VƏHHƏB** Bəxş edən, hər növ neməti istəmədən, qarşılıqsız verən.	17
أَلرَّزَّاقُ	**ƏR-RAZZƏQ** Bütün məxluqatın ruzisini verən.	18

19	**ƏL-FƏTTƏH** Hər qapını açan. Rəhmət və yaxşılıq qapıla-rını açan. Çətinlikləri həll edən, asanlaşdıran.	أَلْفَتَّاحُ
20	**ƏL-ALİM** Hər şeyi haqqıyla bilən, geniş elm sahibi.	أَلْعَلِيمُ
21	**ƏL-QABİD** Darlıq verən, müəyyən səviyyədə saxlayıb verən, ölüm anında ruhları alan.	أَلْقَابِضُ
22	**ƏL-BƏSİT** Genişlik verən, bağış və ehsanı bol olan, səxavətli. Ruhları bədənlərə yerləşdirib yayan.	أَلْبَاسِطُ
23	**ƏL-XAFİD** Ən uca mərtəbədən ən aşağı endirən.	أَلْخَافِضُ
24	**ƏR-RAFİ'** Dərəcələri ucaldan, izzət və şərəf bəxş edən.	أَلرَّافِعُ
25	**ƏL-MU'İZZ** İstədiyini əziz edən.	أَلْمُعِزُّ
26	**ƏL-MUZİLL** İstədiyini zəlil edən.	أَلْمُذِلُّ
27	**ƏS-SƏMİ'** Yer və göydəki hər şeyi eşidən.	أَلسَّمِيعُ

أَلْبَصِيرُ	**ƏL-BƏSİR** Hər şeyi haqqıyla görən.	28
أَلْحَكَمُ	**ƏL-HAKƏM** Hökm sahibi. Hökm edən, haqqı yerinə gətirən.	29
أَلْعَدْلُ	**ƏL-'ADL** Mütləq ədalət sahibi, haqqıyla ədalət edən, ədalətin özü.	30
أَللَّطِيفُ	**ƏL-LƏTİF** Lütuf sahibi, varlıqların ehtiyaclarını ən incə nöqtəsinə qədər bilib, təmin edən, lütf edən.	31
أَلْخَبِيرُ	**ƏL-XABİR** Hər şeydən, hər şeyin iç üzündən, gizli tərəflərindən xəbərdar olan.	32
أَلْحَلِيمُ	**ƏL-HƏLİM** Yumuşaq olan, mülayim, möhlət verən, cəza verməkdə tələsməyən.	33
أَلْعَظِيمُ	**ƏL-'AZİM** Əzəmətli, zatının və sifətlərinin mahiyəti dərk edilməyəcək qədər böyük olan.	34
أَلْغَفُورُ	**ƏL-ĞAFUR** Bağışlayan, qullarının günahlarını əvf edərək örtən.	35
أَلشَّكُورُ	**ƏŞ-ŞƏKUR** Rizası üçün edilən əməllərin qarşılığını ar-tıqla-masıyla, bol verən.	36

37	**ƏL-’ALİYY** Çox uca olan, bəşər övladının xəyal edə bildiyi hər şeyin üstündə olan.	أَلْعَلِيُّ
38	**ƏL-KƏBİR** Ən böyük olan.	أَلْكَبِيرُ
39	**ƏL-HAFİZ** Qoruyan, mühafizə edən.	أَلْحَفِيظُ
40	**ƏL-MUQİT** Yaşamaq üçün qidaları yaradan. Hər yaradılanın qidasnı, rizqini verən.	أَلْمُقِيتُ
41	**ƏL-HASİB** Hesaba çəkən. Hesabın ən yaxşısını bilən.	أَلْحَسِيبُ
42	**ƏL-CƏLİL** Cəlal və əzəmət sahibi. Zatında və sifətində Ona bənzər heç bir şey olmayan.	أَلْجَلِيلُ
43	**ƏL-KƏRİM** Comərd, kərəm sahibi. Kərəmi, comərdliyi, lütfu bol olan.	أَلْكَرِيمُ
44	**ƏR-RAQİB** Nəzarət edən, bütün işləri kontrol edən.	أَلرَّقِيبُ
45	**ƏL-MUCİB** Dualara cavab verən (qəbul edən).	أَلْمُجِيبُ

أَلْوَاسِعُ	**ƏL-VASİ'U** Ehsanı, elmi, qudrəti və rəhməti ilə hər şeyi əhatə edən.	46
أَلْحَكِيمُ	**ƏL-HAKİM** Hər şeyin həqiqətini bilən. Böyük hikmət sahibi.	47
أَلْوَدُودُ	**ƏL-VƏDUD** Çox sevən. Onun məhəbbəti ilə yanan qullarını (möminləri) sevən.	48
أَلْمَجِيدُ	**ƏL-MƏCİD** Şanı böyük və yüksək olan.	49
أَلْبَاعِثُ	**ƏL-BƏ'İS** Ölüləri dirildən. Oyandıran.	50
أَلشَّهِيدُ	**ƏŞ-ŞƏHİD** Hər şeyə şahid olan. Hər şeyi muşahidə altında saxlayan.	51
أَلْحَقُّ	**ƏL-HAQQ** Sözündə sadiq olan.	52
أَلْوَكِيلُ	**ƏL-VƏKİL** İşlərini Ona həvalə edənlərin işini ən yaxşı şəkildə edən, qullarının hər şeyinə kafi olan.	53
أَلْقَوِيُّ	**ƏL-QAVİYY** Yeganə güc və qüvvət sahibi, hər şeyə gücü çatan. Çox qüvvətli.	54

55	**ƏL-MƏTİN** Son dərəcə güclü olan. Mütləq iradə sahibi.	أَلْمَتِينُ
56	**ƏL-VƏLİYY** Dostlarına yardım edən. İtaət edənlərin (möminlərin) dostu.	أَلْوَلِيُّ
57	**ƏL-HAMİD** Həmdə, şükrə, tərifə tək layiq olan.	أَلْحَمِيدُ
58	**ƏL-MUHSİ** Hər ediləni sayıb hesablayan. Hər şeyin sayını tək-tək bilən.	أَلْمُحْصِى
59	**ƏL-MUBDİ`** Kainatı yoxdan (örnəksiz olaraq ilk başdan) var edən, yaradan.	أَلْمُبْدِئُ
60	**ƏL-MU'İD** Öldükdən sonra dirildən.	أَلْمُعِيدُ
61	**ƏL-MUHYİ** Həyat verən, ölüləri dirildən.	أَلْمُحْيِى
62	**ƏL-MUMİT** Əcəli çatanları öldürən. Ölüm verən.	أَلْمُمِيتُ
63	**ƏL-HAYY** Ölməyən, diri olan. Son-suz həyata sahib olan.	أَلْحَىُّ

أَلْقَيُّومُ	**ƏL-QAYYUM** Bütün əşya, ancaq Onun varlığı ilə mövcud olan. Kainatı idarə edən.	64
أَلْوَاجِدُ	**ƏL-VƏCİD** Ən zəngin olan. İstədiyini istədiyi vaxt tapan.	65
أَلْمَاجِدُ	**ƏL-MƏCİD** İnam və ehsanı, nemətləri sonsuz olan.	66
أَلْوَاحِدُ	**ƏL-VAHİD** Zatında ortağı olmayan, tək. Bənzərsiz olan yeganə varlıq.	67
أَلصَّمَدُ	**ƏS-SAMƏD** Hər şey Ona möhtac olan. Özü möhtac olmayan.	68
أَلْقَادِرُ	**ƏL-QADİR** Qudrət sahibi olan, hər şeyə qüdrəti çatan.	69
أَلْمُقْتَدِرُ	**ƏL-MUQTƏDİR** Hər şeyə güçü çatan.	70
أَلْمُقَدِّمُ	**ƏL-MUQADDİM** Dilədiyini önə alan, irəli keçirən.	71
أَلْمُؤَخِّرُ	**ƏL-MUƏXXİR** İstədiyini gecikdirib, arxada qoyan.	72

73	**ƏL-ƏVVƏL** Varlığının başlanğıcı olmayan.	أَلْأَوَّلُ
74	**ƏL-AXİR** Varlığının sonu olmayan.	أَلْآخِرُ
75	**ƏZ-ZAHİR** Varlığı, qudrətilə aşkar olan. Hər şeydə görünən zahir, aşkar olan.	أَلظَّاهِرُ
76	**ƏL-BATİN** Mahiyyəti gizli olan. Hər şeydən gizli.	أَلْبَاطِنُ
77	**ƏL-VƏLİ** Kainatın tək idarəçisi.	أَلْوَالِي
78	**ƏL-MUTƏALİ** İzzət və şərəf baxımından ən uca olan. Hər şeydən uca, tam mükəmməl olan.	أَلْمُتَعَالِي
79	**ƏL-BƏRR** Bütün yaxşılıq və gözəlliyin sahibi. Qulları üçün daim asanlıq və rahatlıq istəyən.	أَلْبَرُّ
80	**ƏT-TƏVVƏB** Tövbələri qəbul edən.	أَلتَّوَّابُ
81	**ƏL-MUNTƏQİM** Günahkarları lazım olduğu kimi cəzalandıran.	أَلْمُنْتَقِمُ

أَلْعَفُوُّ	**ƏL-AFUVV** Əfv edən, əfvi çox olan.	82
ألرَّؤُفُ	**ƏR-RAUF** Çox şəfqətli, lütufkar, əsirgəyici olan.	83
مَالِكُ الْمُلْكُ	**MƏLİKUL-MÜLK** Kainatın, bütün mülkün tək sahibi.	84
ذُوالْجَلَالِ و الْإِكْرَامُ	**ZÜL-CƏLƏLİ VƏL-İKRAM** Böyüklük və əzəmət, kərəm və ikram sahibi.	85
أَلْمُقْسِطُ	**ƏL-MUQSİT** Ədalətlə höküm edən. Bütün işləri bir-birinə uyğun və yerli yerində edən.	86
أَلْجَامِعُ	**ƏL-CƏMİ'U** Toplayıb düzənləyən. Gözəllikləri zatında, qullarını da axirətdə toplayan.	87
أَلْغَنِيُّ	**ƏL-ĞANİYY** Çox zəngin olan, hər şeydən müstağni, hər kəsin möhtac olduğu.	88
أَلْمُغْنِي	**ƏL-MUĞNİ** İstədiyini zəngin edən.	89
أَلْمَانِعُ	**ƏL-MƏNİ`U** Pisliklərə mane olan. Bir şeyin meydana gəlməsinə icazə verməyən.	90

91	**ƏD-DARR** (İstədiyinə) zərər və əzziyyət verən şeyləri yaradan.	أَلضَّارُّ
92	**ƏN-NAFİ'U** (İstədiyinə) fayda və xeyir verən şeyləri yaradan.	أَلنَّافِعُ
93	**ƏN-NUR** Nurlandıran.	أَلنُّورُ
94	**ƏL-HƏDİ** Hidayətə çatdıran, doğrunu göstərən.	أَلْهَادِى
95	**ƏL-BƏDİ** Nümunəsiz və bənzərsiz yaradan.	أَلْبَدِيعُ
96	**ƏL-BƏQİ** Əbədi olan, varlığının sonu olmayan.	أَلْبَاقِى
97	**ƏL-VƏRİS** Hər şey yox olduqdan sonra tək diri qalacaq olan, mövcud olan, hər şeyə sahib olan.	أَلْوَارِثُ
98	**ƏR-RAŞİD** Doğru yola yönəldən, irşad edən.	أَلرَّشِيدُ
99	**ƏS-SABUR** Çox səbirli olan.	أَلصَّبُورُ

Dua edək!

YA ALLAH! Ey bütün gözəl ad və sifətləri özündə toplayan Allahım! Sənə ən böyük adınla dua edirik, dualarımızı qəbul et!

YA RƏHMAN, YA RƏHİM! Ey bütün varlıqlara şəfqət və mərhəmətlə yanaşan Allahım! Bizə həm dünyada, həm də axirətdə mərhəmət eylə!

YA RƏZZAQ! Ey bütün varlıqların ruzisini verən Allahım! Bizə bol və halal ruzi ver!

YA HAFİZ! Ey hər şeyi qoruyan, hifz edən Allahım! Məni, ailəmi və bütün müsəlmanları hər cür bəla və pisliklərdən qoru!

YA MUSAVVİR! Ey hər bir varlığı ən gözəl şəkildə yaradan Allahım! Zahirimizi gözəlləşdirdiyin kimi daxilimizi də gözəlləşdir!

YA MUCİB! Ey qəlblərdən keçən, ağızlardan çıxan hər bir duanı eşidib qəbul edən Allahım! Bizi Sənə ürəkdən dua edən və duası qəbul olan bəndələrindən eylə!



YA HADİ! Ey doğru yolu göstərən və doğruya çatdıracaq olan Allahım! Bizi ən doğru yol olan İslamdan, doğruluqdan və doğrulardan ayırma!

YA HƏYYU, YA QƏYYUM! Ey hər an diri və həyatın qaynağı olan, bütün kainatı idarə edən Allahım! Bizi Səndən gələn həyatı Sənin yolunda sərf edənlərdən eylə. Qəlbimizi fanilərə bağlama!

YA VƏDUD! Sevginin qaynağı Sənsən, sevilməyə layiq olan Sənsən, Allahım! Sevdiklərini bizə də sevdir! Bizi də sevdiklərinə sevdir!

"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Ona bu adlar vasitəsilə dua edin..."

(Əraf surəsi, 180)

"Allah-Təalanın 99 ismi vardır, kim onları sayarsa (əzbərləyərsə, duada oxuyarsa), cənnətə girər."

(Buxari, Dəavat, 68)

Peyğəmbərlərə ehtiyac vardır

Allahın əmrlərini və qadağalarını insanlara çatdırmaqla vəzifələndirdiyi elçilərə **peyğəmbər** deyilir. Peyğəmbərlərə iman imanın altı əsasından biridir. Peyğəmbərlərə iman etmək, onların Allah-Təala tərəfindən seçilmiş elçilər olduqlarını və gətirdikləri bütün məlumatların doğru olduğunu qəbul etməkdir. Peyğəmbərləri inkar etmək dini inkar etmək sayılır. Çünki dini gətirən, ilahi kitabları öyrədən və Allahdan aldığı xəbərləri bizə çatdıranlar peyğəmbərlərdir.

Uca Rəbbimiz ilk insan olan Həzrət Adəmi eyni zamanda peyğəmbər olaraq vəzifələndirmişdir. Həzrət Adəm Uca Allahın buyruqlarını insanlara çatdırmışdır. Zaman keçdikcə insanlar Allahı və axirəti unudaraq batil yollara düşmüşlər. Rəbbimiz onları xəbərdar etmək üçün yeni peyğəmbərlər göndərmişdir. İlk peyğəmbər Həzrət Adəm əleyhissalamdan son peyğəmbər Həzrət Muhammədə (s.ə.s) qədər bir çox peyğəmbər gəlmişdir. Bir hədisi-şərifdə 124 min peyğəmbər göndərildiyi bildirilmişdir.

"Biz peyğəmbərləri (mömininlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın."

(Nisa surəsi, 165)

"Biz peyğəmbərləri ancaq müjdə verən və (əzabla) qorxudanlar olaraq göndərdik. İman gətirib yaxşı işlər görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!"

(Ənam surəsi, 48)



Peyğəmbərlərin Xüsusiyyətləri

Peyğəmbərlər bütün insani keyfiyyətlərdə ən üstün mövqedədirlər. Ancaq bəzi xüsusiyyətlər var ki, bunlar təkcə peyğəmbərlərə məxsus keyfiyyətləridir.

"And olsun ki, peyğəmbərlər Allaha və axirət gününə ümid bəsləyənlər üçün gözəl örnəkdir."

(Mumtəhənə surəsi, 6)

Sidq

Peyğəmbərlərin söz və davranışlarında doğru və dürüst olmalarıdır.

Peyğəmbərlər həyatları boyunca heç vaxt yalan danışmayan insanlardır. Allahın buyurduqlarını insanlara çatdıran peyğəmbərlərin yalan danışması əsla düşünülə bilməz. Çünki insanlar yalan danışan, sözü ilə işi bir-birinə uyğun gəlməyən birinə güvənməz, ondan nümunə götürməzlər.

Əmanət

Peyğəmbərlərin güvənilən insan olmalarıdır.

Peyğəmbərlər "əmin", yəni güvənilən insanlardır. Bu gözəl xüsusiyyətlərinə görə insanlar həm dünya ilə əlaqəli işlərdə, həm də dinlə bağlı mövzularda onlara inanarlar.

Fətanət

Peyğəmbərlərin ağıllı və yüksək qavrama gücünə sahib olmalarıdır.

Peyğəmbərlər güclü zəkaları sayəsində özlərinə göndərilən vəhyi tez və asan qavrayarlar. Qarşılarındakı insanların suallarına qaneedici cavablar verərlər.

İsmət

Peyğəmbərlərin günah işləməməsidir.

Peyğəmbərlər həyatlarının heç bir mərhələsində günah işləməzlər. Onlar barədə Allaha şərik qoşmaq, oğurluq, içki, zina kimi günahlar düşünmək mümkün deyil. Allah öz peyğəmbərlərini belə çirkin işlərdən mühafizə etmişdir.

Təbliğ

Peyğəmbərlərin Allahdan aldıqları əmrləri və qadağaları ümmətlərinə nöqsansız çatdırmalarıdır.

Hər bir peyğəmbər aldığı bütün əmrləri qüsursuz olaraq insanlara çatdırmışdır. Peyğəmbərlər çətinliklərə və əziyyətlərə məruz qalsalar da, vəzifələrini ifa etməkdən çəkinməzlər.

Quranda adı çəkilən peyğəmbərlər

Peyğəmbərlərin sayı mövzusunda Quranda hər hansı bir rəqəm verilməmişdir. Quranda adı çəkilən 25 peyğəmbər bunlardır:

1. Adəm (ə.s),
2. İdris (ə.s),
3. Nuh (ə.s),
4. Hud (ə.s),
5. Saleh (ə.s),
6. Lut (ə.s),
7. İbrahim (ə.s),
8. İsmayıl (ə.s),
9. İshaq (ə.s),
10. Yaqub (ə.s),
11. Yusuf (ə.s),
12. Şüeyb (ə.s),
13. Harun (ə.s),
14. Musa (ə.s),
15. Davud (ə.s),
16. Süleyman (ə.s),
17. Əyyub (ə.s),
18. Zulkifl (ə.s),
19. Yunus (ə.s),
20. İlyas (ə.s),
21. Əlyəsa (ə.s),
22. Zəkəriyyə (ə.s),
23. Yəhya (ə.s),
24. İsa (ə.s),
25. Muhammməd (s.ə.s)

Bunlardan başqa Quranda üç ad daha zikr edilmişdir. Lakin onların peyğəmbər olub-olmadıqları mövzusu ixtilaflıdır. Bunlar: **Üzeyir**, **Loğman** və **Zülqərneyndir**.

> "(Peyğəmbərlərin) hekayələrində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır."
>
> **(Yusuf surəsi, 111)**

Peyğəmbərlər nümunəvi şəxsiyyətlərdir

Allah-Təala peyğəmbərlərin həyatlarını, onların gözəl əxlaqlarını bütün insanlara nümunə göstərmişdir.

Quranda bəhs olunan peyğəmbər hekayələri eyni zamanda Həzrət Muhammədin (s.ə.s) peyğəmbərliyinin dəlillərindəndir. Çünki O, ümmi (oxuyub-yaza bilməyən) bir peyğəmbər idi. Oxuyub-yaza bilməyən bir insanın keçmişdə yaşayan peyğəmbərlərin həyatlarını əslinə uyğun bir şəkildə izah edə bilməsi mümkün deyildi. Bu məlumatları ya bir qaynaqdan öyrənmiş, ya da onların özünə öyrədilmiş olması lazım idi. Məhz bu elm mənbəyi uca Allah və Onun göndərdiyi vəhylərdir. Bu gerçək Quranda belə ifadə edilir:

"Biz səndən əvvəl də peyğəmbərlər göndərmişdik. Onlardan kimisi haqqında sənə xəbər vermiş, kimisi haqqında xəbər verməmişik..." (Mömin surəsi, 78)

"Biz səni bütün insanlara müjdə verən, qorxudan bir peyğəmbər olaraq göndərdik..." (Səbə surəsi, 28)



Peyğəmbərimizin möcüzələri

Peyğəmbərimiz Həzrət Muhammədə (s.ə.s) peyğəmbərliyini isbat etmək üçün Allah-Təala tərəfindən bir çox möcüzə verilmişdir. Bunlardan bəziləri aşağıdakılardır:

Bir gün ikindi namazının vaxtı gəlib çatmışdı, lakin Peyğəmbərimiz dəstəmaz almaq üçün su tapa bilməmişdi. O zaman Peyğəmbərimizə içində azca su olan bir qab gətirdilər. Peyğəmbərimiz əlini qabın içərisinə saldı və barmaqlarından su fışqırmağa başladı. Orada olan 300-ə yaxın müsəlman bu sudan dəstəmaz aldı.



Peyğəmbərimiz (s.ə.s) Mədinədəki məsciddə bir xurma kötüyünün üzərinə çıxaraq camaata səslənirdi. Müsəlmanlar çoxaldıqdan sonra Peyğəmbərimiz daha hündür bir yerdən danışmaq üçün üç pilləkənli bir minbər düzəltdirdi. Bir cümə günü xütbəni bu minbərdən oxumağa başladıqda, məscidin o biri tərəfində olan xurma kötüyünün, Peyğəmbərimizdən ayrı qaldığı üçün inləməyə başladığı eşidildi. Bunu görən Peyğəmbərimiz minbərdən enərək kötüyün yanına getdi, qucaqlayıb sığalladı və bundan sonra kötüyün səsi kəsildi.

Peyğəmbərimiz hicrətdən il yarım əvvəl bir gecə Buraq adı verilən bir minik vasitəsi ilə Məkkədəki Məscidi-Həramdan Qüdsdəki Məscidi-Əqsaya gətirilmiş, oradan da Cəbrayılla birlikdə göylərə yüksəlmişdir. Allahın dəvəti ilə Peyğəmbərimizin etdiyi bu səyahət kainatda bənzəri görünməmiş bir hadisədir və çox qısa bir zamanda baş vermişdir. Allahın sonsuz qüdrətinin əsəri olan bu hadisə Peyğəmbərimizin "isra və merac" möcüzəsidir.



Peyğəmbərimizin ən böyük və daimi möcüzəsi Qurani-Kərimdir. Ruhları oxşayan, könüllərə rahatlıq verən oxunuşu, saysız hikmətlərlə dolu olan yüksək mənası, insanlığın xoşbəxtliyi üçün gətirdiyi ölməz prinsiplər və bütün çağlara işıq tutan elmi faktlarıyla Qurani-Kərim tayı-bərabəri olmayan bir möcüzədir.

Peyğəmbərlərə imanın bizə faydaları

Peyğəmbərlər bizə:

- ☑ Allah-Təalanı tanıdırlar.
- ☑ Allah-Təalaya necə ibadət edəcəyimizi öyrədirlər.
- ☑ Əbədi yurdumuz axirət haqqında məlumat verirlər.
- ☑ Mədəniyyətlərin qurulmasında liderlik etmişlər.
- ☑ Davranışlarıyla və gözəl əxlaqlarıyla ən gözəl nümunə olmuşlar.

Oxu, düşün!
(OXU MƏTNİ)

Bir insan olaraq bu dünyaya nə üçün gəldiyimizi bilmək, özümüzü və digər varlıqları yaradan Rəbbimizi tanımaq istəyirik. Ona yalvarmaq, dua və ibadət etmək ehtiyacı hiss edirik. Halbuki Rəbbimizə necə ibadət edəcəyimizi öz-özümüzə təyin edə bilmərik. Bunun üçün uca Rəbbimiz peyğəmbərlərini vəzifələndirmişdir. Peyğəmbərlər Allaha qulluq etmək yollarını göstərən canlı nümunələrdir. Bizə Allah-Təalaya necə ibadət edəcəyimizi onlar öyrədirlər.

Ölümdən sonrakı həyat haqqında yeganə bilik qaynağımız müqəddəs kitablar və peyğəmbərlərdir. Allah- Təala bizə axirət həyatı haqqındakı məlumatları peyğəmbərləri vasitəsilə bildirmişdir. Peyğəmbərlər iman gətirib yaxşı əməl işləyənlərə veriləcək mükafatları müjdə vermişlər. Allaha və axirətə inanmayanların qarşılaşacağı əzabı xatırladaraq xəbərdarlıq etmişlər. Peyğəmbərlər həm dünyada insanlara rəhbərlik edir, həm də əbədi yurdumuz axirət haqqında məlumat verirlər.

> "Rəbbiniz arada heç bir tərcüməçi olmadan hər birinizlə danışacaqdır. İnsan sağına baxar, əvvəlcədən göndərdiyi yaxşı işləri görər. Soluna baxar, vaxtilə işlədiyi pis əməlləri görər. Qarşısına baxar, yalnız cəhənnəmi görər. Yarım xurma ilə də olsa, cəhənnəmdən qorunun."
>
> **(Buxari, Zəkat, 9)**

Peyğəmbərlər də insandır. Onlar sənət, əkinçilik, ticarət və müxtəlif peşələrlə maraqlanmışlar. Beləcə, mədəniyyət və sivilizasiyaların inkişafında böyük rola sahib olmuşlar. İnsanların əmin-amanlıq içində yaşaya biləcəyi mədə niyyətlərin qurulmasına liderlik etmişlər. Ümmətlərini həm bu dünyada, həm də axirətdə xoşbəxt etməyə çalışmışlar. Nuh əleyhissalamın gəmi düzəltməsi, Davud əleyhissalamın dəmiri əridərək ondan istifadə etməyi öyrətməsi Qurani-Kərimin bizə bildirdiyi nümunələrdəndir.

> "Mənim necə namaz qıldığımı görürsünüzsə siz də namazı elə qılın!"
>
> **(Buxari, Əhəd, 1)**

Əxlaqımızın və davranışlarımızın formalaşmasında ailəmizin və ətrafımızdakıların böyük təsiri var. Uşaqlığımızdan etibarən anamızı və atamızı, müəllimlərimizi, böyüklərimizi və sevdiyimiz insanları nümunə götürürük. Onların davranışlarından təsirlənir, onlar kimi hərəkət edirik. Uca Rəbbimiz yaxşı insan modeli olaraq bizə peyğəmbərlərini göndərmişdir. Peyğəmbərlər haqqı, ədaləti, dürüstlüyü, çalışqanlığı, gülərüzlülüyü, əfvi, şəfqəti və mərhəməti öyrədirlər. Davranışlarıyla və gözəl əxlaqlarıyla bizə ən gözəl nümunə olurlar.

Axirət gününə iman gətirmək

Axirət həyatı hər bir kəsin qiyamət günündən sonra yenidən diriləcəyi və ədalətlə hesaba çəkiləcəyi günlə başlayır. Bu heç vaxt bitməyən əbədi bir həyatdır. Axirət yaxşılarla pislərin, xeyir əməl işləyənlərlə şər əməl işləyənlərin birbirindən ayrılacağı yerdir.

Axirətə inanan insan yaxşı olsun, yaxud da pis olsun, etdiyi hər əməlin qarşılığını alacağına əmindir. Buna görə də dünya həyatı ona bir tarla kimi gələr. Burada nə "əkərsə", axirətdə də onu "biçər". Allahın cənnətdə onun üçün hazırladığı nemətləri düşünərək, Onun buyruqlarını yerinə yetirməyə çalışar.

> "Allah hansınızın daha gözəl əməl edəcəyinizi sınamaq üçün ölümü və həyatı yaratmışdır..."
>
> **(Yusuf surəsi, 111)**

Allah-Təala buyurur: "**Allahdan qorxub pis əməllərdən çəkinənlər isə cənnətlərdə və bulaqlar başında olacaqlar. Ora sağ-salamat və** (hər şeydən) **əmin olaraq daxil olun! Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər. Onlara orada** (Cənnətdə) **heç bir yorğunluq** (zəhmət) **üz verməz. Onlar oradan çıxan da deyillər.** (Cənnətdə əbədi qalacaqlar)**.**" (Hicr surəsi, 45-48)



Dünya həyatı müvəqqətidir

Hal-hazırda hər birimiz doğulduğumuz gündən etibarən başlayan bir həyat səfərinə davam edirik. Bu səfər kimimiz üçün uzun, kimimiz üçün qısa sürəcəkdir.

Dünya həyatı yol gedən bir insanın müvəqqəti istirahət etdiyi yerə bənzəyir. Sevimli Peyğəmbərimiz bu gerçəyi ifadə etmək üçün çox sevdiyi gənclərdən Abdullah bin Ömərin çiyninə toxunaraq: "*Dünyada qərib bir yolçu kimi ol!*" buyurmuşdur. Peyğəmbərimizi diqqətlə dinləyən Abdullah bin Ömər də bizə qulağımıza sırğa olacaq bu gözəl öyüdü vermişdir: "*...Sağlam anlarında xəstəlik üçün, həyatın boyunca da ölümün üçün tədbir gör*". (Buxari, Riqaq, 3)

Uca Rəbbimiz bizə dünyada saysız-hesabsız gözəlliklər və nemətlər vermişdir. Yer üzündə bizə lazım olacaq hər şeyi əvvəlcədən hazırlamışdır. Halal və təmiz nemətlərdən faydalanmağımızı, bu nemətləri verənə şükür etməyimizi istəmişdir.

Dünya nemətləri bizə müvəqqəti istifadə üçün verilmiş əmanətlərdir. Allah-Təala bizim zənginlik, sağlamlıq, elm və s. nemətləri harada və necə istifadə edəcəyimizi sınayır. Nemətləri verəni unutmayaraq, onlardan məqsədinə uyğun şəkildə istifadə etsək, şükür etmiş olarıq. Nemətləri verəni unutmaq, onları Allahın istəmədiyi yerlərdə, insanlara və digər varlıqlara zərər verəcək şəkildə istifadə etmək isə nankorluqdur.

> "***Həqiqətən, dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib bir-birinə qatışar. Nəhayət, yer üzü bəzəklənib süslənəndiyi və sakinləri də*** *(onun məhsulunu, meyvəsini)* ***yığmağa qadir olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi,*** *(yolunub)* ***biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!***"
>
> (Yunus surəsi, 24)

Dünya həyatı bir imtahandır

Dünya bizim üçün imtahan yeri, dünya həyatı da imtahandır. İmtahanlarda bildiklərimiz qədər zamandan düzgün istifadə etmək də əhəmiyyətlidir. Dünyada zamandan düzgün istifadə etmək daha da əhəmiyyətlidir. Burada özlərinə verilən məhdud nəfəsi, günləri və illəri necə gəldi xərcləyən, ömrünün qədrini bilməyən insanlar peşman olacaqlar. Bu həqiqəti Uca Rəbbimiz belə xəbər verir:

"Nəhayət, (müşriklərdən) **birinin ölümü gəlib çatdığı zaman o, belə deyər: "Ey Rəbbim! Məni geri** (dünyaya) **qaytar! Bəlkə,** (indiyə qədər) **zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm!..."** (Muminun surəsi, 99-100)

Lakin dünyada verilən müddətdən düzgün istifadə etməyən insanların öldükdən sonrakı peşmanlıqları heç bir fayda verməyəcək. Uca Allah onlara dünya həyatındakı fürsətləri və verilmiş zamanı xatırladaraq belə buyuracaq:

"Məgər orada sizə, öyüd-nəsihət alacaq kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi qədər ömür vermədikmi?! Hələ sizə xəbərdarlıq edən peyğəmbər də gəlmişdi..." (Fatir surəsi, 37)

Dünya cənnəti qazanmaq üçün bir fürsət yeridir. Burada etdiyimiz heç bir iş qarşılıqsız qalmayacaq. Dünyada etdiyimiz bütün xeyirlərin əvəzini axirətdə alacağıq. Uca Rəbbimiz yaxşılıqlarımızı qat-qat mükafatlandıracaq və pis işlərimizin də cəzasını verəcəkdir.

Südçünün qızı
(OXU MƏTNİ)

Xəlifə Həzrət Ömər südə su qatılmasını qadağan etmişdi. Bir gecə o, asayişə nəzarət etmək üçün gəzintiyə çıxmışdı. Mədinə küçələrində gəzərkən yoruldu. Dincini almaq üçün bir evin divarına söykəndi. Bu zaman evin içində ana ilə qız arasında gedən söhbəti eşitdi.

Anası:

- Qızım, dur südlərə bir az su qat (miqdarı çoxalsın)!

Qız:

- Ay ana, xəlifə südə su qatmağı qadağan etmədimi?

- Qızım, gecənin bu saatında bizim südə su qatdığımızı xəlifə hardan görəcək?

- Anacan! Düzdür, xəlifə görmür. Allah ki görür!

Həzrət Ömər bir az dincini aldıqdan sonra səssizcə oradan ayrıldı. Səhər açılan kimi elçi göndərərək həmən qızı öz oğluna istədi. Bu evlilikdən dünyaya gələn qızlardan birinin Əbdüləziz adında bir oğlu oldu. Məhz bu uşaq İslam tarixində **"ikinci Ömər"** kimi tanınan Ömər bin Əbdüləzizdir. Babası Həzrət Ömər kimi ədaləti ilə tanınan Ömər bin Əbdüləzizin xəlifəliyi zamanında insanlar firavan yaşamışlar.

"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz."

(Ənam surəsi, 160)



Qiyamət

Dünyada yaşayan hər canlının bir ömrü -sonu olduğu kimi, üzərində yaşadığımız dünyanın da bir sonu vardır. Dünyanın sonu gəldikdə qiyamət qopacaqdır. Dörd böyük mələkdən biri olan Həzrət İsrafilin "sur" adı verilən bir alətə üfürməsiylə qiyamət qopacaq. Bu, "sur"un ilk çalınmasıdır. Qiyamət qopduqda yer üzündə nə qədər canlı varsa öləcək, yerin və göylərin nizamı pozulacaq. Günəş sönəcək, ulduzlar qarışacaq, dənizlər qaynayacaq, dağlar bir-birinə dəyəcək.

> "Göy parçalanacağı zaman; ulduzlar dağılıb səpələnəcəyi zaman; dənizlər (qaynayıb birbirinə) qarışacağı zaman; qəbirlər çevriləcəyi (qəbirlərin altı üstünə çevrilib ölülər oradan çıxacağı) zaman; hər kəs (dünyada) nə etdiyini və (özündən sonra) nə qoyub getdiyini (dünyada nəyi edib, nəyi etmədiyini, bütün yaxşı və pis əməllərini, günahını, savabını) biləcəkdir!"
>
> **(İnfitar surəsi, 1-5)**

Qiyamətin nə vaxt qopacağını Allah-Təaladan başqa heç kimin bilməsi mümkün deyil. Bunu Qurani-Kərim və Sevimli Peyğəmbərimiz açıq şəkildə ifadə etmişdir. Peyğəmbərimiz yalnız qiyamətin yaxınlaşdığını göstərən bəzi əlamətlərdən bəhs etmişdir. Əslində qiyamətin nə vaxt qopacağını bilmək bizim üçün heç də vacib deyil. Bizim borcumuz axirət həyatımız üçün gərəkli hazırlığı görməkdir.



Yenidən diriliş

"Ölümdən sonrakı diriliş" axirətə imanın əsasını təşkil edir. Qiyamət qopduqdan bir müddət sonra Uca Rəbbimizin istədiyi bir zamanda İsrafil sura ikinci dəfə üfürəcək. Bundan sonra da dünyanın yaradılmasından qiyamətin qopmasına qədər yaşamış və ölmüş bütün canlılar dirildiləcəkdir.

"Öldükdən sonra necə olacağıq? Təkrar diriliş mümkündürmü?" kimi suallar insanların zehnini həmişə məşğul etmişdir. Halbuki payızda yarpaqlarını tökərək yaşıllığını itirən ağaclar baharda yenidən canlanmaqdadır. Ölü olaraq torpağa atılan toxumlar cücərib böyüməyə başlamaqdadır. Torpağa düşən cansız toxumlar canlıya və böyük ağaclara çevrilməkdədir. Bədənimizdə hər gün minlərlə hüceyrə ölməkdə, yerinə yeniləri gəlməkdədir. Əgər özümüzü və kainatı diqqətlə araşdırsaq və üzərində yaxşıca düşünsək öldükdən sonra dirilməyin mümkün olduğunu göstərən bir çox nümunə görərik.

Öldürən və dirildən uca Rəbbimiz kainatdakı bu gerçəkləri Quran ayələrində gözəl nümunələrlə izah edir:

"Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa (ilk yaradılışınızı yada salın)**. Həqiqətən, Biz sizi** (babanız Adəmi) **torpaqdan, sonra mənidən** (nütfədən)**, sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş və düşməmiş bir parça ətdən yaratdıq ki,** (qüdrətimizi) **sizə göstərək... Bu** (insan yaradılışının müxtəlif mərhələləri, ölü torpağın cana gətirilməsi) **ona görədir ki, Allah haqdır, ölüləri dirildir və O, hər şeyə qadirdir! Bu** (həm də belə bir danılmaz həqiqətə inanmağınız üçündür ki) **o saat** (qiyamət günü) **mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir!"** (Həcc surəsi, 5-7)

> "Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" - deyə, hələ Bizə bir məsəl də çəkdi. (Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!"
>
> **(Yasin surəsi, 78-79)**



Həzrət Əlidən bir məktub
(OXU MƏTNİ)

Sizlər məni Həzrət Əli olaraq tanıyır və sevirsiniz. Mən sevimli Peyğəmbərimizin əmisinin oğluyam. Ona iman edən ilk dörd şəxsdən biri olaraq tanındım.

İstəyirsinizsə sizə necə müsəlman olduğumu deyim. Həzrət Muhammməd əmim Həzrət Abdullahın oğludur. Atam Əbu Talibin maddi imkanı yaxşı olmadığı vaxtlarda Həzrət Muhammməd bir gün Abbas əmimlə bərabər atamın yanına gəlib Ona əl tutmaq istəmişlər. O, atama deyib:

-Əmi, əgər istəyirsənsə, oğlun Cəfər qardaşın Abbasın yanında böyüsün. Əli də mənim yanımda böyüsün.

Atam yaxşı ki, bu təklifi qəbul etdi. Beləcə, mən Peyğəmbərimizin yanında böyümə fürsəti tapdım. Demək olar ki, bütün uşaqlığım Onun yanında keçdi.

Bir gün gördüm ki, Allah Rəsulu və həyat yoldaşı Həzrət Xədicə daha əvvəl heç görmədiyim bir şəkildə bəzi hərəkətlər edərək ibadət edirlər. Etdikləri şey o dərəcədə xoşuma gəldi ki, heyran-heyran onlara tamaşa edirdim. Etdikləri ibadəti bitirincə mənə tərəf döndülər. Mən təəccüblə soruşdum:

-Bu etdiyiniz şey nədir belə?

Peyğəmbərimiz namaz qıldıqlarını dedi. Ardından mənə İslam dinini başa salaraq –"Gəl, sən də müsəlman ol!"- dedi. Məni təkcə bir olan Allaha inanıb insana heç bir faydası olmayan, ağacdan və daşdan düzəldilmiş cansız bütlərdən aralı durmağa çağırdı. Mən çox təəccüb etdim! O andaca təklifi qəbul etməyib:

-Əvvəlcə atamdan soruşmalıyam, -deyə cavab verdim. O vaxtlar Peyğəmbərimizə peyğəmbərlik vəzifəsi yeni verilmişdi. İslam dinini təkcə güvəndiyi şəxslərə başa salırmış. Hər kəsin eşitməməsi üçün yeni dinə dəvəti gizli saxlayırmış. Mənə:

-Əgər mənim sənə olan bu təklifimi qəbul etməzsən, özün bilərsən! Fəqət bu, aramızda bir sirr olaraq qalmalıdır! Diqqətli ol, Əli! Bu dediklərimi heç kimə bildirməyəcəksən, yaxşımı? deyərək xəbərdarlıq etdi. Mən də onlara söz verərək yanlarından ayrıldım. Evə gedərkən əmim oğlu Həzrət Muhammədin təklifini düşünməyə başladım. Birdən ağlıma bir fikir gəldi:

-Məni kim yaratdı?

-Əlbəttə ki, Allah!

-Bəs yaxşı, Allah məni yaradarkən atam Əbu Talibdən icazə aldı?

-Əlbəttə ki, xeyr! Allah bir şəxsi yaradarkən kimsədən icazə alarmı heç?

-Bəs yaxşı, onda mən niyə Allaha inanmaq üçün atamdan icazəmi alım? Tutaq ki, atam mənə icazə vermədi. Mən Allaha "Allahım, bağışla! Atam Sənə inanmağa icazə vermir!" deyəcəm?

O andaca arxaya çevrilib Sevgili Peyğəmbərimizin evinə getdim və yol boyunca düşündüyüm şeyləri bir-bir Ona dedim. Allahın varlığına və birliyinə iman etdiyimi söylədim. Peyğəmbərimiz elə sevindi ki, bunu sizə başa sala bilmərəm! Mənim necə də ağıllı uşaq olduğumu söylədi və məni tərifləd. Heç bilirsinizmi o vaxt mən neçə yaşındaydım? Hələ on yaşındaydım və həmin gün mən "İslamı qəbul edən ilk uşaq" olma şərəfini əldə etdim.

Cənnət

Cənnət Allah-Təalanın mömin qulları üçün hazırladığı mükafatdır. İman edən bəndələrin əbədi yaşayacaqları xoşbəxtlik və gözəllik yurdudur. Cənnətdə ölüm yoxdur, həyat sonsuzdur. Cənnətə girən kimsə, orada istədiyi hər şeyə sahib olacaq.

Cənnətdə dünyadakı nemətlərin bənzəri, lakin eynisi olmayan nə qədər meyvələr, tərəvəzlər, yeməklər, libaslar, altından çaylar axan köşklər, saraylar vardır. Bununla yanaşı ağıla və xəyala gəlməyən bir çox nemətlər və gözəlliklər olacaq.

> "Rəbbiniz arada heç bir tərcüməçi olmadan hər birinizlə danışacaqdır. İnsan sağına baxar, əvvəlcədən göndərdiyi yaxşı işləri görər. Soluna baxar, vaxtilə işlədiyi pis əməlləri görər. Qarşısına baxar, yalnız cəhənnəmi görər. Yarım xurma ilə də olsa, cəhənnəmdən qorunun."
>
> **(Buxari, Zəkat, 9)**

Allah-Təala cənnəti və onun içindəki gözəllikləri Quranın bir çox ayəsində xəbər vermişdir. Məsələn:

"(Müttəqilərə belə deyiləcəkdir:) **Ey bəndələrim, bu gün sizə heç bir qorxu yoxdur və siz qəm-qüssə də görməyəcəksiniz! O bəndələr ki, ayələrimizə iman gətirib** (Bizə) **təslim olmuşlar. Siz də, zövcələriniz də sevinc içində Cənnətə daxil olun!"** (Cənnətdə) **onlar üçün qızıl təştlər və qədəhlər içində** (yemək-içmək) **dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız! Bu sizin** (dünyada) **etdiyiniz** (yaxşı) **əməllər müqabilində varis olduğunuz Cənnətdir! Orada sizin üçün bir çox meyvələr vardır, onlardan yeyəcəksiniz!"** (Zuxruf surəsi, 68-73)

Cənnətdə kədər, kin, nifrət və düşmənlik yoxdur. Hər kəs bir-birinə sevgi və hörmət bəsləyəcək. İnsanlar bir-birilərini ziyarət edəcək, ən gözəl taxtlarda oturub söhbət edəcəklər. Sevimli Peyğəmbərimizin ifadəsiylə: "*Cənnətdəkilərin qəlbləri tək bir adamın ürəyi kimi eyni duyğuları daşıdığından aralarında nə anlaşılmazlıq, nə də mübahisə olacaqdır.*" (Müslim, Cənnət, 17)

(Ya Peyğəmbər!) **İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün** (ağacları) **altından çaylar axan cənnətlər** (bağlar) **vardır.** (O cənnətlərin) **meyvələrindən bir ruzi yedikləri zaman: "Bu bizim əvvəlcə** (dünya evində) **yediyimiz ruzidir", -deyəcəklər. Əslində isə bu** (ruzi, meyvələr) **onlara** (dünyadakılara zahirən) **bənzər olaraq verilmişdir. Onlardan ötrü orada** (hər cəhətdən) **pak** (olan) **zövcələr də var. Onlar** (möminlər) **orada əbədi qalacaqlar.**

(Bəqərə surəsi, 25)

Cəhənnəm

Cəhənnəm əzab və cəza yeridir. Kafirlər, müşriklər, münafiqlər, zalımlar və günahkarlar cəzalarını orada çəkəcəklər.

Allaha və axirət gününə inanmayanlar sonsuza qədər orada yaşayacaq, inkar etmələrinə görə Allahın rəhmətindən və rizasından məhrum qalacaqlar. Günahkar möminlər də günahlarının cəzasını cəhənnəmdə çəkəcəklər, lakin kafirlər kimi əbədi olaraq orada qalmayacaqlar. Cəzaları bitdikdən sonra Cənnətə girəcəklər.

Cəhənnəmdə sərinlik yoxdur. Orada ya dondurucu bir soyuq, ya da yandırıcı və bürkülü bir atəş vardır.

Cəhənnəmdəkilər cənnətdəki insanların gözəl halını görəcək və onlardan özlərinə kömək etmələrini istəyəcəklər. Lakin onların bu istəyi rədd ediləcək:

Cəhənnəm əhli cənnət əhlinə müraciət edib: **“Üstümüzə bir az su tökün və ya Allahın sizə verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!” - deyəcək. Onlar isə: “Doğrusu, Allah bunları kafirlərə haram buyurmuşdur!” - deyə cavab verəcəklər.”** (əl-Əraf surəsi, 50)

Cəhənnəmliklər dünyada etdiklərinə çox peşman olacaqlar. Ən böyük arzuları ölmək, ya da təkrar dünyaya dönmək olacaq. Dünyaya qayıdıb iman etməyi, ibadətlərini yerinə yetirməyi və gözəl əxlaqa sahib bir insan olaraq yaşamağı, beləcə, cənnəti qazanmağı istəyəcəklər. Amma onlar üçün belə bir şey mümkün deyil. Artıq onlar nə ölə biləcək, nə də dünyaya təkrar qayıda biləcəklər.

Cənnətin və cəhənnəmin varlığından xəbərdar bir bəndə olaraq Allahın sevgi və rizasını qazanmaq, rəhmətinə qovuşmaq həyatımızın ən böyük hədəfi olmalıdır. Bu hədəfi reallaşdırmaq da ancaq imanlı yaşamaq və gözəl əməllər işləməklə mümkündür.

“Hər bir can (hər kəs) ölümü dadacaqdır. Şübhəsiz ki, qiyamət günü əməllərinizin qarşılığı sizə tam olaraq veriləcəkdir. Kim oddan (cəhənnəmdən) uzaqlaşdırılıb, cənnətə daxil edilərsə, o xilas olmuşdur. Dünya həyatı isə aldadıcı faydadan (həzz və əyləncədən) baş qa bir şey deyildir.”
(Ali İmran surəsi, 185)

O gün (qiyamət günü) **yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq** (və onlara)**: “Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınız mal-dövlətin** (əzabını, acısını) **dadın!” -** (deyiləcəkdir!)

(Tövbə surəsi, 35)

Dua
(OXU MƏTNİ)

Dua acizliyimizi qəbul edərək Uca Allaha yönəlmək və Ondan yardım istəməkdir. Rəbbimizə ən yaxın olduğumuz anlardan biridir. Dua edərkən əllərimizi açar, yalvarıb-yaxararıq. Dua vasitəsilə dilək və arzularımızı Allaha çatdırarıq.

Dua etmək üçün xüsusi bir vaxta və yerə gərək yoxdur. Hər zaman və hər yerdə dua edə bilərik. Lakin bəzi zaman və məkanlar dua etmək üçün daha münasibdir. Mübarək gün və gecələr, cümə günləri, iftar və sahur vaxtları dua üçün mühüm fürsət anlarıdır. Kəbə və Ərəfat kimi mübarək məkanlar da duaların qəbul edildiyi yerlərdir.

Allah-Təala ürəkdən edilən duaları qəbul edər. Dua edən qulunu əliboş çevirməz. Fəqət duanın nəticəsini görmək xüsusunda tələsməmək lazımdır. Çünki Allah öz qulu üçün nəyin daha xeyirli olduğunu biləndir. Həzrət Peyğəmbər bu barədə belə buyurur: *"Hər hansı biriniz tələsmədiyi və "Rəbbimə neçə dəfə dua etdimsə qəbul edilmədi"- demədiyi müddətdə duası qəbul edilər."* (Buxari, Dəavat, 22)

Uca Allahı bəzi sıxıntılı zamanımızda xatırladığımız kimi bolluq və rahatlıq içində də xatırlamaq, hər fürsətdə Ona dua etmək lazımdır.

Dua etmək qədər başqalarının duasını da almaq mühümdür. Başda ata-analarımız olmaq şərtiylə böyüklərimizin, saleh və alimlərin, müəllimlərimizin, qonaqlarımızın, qonşularımızın, yetimlərin, kimsəsizlərin, kasıb və yoxsulların dualarını almağa çalışmalıyıq. Biz də onlara və digər müsəlman bacı-qardaşlarımıza dua etməliyik.

Axirətə imanın faydaları

☑ Axirətə iman bizə məsuliyyət duyğusu qazandırır.

☑ Axirətə iman cəmiyyətdə haqq-ədalət duyğusunun hakim olmasını təmin edir.

☑ Axirətə iman bizi yalnız öz mənfəətimizi düşünməkdən xilas edir.

☑ Axirətə iman bizi haramlardan uzaqlaşdırır, ruzimizi halal və təmiz yoldan qazanmağa sövq edir.



Mələklərə iman

Mələklərə iman gətirmək

Mələklər Allahın nurdan yaratdığı varlıqlardır. Mələklərin əsas vəzifələri Allaha qulluq etmək və Onun əmrlərini yerinə yetirməkdir.

Mələklərin var olduğuna inanan bir mömin, onların bəzilərinin vəzifəsinin insanların sözlərini və davranışlarını yazdığını bildiyinə görə daha diqqətli davranır və beləliklə də günahlardan uzaqlaşır. Mömin öz yanında ona kömək edən bir mələyin olduğunu bildiyi üçün tənhalıq hiss etmir.

"Göylərdə və yerdə olan (bütün) canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!"

(Nəhl surəsi, 49)

Mələklərin xüsusiyyətləri

❖ Mələklər gözlə görülməyən nurdan yaradılmış varlıqlardır. Yemə, içmə, yatma, yorulma, gənclik, qocalıq, cinsiyyət kimi bəşəri keyfiyyətlərdən uzaqdırlar.

❖ Daim Allaha itaət edərlər. Onun əmrlərinə qarşı gəlməzlər. Vəzifələrini tərəddüdsüz yerinə yetirərlər. Əsla günah işləməzlər.

❖ Sürətli, güclü və qüvvətli varlıqlardır. Qurani-Kərimdə bildirildiyinə görə, onların qanadları var (Fatir surəsi, 1). Bu qanadların necə olduğu bilinmir. Ancaq qısa müddətdə uzaq məsafələrə gedə biləcəyi bəzi ayələrdə bildirilmişdir.

❖ Mələklər Allahın izni və əmri ilə müxtəlif formalara bürünə bilərlər. Məsələn, Peyğəmbərimiz (s.ə.s) mələkləri həm mələk formasında, həm də insan formasında görmüşdür.

❖ Mələklərin gözəl qoxulardan və sözlərdən xoşu gəlir. Qurana qulaq asmaq, elm və zikr məclislərində olmaq onların gözəl xüsusiyyətlərindəndir.

❖



Bilirsinizmi?

Mələk sözünün

- ***güc,***
- ***qüvvət,***
- ***elçilik,***
- ***idarəçilik***

mənalarına gəldiyini bilirdinmi?

Mələklərin vəzifələri

Mələklərin vəzifəsi Allaha qulluq etmək və Onun əmrlərini yerinə yetirməkdir. Mələklər Allahın özlərinə verdiyi vəzifələri nöqsansız şəkildə yerinə yetirirlər. Vəzifələrini yerinə yetirərkən bezməz və yorulmazlar.

Bəzi mələklərin ibadət və itaətlə yanaşı, xüsusi vəzifələri var. Bunların başında dörd böyük mələk gəlir.

Cəbrayıl: Vəzifəsi Allahdan aldığı vəhyi peyğəmbərlərə çatdırmaqdır. Eyni zamanda Rəbbimizin əmr və tapşırıqlarını mələklərə çatdırır.

Əzrayıl: Vəzifəsi Allahın izni ilə əcəli gələn canlıların ruhunu almaqla vəzifəlidir. Bu səbəblə Qurani-Kərimdə ona "ölüm mələyi" deyilmişdir.

Mikayıl: Vəzifəsi təbiət hadisələrini idarə etmək və məxluqatın ruzilərini paylamaqdır.

İsrafil: Vəzifəsi qiyamət gününün vaxtı gəldikdə sura üfürərək qiyaməti elan etmək və axirət həyatının başladığını xəbər verməkdir.

Dörd böyük mələkdən əlavə fərqli vəzifələri olan mələklər də vardır. Bu mələklərin bəziləri aşağıdakılardır.

Kiramən-katibin: Savab və günahlarımızı yazan mələklərdir. Bunların biri insanın sağında, digəri solunda olur. Sağdakı mələk gözəl sözlərimizi, işlərimizi və davranışlarımızı yazır. Soldakı mələksə pis söz, iş və davranışları yazmaqla vəzifəlidir.

Həfəzə mələkləri: Bunlar qoruyucu mələklərdir. Allaha sığınan insanları qorumaqla vəzifəlidirlər.

Münkər və Nəkir: Bunlar insanı öldükdən sonra qəbirdə sorğu-sual edən iki mələkdir. Qəbirdəki insana "Rəbbin kimdir?", "peyğəmbərin kimdir?", "kitabın nədir?" - deyə suallar verəcəklər. Alacaqları cavablara görə yaxşı və ya pis rəftar edəcəklər.

Yuxarıda bəhs etdiklərimizdən başqa müxtəlif işlər görən bir çox mələk vardır. Məsələn, bəzi mələklər insanın qəlbinə doğrunu və həqiqəti ilham etmək, bəziləri Peyğəmbərimizə gətirilən salət və salamı yazmaq, bəziləri də cənnət və cəhənnəmdəki işləri idarə etməklə vəzifəlidir.



Mələklərə imanın faydaları

Mələklərə iman gətirmək

☑ İnsanın qəlbinə həqiqəti ilham edir

☑ Qulluq şüurumuzu artırır, bizi ibadətə həvəsləndirir

☑ Pisliklərdən uzaqlaşdırır

☑ Əxlaqımızı gözəlləşdirir

☑ Çalışma həvəsi verir, ruh yüksəkliyi qazandırır

☑ Bizi yalnızlıq düşüncəsindən xilas edir

Mələklərdən başqa görünməz varlıqlar: Cin və Şeytan

Cin

Cinlər duyğu orqanlarımızla dərk edə bilmədiyimiz varlıqlardır. Cinlər də insanlar kimi Allaha qulluq etməlidir. İnsanlarda olduğu kimi, cinlərdə də mömin və kafir olanlar var. Qurani-kərimdə cinlərdən bəhs olunmuşdur və hətta bununla əlaqəli bir surə də mövcuddur. Quranın 72-ci surəsi Cin surəsidir.

> "Mən cinləri və insanları yalnız Mənə qulluq etmək üçün yaratdım"
>
> **(Zariyat surəsi, 56)**

Cinlər də insanlar kimi doğulurlar, böyüyürlər, yeyib-içirlər, çoxalırlar və ölürlər.

Cinlər insanların görə bilmədiyi çətin işləri görə bilərlər. Həzrət Süleyman cinləri bəzi çətin işlərdə işlətmiş və onlara bəzi vəzifələr vermişdir. İnsanlardan çox yaşadıqlarına görə və çox sürətlə hərəkət edib dünyanın hər tərəfinə gedə bildiklərinə görə insanların bilmədikləri bəzi şeyləri bilirlər. Ancaq onlar əsla gələcəyi bilmirlər. Onlar da imtahan məqsədi ilə yaradılmışdır. Allah-Təala belə buyurmuşdur: **"Mən cinləri və insanları yalnız Mənə qulluq etmək üçün yaratdım"** (Zariyat surəsi, 56)

Şeytan

Gözlə görülməyən varlıqlardan biri də şeytandır. Şeytanın Qurani-kərimdə keçən başqa adı da İblisdir. İblis eyni zamanda şeytanların "babası" da hesab olunur. Şeytan, ilk insan Həzrət Adəmə səcdə əmrinə qarşı gəldiyi üçün ilahi rəhmətdən qovulmuşdur. Özü oddan yaradılmışdır.

Şeytanın ilahi rəhmətdən qovulmasının səbəbi, lovğalanaraq Allahın əmrinə qarşı gəlməsidir. Ancaq o, Allah tərəfindən cəzalandırılmasına Həzrət Adəmin səbəb olduğunu düşünərək insanlara düşmən olmuşdur. Buna görə də insanların Allahın əmrlərinə qarşı gələrək günah işləmələrini istəyir. Beləliklə, Həzrət Adəm və onun nəslindən gələn insanların cəhənnəmə girmələrinə çalışaraq onlardan intiqam almağa çalışır. Uca Rəbbimiz bizi şeytanın düşmənçiliyinə və hiylələrinə qarşı belə xəbərdar edir: **"Həqiqətən, şeytan sizin düşməninizdir, onu** (özünüzə) **düşmən tutun. O, özünə tabe olanları cəhənnəm əhli olmağa çağırır."** (Fatir surəsi, 6)

> "Həqiqətən, şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun. O, özünə tabe olanları cəhənnəm əhli olmağa çağırır."
>
> **(Fatir surəsi, 6)**

Mələklər , şeytan və insan
(OXU MƏTNİ)

Vaxt varidi insan hələ yaradılmamışdı. Allah özünü tanıyıb ibadət etməsi üçün insanı yaratmaq istədi. Mələklərə:

-Yer üzündə bir xəlifə yaradacağam, - dedi.

Mələklər:

-Orada qarışıqlıq çıxaracaq, qan axıdacaq birini yaradacaqsan, ya Rəbb? Halbuki biz Səni tərif edərək ucaldır və daim Sənə itaət edirik, - dedilər. Allah:

-Mən sizin bilmədiklərinizi bilirəm, - buyurdu. Mələklər susdular. Sonra da birbirilərinə:

-Şübhəsiz ki, Rəbbimiz hər şeyi bilir, faydasız heç bir şey yaratmaz, - dedilər.

Sonra Allah onlara:

-Ey mələklərim, mən insanı torpaqdan yaradacaq, şəkilləndirəcək və can verəcəyəm. Ona lazımi hörməti göstərin və əmrimə tabe olaraq səcdə edin, - dedi. Mələklər bir ağızdan:

-Ey Uca Rəbbimiz, əmrini dinləyir və Sənə itaət edirik, - dedilər.

Allahın bu əmri şeytanın xoşuna gəlmədi. O, özünü çox bəyənir, təkəbbürlənir və Allahın yaratdığı varlıqların ən üstünü olduğunu düşünürdü.

Nəhayət, Allah insanı yaratdı. Mələklər Allahın əmrinə tabe olaraq Adəmə səcdə etdilər. Şeytan isə lovğalanaraq üsyan etdi. Adəmə səcdə etməkdən boyun qaçırdı. Bununla da Allahın əmrinə qarşı çıxmış oldu.

Uca Allah ona:

-Nə üçün əmrimə tabe olmadın? Səni səcdə etməkdən çəkindirən nədir? - dedi.

Şeytan:

-Məni oddan, onu isə palçıqdan yaratdın. Mən ondan daha üstünəm, - deyə cavab verdi. Bu cavabdan sonra Allah şeytanı hüzurundan qovdu.

Sonra Allah Adəmi cənnətə qoydu və Həvvanı ona yoldaş yaratdı. Adəmə belə dedi:

-Ey Adəm, yoldaşınla cənnətdə qalın. Orada istədiyiniz şeylərdən nə qədər istəsəniz yeyin. Təkcə bu ağaca yaxınlaşmayın, yoxsa özünə zülm edənlərdən olarsınız.

Uca Allah bütün ağacların meyvələrindən yeməyə icazə vermiş, yalnız bir ağaca yaxınlaşmağı onlara qadağan etmişdi. Beləliklə, insana nəfsinə hakim olmağı və iradəsini gücləndirməyi öyrədirdi.

Adəm ilə Həvva cənnətdə səadət içində yaşayırdılar. Uca Allah Həzrət Adəmə şeytana qarşı da xəbərdarlıq etdi:

- Ey Adəm, doğrusu bu, sənin və yoldaşının düşmənidir. Diqqət edin, sizi cənnətdən çıxarmasın. Yoxsa səadətiniz əldən gedər.

Adəm ilə Həvva bir müddət cənnətdə xoşbəxt yaşadılar. Lakin şeytan boş dayanmır, müxtəlif hiylələr düşünürdü. Bir dəfə yanlarına gələrək onlara belə dedi:

-Ey Adəm, sənə ölümsüzlük ağacını və əbədiyyətə qədər davam edəcək səltənəti göstərimmi?

Adəm şeytana baxaraq:

-O nədir, göstər, - dedi.

Şeytan Allahın qadağan etdiyi ağacı göstərdi, lakin o, şeytana inanmadı, yanından qovdu. Fəqət şeytan usanmaq bilmirdi. Yenə yanlarına gələrək vəsvəsə verdi:

- Rəbbinizin bu ağacı sizə nə üçün qadağan etdiyini bilirsinizmi? Əgər onun meyvəsindən yesəniz, əbədiyyən burada

qalarsınız. Bunun qarşısını almaq üçün onu sizə qadağan etdi. Yaxşı düşünün. O meyvədən yeyin.

Həzrət Adəm ilə Həvva şeytana qulaq asmadılar. Ondan uzaqlaşdılar. Şeytan arxalarınca gəldi və Allaha and içərək:

- Mənə inanın. Mən sizə nəsihət edirəm, - dedi.

İblisin Allaha and içdiyini görən Adəmlə Həvva onun yalandan and içəcək qədər çirkin iş tutacağını düşünmədilər.

Bəlkə də, düz deyir, -dedilər və Allahın onlara qadağan etdiyi ağacın meyvəsindən yeməyə başladılar.

Meyvəni yeyən kimi əyinlərindəki cənnət libasları çıxarıldı, ayıb yerləri göründü, çox utandılar. Ağacın geniş yarpaqları ilə ötünməyə çalışdılar. Nə edəcəklərini bilmədilər.

Allah:

-Mən o ağaca yaxın getməyi sizə qadağan etməmişdimmi? Şeytanın sizə düşmən olduğunu deməmişdimmi? Nə üçün əmrimə əməl etmədiniz? - deyə soruşdu.

Həzrət Adəm və Həvva:

-Ya Rəbb! Bizi bağışla, bizi əfv et, - dedilər.

Uca Allah onlara:

-Mən sizə əmr etdim, siz isə əmrimə qarşı gəldiniz, - buyurdu.

Həzrət Adəm ilə Həvva yalvararaq:

-Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamaz və bizə acımazsan, şübhəsiz ki, zərərə düçar olanlardan olarıq, - dedilər.

Uca Allah Həzrət Adəmə:

-Sənə ən böyük nemətim olan cənnəti verdim. İstədiyin hər şeyi ehsan etdim. Verdiklərim yetmədimi ki, bu ağaca yaxınlaşdın? - buyurdu.

Adəm:

-And olsun ki, kiminsə Sənin adını çəkərək yalandan and içəcəyini sanmırdım.

Uca Allah ağlayan Adəmə:

-And olsun ki, yer üzünə enəcək, həyatını ancaq yorularaq və tər tökərək qazanacaqsan, - buyurdu. Sonra Uca Allah belə səsləndi:

- Hamınız yer üzünə enin. Bir müddət orada məskunlaşıb həyat sürəcəksiniz.

Həzrət Adəm çox kədərləndi. Etdiklərinə peşman olub ağlamağa başladı:

- Ya Rəbbi, məni əfv eylə, məni bağışla, - deyə yalvarırdı.

Nəhayət, Allah onlara rəhm edərək tövbələrini qəbul etdi. Çünki Allah işlədiyi günaha görə peşman olub tövbə edənləri bağışlayar. O, çox böyük mərhəmət sahibidir.



İlahi kitablara iman

İman əsaslarımızdan biri də Allah tərəfindən göndərilən kitablara və bu kitablarda olan hər şeyin doğru olduğuna inanmaqdır.

Uca Allah peyğəmbərlərinə çatdırmaq istədiyi məlumatları birbaşa və ya mələk vasitəsiylə bildirər. Peyğəmbərlər də aldıqları məlumatları insanlara çatdırarlar. Uca Rəbbimizin əmrlərini, qadağalarını və öyüdlərini içinə alan bu kitablara "ilahi kitablar" deyilir.

Biz inanc əsaslarımızı, ibadətlərimizi və dünyada necə hərəkət edəcəyimizi bu kitablardan öyrənirik. İlahi kitablardakı buyruqlara tabe olaraq Allahın razılığını qazanmağa çalışırıq.

> **"...Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi..."**
>
> **(Bəqərə surəsi, 213)**

Rəbbimiz insanların ehtiyaclarına görə bəzi peyğəmbərlərə əmrlərini və qadağalarını ehtiva edən kitablar göndərdiyi kimi bəzilərinə də səhifələr (suhuf) göndərmişdir.

Bu səhifələr:



Dörd peyğəmbərə isə kitab göndərilmişdir. Bu dörd böyük kitablar aşağıdakılardır:

Tövrat

Tövrat Həzrət Musaya göndərilmişdir.

Qurani-Kərim bizə Tövratın insanlara doğru yolu göstərmək üçün endirilən müqəddəs kitablardan biri olduğunu bildirməkdədir. Buna görə biz Tövratın əslinin Allahın sözlərini ehtiva edən ilahi kitab olduğuna inanırıq.

Tövrat Həzrət Musa vasitəsilə İsrail oğullarına göndərilmişdir. Lakin İsrail oğulları Tövratı Allahdan gəldiyi kimi qoruya bilməmişdir. Tövratın orijinal nüsxəsi itmişdir. Aradan uzun müddət keçdikdən sonra Tövrat yəhudi din alimləri tərəfindən yenidən yazılmışdır. Bu səbəbdən o, Allah tərəfindən Həzrət Musaya göndərilmiş bir kitab olsa da, sonradan əsli pozulmuşdur. Zaman keçdikcə insanlar tərəfindən bəzi dəyişikliklərə məruz qalmışdır.

"Ondan (Qurandan) əvvəl Musanın (İsrail oğullarına, möminlərə) rəhbər və mərhəmət olan kitabı (Tövrat) var idi..."

(Nəhl surəsi, 49)

Zəbur

Həzrət Davuda göndərilmiş ilahi kitabdır.

Həzrət Davud gözəl səsi ilə Zəburu oxuyar, onu dinləyənlər bundan çox təsirlənərdilər.

Zəbur da Tövrat kimi bəzi dəyişiklik və əlavələrə məruz qalmışdır. Zəburun əsli qalmadığı üçün insanlar yadlarında qalan bəzi yerlərini yenidən yazmışdır. Bu zaman ona əlavələr edilmiş və bir çox yerləri dəyişdirilmişdir.

İsrail oğulları Zəburdan qalan şeir formasındakı nəsihətləri Tövrat ilə birləşdirib bir kitab halına gətirmişlər.

"Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik."

(İsra surəsi, 55)

İncil

İncil Həzrət İsaya göndərilmş ilahi kitabdır.

İncilin əsli Allah tərəfindən göndərilmişdir. Lakin o da Tövrat və Zəbur kimi daha sonra insanlar tərəfindən dəyişdirilmişdir. İncil Həzrət İsa dövründə tam olaraq yazılmamış, sonra isə bir çox insan öz yadında qalanları və eşitdiklərini toplayaraq incil yazmışdır. 325-ci ildə toplanan İznik qurultayında xristian din xadimləri bu incillər arasından dördünü seçmişlər. Bunlar Matta, Markus, Luka və Yuhanna tərəfindən yazılan və yazarlarının adıyla adlandırılan incillərdir. Bu gün əlimizdə mövcud olan incillər də məhz bu dörd kitabdır.

"...Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içində haqq yolu və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik."

(Maidə surəsi, 46)

Qurani-Kərim

Allah tərəfindən göndərilən müqəddəs kitabların sonuncusudur. Sevimli Peyğəmbərimiz Həzrət Muhammədə göndərilmişdir.

İlahi kitabların bəzisi itib, bəzisi də insanların müdaxilələri nəticəsində dəyişikliyə məruz qalmışdır. Lakin Uca Rəbbimiz əvvəlki ilahi kitablarda yer alan və bəşəriyyətə gərəkli olan bütün xəbərdarlıq və prinsipləri Qurani-Kərim vasitəsiylə bizə çatdırmışdır.

Biz müsəlman olaraq əvvəlki müqəddəs kitabların mövcud vəziyyətlərinə deyil, pozulmamış formalarına inanmaqla əmr olunmuşuq. Biz uca Allahın bildirdiyi müqəddəs kitabların hamısını qəbul edirik. Onlardan yalnız Qurani-Kərimin hər hansı bir dəyişikliyə məruz qalmadan zəmanəmizə qədər gəlib çatdığına inanırıq.

"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!"

(Hicr surəsi, 55)

Kitabımızı dərindən tanıyaq!

Qurani-Kərim Allah-Təalanın göndərdiyi ən son ilahi kitabdır. Ona Allah-Təalanın sözləri mənasını verən "Kəlamullah" da deyilir. Quran sevimli Peyğəmbərimizə mələk Cəbrayıl vasitəçiliyi ilə 23 ildə hissə-hissə enmişdir. Təxminən 600 səhifədən ibarətdir.

Qurani-Kərimin ayə, surə və cüzlərdən ibarət olan özünəxas daxili nizamı vardır. Qurani-Kərimin bir cümlədən ibarət olan parçalarına "ayə", ayələrdən ibarət olan hər bir hissəsinə də "surə" deyilir. Quranda 114 surə var. Hər surənin bir adı var və surələrdəki ayələrin sayı bir-birindən fərqlidir.

Surələr nazil olma sırasına görə deyil, Allah-Təalanın bildirdiyi şəklə görə tərtib edilmişdir. Ən uzun surə 286 ayədən ibarət olan Bəqərə surəsi, ən qısa surə isə üç ayədən meydana gələn Kövsər surəsidir. Qurani-Kərim Fatihə surəsi ilə başlayır və Nas surəsi ilə sona çatır.

Qurani-Kərimin 20 səhifədən ibarət olan hər bir bölümünə "cüz" deyilir. Quranda cəmi 30 cüz var. Quranın bu şəkildə hissələrə ayrılmış olması onu planlı şəkildə oxumağı və əzbərləməyi asanlaşdırır.

Qurani-Kərim ərəb dilində endirilmişdir. Bu səbəblə ərəb dili bilməyən insanların anlaya bilmələri üçün Quran müxtəlif dillərə tərcümə edilmişdir. Başqa dillərə edilən Quran tərcümələrinə "məal" deyilir. Quran ayələriylə əlaqədar geniş şərh və izahlara isə "təfsir" deyilir.



Qurani-Kərim

☞ Peyğəmbərimizin dövründə əzbərlənmiş və yazılmışdır.

☞ Həzrət Əbu Bəkr zamanında cəmlənib mushaf halına gətirilmişdir.

☞ Həzrət Osman dövründə çoxaldılmağa başlanmışdır.

Vəhyin bizə öyrətdiklərinin faydaları

Allahın göndərdiyi vəhy ağlımıza yol göstərən və həyat yolumuzu aydınladan bir işıqdır. Vəhy sayəsində biz bunları öyrənirik

- ☑ Həyatın mənası nədir?
- ☑ Dünyadakı həyat nizamımız necə olmalıdır?
- ☑ Allaha qarşı vəzifələrimiz və məsuliyyətlərimiz nələrdir?
- ☑ Öldükdən sonra necə olacağıq?
- ☑ Yenidən diriliş varmı?
- ☑ Dünyada etdiklərimizin qarşılığını harada və necə görəcəyik?



Qədərə iman

Qədər və qəza nədir?

Uca Allah öz elmi, iradəsi və qüdrəti ilə əzəldən əbədiyyətə qədər olmuş və olacaq bütün şeyləri bilir. Hər şey Allahın bu bilgisi çərçivəsində baş verir. Allahın bilməsinə və hər şeyə bilgisi daxilində bir ölçü müəyyənləşdirməsinə **qədər** deyilir. **Qəza** isə əzəldə Allahın bildiyi və təqdir etdiyi şeyin zamanı və yeri gəldikdə ortaya çıxmasıdır. ***Qəza və qədərə iman etmək*** müsəlman olmağın şərtlərindəndir.

> "(Yerdə və göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk."
>
> **(Hicr surəsi, 21)**

Qədər və məsuliyyət

Uca Rəbbimiz sonsuz elmi, hüdudsuz gücü və qüdrətiylə kainata bir nizam və tarazlıq qoymuşdur. Kainatda meydana gələn hər iş Allahın elmi daxilində gerçəkləşir. Hər şey Onun istəyi, gücü və yaratması ilə reallaşır. Dünya yaradıldığından bəri Günəş şərqdən çıxır, qərbdə batır. Cazibə və suyun qaldırma qüvvəsi davam etməkdədir. Canlılar su ilə var olmaqda, onunla varlıqlarını davam etdirməkdədir. Rəbbimizin kainata qoyduğu bu dəyişməz qanunlar bizim üçün böyük bir nemətdir. Allah-Təalanın qoyduğu bu fiziki, bioloji və ictimai qanunlar sayəsində dünya insan oğlunun yaşaya biləcəyi bir planet halına gəlmişdir.

> "...Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz."
>
> **(Bəqərə surəsi, 216)**

Dünyada başımıza gələn hadisələri biz öz məhdud elmimiz və gücümüz çərçivəsində dərk etməyə çalışırıq. Halbuki yaşadığımız hadisələr yalnız bizim görə bildiklərimizdən ibarət deyil. Hadisələrin bizim görə bilmədiyimiz, fərq etmədiyimiz və qavraya bilmədiyimiz tərəfləri vardır. Onların iç üzünü ancaq Allah bilir.

Qədərə inandığımız zaman kainatdakı bütün hadisələrin hər şeyi bilən və hər şeyə gücü çatan Allah tərəfindən yaradıldığına inanmış oluruq. Belə bir iman kainatda meydana gələn hər hadisənin arxasında bir hikmətin olduğunu qavramamızı təmin edir. Belə olduqda həyata baxışımız tamamilə dəyişir. Hadisələri fərqli şəkildə qiymətləndirməyə başlayarıq.

Allah bizi bu dünyada bəzən sevinclə, bəzən kədərlə sınağa çəkir. Çünki bu dünya imtahan yeridir. Bu gerçəyi unutmadan hərəkət etdikdə sevincimiz də, kədərimiz də Allahın razılığını qazanma fürsətinə çevrilər. Rəbbimizin

verdiyi nemətlərə şükür edər, başımıza gələn bəlalara və çətinliklərə səbir edərik. Onun təqdirinə razı olarıq. Allah-Təalanın verdiyinə razı olmaq bizi qənaət sahibi edər. Bizi qısqanclıq, həddindən artıq ehtiras və paxıllıq duyğularından qurtarar. Beləcə, qədərə iman Allahdan gələn hər şeyə razı olaraq Onun rizasını qazanmamızı təmin edər.

> "De: "Allahın bizim üçün (lövhi-məhfuzda) yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!"
>
> **(Tövba surəsi, 51)**

Rəbbinə güvənməyən insan gələcək barədə narahatlıq keçirər. Sahib olduğu şeylərin yox olmasından qorxar. Əlindəki nemətləri unudar, kasıblıq qorxusu ilə yaşayar. Sağlamlığını unudar, xəstəlik narahatlığı daşıyar. Arzularına və xəyallarına qovuşma düşüncəsi zehinini həddən artıq məşğul edər. Gələcəyi ilə bağlı narahatlıqlara görə bəzən yuxuları qaçar, rahatlığını itirər.

Rəbbimizə güvənmək, qədərə inanmaq bizi gələcəklə əlaqədar gərəksiz qorxu və narahatlıqlardan qurtarar. Çünki qədərə iman etdiyimiz zaman bilərik ki, Allahın təqdir etdiyindən başqa heç nə baş verməz. Allahın icazəsi olmadan heç bir şey başımıza gəlməz. Başımıza gələcək olanı da Allahdan başqa heç kim geri çevirə bilməz.



Qədərdən qədərə
(OXU MƏTNİ)

Həzrət Ömər xəlifəliyi əsnasında Şama gedirdi. Şamın yaxınlığında onu İslam ordusunun baş komandiri Əbu Ubeydə və yoldaşları qarşıladılar. Həzrət Ömərə Şamda vəba epidemiyasının olduğunu xəbər verdilər.

Həzrət Ömər yanındakı ənsar və mühacirlərin böyüklərindən olan səhabələrlə məsləhətləşdi. Bəzi səhabələr yola çıxdıqlarını və geri qayıtmağın düzgün olmadığını dedilər. Bəziləri də insanları yoluxucu vəba xəstəliyinin olduğu bir yerə aparmağın düzgün olmadığını, geri qayıtmağın məsləhət olduğunu dedilər. Həzrət Ömər qərarını açıqladı:

- Mən səhər geri qayıdıram, siz də mənimlə birlikdə geri dönün.

Bu sözü eşidən Əbu Ubeydə:

- Ey xəlifə! Allahın qədərindən qaçırsan? Allah ölümünüzü bu xəstəlikdən təqdir etmişsə öləcəksiniz. Əgər təqdir edilməmişsə sizə heç nə olmaz, - dedi.

Həzrət Ömər:

- Kaş ki, bu sözü səndən başqası söyləyəydi, Ey Əbu Ubeydə! - dedi.

Həzrət Ömər Əbu Ubeydəni çox sevər və onun sözünə müxalif çıxmaq istəməzdi. Sonra da sözlərinə belə davam etdi.

- Bəli, Allahın qədərindən yenə Allahın qədərinə qaçırıq. Nə deyirsən, ey Əbu Ubeydə, sənin dəvələrin olsa və iki tərəfi olan bir vadiyə getsələr, vadinin bir tərəfi otlaq olsa, digər tərəfi də quraq olsa, sən dəvələrini yaşıllığın çox olduğu yerdə otarsan Allahın qədəriylə otarmış olardın. Quraq yerdə otarsan yenə Allahın qədəriylə otarmış olmazdınmı?

Həzrət Ömərin bu sözləri Əbu Ubeydəni qane etmişdi. O əsnada bəzi ehtiyaclarını həll etmək üçün ortalarda görünməyən Əbdürrəhman bin Əvf (radiyallahu anh) gəldi və:

- Bu mövzuda mənim bildiyim bir hədis var, - dedi. Sonra da Sevimli Peyğəmbərimizin:

"- Bir yerdə yoluxucu xəstəlik yayıldığını eşitsəniz, oraya getməyin. Olduğunuz yerdə yoluxucu bir xəstəlik ortaya çıxsa, oradan da çıxmayın." buyurduğunu söylədi.

Əbdürrəhman bin Əvfin bildirdiyi bu hədisi eşidən Həzrət Ömər doğru bir seçim etdiyi üçün Allaha həmd etdi və oradan ayrılıb Mədinəyə doğru yola düşdü. Şama girməkdən imtina etdi. (Buxari, Tibb, 30)



Ruzi

Canlıların yeyib-içdiyi və faydalandığı şeylərə "ruzi" deyilir. Bütün canlı varlıqların ruzisini verən Allahdır. Uca Allah belə buyurur:

"Yer üzündə yaşayan bütün canlıların ruzisi yalnız Allaha aiddir" (Hud surəsi, 6)

Allah hər kəsin ruzisini təqdir etmiş, müəyyənləşdirmişdir. Ancaq ruzini axtarıb tapmaq insana aid olan bir işdir. İnsanın vəzifəsi ruzisini Allahın əmrinə uyğun olaraq halal yollarla qazanmaqdan ibarətdir. İnsan ruzisini necə istəsə, Allah da elə verir. Haram istəyənə haram yoldan verir, hala istəyənə də halaldan.

Əcəl

İnsanı yoxdan var edən, yaşadan Allah insanın nə qədər ömür yaşayacağını da bilir. Ömrün bitdiyi, dünya həyatının sona çatdığı vaxta "əcəl" deyilir. Ölüm səbəbləri nə olursa-olsun, əcəl birdir, dəyişməz. Əcəlin dəyişməyəcəyini Uca Allah Qurani-Kərimdə belə xəbər verir:

"Artıq onların əcəli gəldikdə onu nə bir saat gecikdirə, nə də vaxtından əvvəl həyata keçirə bilərlər". (Nəhl surəsi, 61)

Bizə düşən vəzifə isə sağlamlığımızı qorumaq, həyatımızı təhlükəyə salan şeylərdən çəkinmək, müvəqqəti olan dünyadakı vaxtımızı boş yerə keçirməmək, heç ölməyəcəkmiş kimi dünya üçün, sabah öləcəkmiş kimi axirət üçün çalışmaqdan ibarətdir.

İnsan ömrünün nə vaxt bitəcəyini, əcəlinin nə zaman gələcəyini bilmədiyi üçün, üzərinə düşən işləri vaxtında yerinə yetirməli, heç bir şeyi təxirə salmamalıdır.

Təvəkkül

Təvəkkül yerinə yetirəcəyimiz hər hansı bir iş üçün var gücümüzlə çalışıb əlimizdən gələni etdikdən sonra nəticəni Allahdan gözləməkdir. Öz tarlasını yaxşıca şumlayıb, buğdasını əkib, suvarmasını apardıqdan sonra məhsulu Allahdan gözləmək təvəkkülə ən gözəl nümunədir. Bunun əksi təvəkkül sayılmaz. Yəni heç bir səy göstərmədən bir



işin yerinə yetməsini istəmək və Allahdan nəticə gözləmək təvəkkül sayılmaz. Öz dəvəsini bayırda bağlamayıb içəri girən və "Allaha təvəkkül etdim" deyən bir nəfərə Peyğəmbərimiz belə buyurmuşdur:

"Əvvəlcə dəvəni bağla, sonra təvəkkül et!" (Kəşfül-xəfa, c. 1, s. 144).

Peyğəmbərimizin bu mübarək sözlərindən də başa düşülür ki, müsəlman əvvəlcə işin tələblərini yerinə yetirməli, sonra Allaha təvəkkül etməlidir. Namaz qılmaq, oruc tutmaq necə dini bir vəzifədirsə, dolanışığını təmin etmək üçün işləyib qazanmaq da bizim borcumuzdur. Uca Allah:

"Namaz qılınan kimi yer üzünə dağılın və Allahın fəzlindən qismətinizi axtarın", (Cümə surəsi, 10) - deyə buyurmuşdur.

Qədər və qəzaya iman

Qədər və qəzaya iman xeyir və şər, yaxşılıq və pislik, canlı-cansız, faydalı-faydasız hər şeyin Allahın elmi, iradəsi, qüdrəti və yaratması ilə mümkün olduğuna, Allahdan başqa yaradıcı olmadığına inanmaq deməkdir. Qədərə iman kainatda hər şeyin bir ölçüyə və hikmətə görə meydana gəldiyini ifadə edir.

Qədərə imanın faydaları

Qədərə İman

- ☑ Bizə kainatdakı hər şeyin Allahın elmi, iradəsi və qüdrətiylə meydana gəldiyi həqiqətini xatırladır.
- ☑ Hər hadisənin arxasında bir hikmətin olduğunu dərk etməyimizi təmin edir.
- ☑ Allahdan gələn hər şeyə razı olaraq Onun rizasını qazanmağımıza yardımçı olur.
- ☑ Bizi gələcəklə bağlı yersiz təlaş və həyəcanlardan qoruyur
- ☑ Hər işdə bir xeyir olduğu duyğusu qazandırır.



SUALLAR



1. Din nədir?
2. Son din hansıdır?
3. İslam dininin xüsusiyyətləri hansılardır?
4. İslam neçə əsas üzərində qurulmuşdur?
5. İman etmək nə deməkdir?
6. Nəyə iman edirik, iman əsaslarımız neçədir?
7. “İman bizi ümidsizlikdən qurtarır” sözü imanın nəyidir?
8. “Allah vardır, Onun var olmaması” Allahın zati sifətlərindən hansıdır?
9. Peyğəmbərimizin hədisinə görə Allah-Təalanın neçə adı var, bunların neçəsini əzbər bilirsən?
10. Möcüzə nədir və kimlər möcüzə göstərir?
11. “İsmət” nə deməkdir?
12. Quranda neçə Peyğəmbərin adı çəkilir və hansılardır?
13. “Südçünün qızı” hekayəsindən nə anladın?
14. Axirətə iman nədir və faydaları hansılardır?
15. Allahın nurdan yaratdığı varlıqlar hansılardır?
16. Neçə ilahi kitab var?
17. Suhuf nədir?
18. Vəhy bizə nə öyrədir?
19. Qədər və qəzanın fərqi nədir?
20. Canlıların yeyib içdiyi və faydalandığı şeylərə nə deyilir?

İBADƏT

- İbadətlər 62
- Təmizlik 66
- Namaz 72
- Oruc 82
- Zəkat 85
- Həcc 90
- Qurban 96

İbadətlər

İbadət nədir?

Ümumi mənada ibadət Uca Allaha boyun əymək, Ona səmimi-qəlbdən sevgi və ehtiramla qulluq etməkdir. Xüsusi mənada ibadət isə Allah tərəfindən əmr edilən və Həzrət Muhammməd əleyhissalam tərəfindən əyani surətdə göstərilən namaz, oruc, zəkat və həcc kimi əməllərə deyilir.

> "De: "Mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"
>
> **(Ənam surəsi, 162)**

İbadət həm Allahın buyruqlarını yerinə yetirmək, həm də qadağan etdiklərindən çəkinməkdir.

Namaz qılmaq, oruc tutmaq, Quran oxumaq, dua etmək, Allahı zikr etmək ibadətdir.

Yalan danışmaqdan, oğurluqdan uzaq durmaq da ibadətdir.

Həmçinin ana-ata ilə yaxşı rəftar, qohumlara gediş-gəliş də ibadətdir.

İnsanlara yaxşılıq etmək, köməklik göstərmək, onlara zərər verən hər hansı bir şeyi ortadan qaldırmaq ibadətdir.

> "Sənə ölüm gələnədək Rəbbinə ibadət et!"
>
> **(Hicr surəsi, 99)**

Salam vermək və insanlara qarşı gülərüzlü olmaq da ibadətdir.

Bir sözlə, Allahın razılığını qazandıracaq hər bir hərəkət, davranış, duyğu və düşüncə ibadət sayılır.

Nə üçün ibadət edirik?

Həyatımızın hər anında saysız-hesabsız nemətlərlə qarşılaşır və onlardan faydalanırıq. Nəfəs aldığımız hava, içdiyimiz su, yediyimiz yemək, rəngarəng, dadı və qoxusu bir-birindən fərqlənən meyvələr, ətini yediyimiz, südünü içdiyimiz heyvanlar... Məhz bunlar və digər cürbəcür ruzilər Uca Allahın insanlara bəxş etdiyi nemətlərdir.

Bir müsəlman yalnız iman gətirməklə deyil, eyni zamanda inandığını tətbiq etmək və ona əməl etməklə də məsuldur. Allaha inandığını söyləyən hər bir kəs bütün bu nemətləri bəxş edən Rəbbinə yönəlməli, qulluq etməli, boyun əyməli və itaət etməlidir. Çünki **Allaha ibadət etmək Ona olan sevginin və şükrün nəticəsidir.**

İslamın müəyyən etdiyi qaydalar çərçivəsində insanın ortaya qoyduğu hər bir davranış, sahib olduğu hər duyğu və düşüncə ibadətdir. İman ilə davranışlar arasındakı münasibət qarşılıqlıdır və ibadət imanın davranışlara əks etməsidir.

İbadətin faydaları

1. İbadətlər bizi Allaha yaxınlaşdırır:

İnsanın yaradılma məqsədi Allahı tanımaq və Ona ibadət etməkdir. İnsan ibadətlərlə Allaha olan qulluq borcunu yerinə yetirir və ibadət etməklə özünü Allaha yaxınlaşdırır. Heç bir vasitəçi olmadan bilavasitə Uca Allahdan kömək istəyir, Onun rəhmətinə sığınır və nəticədə Allahın sevgisinə nail olmağa səy göstərdiyi üçün özünü xoşbəxt hiss edir.

2. İbadətlər əxlaqımızı kamilləşdirir:

İbadət insanın təmiz, əxlaqlı və cəmiyyətə faydalı olmasına kömək edir. Qəlbini mənfi düşüncələrdən təmizləyir. Həm zahirini, həm də daxilini, yəni ruhunu paklaşdıraraq əxlaqını kamilləşdirir.

3. İbadətlər imanı gücləndirir:

İmanı qorumaq və qüvvətləndirmək yalnız ibadətlə mümkündür. İbadətlər düzgün şəkildə yerinə yetirilərsə, iman güclənər.



> "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım"
>
> **(Zariyat surəsi, 56)**

Odur ki, ibadət həm bu dünyada, həm də axirətdə insanlar üçün mühüm əhəmiyyət kəsb edir. İbadətin həzzini dadan bir müsəlman harada olursa olsun, Allaha ibadətdən əsla vaz keçməz. Peyğəmbərimiz Hz. Muhammməd əleyhissalam bu baxımdan müsəlmanlar üçün ən gözəl nümunədir. Həqiqətən də O, Allaha qulluqda çox həssas davranar, ibadət etməyi sevər və bütün ibadətlərini nöqsansız yerinə yetirərdi. Müsəlmanlara da bu barədə tez-tez tövsiyələr edərdi.

Bir nəfər Həzrət Peyğəmbər əleyhissalamın yanına gələrək:

- Ey Allahın Rəsulu, məni cənnətə aparacaq, cəhənnəmdən də uzaqlaşdıracaq əməl hansıdır?

- deyə soruşdu.

Peyğəmbər əleyhissalam belə cavab verdi.

- "Allaha ibadət et, Ona heç bir şeyi şərik qoşma. Namazlarını qıl, zəkatını ver və qohum-əqrəba ilə əlaqəni kəsmə!"

(Buxari, Ədəb, 10)

Əməli-Saleh (Yaxşılıq / Xeyirxahlıq)

"Əməli-saleh" Quranda imanla birlikdə tez-tez istifadə olunan bir ifadədir. Saleh əməl "yaxşılıq və xeyirxahlıq" mənasına gəlir. İmana müvafiq və ona münasib hər bir doğru davranış saleh əməl əhatəsinə daxildir. Saleh əməl heç kəsdən hər hansı əvəz gözləmədən yalnız Allahın razılığına nail olmaq üçün edilir. İnsanlar və bütün varlıqlar üçün faydalı olan hər bir iş Allahı məmnun edər. Namaz qılmaq saleh əməl olduğu kimi, gülərüz olmaq, ehtiyacı olan insanlara köməklik göstərmək, yaxşılıq etmək və yaxşılığa təşviq etmək, pisliyə mane olmaq, salam vermək, bir heyvanı doyuzdurub ona su vermək, hətta yoldakı zərər verə biləcək bir daşı kənara qoymaq da Allahın razılığına nail olmaq üçün edildiyi zaman dinimiz tərəfindən saleh əməl sayılır. İman davranışlarla ortaya çıxar və davranışların kamilləşməsinə səbəb olar. Həyata keçirilən hər bir xeyirxahlıq və yaxşılıq imanın meyvələri kimi sayılır.

"And olsun axşam çağına! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər (saleh əməl işləyənlər), bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa"

(Əsr surəsi, 1-3)



Mükəlləfin davranışları ilə əlaqədar terminlər

Uca dinimiz İslam bir müsəlmanın ibadətlərdən məsul sayılması üçün mükəlləf olmasını şərt qoşmuşdur. **Mükəlləf həddi-büluğa çatan və ağlı başında olan, dinin müəyyən etdiyi hökmlərdən məsul sayılan və öhdəlik daşıyan mənasına gəlir.** Oğlanlar üçün bu yaş 12-15, qızlar üçün isə 9-12-dir. Dinimizə görə mükəlləf olanın yerinə yetirməklə məsul olduğu işlərə "əfali-mükəlləfin (mükəlləfin davranışları)" deyilir.

İslama görə mükəlləfin davranışları 8 qismə ayrılır:

1. Fərz: Yerinə yetirilməsi dinimiz tərəfindən qətiyyətlə əmr edilən davranışlardır. Fərz yerinə yetirilmədikdə insan günahkar olar. İnkar edərsə, dindən çıxar.

2. Vacib: Fərz qədər qəti olmamaqla yanaşı dinimiz tərəfindən əmr edilən davranışdır. Vacib olan davranışlara qurban, fitrə, vitr və bayram namazlarını misal vermək olar. İslam alimlərindən bəziləri "vacib" başlığı altında sayılan ibadətləri qüvvətli "sünnə" çərçivəsinə daxil etmişlər. Vacibi tərk edən günah qazanar. İnkar edən dindən çıxmaz.

3. Sünnə: Hz. Peyğəmbər əleyhissalamın fərz və vacibdən başqa etdiyi davranışlar, eləcə də sözlə və ya təsdiq etməklə yerinə yetirilməsini tövsiyə etdiyi, nümunə olduğu davranışlardır. Beş vaxt namazın sünnələri kimi.

4. Müstəhəb: Peyğəmbərimiz əleyhissalamın ara-sıra etdiyi və yerinə yetirilməsi dinimiz tərəfindən xoş qarşılanan davranışlardır. Məsələn, nafilə namaz qılmaq, axşam namazını vaxtı girən kimi qılmaq, nafilə oruc tutmaq kimi.

5. Mübah: Mükəlləfə yerinə yetirib-yetirməməkdə dinimiz tərəfindən sərbəstlik verilən davranışlardır. "Caiz" kəlməsi də mübahla eynimənalıdır. Haqqında hər hansı dini qadağa olmayan bütün dünya nemətləri ümumi olaraq mübahdır. Məsələn, yemək, içmək və gəzmək kimi davranışlar bu qismə daxildir.

6. Haram: Dinimiz tərəfindən qətiyyətlə qadağan edilən davranışlardır. Haramı edən kəs günahkar olar. İnkar edən dindən çıxar.

7. Məkruh: Haram olmamaqla yanaşı, dinimiz tərəfindən xoş qarşılanmayan davranışlardır.

8. Müfsid: Bir ibadəti yerinə yetirərkən onu pozaraq etibarsız edən bir nöqsanlıq, yaxud da yanlış bir davranışdır. Məsələn, oruclu ikən yemək və ya içmək, namazda danışmaq kimi davranışlar misal verilə bilər. Etibarsız olan ibadətə də "fasid" və ya "batil" deyilir.

İslamın şərtləri

İslamın beş şərti var
Bilmək böyük səadət
Bunlara kim uyarsa
Ona açılar cənnət...

Şərtlərdən birincisi
Kəlmeyi-şəhadət
Tək və böyük Allahdan
Başqa tanrı yox əlbət.
Onun son peyğəmbəri
Şanı uca Muhammməd.

İkinci şərt **namaz**dır
O, nə gözəl ibadət
Gündə yarım saata
Sığar beş vaxt növbət...

Üçüncü şərt Ramazan
Orucunadır niyyət
Gündüz yeyib-içmədən
Sevinclə keçər müddət...

Dördüncü şərt **zəkat**dır
Allah vermişsə sərvət
Sərvətini qırxa böl
Birini hədiyyə et!

Bir dəfə **həccə getmək**
Olarsa əgər qismət.
Beşinci şərt İslamın
Kəbəsini ziyarət...

Təmizlik

Təmizlik və İbadət

İslama görə təmizlik yalnız ibadətin deyil, hər şeyin əsasıdır. Uca Alah Quranda belə buyurur: **"Allah** (günahından) **tövbə edənləri,** (təmiz və) **pak olanları sevər!"** (Bəqərə surəsi, 222). Məhz bu səbəbdən həm gündəlik həyatımızda, həm də ibadət edən zaman təmizliyə riayət etməliyik.

İslama görə 3 növ təmizlik vardır: *Maddi təmizlik, hökmi təmizlik, mənəvi təmizlik.*

"***Maddi təmizlik***" müsəlmanın ibadətlərində və gündəlik həyatında nəcasət adı verilən gözlə görülən kirlilikdən bədənini, paltarını və ibadət edəcəyi yeri təmizləməsidir.

"***Hökmi təmizlik***" ibadət niyyəti ilə edilən təmizlikdir. Dəstəmaz və ya qüslün olmamasına "hədəs" adı verilir. Dəstəmaz və qüsl almaqla hədəsdən təmizlənmiş olunur və bu təmizlənməyə "hökmi təmizlik" deyilir.

"***Mənəvi təmizlik***" isə qəlbin və nəfsin yalan, təkəbbür, həsəd, qeybət və bu kimi pislik, günah və çirkinliklərdən təmizlənməsidir.

İslamda ibadətlə sözü gedən üç təmizlik arasında sıx əlaqə vardır. Məsələn, namaz qılmaq istədikdə paltarın, bədənin və ətrafın təmiz olmasına diqqət yetirməli, həm də dəstəmaz almalıyıq. Peyğəmbərimiz əleyhissalam: *"Namazın açarı təmizlikdir,"*- buyurmuşdur (Əbu Davud, Təharət, 31). Bunlara əlavə, qəlbin və nəfsin mənəvi kirlərdən uzaq tutulmasına da diqqət edilməlidir.



"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır""

(Şəms surəsi, 9-10)

"Təmizlik imanın yarısıdır"

"Allah təmizdir, təmizliyi sevər"

(Müslim, Təharət, 1; Tirmizi, Ədəb, 41)

Dəstəmaz

Dəstəmaz müəyyən ibadətlərə qabaqcadan hazırlanmaq məqsədilə edilən təmizlikdir. Uca Allah Maidə surəsinin 6-cı ayəsində buyurur: **“Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı yuyun. Yaxınlıq edib natəmiz olmuşsunuzsa, qüsl edin. Əgər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaq yolundan gəlibsə və ya qadınlara toxunmusunuzsa** (cinsi əlaqədə olmuşsunuzsa)**, su tapmasanız, təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz”.**

Dəstəmaz almaq vəziyyətə görə fərz, vacib və ya sünnə ola bilər. Belə ki, namaz qılmaq üçün dəstəmaz almaq fərz, təvaf etmək üçün vacib, yatmazdan əvvəl dəstəmaz almaq isə sünnədir.

Dəstəmazın fərzləri

1. Üzü yumaq



2. Qolları dirsəklərlə birlikdə yumaq



3. Başı məsh etmək



4. Ayaqları topuqlarla birlikdə yumaq



Qeyd: *Şafeilərə görə niyyət və tərtibə riayət etmək də fərzdir*



Dəstəmazın alınma qaydası



1 **Niyyət**

Dəstəmaza başlamadan əvvəl *"Niyyət etdim Allah rizası üçün dəstəmaz almağa"* deyərək niyyət edilir. Sonra "Əuzubillәhi minəşşeytanir-racim Bismillәhir-Rahmənir-Rahim" oxunaraq dəstəmaza başlanır.



2 **Əlləri yumaq**

Əllər biləklərlə birlikdə (barmaqların arası quru qalmayacaq şəkildə) yuyulur.



3 **Ağıza su vermək**

Sağ əl ilə ağıza üç dəfə su alınıb çalxalanaraq yuyulur.



4 **Buruna su çəkmək**

Sağ əl ilə buruna üç dəfə su çəkilir. Ardından da hər dəfəsində sol əl ilə təmizlənir.



5 **Üzü yumaq**

Üz (saçların başladığı yerdən çənənin altı və yanaqlar daxil olmaqla) üç dəfə yuyulur.



6 **Qolları yumaq**

Əvvəl sağ, sonra isə sol qol (dirsəklərlə birlikdə) üç dəfə yuyulur.



7 **Başı məsh etmək**

Sağ əl isladılaraq başın dörddə bir hissəsi məsh olunur.



8 **Qulaqları məsh etmək**

Hər iki əlin şəhadət barmağı ilə qulaqların içi, baş barmaqla da qulağın arxası məsh olunur.



9 **Boyunu məsh etmək**

Hər iki əlin digər üç barmağı ilə boyunun arxası məsh olunur.



10 **Ayaqları yumaq**

Əvvəl sağ, sonra isə sol ayaq (barmaq aralarında və topuq ətrafında quru yer qalmayacaq şəkildə) yuyulur.



Dəstəmazı pozan hallar

- ❖ Kiçik və ya böyük tualet ehtiyacını qarşılamaq.
- ❖ Yellənmək (qaz çıxması)
- ❖ Bədənin hər hansı bir yerindən qan, irin və ya sarı suyun çıxması
- ❖ Ağızdolusu qusmaq
- ❖ Yatmaq (yuxuya getmək)
- ❖ Namaz qılarkən yanındakının eşidəcəyi qədər yüksək səslə gülmək
- ❖ Huşunu itirmək

Dəstəmazsız bunları etmək olmaz

1. Namaz qılınmaz, tilavət səcdəsi edilməz,
2. Kəbə təvaf edilməz,
3. Qurana toxunmaq olmaz.

> "Dəstəmaz aldıqları üçün ümmətimin dəstəmaz üzvləri qiyamət günündə par-par parıldayacaqdır."

Muhammməd ümmətinin nuru
(OXU MƏTNİ)

Bir gün Peyğəmbərimiz:

- Qardaşlrımı görməyi çox arzulayıram, - buyurdu. Bunu eşidən səhabələr:

- Biz sənin qardaşların deyilikmi, ya Rəsulallah? - dedilər.

Peyğəmbərimiz də:

- Siz mənim (əshabım, dostlarım) yoldaşlarımsınız. Qardaşlarımsa hələ dünyaya gəlməmiş olanlardır, - buyurdu.

Səhabələr:

- Ümmətindən hələ dünyaya gəlməyənləri qiyamət günü necə tanıyacaqsan, ya Rəsulallah? - deyə soruşdular. Peyğəmbər (s.ə.s):

- Bir adamın alnı və ayaqları ağappaq bir atı olsa, qara atlarla dolu ilxının içində öz atını tanımazmı? - deyərək səhabələrdən soruşdu.

Əshab:

- Tanıyar, ya Rəsulallah! - deyə cavab verdilər. Peyğəmbərimiz (s.ə.s) də belə buyurdu:

- *Bax, mənim qardaşlarım da dəstəmaz aldıqları üçün qiyamət günü üzləri nurlu, əl-ayaqları parlaq olaraq gələcəklər. Mən Kövsər hovuzunun başına onlardan əvvəl gələcəyəm və onları dəstəmaz üzvlərinin parlaqlığından tanıyacağam.* (Müslim, Təharət, 39)

Qüsl

Hədəsdən təmizlənmək üçün bütün bədənin təmiz su ilə yuyulmasına qüsl almaq deyilir. Böyüklərə məxsus bəzi hallarda müsəlmanların qüsl alması fərz olur. Bunun xaricində, hər bir insanın heç olmasa həftədə bir dəfə (ən yaxşısı cümə günü) qüsl alıb təmizlənməsi böyük savabdır.

Qüslün fərzləri

1. Ağıza su götürərək yaxalamaq
2. Buruna su çəkərək təmizləmək
3. Başdan-ayağa yuyunmaq

Qüslün alınma qaydası

1. Bismillah deyərək qüsl almağa niyyət edilir.
2. Bədənimizin hər hansı bir yerində kirlilik varsa təmizlənir.
3. Ayıb yerləri yuyulur.
4. Əllər biləklərə qədər üç dəfə yuyulur.
5. Sağ ovucla su götürərək ağız təmizlənir.
6. Ağız təmizləndikdən sonra buruna su çəkilərək təmizlənir.
7. Namaz dəstəmazı kimi dəstəmaz alaraq ayaqların yuyulması ən sona təxirə salınır.
8. Dəstəmaz aldıqdan sonra əvvəlcə baş yuyularaq saçların diblərinə kimi suyun nüfuz etməsinə diqqət edilir.
9. Heç bir quru yer qalmamasına diqqət edilir.
10. Sağ və sol çiyinlərə, hər birinə üç dəfə olmaqla su tökülür və ardından da bütün bədən yuyulur.
11. Ayaqlar yuyularaq çıxılır.

Təyəmmüm

Təyəmmüm su tapılmadıqda və ya sudan istifadə etmək imkanı olmayan hallarda təmiz torpaqla, yaxud torpaq növündən bir şeyə əlləri sürtərək qolları və üzü məsh etmək surətilə edilən, dəstəmaz və qüslü əvəz edən xüsusi bir təmizlikdir. Təyəmmüm su tapılana və ya sudan istifadə imkanı meydana gələnə qədər dəstəmaz və qüslü əvəz edir. Təyəmmüm İslamın asanlıq dini olduğunun nişanələrindən biridir.

Təyəmmümün edilmə qaydası

1. Bismillah deyərək dəstəmaz və ya qüsl üçün təyəmmüm etməyə niyyət olunur.
2. Əllərin içi təmiz torpağa və ya torpaq növündən təmiz bir şeyə barmaqlar açıq olmaqla sürtülür.
3. Əllər bir-birinə vurularaq torpaq qırıntıları silkələnir və üzə məsh edilir.
4. Əllər yenidən torpağa vurularaq silkələnir.
5. Ardından sol əl ilə sağ qol, sağ əl ilə də sol qol dirsəklərlə birlikdə məsh edilir.

Təyəmmümün fərzləri

1. Niyyət etmək
2. Əlləri təmiz torpağa iki dəfə vuraraq üz və qolları məsh etmək

Təyəmmümü Pozan Hallar

Qüsl yerinə təyəmmüm edilmişsə, qüslü, dəstəmaz əvəzinə təyəmmüm edilmişsə dəstəmazı pozan hallar təyəmmümü də pozur. Bundan başqa, su tapıldıqda, ya da suyun istifadəsinə mane olan hallar aradan qalxdıqda da təyəmmüm pozulur.

Dəstəmaz, qüsl və təyəmmümün əsas məqsədi və mənası

❖ Dəstəmaz, qüsl və təyəmmüm bir tərəfdən bədənimizi maddi və mənəvi kirlərdən təmizləyərkən, digər tərəfdən də bizi ibadətə hazırlayır.

❖ Dəstəmaz, qüsl və təyəmmüm vasitəsilə təmizlədiyimiz hər bir üzvümüzlə yanaşı, həmin üzvlərlə edilən günahların da təmizləndiyi müjdəsi verilmişdir.

❖ Dəstəmaz və qüsl ilə təmizliyə riayət etmiş oluruq, eləcə də bir sıra xəstlikdən özümüzü qorumuş oluruq.

❖ Dəstəmaz və qüsl almaqla bədən gümrah olur və canlılıq qazanır. Vücudunun böyük bir hissəsini suyun təşkil etdiyi insan su ilə öz yorğunluğunu ataraq yenidən dinamik olur.

❖ Təyəmmümün əsas məqsədi ibadətlərin axsatmadan, asanlıqla və heç bir çətinliyə yol vermədən yerinə yetirilməsidir.

Namaz

Namaza başlayırıq

Bir insana namazın fərz olması üçün həmin şəxsdə üç şərt mövcud olmalıdır:

1) Müsəlman olmaq,

2) Ağlı başında olmaq,

3) Həddi-büluğa çatmaq.

Namaz qılmağın namazın əvvəlində və daxilində yer alan bəzi şərtləri var. Bu şərtlərin olması fərzdir. Bunlar 12 ədəddir. Bunlardan hər hansı biri yerinə yetirilməzsə, namaz etibarlı olmaz və yenidən qılınmalıdır. Sözü gedən fərzlərdən altısı namaz qılmazdan əvvəl yerinə yetirilməlidir və bunlara **namazın** (hazırlıq) **şərtləri** deyilir. Altısı da namazın tərkib hissəsidir və bunlara **namazın rüknləri** deyilir.

Namazın şərtləri

1. Hədəsdən təharət: Namaz qılanın dini baxımdan mənəvi kirlərdən təmizlənməsidir. Bu təmizlik qüsl, dəstəmaz və ya təyəmmüm almaqla yerinə yetirilir.

2. Nəcasətdən təharət: Namaz qılanın namaz qıldığı yeri, üstündəki paltarları və bədənini maddi kirlərdən təmizləməsidir.

3. Sətri-övrət: Kişilərin ən azı göbəklə diz qapağı arasını; qadınların isə üz, əllər və ayaqlardan başqa bütün vücudunu örtməsidir.

4. İstiqbali-qiblə: Namaz qılmaq üçün qibləyə, yəni Kəbənin olduğu istiqamətə tərəf çevrilməkdir.

5. Vaxt: Hər bir namazın öz vaxtı vardır. Məhz bu səbəbdən qılınacaq namazın vaxtının girməsi şərtdir. Yatıb qalmaq və ya unutmaq səbəbilə vaxtında qılınmayan namazların ən qısa müddətdə və uyğun bir vaxtda qəzası qılınmalıdır.

6. Niyyət: Qılınan namazın hansı namaz olduğu və onun mahiyyətinin dərk olunması da şərtdir. Buna görə də hansı namazı qılırıqsa, onun üçün niyyət etməliyik.

"Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!"

(Taha surəsi, 14)

"İslam beş əsas üzərinə qurulmuşdur: Kəlmeyi-şəhadət, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və həccə getmək"

(Buxari, İman, 1)

Namazın rüknləri

1. İftitah təkbiri: Namaza "Allahu əkbər" deyərək başlamaqdır.

2. Qiyam: Namazı ayaq üstə qılmaqdır.

3. Qiraət: Qurandan ən az bir neçə ayə və ya bir surə oxumaqdır.

4. Rüku: Əlləri dizlərə qoyaraq Allahın hüzurunda əyilməkdir.

5. Sücud: Alın, burun, iki diz, iki əl və iki ayaq ucunu yerə qoyaraq Allahın hüzurunda yerə qapanmaqdır.

6. Qədeyi-axirə: Namazın axırında Əttəhiyyatu duasını oxuyacaq qədər oturmaqdır.

"Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsınız"

(Bəqərə surəsi, 110)



Günlərin birində Həzrət Peyğəmbər əleyhissalam səhabələrindən: *"Evinizin qabağında bir çay olsa və gündə beş dəfə orada yuyunsanız sizdə kirdən əsər-əlamət qalarmı?"* - deyə soruşmuşdu.

Onlar: "Xeyr!" - dedikdə, belə qarşılıq vermişdi:

-"Məhz gündə beş dəfə namaz da belədir. Allah namaz ilə günahları silər".

(Buxari, Məvaqit, 6)



Azan

Azan və müəzzin nə deməkdir?

Azan namaz vaxtlarını müsəlmanlara bildirmək üçün edilən çağırışdır. Azanı oxuyan adama "müəzzin" deyilir.

Azan nə zaman və necə oxunur?

Azan namaz vaxtı girdikdən sonra minarədən yüksək səslə oxunur. Müsəlmanlar hər gün beş dəfə azan vasitəsilə namaza dəvət olunurlar.

Azan oxunarkən nə etməliyik?

Azanı eşitdikdə sakit duraraq azana qulaq asmaq lazımdır. Müəzzinin tələffüz etdiyi sözləri qulaq asanların astadan təkrar etmələri sünnədir. Həzrət Peyğəmbər belə buyurur: *"Azanı eşitdiyiniz zaman siz də müəzzinin dediklərini təkrar edin!"* (Buxari, Azan, 7).

Azanın sözləri

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
أَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ
أَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ
أَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ
أَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ
حَيَّ عَلَى الصَّلَاةِ
حَيَّ عَلَى الصَّلَاةِ
حَيَّ عَلَى الْفَلَاحِ
حَيَّ عَلَى الْفَلَاحِ
(اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ)
(اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ)
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
لَآ اِلٰهَ اِلَّا اللّٰهُ

Azanın oxunşu

Allahu Əkbər
Allahu Əkbər
Allahu Əkbər
Allahu Əkbər
Əşhədu ən lə ilahə illəllah,
Əşhədu ən lə ilahə illəllah
Əşhədu ənnə Muhammədər-rasulullah,
Əşhədu ənnə Muhammədər-rasulullah
Həyyə `aləs-salah,
Həyyə `aləs-salah
Həyyə `aləl-fəlah,
Həyyə `aləl-fəlah
Əssalatu xayrum-minən-nəvm,
Əssalatu xayrum-minən-nəvm,*
**(bu sadəcə səhər azanında deyilir)*
Allahu Əkbər
Allahu Əkbər
Lə ilahə illəllah

Azanın mənası

Allah ən böyükdür,
Allah ən böyükdür
Allah ən böyükdür,
Allah ən böyükdür
Mən şahidlik edirəm ki,
Allahdan başqa ilah yoxdur,
Mən şahidlik edirəm ki,
Allahdan başqa ilah yoxdur
Mən şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın Rəsuludur,
Mən şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın Rəsuludur
Namaza tələsin, Namaza tələsin
Qurtuluşa tələsin, Qurtuluşa tələsin
(Namaz yatmaqdan xeyirlidir, Namaz yatmaqdan xeyirlidir)
**(bu sadəcə səhər azanında deyilir)*
Allah ən böyükdür, Allah ən böyükdür
Allahdan başqa ilah yoxdur

Azan bizə nəyi xatırladır?

Azan bizə namaz vaxtının girdiyini bildirir. Namaz müsəlmanlara aid bir ibadət olduğu üçün bir yerdə azan oxunması orada müsəlmanların yaşadığını göstərir.

Gündə beş dəfə oxunan azan bizə təvhid inancını xatırladır. Allahın varlığını, birliyini, Hz. Muhammməd əleyhissalamın Onun elçisi olduğunu qəlbimizə və ruhumuza aşılayır. Bizə yaradılış qayəmizi və xilasımızın yalnız Allaha ibadətlə mümkün olduğunu xatırladır.

Azan duası

أَللّٰهُمَّ رَبَّ هٰذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلَاةِ الْقَائِمَةِ
اٰتِ مُحَمَّداً الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَاماً مَحْمُوداً
الَّذِي وَعَدْتَهُ. إِنَّكَ لَا تُخْلِفُ الْمِيعَادَ

Oxunuşu: Allahummə Rabbə həzihid-də`avətit-təmməh. Vəs-salətil qaiməh. Əti Muhammədənil-vəsilətə vəl fədilətə. Vəb`ashu məqamən Məhmudənillezi və`adtəh. İnnəkə lə tuxliful-miad.

Ey bu kamil dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhammədə (s.ə.s) Vəsiləni və fəziləti ver. Onu, vəd etdiyin Məqamı-Mahmuda çatdır. Şübhəsiz ki, Sən vədindən dönməzsən

İqamə

İqamə nədir?

İqamə namazın başladığını bildirmək üçün fərz namazlarından əvvəl oxunur.

İqaməni kim və nə zaman oxuyar?

Camaatla namaz qılarkən müəzzin iqamənin sözlərini yüksək səslə oxuyar. Təkbaşına namaz qılanların da özləri eşidəcək yavaş səslə iqamə oxumaları sünnədir.

İqamənin sözləri azanın sözləri ilə eynidir. Lakin iqamədə "Hayyə alel-fələh"dən sonra iki dəfə "Qad qamətis-saləh" cümləsi oxunur. Bir fərq də ondadır ki, azan yavaş-yavaş və cümlələr arasında fasilə verilərək oxunduğu halda, iqamə bir az sürətlə və cümlələr arasında keçid edilərək oxunur.

İqamənin sözləri

اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
اَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ
اَشْهَدُ اَنْ لَا اِلٰهَ اِلَّا اللّٰهُ
اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ
اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ
حَيَّ عَلَى الصَّلَاةِ - حَيَّ عَلَى الصَّلَاةِ
حَيَّ عَلَى الْفَلَاحِ - حَيَّ عَلَى الْفَلَاحِ
قَدْ قَامَتِ الصَّلَاةُ - قَدْ قَامَتِ الصَّلَاةُ
اَللّٰهُ اَكْبَرُ- اَللّٰهُ اَكْبَرُ
لَا اِلٰهَ اِلَّا اللّٰهُ

İqamənin oxunuşu

Allahu Əkbər
Allahu Əkbər
Allahu Əkbər
Allahu Əkbər
Əşhədu ən lə ilahə illəllah,
Əşhədu ən lə ilahə illəllah
Əşhədu ənnə Muhammədər-rasulullah,
Əşhədu ənnə Muhammədər-rasulullah
Həyyə `aləs-salah,
Həyyə `aləs-salah
Həyyə `alel-fələh,
Həyyə `alel-fələh
Qad qamətis-salah,
Qad qamətis-salah
Allahu Əkbər
Allahu Əkbər
Lə ilahə illəllah

Gündə beş namaz

Gündə beş vaxt namaz qılmaq qadın və kişi bütün müsəlmanlara Allahın əmridir. Gün ərzində beş namaz vaxtı var. Gündəlik fərz (vacib) namazların cəmi 17 rükətdir. Beş vaxtda yerinə yetirilən fərz namazların əvvəlində və sonrasında qılınan sünnə namazların cəmi 20 rükətdir. Bundan əlavə gecə (işa) namazından sonra 3 rükətlik vitr namazı var və vitr namazının qılınması vacibdir.

Beş vaxt namazın rükət sayı

Vaxtlar	İlk sünnə	Fərz	Son sünnə	Vacib	Cəmi
Səhər (sübh)	2	2			**4**
Günorta (zöhr)	4	4	2		**10**
İkindi (əsr)	4	4			**8**
Axşam (məğrib)		3	2		**5**
Yatsı (işa)	4	4	2	3*	**13**
ÜMUMİ	14	17	6	3	**40**
				Cəmi:	**40**

* Vitr namazı

Namazın vacibləri

Dəlilləri fərz qədər açıq olmamaqla birlikdə, edilməsi zəruri və tərk olunması günah olan əmrlərə vacib deyilir.

Namazın fərzləri olduğu kimi bir sıra vacibləri də var. Bu vacibləri yerinə yetirməklə namazın fərzləri tamamlanaraq nöqsanları düzəldilmiş olur.

Namazın vacibləri bunlardır:

> **"Namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib (fərz) edilmişdir"**
>
> **(Nisa surəsi, 103)**

1. Namazı tədili-ərkana riayət edərək qılmaq,

2. Fatihə surəsini oxumaq,

3. Fatihədən sonra başqa bir surə (zəmmi surə) və ya qısa bir surə qədər ayə oxumaq,

4. Fatihə surəsini əvvəlcə oxumaq,

5. Səcdə edərkən burunu da yerə qoymaq,

6. İki oturuşlu namazlarda birinci oturuşda oturmaq,

7. Hər iki oturuşda Əttəhiyyat duasını oxumaq,

8. Namazın bir fərzi gecikdirildikdə yaxud bir vacibin unudulması və ya tərki zamanı səhv səcdəsi etmək,

9. Namaz içində oxunan səcdə ayələri varsa tilavət səcdəsi etmək,

10. Vitr namazında Qunut dualarını oxumaq və qunut təkbiri almaq,

11. Bayram namazlarında əlavə üç təkbir almaq,

12. Namazların fərzlərində ardıcılığa riayət etmək,

13. Fərz və vacibləri gecikdirməmək,

14. Namazın sonunda salam vermək,

15. Camaatla qılınan sübh, axşam və yatsı namazlarında Quran qiraətini ilk iki rükətdə açıq (səsli), günorta və ikindi namazlarında isə Quran qiraətini gizli (səssiz) oxumaq.

Namazı təkbaşına qılan sübh, axşam və yatsı namazlarını istəsə açıq (səsli) qiraətlə, istəsə gizli (səssiz) qiraətlə oxuyub qıla bilər.

Namazın sünnələri

Namazın vacibləri ilə yanaşı sünnələri də vardır. Sünnələrə davam etmək Allahın Rəsuluna sevgi əlamətidir. Bununla bərabər bu sünnələri tərk etdikdə namaz pozulmaz və təkrar qılınmasına ehtiyac olmaz.

Namazdan əvvəl və namazın içindəki sünnələr bunlardır:

1. Beş vaxt namazla cümə namazı üçün azan oxumaq, iqamə gətirmək. Azan və iqaməni tərk etmək məkruhdur. (Qadınlar üçün azan və iqamə sünnə sayılmır),

2. İftitah təkbirini alarkən əlləri yuxarı qaldırmaq,

3. Qiyamdan rükuya və səcdələrə gedərkən "Allahu Əkbər" demək, rükudan qalxarkən "Səmiallahu limən hamidəh" demək,

4. İmamın təkbirləri, "səmialahu limən hamidəh" sözünü və salamı açıqdan, səsli deməsi, camaatın isə təkbirləri, "Allahummə Rabbənə və ləkəl-həmd" sözünü və salamı səsssiz deməsi,

5. İlk təkbirdən sonra Sübhanəkə duasını, Fatihədən əvvəl əuzu-bəsmələ oxumaq və digər rükətlərdə Fatihədən əvvəl bəsmələ çəkmək, Fatihənin sonunda gizli şəkildə "Amin" demək,

6. Kişilərin sağ əlləri ilə sol biləyini göbəyin altında bağlamaları (qadınların isə sağ əllərini sol əlləri üzərinə qoyaraq biləklərini tutmadan sinələri üzərinə qoymaları),

7. Rüku və səcdədə edilən zikrləri 3 dəfə demək,

8. Rüku vəziyyətində kişilərin baramaqları açıq şəkildə, əlləri ilə dizlərini tutmaları (qadınlar isə barmaqları bitişik halda dizlərini tutmadan əllərini dizlərinin üst tərəfinə qoyarlar),

9. Qiyamda ayaqların arasını dörd barmaq qədər aralı tutmaq,

10. Oturuş vəziyyətində kişilərin sol ayaqlarını yerə yatırıb üstündə oturmaları və sağ ayaqlarını barmaqları qibləyə baxacaq şəkildə dik qoymaları (qadınlar isə iki ayaqlarını da sağ tərəfə yatırarlar),

11. Rükuda kişilərin dizlərini və bellərini düz tutmaları (qadınların dizlərini büküb, bellərini isə yuxarıya doğru azca meyilli tutmaları),

12. Səcdəyə gedərkən əvvəlcə dizləri, sonra əlləri, daha sonra isə alını və burunu yerə qoymaq, səcdədən qalxarkən isə əvvəl alını, sonra əlləri və sonra da dizləri yerdən qaldırmaq,

> **"Üzərinə günəş doğan ən xeyirli gün cümə günüdür. Adəm o gün yaradıldı, o gün cənnətə qoyuldu və yenə o gün cənnətdən çıxarıldı".**
>
> **(Müslim, Cuma 17, 18)**

13. Oturuşda əllərin barmaqlar qibləyə baxacaq şəkildə dizlərin üstünə qoyulması,

14. Oturuşlarda Əttəhiyyat duasında "lə ilələhə" deyərkən sağ əlin şəhadət barmağını qaldırıb "illəllah" deyərkən endirmək (bunu edərkən baş barmaqla orta barmaq halqa edilib, digər iki barmaqlar bükülməlidir),

15. Fərz, vacib və müəkkəd sünnələrin son oturuşunda, qeyri-müəkkəd sünnələrin isə həmçinin birinci oturuşunda təhiyyat duasından sonra Salli-bərik dualarını oxumaq,

16. Bütün namazların son oturuşunda salam verməzdən əvvəl Rabbənə dualarını oxumaq,

17. Namaz sonunda salam verərkən əvvəlcə sağ, sonra sol tərəfə salam vermək,

18. Açıq yerdə namaz qılan birinin qiblə tərəfinə sütrə *(adı verilən bir arşın (68 sm) böyüklüyündə maneə)* qoyması.

(Namaz qılanın önündən keçmək məkruh və ya haram olduğu üçün namaz qılan birinin qabağından keçməməyə diqqət olunmalıdır.)

"Qiyamət günü bəndənin hesaba çəkiləcəyi ilk əməli onun namazıdır. Əgər namazı düz olsa, işi yaxşı gedər və qazanclı çıxar. Namazı düz olmazsa, işi pis gedər və zərərli çıxar...".

(Tirmizi, Məvaqit 188)

Namazın ədəbləri

Hər işin ədəb və ərkanı olduğu kimi namazın da bir sıra ədəbləri var. Bunları tərk etmək günah sayılmaz. Ancaq bunlara riayət etmək daha fəzilətlidir, daha çox savab qazanmağa səbəbdir.

Şüurlu bir müsəlman namazda uca Rəbbimizin hüzurunda olduğunu düşünərək son dərəcə ədəbə riayət edər. Mümkün olduğu qədər qəlbini dünyadan və mənasız düşüncələrdən qorumağa çalışar.

Namazın ədəbləri bunlardır:

1. Namazda xarici və daxili baxımından hüzur və təvazökarlıq duyğusu içində olmaq,

2. Paltarın səliqə-sahmanına diqqət etmək *(dəstəmaz alarkən qatlanmış köynək və şalvarın ətəyini açmaq)*,

3. Qiyamda səcdə yerinə, rükuda ayaq uclarına, səcdədə buruna, oturuşda qucağa, salamda sağ və sol çiyinlərə baxmaq,

4. Təkbaşına namaz qılanın rüku və səcdə zikrlərini üç dəfədən çox deməsi,

5. İqamə oxunarkən "hayyə ələlfələh" deyildiyi zaman imam və camaatın namaza qalxması,

6. Namaz əsnasında imkan daxilində öskürək, əsnəmə və gəyirmə kimi hərəkətlərin qarşısını almaq, mümkün olmadığı təqdirdə ağızı yummaq və ya sağ əlin arxası ilə ağızı örtmək.

İbadət əsnasında ədəblərə riayət etmək həm ibadətə, həm də o ibadəti etdiyimiz Rəbbimizə qarşı hörmət və təzimimizi göstərir.

Namazın məkruhları

Namazın fərz, vacib sünnə və ədəbləri olduğu kimi, namazda edilməsi bəyənilməyən, bilərək edildiyi təqdirdə savabının əskiləcəyi xətalar, yəni məkruhlar vardır.

Namazda əsas məkruh əməllər bunlardır:

1. Üzrsüz olaraq bir yerə söykənmək,

2. Sağa və sola doğru əyilmək,

3. Üzrsüz və ard-arda bir və ya bir neçə addım gəzmək,

4. Bir şeyi iyləmək, tüpürmək və paltarı ilə özünü bir və ya bir neçə dəfə küləkləmək,

5. Namaza başlayanda və ya namazın içində köynəyin qollarını dirsəklərə doğru sıyırmaq,

6. Namazda əlləri üzrsüz olaraq qiyam, rüku və səcdə vəziyyətində sünnə ilə bildirilən üzvlər üzərinə qoymamaq (məsələn qiyamda əlləri yanlara salmaq),

7. İkinci rükətdə birinci rükətə nisbətən daha uzun qiraət oxumaq (bu üç ayədən çox olmamalıdır),

8. Gəyirmək, əsnəmək,

9. Öz istəyi ilə öskürmək,

10. Verilən salamı əl və ya baş işarəsi ilə almaq,

11. Dişlərin arasında qalan yemək qırıntılarını udmaq,

12. Yemək süfrəsi hazır ikən namaza başlamaq,

13. Sağa-sola baxmaq, gözü yummaq və ya göyə doğru çevirmək,

14. Barmaqları bir-birinə keçirmək və ya şıqqıldatmaq,

15. Üzdəki tər və ya torpağı silmək,

16. İmamdan əvvəl rüku və ya səcdəyə getmək, yaxud ondan əvvəl rüku və səcdədən qalxmaq,

17. Rüku və ya səcdədə zikrləri tərk etmək, yaxud üç dəfədən az oxumaq,

18. Rüknlər arasındakı təkbirlərin vaxtını gecikdirərək söyləmək,

19. Namazı qəlbi məşğul edib hüzuru pozacaq şeylərin olduğu yerdə qılmaq,

20. Yanan ocağa və məşələ qarşı namaz qılmaq,

21. Qəbiristanlıqda, yol ortasında, hamamda, heyvan peyinləri olan yerlərdə (tövlə) namaz qılmaq,

22. Ayaqyoluna getmə ehtiyacı olduğu halda namaza başlamaq,

23. Bədəndə, paltarda və namaz qılacaq yerdə namaza mane olmayacaq qədər az miqdarda nəcasətin olması,

24. Kirli paltar geyərək namaz qılmaq,

25. Rükuya gedərkən paltarı "az bir hərəkətlə" yuxarı çəkmək,

26. Üstündə insan və heyvan şəkli olan və ya üzərində yazı olan paltar ilə namaz qılmaq,

27. Namazı üzrsüz olaraq başıaçıq qılmaq,

28. Namaz qılarkən ön tərəfdə insan və heyvan (canlı) şəkilləri, büst və heykəli olması.

> **"Səcdə bəndənin Allaha ən yaxın olduğu haldır (vəziyyətdir)".**
>
> **(Müslim, Salət 2015)**

Namazı pozan hallar

1. Namazın fərzlərindən hər hansı birinin bilərəkdən yerinə yetirilməməsi.

2. Namazda ikən danışmaq və salam alıb-vermək.

3. Hər hansı bir şey yemək və ya içmək.

4. Sinənin qiblədən başqa bir istiqamətə çevrilməsi.

5. Namaz qılana kənardan baxan hər hansı bir nəfərdə həmin adamın namazda olmadığı hissini verəcək qədər namaz qılanın namaza müvafiq olmayan hərəkətlərə yol verməsi.

6. Namaz qılarkən qüsl və ya dəstəmazın pozulması.

7. Namaz qılanın özünün eşidəcəyi qədər gülməsi.

8. Namaz qılarkən üç addımdan artıq gəzmək və ya iki ayağı yerdən qaldırmaq.

9. Örtülməli olan yerlərdən birinin namazın bir rüknünü yerinə yetirəcək qədər müddətdə açıq qalması.

10. Təyəmmüm alaraq namaza başlayanın sudan istifadə imkanının əmələ gəlməsi.

Namaz qılmağın bizə faydaları

☑ Çirkin və pis olan hər cür davranışdan qorunar.

☑ Allahın böyüklüyünü daim səsləndirərək Ona olan bağlılığını möhkəmləndirər.

☑ Daim Allahı xatırlayar və gün boyu hər bir davranışında Onun razılığına nail olmağa cəhd edər.

☑ Dəstəmaz alaraq təmizliyinə diqqət yetirər, beləliklə də, təmizliyə vərdiş edər, eləcə də dəstəmaz daim onun mənəvi dayağı olar.

☑ Gözəl əxlaqa sahib olar.

Namazını yenidən qıl!
(OXU MƏTNİ)

Bir gün Peyğəmbərimiz (s.ə.s) məscidə girdi və bir kənarda oturdu. Əshabi-kiram da Onun ətrafında oturmuşdu. O əsnada bir nəfər gəlib namaz qılmağa başladı. Namaz qılan adam fərqində deyildi, lakin Rəsulullah (s.ə.s) gözləri ilə onu izləyirdi. Namazını qıldıqdan son-



ra Peyğəmbərimizin yanına gəldi və salam verdi. Onun salamını alan Peyğəmbərimiz: *"Qayıt, namazını yenidən qıl! Çünki sən namaz qılmış olmadın,"* - buyurdu.

O adam geri qayıtdı, namazını əvvəlki kimi qıldıqdan sonra Peyğəmbərimizin yanına gəldi. Peyğəmbərimiz yenə: *"Qayıt, namazını təzədən qıl! Çünki sən namaz qılmadın,"*- buyurdu. Bu hal üç dəfə təkrarlandı. Axırda o adam: "Səni həqiqəti ortaya çıxarmaq üçün göndərən Allaha and olsun ki, başqa cür qıla bilmirəm. Mənə doğrusunu öyrət!" - dedi. Bundan sonra Peyğəmbərimiz o adama bunları öyrətdi:

"Namaza durduğun zaman təkbir al. Sonra Qurandan sənə asan gələn yerdən oxu. Rüku et. Bütün vücudun tamamən hərəkətsiz qalana qədər eləcə dayan. (Üç dəfə Sübhanə Rabbiyəl-azim dedikdən) Sonra başını qaldır, tam rahatlanana qədər ayaq üstə dur. Ardınca səcdəyə qapan. Bütün üzvlərin hərəkətsiz qalana qədər səcdədən durma. (Üç dəfə Sübhanə Rabbiyəl-ə`lə dedikdən) Sonra başını qaldır. Bütün üzvlərin hərəkətsiz qalıb aram tapana qədər otur. Namazların bütün rükətlərində bu dediklərimə riayət et!" (Buxari, Azan, 95; Müslim, Səlat, 45; Tirmizi, Səlat, 110).



Namaz qılmayan şəxsə Şeytanın cavabı
(OXU MƏTNİ)

Keçmiş zamanlarda bir nəfər Ərəbistan çöllərində təkbaşına uzaq bir səfərə çıxıbmış. Şeytan onu yolundan azdırmaq üçün təğyiri-libas olub insan qiyafəsində onun qarşısına çıxır və deyir:

- Salam, ey dost. Görürəm, təkbaşına harasa səfər edirsən. İstəyirsənsə, sənə yol-yoldaşı olaram. Mənim də yolum sən getdiyin tərəfədir.

Həmin şəxs çox sevinir və şeytanın təklifini qəbul edir. Bu minvalla iki yoldaş uzun-uzadı yollarına davam edirlər. Nəhayət, qaş qaralır, axşam düşür. Birdən şeytan yoldaşına deyir:

- Mən səninlə dostluq etmək istəmirəm!

Adam bunun səbəbini soruşduqda şeytan dillənir:

- Səhərdən səni müşahidə edirəm. Səni bir dəfə də olsun namaz qılan görmədim. Mən insan qiyafəsinə girmiş şeytanam. Səni yolundan azdırmaq üçün belə etdim. Baxdım ki, səni azdırmağa ehtiyac yoxmuş. Mən Allaha yalnız bir dəfə səcdə etməyib Ona asi oldum. Bu əməlimə görə də Allah məni qiyamətə qədər lənətlədi. Sən isə gündə beş dəfə Allaha səcdə etməyə tənbəllik edirsən. Ona görə də səninlə olmağımla bir daha Allahın lənətinə düçar olmaqdan qorxuram və səninlə dostluq etməkdən imtina edirəm. Sənin vəziyyətin mənimkindən betərmiş!

Oruc

Oruc Nədir?

İslama görə oruc "dan yerinin ağarmasından gün batana qədər Allah rizası üçün ibadət məqsədilə yemək, içmək kimi davranışlardan uzaq durmaq" deməkdir. Məhz bu səbəbdən pəhriz saxlamaq, sağlam olmaq kimi səbəblərdən ac qalmaq oruc sayılmır. Çünki oruc dini ibadətdir. Belə olan halda oruc ibadət şüuru və məqsədilə tutulmalıdır. Ağlı başında olan və həddi-büluğa çatan hər bir müsəlmanın oruc tutması fərzdir.

> "Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq fərz (vacib) edildi"
>
> **(Bəqərə surəsi, 183)**

Orucun əhəmiyyəti və faydaları?

Allahın bizə buyurduğu ibadətləri yerinə yetirərkən məqsədimiz yalnız Allahın razılığına nail olmaqdır. Bununla yanaşı, Allahın əmr etdiyi ibadətlərdə, şübhəsiz ki, həm fərdi, həm də sosial bir sıra faydalar da vardır.

Orucun insana ən böyük təsiri insanın özünü tərbiyə edərək güclü bir iradəyə sahib olmasıdır. Beləliklə, insan Allah uğrunda bir sıra çətinliklərə qatlana bilməyi, iradəsini gücləndirərək qeyri-məhdud istək və zövqlərini nizamlaya bilməyi öyrənir.

Oruclu olan şəxs iradəsinə hakim olaraq səbir etmək anlayışını inkişaf etdirir. Hz. Peyğəmbər əleyhissalam *"Oruc səbrin yarısıdır,"* - buyurur. Səbir isə bir çox ibadətin və əxlaqi davranışın əsasını təşkil edir. Beləliklə, oruc insanda əxlaqi keyfiyyətlərin formalaşmasına zəmin hazırlayır. Hz. Peyğəmbər əleyhissalam oruclu ikən müəyyən hərəkətlərdən uzaq durmağı tövsiyə edir: *"Hər hansı bir nəfər sizə sataşarsa, "mən orucluyam" desin!"*

Həmçinin, oruc Allaha qarşı səmimiyyəti və qulluq arzusunu qüvvətləndirir. İnsanın sahib olduğu nemətlərin fərqinə varmasını təmin edir. Oruc tutaraq aclıq və susuzluğun mahiyyəti daha yaxşı dərk olunur. Allahın bəxş etdiyi nemətlərlə kifayətlənmək və qənaətkar olmaq kimi mühüm xislətlərə nail olunur. Oruc həm sahib olunan imkan və nemətlətlərin fərqinə varılmasına, həm də möhtac olan insanların vəziyyətlərini düşünmək və onlara köməklik göstərmək düşüncəsinin yaranmasına zəmin hazırlayır.

Ramazan ayı boyunca oruc tutmaq İslamın beş şərtindən biridir. Ramazan Quran ayıdır. Çünki Qurani-Kərim Həzrət Peyğəmbər əleyhissalama ramazan ayında nazil olmağa başlamışdır. Ona görə də ramazanda oruc tutmaq Quranın vəyh edilməsini dərindən dərk etməyə səbəb olar.

Həzrət Peyğəmbər əleyhissalam: *"Kim inanaraq və əvəzini yalnız Allahdan göz-*

ləyərək oruc tutarsa onun keçmiş günahları bağışlanar”, - buyurmuşdur. Oruc tutan insan geri qalan həyatında təmiz bir səhifə açaraq özünü günahlardan və pisliklərdən uzaq tutmağa cəhd edər.

Bundan əlavə, orucun sağlamlıq baxımından da bir sıra faydaları vardır. On bir ay boyunca dayanmadan fəaliyyətdə olan mədə, sanki bir aylıq müddətə təmirə verilmiş kimi olur. Məhz bu səbəbdən Həzrət Peyğəmbər (s.ə.s) buyurmuşdur: *“Oruc tutun, sağlam olun”*.

Həzrət Peyğəmbərimiz (s.ə.s) uca Rəbbimizin belə buyurduğunu bildirir: *“Oruc Mənim üçündür, onun əvəzini Mən verəcəyəm”* (Buxari, Səvm, 2, 9; Müslim, Siyam, 30, 164).

Oruc ibadəti ilə bağlı əsas terminlər

İmsak: Oruca başlama vaxtına deyilir. Dan yerinin ağarmağa başladığı anı bildirir. Sübh namazı vaxtının isə başlanğıcıdır.

İftar: Günəşin batması ilə birlikdə orucun sona çatdığı ana deyilir. Axşam namazı vaxtının da girdiyi zamandır.

Qəza: Yolçuluq və xəstəlik kimi hallar səbəbilə oruc tutula bilmədikdə ramazan ayı istisna olmaqla, istənilən zaman tuta bilmədiyi orucları yenidən tutmağı ifadə edir.

Kəffarə: Heç bir üzür səbəbi olmadan qəsdən pozulan orucun əvəzinə 60 gün (2 ay) ard-arda oruc tutmaqdır.

Fidyə: Xəstəlik, yaşlılıq kimi müxtəlif səbəblərdən ötrü vaxtında tutula bilməməklə yanaşı, daha sonra da qəza edilməsi mümkün olmayan hər bir gün oruc üçün insanın özünün yediyi bir günlük yemək miqdarını pulla bir yoxsula verməsi, ya da onu bir gün doyurmasıdır.

Səhur: Ertəsi günkü oruca hazırlıq və niyyət məqsədilə imsakdan əvvəlki vaxtın və həmin vaxtda yeyilən yeməyin adıdır.

Fitrə: Ramazan ayına və bu ayda nail olduğumuz bərəkətə görə şükür ifadəsi olaraq bayram namazından əvvəl verilməli olan sədəqəyə deyilir. Oruc tutsun, ya da tutmasın, dinimizə görə varlı sayılan hər bir müsəlmanın fitrə verməsi vacibdir. Fitrənin miqdarı ailə fərdlərinin sayı ilə müəyyən edilir. Adam başına bir nəfərin orta hesabla doyacağı qədər miqdar toplanaraq fitrə verilir.

İftar Duası



İftar vaxtı gəldikdə dua edərək oruc açılır. Hər bir kəs istədiyi kimi dua edə bilər. Peyğəmbərimiz əleyhissalam ümumiyyətlə aşağıdakı duanı edərək orucunu açardı:

اَللّٰهُمَّ لَكَ صُمْتُ وَبِكَ آمَنْتُ

وَعَلَيْكَ تَوَكَّلْتُ وَعَلَى رِزْقِكَ اَفْطَرْتُ

Allahım! Sənin üçün oruc tutdum, sənə inandım, sənə güvəndim. Sənin ruzinlə orucumu açdım.

Orucu pozan hallar hansılardır?

• Bilərəkdən hər hansı bir şey yemək və ya içmək. Lakin oruclu olduğu unudularaq bir şeyin yeyilməsi və ya içilməsi orucu pozmur. Oruclu ikən unudaraq bir şey yeyən, ya da içən şəxs yadına düşən zaman dərhal bunları tərk etməli və oruca davam etməlidir.

• Günəşin batdığını zənn edərək iftar etmək.

• Ağıza girən yağış və qarı bilə-bilə udmaq.

• Öz-özlüyündən gələn qusuntunu bilə-bilə udmaq.

• Dişlər arasında səhurdan qalan noxud dənəsindən böyük hər hansı bir şeyi bilərəkdən yemək.

Oruc tutmağın bizə faydaları

☑ Uca Allahın xüsusi mükafatına nail olar.

☑ Arzularından öz istəyi ilə uzaq duraraq iradəsini tərbiyə edər.

☑ Aclıq və susuzluq kimi nemətlərdən uzaq qalmağın verdiyi çətinliyə dözərək səbir etməyi öyrənər.

☑ Dilini pis və çirkin sözlərdən qoruyar.

☑ Özündən daha çox möhtac olanların halını başa düşər və onların ehtiyaclarını qarşılama istiqamətində səy göstərər.

☑ İnanaraq və əvəzini yalnız Allahdan gözləyərək oruc tutduğu üçün keçmiş günahları bağışlanar.

☑ Həm fiziki, həm də mənəvi cəhətdən sağlam və qüvvətli olar.

Ramazan ayı

On bir ayın sultanı
Ramazanım xoş gəlib.
Gözəl günlər yaşamaq
Bəxtimizə tuş gəlib.

Ey Allahım, çin olsun
Arzumuz, niyyətimiz.
Bizi xoşbəxt eləsin
Ülvi məhəbbətimiz.

İnsana yaraşarmı
Tamahına qul olsun?
Qəlbi saf olanların
Orucu qəbul olsun!



Zəkat

Zəkat və sədəqə

İslamın beş əsas şərtindən biri də zəkar verməkdir. Zəkat mal ilə yerinə yetirilən fərz bir ibadətdir. Dinimizə görə varlı sayılan müsəlmanlar mal-dövlətinin müəyyən bir hissəsini ibadət məqsədilə Qurani-Kərimdə bildirilən yerlərə verməlidirlər.

Zəkat ilə sədəqə bir-birinə bənzəyir, lakin eyni deyil. Zəkat ildə bir dəfə verilir və müəyyən hesabla miqdarı təyin edilir. Sədəqə isə hər zaman verilə bilər və hər hansı miqdara bağlı deyil. Həm də sədəqə daha geniş mənanı ifadə edir.

Sədəqə təkcə pul və ya mal ilə möhtaclara edilən yardımdan ibarət deyil. Həzrət Peyğəmbər *səllallahu əleyhi və səlləm* bir sıra işlərin də sədəqə olduğunu bildirmişdir:

• *Orqanlarımızın bizə təmin etdiyi faydaları düşünərək şükür etmək sədəqədir.*

• *Aralarında anlaşılmazlıq olan iki nəfər arasında ədaləti tətbiq etmək sədəqədir.*



• *Miniyinə minmək və ya yükü yükləmək istəyənə köməklik göstərmək sədəqədir.*

• *Xoş söz söyləmək sədəqədir.*

• *Cənazəni qəbrə qədər müşayiət etmək və onu daşımaq sədəqədir.*

• *Bilik öyrənmək və ya ibadət məqsədilə bir yerə getmək sədəqədir.*

• *Yolda insanları narahat edən hər hansı bir şeyi götürmək sədəqədir.*

• *Yaxşılığa təşviq etmək və yaymaq sədəqədir.*

• *Salam vermək sədəqədir.*

• *Ailəsinin ehtiyaclarını təmin etmək sədəqədir.*

• *Pisliklərə əngəl olmaq sədəqədir.*

• *Halal işlər etmək sədəqədir.*

• *Haram olan işlərdən uzaq durmaq sədəqədir.*

• *Mömin qardaşına qarşı gülərüzlü və xoşxasiyyətli olmaq sədəqədir.*

• *"Allahu əkbər", "Əlhəmdulillah", "Lə ilahə illəllah" sözlərini söyləmək sədəqədir.*

"Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! O kəslər ki, lağlağıdan (lüzumsuz şeylərdən, qadağan olunmuş əməllərdən) üz döndərərlər; O kəslər ki, zəkat verərlər"

(Müminun surəsi, 1-4)

Zəkatın faydaları

İslam dini insanların bir-birinə yardım etmələrinə əhəmiyyət verir. Uca Allah Maidə surəsinin 2-ci ayəsində belə buyurur: **“Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın!”**

Bir cəmiyyətdə insanların qarşılıqlı bir-birinə köməklik göstərmələri nə qədər çox olarsa, sosial nizam və sosial ədalət də o qədər güclü olar. İslam dini zəkatla bu tarazlığı həssasiyyətlə qurmağa səy göstərmişdir. Varlılar möhtaclara yardım edərək onların ehtiyaclarını qarşıladıqlarında, onların arasında güclü bir əlaqə və münasibət meydana gələr. Məhz bu güclü münasibət nəticəsində sosial rifah və həmrəylik əmələ gələr.

İslama görə müsəlmanlar bədənə bənzəyir. Belə ki, bədənin bir üzvü narahat olduqda, digər üzvlər də bundan təsirlənir. Yəni, hər hansı müsəlmanın bir problemi olan zaman digər müsəlmanlar gücü çatdığı qədər onun probleminin həllində iştirak etməyə cəhd edərlər.



> “Ey iman gətirənlər! Sədəqələrinizi, özünü insanlara göstərərək malını riyakarlıqla xərcləyən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın”.
>
> **(Bəqərə surəsi, 164)**

Bir mənası da “təmizləmək” olan zəkat həm zəkat verənin malını, həm də cəmiyyəti təmizləyir. Çünki hər bir cəmiyyətdə müşahidə olunan dilənçilik və oğurluq kimi qeyri-əxlaqi davranışların bəziləri zəkat sayəsində ən az həddə endirilir.

Zəkat varlının yoxsula bir lütfü deyil, yoxsulun varlının malındakı haqqıdır. Çünki zəkat Alahın əmridir. Varlıya həmin var-dövləti verən də Allahdır. Belə olan halda müsəlman zəkatı və ya sədəqələri, eləcə də etdiyi digər xeyir-xahlıqları ilə təkəbbürlənməz, minnət qoymaz və qarşısındakına qarşı təhqiramiz davranışlardan uzaq durar.

Zəkat verməyin insanın əxlaqına da müsbət təsirləri vardır. Belə ki, malik olduğu var-dövlətdən zəkat verən insan xəsislik, eqoistlik, təkəbbür, acgözlük kimi mənfi və pis xüsusiyyətlərdən xilas olar. Zəkat insanın özünü tərbiyə etməyin ən

mühüm yollarından biridir. Zəkat verən insan özünü sahib olduğu var-dövlətin qulu olmaqdan xilas edər və beləcə zəngin qəlbli bir insan olar.

Zəkatı verilən mal-dövlət azalmaz, Allahın bərəkətləndirməsi ilə artaraq çoxalar. Bu, Allahın vədi və müjdəsidir. Belə ki, Allah-Təala Bəqərə surəsinin 261-ci ayəsində buyurur: **"Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsənin mükafatını artırar. Allah lütfü ilə genişdir, hər şeyi biləndir"**. Həzrət Peyğəmbər (s.ə.s) də: *"Zəkat verərək mal-dövlətinizi mühafizə edin!"* - buyurur.

Kimlər zəkat verməlidir?

Bir müsəlmanın zəkat verə bilməsi üçün, daha doğrusu zəkatın ona vacib olması üçün zəngin olması şərtdir. Zəngin ola bilməsi üçün isə səy göstərməlidir. Qurani-Kərimin Nəcm surəsinin 39-cu ayəsində **"İnsana ancaq öz zəhməti** (səyi, çalışması) **qalar** (ona nail olar)**!"** - buyrulur. Belə olan halda, İslam tənbəlləri sevmir.

İslam varlıların möhtaclara zəkat və sədəqə verərək Allah yolunda xərclənmələrini əmr edir. Lakin mal-dövlət və gəlir səviyyəsi aşağı olanların bu əmrə güvənərək tənbəllik etmələrinə və başqaları vasitəsilə keçinmələrinə də əsla razı olmamışdır. Belə ki, Həzrət Peyğəmbər əleyhissalam belə buyurmuşdur: "*Verən əl, alan əldən üstündür*".

Odur ki, vermək, bölüşmək, yardımlaşmaq və insanların dərdlərinə ortaq olmaq ən əsas insani vəzifələrdəndir. Məhz bu səbəbdən zəkat alan deyil, zəkat verərək insanların ehtiyaclarını qarşılayan insanlardan olmağa cəhd etməliyik.

İslama görə zəkatın vacib olması üçün bir sıra şərtlər vardır. Bu şərtlərin bir qismi zəkat verənlə, digərləri isə zəkat verilən mal-dövlətlə bağlıdır:

Zəkat verənlə əlaqəli şərtlər:

❖ *Ağlı başında olub ruhi xəstə olmamaq və həddi-büluğa çatmaq*

❖ *Varlı olmaq:* Borclardan və əsas ehtiyaclardan savayı geriyə qalan və üstündən bir il keçmiş mal-dövləti "nisab" miqdarına çatan hər bir müsəlman varlı sayılır.





Zəkat verilən mal-dövlətlə əlaqəli şərtlər:

❖ *Mülkiyyətdə olması:* Zəkat verilən malın həm özü, həm də ondan gələn gəlir mal sahibinin səlahiyyətində olmalıdır. Əlində olmayan, girov qoyulan, ya da faydası olmayan mallardan zəkat verilmir.

❖ *Nisab miqdarına çatması:* Nisab miqdarı dinimizin mallar üçün qoyduğu həddir. Əsas ehtiyaclarını çıxdıqdan sonra nisab miqdarı mal-dövlətə sahib olan hər bir kəs varlı sayılır. Hər malın nisab miqdarı fərqlidir. Məsələn, qızıl üçün nisab miqdarı 80 qram, gümüş üçün isə 560 qramdır.

❖ *Çoxalan olması:* Malın sahibinə qazanc və ya gəlir gətirməsi, yaxud da öz-özlüyündə (məsələn heyvanlar kimi) çoxalan mal olması lazımdır.

❖ *Bir il keçməsi:* Zəkat verilən mal-dövlətin üstündən bir il keçməlidir.

❖ *Ehtiyacdan artıq olması:* Müsəlmanın özünün və dolanışığını qarşılamaqla məsul olduğu kəslərin əsas ehtiyaclarını qarşılayacaq miqdardan savayı mal-dövləti varsa zəkat verməlidir. Əsas ehtiyaclardan məqsəd "özü və ailəsi üçün bir illik yemək-içmək, geyim, məişət əşyası, ev, iş üçün ləvazimat, minik və kitablar"dır.

❖ *Niyyət etmək:* Bir müsəlman zəkat verərkən zəkat ibadətini yerinə yetirdiyinə dair niyyət etməlidir. Əks təqdirdə zəkat deyil, sədəqə vermiş sayılır. Lakin zəkat verdiyi şəxsə verdiyinin zəkat olduğunu bildirməsi vacib deyildir. Hətta bildirməməsi daha məqsədəuyğun bir davranışdır.

"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi şəxs üçün bunu qat-qat artırar. Allahın lütfü genişdir. O, hər şeyi biləndir.".

(Bəqərə surəsi, 61)

Nələrdən zəkat verilir?

Qızıl, gümüş, pul, heyvan, ticari mal kimi əşyalardan və torpaq məhsullarından hər birinin nisab miqdarına çatması ilə birlikdə digər şərtlər də meydana gələrsə zəkat vermək fərz olur. Hər malın nisab miqdarı və həmin maldan verilməli olan zəkat miqdarı fərqlidir. Aşağıda bununla bağlı nümunələr qeyd olunur:

Adı	Nisab miqdarı	Zəkat miqdarı
Qızıl	80 qram	1/40
Gümüş	560 qram	1/40
Qoyun	40 ədəd	1 qoyun
Keçi	40 ədəd	1 keçi
İnək	30 ədəd	1 inək
Dəvə	5 ədəd	1 qoyun
Torpaq məhsulu	653 kq	Zəhmətsiz və xərcsiz götürülən məhsuldan **1/10** əks təqdirdə **1/20**

Zəkat kimlərə verilməlidir?

Zəkatın kimlərə veriləcəyinə dair Allah-Təala Qurani-Kərimdə Tövbə surəsinin 60-cı ayəsində bizə məlumat vermiş və belə sadalamışdır:

1. ***Yoxsullar***
2. ***Miskinlər,***
3. ***Zəkatı yığıb paylayanlar,***
4. ***Ürəkləri isinişib bağlanmaqda olanlar,***
5. ***Azad ediləcək kölələr,***
6. ***Borclular,***
7. ***Allah yolunda cihad edənlər***
8. ***Yolçular.***

Zəkat verməyin bizə faydaları

☑ Xəsislik və təkəbbür kimi pis xasiyyətlərdən uzaqlaşar.

☑ Bəxş edilmiş nemətlər üçün Allaha şükür etməyin vacibliyini, şükrün isə yalnız sözlə deyil, şüurla da lazımlığını dərk edər.

☑ Varlılarla kasıblar arasındakı sosial-iqtisadi ədalətsizliyin aradan qaldırılmasına təkan verər.

☑ Cəmiyyətdə dilənçilik, oğurluq, cibgirlik kimi pis vərdişlərin azalmasına vasitəçilik edər.

☑ Birlik və bərabərlik ruhunu canlı tutar.

☑ Özünü var-dövlətin qulu olmaqdan xilas edər və beləliklə də, malik olduğu imkanların həqiqi sahibinin Allah-Təala olduğu əqidəsini mənimsəyər.

☑ Vermək, bölüşmək, köməkləşmək və bir müsəlman qardaşının dərdinə çarə olmaq kimi əsas insani keyfiyyətlərlə kamilləşər.

> "Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə (savaba) nail olmayacaqsınız. Şübhəsiz ki, Allah xərclədiyiniz hər bir şeyi biləndir!".
>
> **(Ali-İmran surəsi, 92)**

Həcc

Həcc nədir?

İslamın beş əsasından biri də həcc etməkdir. Həcc Kəbəni və ətrafındakı müqəddəs məkanları ilin müəyyən vaxtında üsuluna uyğun olaraq ziyarət etməkdir. Bu ibadəti yerinə yetirənə "hacı" deyilir. Həcc həm bədən, həm də mal ilə edilən ibadətdir.

Həccin fərz olması üçün aşağıdakı şərtlər olmalıdır:

❖ Müsəlman olmaq

❖ Ağlı başında və həddi-büluğ yaşında olmaq

❖ Azad olmaq

❖ Həccə gedib-qayıdacaq qədər maddi imkana sahib olmaq.

❖ Həccə getməyə mane olacaq hər hansı xəstəliyin olmaması

❖ Həccə gedərkən istifadə edilən yolun təhlükəsiz olması

Həccin əhəmiyyəti və faydaları

Həcc də digər ibadətlər kimi Allahın fərz buyurduğu bir ibadətdir. Həcc ibadətində həm fərdi, həm də ictimai bir sıra faydalar vardır.

Həcc milyonlarla müsəlmanın bir yerə toplandığı bir ibadətdir. Özünü bu möhtəşəm qələbəliyin içində görən bir insan Allahın hüzurunda toplaşacağı günü, yəni məhşəri xatırlayar. Bu duyğu və düşüncələrlə həmin gün verəcəyi hesabı fikirləşər və beləliklə, hələ bu dünyada ikən özünü hesaba çəkmə fürsətinə nail olar. Həyatını bir daha nəzərdən keçirər, nöqsanlarını və xətalarını düzəltmək imkanı əldə edər. Allaha, bəxş etdiyi nemətlər üçün şükür edərək günahlarından tövbə edər. Beləliklə, Həzrət Peyğəmbər əleyhissalamın buyurduğu kimi anasından doğulduğu günkü kimi, tərtəmiz bir ruha və şüura qovuşar.

Həccin digər ibadətlərdən fərqli olaraq bir də beynəlxalq tərəfi və faydası vardır. Çünki həcc ibadətini yerinə yetirməyə dünyanın dörd bir tərəfindən müsəlmanlar axışırlar. Həcc üçün Məkkəyə gələn müsəlman digər ölkələrdəki fərqli mədəniyyətdən olan müsəlmanlarla tanış olur və nəticə etibarilə təfəkkür üfüqü də inkişaf edir. İslamın qardaşlığa verdiyi əhəmiyyəti bir daha müşəxxəs şəkildə, canlı olaraq dərk edir və birlik duyğusunu daha da çox hiss edər.

İrqi, rəngi, cinsiyyəti, dili, sosial mövqeyi və yaşı bir-birindən fərqli insanların bir yerə toplaşdığı həcdə insanların bərabərlik və ədalət duyğuları inkişaf edər. Həcc ibadətini yerinə yetirən bir müsəlman mənsəb, mövqe və var-dövlət kimi maddi və dünyaya aid dəyərlərin mühüm olmadığını dərk edər, eləcə də bunlarla təkəbbür etməkdən çəkinər.

"Onun yolunda gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur".

(Ali-İmran surəsi, 97)

Həcc ilə bağlı əsas terminlər

1. Miqat: Həzrət Peyğəmbər əleyhissalam tərəfindən müəyyən edilmiş, Məkkədən başqa digər bölgələrdən həcc üçün gələnlərin ehrama girdikləri yerlərdir. Həccə gələnlərin bu hüdudları ehramsız keçməsi caiz deyildir. Haram bölgəsinə gedənlər miqat yerlərindən əvvəl də ehrama girə bilərlər.

Miqat yerləri

Məkkəyə

Mədinə istiqamətindən gələnlər üçün
Zülhüleyfə

Dəməşq istiqamətindən gələnlər üçün
Cühfə

İraq istiqamətindən gələnlər üçün
Zatı-İrq

Nəcd tərəfdən gələnlər üçün
Qərn

Yəmən tərəfdən gələnlər üçün
Yələmləm

2. Ehram: Oruclu ikən yemək yeməyin, namaz qılarkən gülməyin qadağan olması kimi həccin də özünəxas bəzi qadağaları vardır. Həcdəki qadağalara ehram deyilir. Ehram həcc etməyə niyyət edənin normal vaxtlarda edə bildiyi çiçək toplamaq, saç kəsdirmək, tikişli paltar geymək, ov etmək kimi bəzi davranışlardan həcc müddətində uzaq durmasıdır. Həcc ibadəti yerinə yetirilərkən geyilən, ehrama girildiyini bildirən xüsusi paltarlara da "ehram libası" deyilir.

3. Vəqfə: Qurban bayramından bir gün əvvəl (Ərəfə günü) Məkkənin cənub-şərqində yerləşən Ərəfat adı verilən dağın yanına gedərək həmin yerdə bir müddət gözləməkdir. Vəqfə olmazsa həcc ibadəti yerinə yetirilmiş olmur. Vəqfə Qurban bayramının ərəfə günü günorta vaxtından bayramın birinci günü dan yerinin ağarmasına qədərki vaxtda yerinə yetirilir. Ərəfatda toplaşan müsəlmanlar günahlarının bağışlanması və bütün insanlığın xeyirinə Allaha dua edərlər.

4. Şövt: Həcərüləsvədin olduğu küncdən başlayaraq Kəbənin ətrafında bir dəfə fırlanmaqdır.

5. Təvaf: Kəbənin ətrafında yeddi dəfə fırlanmaqdır. Bir təfav yeddi dəfə fırlanmaqdır. Yəni yeddi şövt bir təvaf sayılır.

6. Səy: Kəbənin şərq tərəfində olan Səfa və Mərvə təpəcikləri arasında Səfadan başlayaraq Mərvədə tamamlamaq şəklində dördü gediş, üçü gəliş olan yeddi dəfə gedib-gəlməkdir.

7. Təlbiyə: Ehrama niyyət etdikdən sonra oxunan duadır: "**Ləbbeyk Allahummə ləbbeyk. Ləbbeykə lə şərikə ləkə ləbbeyk. İnnəl-hamdə vən-nimətə ləkə vəl-mülk lə şərikə lək!**"

Mənası: *"Buyur, hüzurundayam, Allahım, dəvətini eşitdim, sənə yönəldim! Sənin heç bir şərikin yoxdur, Allahım! Əmrinə boyun əydim, qapına gəldim. Həmd-səna Sənə məxsusdur; nemət Sənin, mülk Sənindir. Sənin heç bir şərikin yoxdur, Allahım!"* (Buxari, Həcc, 26, Libas, 69; Müslim, Həcc, 19, 147, 269, 271).



Gəlin həcc edək

Həccin yerinə yetirilmə qaydası



1 Miqat deyilən yerdə ehrama niyyət edərək ehramlarımızı geyinirik.



2 Məkkəyə çatdıqda Kəbəyə gedərək təvaf edirik.



3 Səfa ilə Mərvə arasında səy edirik.



4 Ərəfə günü Ərəfata gedərək həccin fərzlərindən biri olan vəqfəni edirik.



5 Axşam Müzdəlifədə qalaraq Müzdəlifə vəqfəsini edirik. Burada şeytan daşlamaq üçün daş toplayırıq.

6 Qurban bayramının səhəri günü (Zilhiccənin 10-cu günü) Minaya gedərək şeytan daşlayırıq.



7 Bunun ardınca qurban kəsərək saç qırxdırır və ehramdan çıxırıq.



8 Kəbəyə gedərək fərz olan ziyarət təvafını edirik.



9 Beləliklə, həcc ibadətimizi tamamlamış oluruq.



10 Məkkədən ayrılarkən Kəbəyə gedərək vida təvafı edirik.



Həcc ibadəti ilə əlaqədar məkanları tanıyaq



Kəbə: Məkkədə Məscidi-Həram deyilən məscidin ortasında dördbucaqlı məbədin adıdır. Digər bir adı isə Beytullahdır (Allahın evi). Kəbə Həzrət İbrahim və Həzrət İsmayıl tərəfindən inşa edilmişdir. Yer üzündə ilk məbəddir. Müsəlmanların namaz qılarkən yönəldikləri qiblədir. Uca Allah Qurani-Kərimdə buyurur: **"Haradan** (səfərə) **çıxsan,** (namaz vaxtı) **üzünü Məscidülhərama tərəf çevir!"** (Bəqərə surəsi, 150). Müqəddəs daş olan "həcərüləsvəd" (qara daş) Kəbənin şərq tərəfindədir. Kəbəni örtən və üstündə həcc ayələrinin yazıldığı qara örtük hər il ərəfə günü dəyişdirilir.



Səfa və Mərvə: Kəbənin 200 metr şərqində olan iki təpəcikdir. Hal-hazırda Məscidi-Haramın divarı ilə bitişikdir. Qurani-Kərimdə Səfa və Mərvə ilə bağlı Bəqərə surəsinin 158-ci ayəsində belə buyurulur: "(Ey möminlər!) **Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir** (yəni ibadət nişanələrindəndir)**. Evi** (Kəbəni) **həcc və ya ümrə yolu ilə** (qaydası ilə) **ziyarət edən şəxsin bunları təvaf etməsində** (ətrafına dolanmasında) **heç bir günah yoxdur. Hər kəs** (vacibdən əlavə) **könüllü olaraq yaxşı bir iş görsə, Allah** (onun etdiyi yaxşı işdən) **razı qalandır** (əvəzini verəndir)**,** (onu) **biləndir".** İki təpəcik arasındakı məsafə 350 metrdir. Həcc əməllərindən olan səy, məhz həmin bu iki təpəcik arasında yerinə yetirilir. Hz. İbrahim əleyhissalam həyat yoldaşı Həcərlə oğlu Hz. İsmayılı Allahın əmri ilə Kəbənin olduğu yerin yaxınlığına qoyub bəzi işləri səbəbilə oranı tərk edir. Bir müddət sonra suyu tükənən Həcər anamız su axtarmağa başlayır. Oğlu Hz.İsmayıldan çox uzaqlaşmamaq üçün bir Səfa təpəsinə, bir Mərvə təpəsinə qaçaraq kömək axtarmağa başlayır. Məhz həcc ibadətini yerinə yetirməyə gələnlər Hz. Həcər anamızın su axtarmaq üçün qaçdığı bu iki təpəcik arasında sürətli şəkildə yeddi dəfə gedib-gəlirlər.



Ərəfat: Məkkənin cənub-şərqində yerləşir. Rəvayətə görə Hz. Adəm və Hz. Həvva uzun ayrılıqdan sonra yer üzündə yenidən bir-biri ilə buradakı Rəhmət dağı (Cəbəli-rəhmət) üzərində görüşmüşlər. Bu dağın ətrafı Ərəfat adlanır.



Müzdəlifə: Ərəfatla Mina arasındakı bölgənin adıdır. Hacılar ərəfə günü günəş çıxana qədər olan müddətdə burada vəqfə edirlər. Buna "Müzdəlifə vəqfəsi" deyilir. Bundan əlavə, şeytan daşlamaq üçün buradan daş toplanır.



Mina: Məkkə ilə Müzdəlifə arasındakı bölgənin adıdır. Şeytan daşlama yerləri buradadır. Hacılar qurbanlarını burada kəsirlər.



Məscidi-Nəbəvi: Peyğəmbərimizin Məkkədən Mədinəyə hicrətindən dərhal sonra Mədinədə inşa etdirdiyi məbədin adıdır. Peyğəmbərimiz əleyhissalamın qəbri də bu məsciddədir.



Haram bölgəsi: Məkkə və onun əhatəsinə verilən addır. Zərərverici heyvanlar istisna olmaqla, heyvanların öldürülməsi və bitkilərin qoparılması qadağan olduğu üçün bu bölgəyə "qadağan bölgə" mənasına gələn "Haram" adı verilmişdir.



Ümrə

Həcc ibadətindən başqa ilin digər hər hansı bir vaxtında ehrama girərək təvaf və səy etdikdən sonra, saç kəsdirib ehramdan çıxaraq yerinə yetirilən ibadətdir. Allah-Təala Qurani-Kərimdə ümrə ilə bağlı belə buyurur: **"Allah üçün həcc və ümrəni tam yerinə yetirin"** (Bəqərə surəsi, 196). Ümrənin iki fərzi vardır: Ehram və təvaf.

Ümrə ilə həcc arasındakı fərqlər

	Həcc	Ümrə
Ehrama girmək	✓	✓
Təvaf	✓	✓
Səy	✓	✓
Vəqfə	✓	×
Şeytan daşlama	✓	×
Qurban kəsmək	✓	×

"Ramazanda edilən ümrə mənimlə birlikdə edilən həcc kimidir".

(Buxari, Həcc, 4; Müslim, Həcc, 438)

Qurban

> "De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm".
> **(Ənam surəsi, 162-163)**

Qurban nədir?

Qurban bayramının ilk üç (zilhiccə ayının 10, 11, 12) günündə qurbanlıq bir heyvanı mənəvi baxımdan Allaha yaxın olmaq və Onun razılığını qazanmaq üçün kəsməyə "qurban" deyilir. Qurban mal ilə yerinə yetirilən vacib ibadətdir.

Qurbanlıq heyvanda tələb olunan xüsusiyyətlər aşağıdakılardır:

❖ Qurbanlıq heyvan qoyun, keçi, inək və dəvə cinsindən olmalıdır.

❖ Qoyun və keçi cinsindən olan heyvanlar **bir yaşını**, inək cinsindən olanlar **iki yaşını**, dəvə isə **beş yaşını** doldurmuş olmalıdır.

❖ Kəsiləcək heyvan sağlam, üzvləri tam olmalı və hər hansı qüsuru olmamalıdır.



Qurban ibadətinin əhəmiyyəti

Qurban yaxınlaşmaq deməkdir.

Öz qazancı ilə aldığı və ya böyütdüyü bir heyvanı qurban edən müsəlman sırf Allahın əmri olduğunu fikirləşərək və heç bir maddi qarşılıq gözləmədən bu ibadəti yerinə yetirir. Bununla da o, Allahın əmrinə itaət etmiş, qulluq şüurunu ortaya qoymuş və mənəvi cəhətdən Rəbbinə yaxınlaşmış olur.

Qurban kəsən bir müsəlman kəsdiyi qurbanı digər insanlarla bölüşərək sosial yardımlaşma ruhunu canlandırar və müsəlmanlar bir-birilərinə hədiyyə verməyin sevincini duyarlar.

Qurban Allahın verdiyi nemətlərə şükür etməyin təzahürü olan bir ibadətdir. Bundan başqa, nemətlərin bəşər övladına bir əmanət olduğu şüurunu da inkişaf etdirir.

Qurban ibadətinin yerinə yetirildiyi günlər olan Qurban bayramı boyunca namazlarda təşriq təkbiri deyilir. Bu təkbirlərlə dünyanın müxtəlif yerlərində yaşayan bütün müsəlmanlar ortaq duyğuları səsləndirirlər.

> "Onların nə əti, nə də qanı Allaha çatmaz. Ona yalnız sizin təqvanız (səmimi-qəlbdən etdiyiniz ibadət) çatar".
> **(Həcc surəsi, 37)**

Qurban kəsərkən nələrə diqqət edilməlidir?

Qurban bayramı günü bayram namazından sonra hazırlıqlara başlanılır. Qurban ediləcək heyvan kəsiləcəyi yerə əziyyət edilmədən aparılır. Heyvanı kəsərkən incitməmək və ona çox əziyyət verməmək üçün iti bıçaq hazırlanır. Heyvanın gözləri bağlanır, başı qibləyə çevrilir. Mümkün mərtəbə Ənam surəsinin 162-ci və 163-cü ayələri oxunur. Bundan sonra üç dəfə ***"Allahu əkbər. Allahu əkbər. Lə iləhə illəllahu vəllahu əkbər. Allahu əkbər və lilləhil-həmd"*** deyərək təkbir oxunur. Allaha dua edildikdən sonra ***"Bismilləhi Allahu əkbər"*** deyərək qurban kəsilir.

Qurban kəsənlər qurbanlığa şəfqətlə davranmalı, ona əziyyət verən davranışlardan çəkinməlidirlər. Qurbanı kəsdikdən sonra hər yer yaxşıca təmizlənməlidir. Bundan başqa, qurbanın istifadə olunmayan hissələri torpağa basdırılır, ya da bunun üçün xüsusi hazırlanmış yerlərə qoyularaq ətraf mühitin təmizliyinə diqqət edilir. Allahın razılığına nail olmaq üçün bir ibadət yerinə yetirilərkən başqa insanlar narahat edilməməlidir. Heç bir ibadət başqalarına əziyyət etməyə icazə vermir. Allah üçün kəsilən qurbanın əti israf edilməməlidir.

Kəsilən qurbanın əti üç hissəyə bölünür: Bir hissəsi qurbanı kəsənin öz ailəsinə; üçdəbiri yoxsullara və möhtaclara; qalan üçdəbiri də qohum-əqrəba, qonum-qonşuya və qonaqlara təqdim edilir.

Qurbanı kimlər kəsməlidir?

Qurban kəsmək ibadətini aşağıdakı şərtləri daşıyan hər bir müsəlman yerinə yetirməlidir:

- ☞ Ağlı başında olub ruhi xəstə olmayan və həddi-büluğa çatan
- ☞ Zəkat verəcək qədər mal-dövlətə sahib olan
- ☞ Yolçu olmayan

Qurban bayramı

Allah yolunda xərclə
Dövlətini, malını.
Ürəyindəki iman
Nurlandırar yolunu.

Mərhəmətli Allahım,
Günahlardan keçəndir.
O, yaxşıları pisdən
Ayırandır, seçəndir.

Yaradan qəlbimizə
İlahi nur ələsin.
Verdiyiniz qurbanı
Allah qəbul eləsin!



SUALLAR

1. Nə üçün ibadət edirik?
2. İbadətin nə kimi faydası var?
3. Əməli-saleh nə deməkdir?
4. Mükəlləf kimdir və felləri hansılardır?
5. Haram nədir, misallar verin?
6. İslama görə təmizlik neçə yerə ayrılır və hansılardır?
7. Dəstəmazı pozan halları hansılardır?
8. Su olmadıqda dəstəmaz əvəzinə edilən əmələ nə deyilir?
9. Namazın neçə şərti var və hansılardır?
10. Gündəlik vaxt namazlarının rükət sayı neçədir?
11. Rükun nədir?
12. Namazı pozan hallar hansılardır?
13. Azan ilə iqamə arasındakı fərq nədir?
14. "Namazını qılmayan şəxsə şeytanın cavabı" hekayəsindən nə başa düşdün?
15. Ramazan ayında yerinə yetirilən ibadətlər hansılardır?
16. Varlı müsəlmanların malından bir hissəni kasıblara verməsinə nə deyilir?
17. Həm bədən həm də mal ilə edilən ibadət hansıdır?
18. Həcc ilə bağlı terminlərdən bir neçəsini izah edin?
19. Müsəlmanın neçə bayramı var və hansılardır?
20. Qurban nədir?

ƏXLAQ

- Əxlaq 100
- Əxlaqi vəzifələrimiz 103
- Məişət ədəbləri 116
- İctimai davranışlarda ədəb qaydaları 118
- İslam əxlaqında xoş qarşılanmayan hallar 135

Əxlaq

Əxlaq nədir?

İnsanın ruhunda yerləşən vərdişlərə **əxlaq** deyilir. Əxlaq kəlməsi ərəbcə "xülq" kəlməsindən törəmişdir və bu kəlmənin cəm halını ifadə edir. "Xülq" yaradılış deməkdir. Yəni əxlaq kəlməsi insanın yaradılış fitrətinə uyğun olan və olmayan davranış tərzlərini, etik normaları, yəni insanın mənəvi keyfiyyətlərini ifadə edir. Hər bir insanın xarakteri, xasiyyəti, müsbət və mənfi davranışları onun əxlaqını təşkil edir.



Bədən üzvlərimizin hərəkəti ruhumuzla əlaqəlidir. Ruhumuza yaxşı vərdişlər yerləşərsə, bizim hərəkət və davranışlarımız da yaxşılaşar və gözəlləşər. Buna **"gözəl əxlaq"** deyilir. Əgər ruhumuza pis vərdişlər yerləşərsə, o zaman davranışlarımız pis olar. Buna da **"pis əxlaq"** deyilir.

Gözəl əxlaqlı insan ola bilmək üçün pis xasiyyətlərdən uzaq durmaq, gözəl vərdişləri öyrənmək və bunları əxlaqımızla ortaya qoymaq lazımdır.

Nəticə olaraq əxlaq insanın özü də daxil olmaqla bütün varlıq və insanlarla münasibətlərində necə davranıb-davranmayacağını göstərən dəyər qaydalarının cəmidir.

Əxlaqa duyulan ehtiyac

Biz insanlar acanda yemək yeyirik, susayanda su içirik, yorulanda dincəlirik, yuxumuz gələndə yatırıq. Bəs nə üçün acır, susayır, dincəlir və yatırıq? Bu sualların cavabını hamımız bilirik. İnsan vücudunun bitkilər və heyvanlar kimi həyat fəaliyyətini və canlılığını davam etdirə bilməsi üçün qidaya, suya, dincəlməyə və yuxuya ehtiyacı vardır. Bu mənada insan digər canlılarla müştərək bioloji quruluşa sahibdir.

İnsanlar da müəyyən qədər təbii ehtiyaclarını ödəmək üçün fitri olaraq proqramlaşdırılıblar. Ancaq insan bu proqamla yanaşı, bir də yalnız ona xas olan mənəvi xüsusiyyətlərə malikdir. İnsan azad şəkildə qərar verə bilmə qabiliyyətinə, iradəyə, düşünmə qabiliyyətinə və təsirləndiyi mədəni mühitə sahibdir.

Düşünmək

Düşünmək insanın fərqli qərarlar verməsinə səbəb olur. Bu qərarları həyata keçirmək üçün insan öz iradəsini həyata keçirir. İradə insanın sahib olduğu ən təsirli gücdür. İnsanın iradəyə əsaslanan davranışları digər təbii davranışlarından fərqlənir. İradəli davranışlar istəyərək, şüurlu olaraq icra edildiyinə görə, sərbəst və azad davranışlardır. Bizim iradəmizlə



Bilirsinizmi?

Bitkilər və heyvanlar həyatlarını davam etdirmək üçün özünəməxsus xüsusiyyətlərə sahibdirlər. Hörümçəklər yem tapmaq üçün tor qurur, arılar pətəklərdə yaşayır, quşlar yuva düzəldir, qoyunlar yemək üçün hansı otları yeyəcəklərini bilirlər. Hər heyvan təbii şərait içərisində necə yaşayacağını, özü üçün nəyin yaxşı, nəyin pis olduğunu daxili instinktlə bilir.



formalaşan bu sərbəst davranışları əxlaqi davranışlar adlandırırıq.

Təbii davranışlarla əxlaqi davranışları fərqləndirmək üçün belə bir misal verək: məsələn, çox isti otaqda sərinləmək istəyi təbii bir istəkdir və bu məqsədlə insan pəncərəni açmaq istəyir. Ancaq əgər otaqda olan digər insanlardan biri xəstədirsə və pəncərənin açılması onu narahat edirsə, ağıllı insan düşüncəsindən istifadə edərək əxlaqlı bir qərar verər və pəncərəni açmaz. Və ya ac olan və yemək almağa pulu olmayan bir insan əgər əxlaq düşüncəsinə sahibdirsə, oğurluq etmək, yaxud yeməkləri icazəsiz götürməkdənsə ac qalmağa üstünlük verər. Ya da dərsə gecikən bir şagirdi düşünək. Dərsə niyə gecikdiyini soruşan müəllimə həqiqəti söyləyərsə, buna yaxşı davranış, yalan danışarsa, pis davranış deyirik. Bu misallar insanın belə hərəkətlərində sərbəst olduğunu, lakin əxlaq sayəsində onlar arasında seçim etdiyini göstərir.

> əxlaq insanın özü də daxil olmaqla bütün varlıq və insanlarla münasibətlərində necə davranıb-davranmayacağını göstərən dəyər qaydalarının cəmidir.

Bizim gözəl davranış qaydası olaraq bildiyimiz bütün bu hərəkətlər ictimai həyatda əxlaqın nə qədər zəruri olduğunu göstərir.

Din-əxlaq münasibətləri

Din ilə əxlaq tarix boyunca çox yaxın münasibətdə olub, bir-birinə yaxından bağlıdır. Dinin əsası Allahın razılığını qazanmağı nəzərdə tutan əxlaqdır. Din əxlaqı əsas alır. Din insanın şəxsiyyətini formalaşdırmaq və onu ucaltmaq istəyir. Buna görə də onun davranış və əməlləri ilə maraqlanır. Din əxlaqlı həyat tərzini tövsiyə edir.

Əxlaq dedikdə ilk ağıla peyğəmbərlər və onların davranışları gəlməkdədir. Gözəl əxlaqlı ola bilmək üçün hər mövzuda peyğəmbərləri örnək almaq lazımdır. Çünki peyğəmbərlərin əxlaqı Allah-Təala tərəfindən gözəlləşdirilmişdir.

Dinimiz İslama görə iman ilə əməl bir-biri ilə yaxından əlaqəlidir. Buna görə də imanı qüvvətli olan insanın əxlaqı da gözəlləşər. Çünki o, öz hərəkətlərində Allahın buyruqlarını və peyğəmbərin davranışlarını nümunə götürür. Əxlaqı gözəlləşdirən imanın davam etməsi üçün isə onu ibadətlərlə qidalandırmaq lazımdır.

İslama görə gözəl əxlaq

Dinimiz İslama görə əxlaq dindən ayrı deyildir. İslamın əsas məqsədi fərdin düzgün, vicdanlı və etibarlı bir insan olmasıdır. Dini həyat əxlaqi davranışlardan ayrı ola bilməz. Əxlaqlı həyat tərzi imanlı həyat tərzinin davamıdır. Qurani-Kərimdə belə buyurulur: **"Yaxşı əməl** (ibadət vaxtı) **üzünüzü şərqə və qərbə tərəf çevirməyiniz deyildir. Yaxşı əməl sahibləri o kəslərdir ki, Allaha, axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə inanar, mal-dövlətini sevməsinə baxmayaraq onu qohum-əqrəba, yetimlər, yoxsullar,** (pulu qurtarıb) **yolda qalanlar, dilənçilər və qulların azad olunması üçün sərf edər, namazı qılar, zəkatı verər, əhd etdikləri zaman əhdlərinə sadiq qalar, darlıqda, çətinlikdə, eləcə də döyüş vaxtı səbir edərlər. Onlar** (sözlərində və əməllərində) **sadiqlərdir, əsil müttəqilərdir".** (Bəqərə, 177)

Peyğəmbərimiz Həzrət Muhammməd (s.ə.s) həm imanın, həm də əxlaqın necə olacağını bizə göstərmiş, düzgün yoldan ayrılmaması və yüksək əxlaqlı həyat tərzi ilə bunu ortaya qoymuşdur. Bir hədisində: *"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim"*, (Malik, Muvatta, Hüsnül-xulq, 8, II/904) - buyuraraq İslam dininin mayasında gözəl əxlaqın olduğunu elan etmişdir.

İslamın əxlaq prinsipləri Allaha iman çərçivəsində insanın özünə və başqalarına aid vəzifələri ilə yanaşı, ailəsinə, vətəninə, dövlətinə, maddi və mənəvi mənada ətraf mühitinə qarşı vəzifə və məsuliyyətlərini öyrədir.



Əxlaqın faydaları

Dinimiz İslam ən mükəmməl varlıq olan insana layiq olduğu ən yüksək qiyməti verir. Çünki dinimizə görə insan məxluqatın ən şərəflisidir. Buna görə də İslamın mənimsətmək istədiyi əxlaq prinsipləri uca varlıq olan insanın xoşbəxtliyinə və kamilləşməsinə xidmət edir.

Bu həyatdakı ən xeyirli insanlar əxlaqı ən gözəl olan insanlardır. Unutmayaq ki, əxlaqın əsas məqsədi insanı həm özü, həm də içərisində yaşadığı cəmiyyət üçün faydalı hala gətirməkdir. İctimai bir varlıq olan insan yaşamaq üçün ictimai mühitə möhtacdır. İnsanın şərəfli yaşaması və xoşbəxt olması üçün ictimai mühit də müəyyən bir ahəng içərisində olmalıdır. Bu cəmiyyətin insanları yaxşılıq və təqvada bir-birinə kömək edəcək, özü üçün istədiyini başqası üçün də istəyəcək, özündən çox cəmiyyətin mənfəətini düşünəcək, pis işlərə mane olacaq, yaxşı işlərə dəvət edəcək savadlı və tərbiyəli fərdlərdən meydana gəlməlidir.

İslam əxlaqı insanın təkcə özü və öz ölkəsi üçün faydalı olmasına deyil, bütün dünyanın, hətta kainatın təbii nizamının qorunmasına, hər yanda sülh və əmin-amanlığın, sağlam bir mühitin formalaşmasına xidmət edir. İnsanlığa zərər verən və kainatdakı təbii tarazlığı pozmağa səbəb olan işlər isə dinimizdə qadağan edilmişdir.

Əxlaqi vəzifələrimiz

1. Allaha qarşı vəzifələrimiz



Bir insanın onu yaradan Allaha qarşı vəzifələrini yerinə yetirməsi onun borcudur. Bu vəzifələri belə sıralaya bilərik:

1. Uca Allahın varlığına, bir olduğuna və ondan başqa heç bir ilahın olmadığına inanmaq.
2. İbadət vəzifələrini yerinə yetirmək.
3. Yalnız Allaha ibadət etmək və yalnız ondan yardım istəmək.
4. Uca Allahı hər şeydən çox sevmək, adını hörmətlə anmaq.
5. Allahın halal buyurduqları ilə kifayətlənib haramlara yönəlməmək.
6. Əmrlərinə uyğun hərəkət edib, qadağan etdiyi şeylərdən çəkinmək.
7. Allaha qarşı hər zaman ədəbli və tərbiyəli olmaq.
8. Bizə verdiyi saysız nemətlərə görə hər zaman ona şükür etmək.
9. Allahı hər an dilində və qəlbində zikr etmək, onu yaddan çıxarmamaq.

2. Peyğəmbərimizə qarşı vəzifələrimiz



Allahın ən gözəl nemətlərindən biri də bizi Hz. Muhammməd (s.ə.s) kimi bir peyğəmbərə ümmət etməsidir. Ümməti olduğumuz Peyğəmbərimizə qarşı vəzifələrimiz bunlardır:

1. Peyğəmbərimizin sonuncu peyğəmbər olduğunu bilmək və buna inanmaq.
2. Onun gətirdiyi yol ilə getmək.
3. Onu çox sevmək və adı yanımızda çəkildikdə Ona salavat göndərmək (“*səlləllahu aleyhi və səlləm*” kimi).
4. Onun ümməti olduğumuz üçün Allaha şükür etmək.
5. Ona layiq bir ümmət olmağa çalışmaq.
6. Sünnələrini yerinə yetirmək və gözəl əxlaqı ilə əxlaqlanmağa çalışmaq.
7. Peyğəmbərimizə (s.ə.s) olduğu kimi, onun xanımlarına və dostlarına/səhabələrinə də hörmət-ehtiram göstərmək.
8. Nümunəvi hayatını oxumaq, oxutmaq və ibrət götürmək.



3. Qurani-Kərimə qarşı vəzifələrimiz



Qurani-Kərim Uca Allah tərəfindən Peyğəmbərimiz (s.ə.s) vasitəsi ilə bütün bəşəriyyətə göndərilmiş son müqəddəs kitabdır. Quranla bağlı öhdəliklərimiz:

1. Qurani-Kərimin Allah tərəfindən göndərilən son ilahi kitab olduğuna inanmaq.
2. Qurani-Kərimi qaydasına uyğun şəkildə təlim və təcvid ilə oxumaq.
3. Mənasını başa düşməyə çalışmaq.
4. Qurani-Kərimi oxuyarkən və dinləyərkən son dərəcə diqqətli və hörmətkar davranmaq.
5. Qurani-Kərimi oxuyarkən ədəbli oturmaq (məsələn, ayaq uzatmamaq, üzüstü uzanmamaq).
6. Qurani-Kərimin "et" dediklərinə əməl etmək, "etmə" dediklərindən isə uzaq durmaq.
7. Qurani-Kərimə dəstəmazsız toxunmamaq (hətta mümkünsə dəstəmazsız oxumamaq).
8. Qurani-Kərimi (hörmət olaraq) göbəkdən aşağı səviyyədə gəzdirməmək.
9. Qurani-Kərimi pul müqabilində oxumamaq



4. Ata-anaya qarşı vəzifələrimiz



Ata-anamız bizim dünyaya gəlməmizə vəsilə olan dəyərli böyüklərimizdir. Onlara qarşı gözəl rəftar göstərmək həm Allahın, həm də Rəsulunun buyruqlarında yer almaqdadır. Valideynlərimizə qarşı vəzifələrimizi belə sıralaya bilərik:

1. Ata və anaya yaxşılıq etmək, onların maddi və mənəvi ehtiyaclarını təmin etmək.
2. Ata və anamı söz və davranışlarla incitməmək, onlara qarşı gülərüzlü və şirin dilli olmaq.
3. Allahın əmrlərinə zidd olmamaq şərtiylə ata və ananın bütün istəklərini yerinə-yetirmək.
4. Öz üzərində ən çox anasının, sonra da atasının haqqı olduğunu bilmək.
5. Ata və ananın sözündən çıxmamaq və bu zaman onlara "Uf" belə deməmək.
6. Onlarla kobud şəkildə yüksək səslə danışmamaq.
7. Çağırdıqları zaman dərhal yanlarına getmək, ata-ananın üzünə qayıdıb cavab qaytarmamaq.
8. Onlardan icazəsiz bir yerə getməmək.
9. Ata və ana qocaldıqda onlara qayğı göstərib xidmət etməyin vacib olduğunu unutmamaq.
10. Vəfat etdikləri zaman onları yada salıb arxalarından daim dua etmək.

Cənnətə gedən yol
(OXU MƏTNİ)

Hər birimiz insanıq. Bəzən əsəbiləşir, bəzən tələşlanırıq. Bəzən kədərlənir, bəzən dərdlənirik. Belə hallar yanımızda olan insanlarla münasibətlərimizə də təsir göstərir, sözlə və ya hərəkətlə reaksiya göstəririk. Bütün bunları edərkən hər nə olursa olsun, həyatımızda səsimizi belə yüksəldə bilməyəcəyimiz kimsələrin olduğunu bilirikmi?

“Onlara: “Uf!” belə demə, üstlərinə qışqırıb acı söz söyləmə!”. (İsra surəsi, 23)

Bəli, bu insanlar atamız və anamızdır. Onlar ki, dünyaya gəlişimizin vəsiləsi, körpələyimizdən etibarən sığınacağımız, daldalanacağımız, şəfqət və mərhəmət qucağımız, ilk müəllimlərimizdir.

Əziz dostlar!

Heç yeni doğulan bir quzu və ya dayça gördünüzmü? Doğulduğu ilk anlarda ayağa qalxma cəhdlərinə şahid olmuşunuzmu? Heyvanın balaları bir az çalışdıqdan sonra yeriməyə başlayır. Qısa bir müddət sonra da öz-özünə yaşamağa davam edir. Bəs biz, insan övladı?

Biz dünyaya gəlişimizlə gözlərimizi acizliyə açırıq. Aciz və qorumasız başladığımız həyatda Rəbbimiz bizi bu iki insana əmanət etmişdir: atamız və anamız! Onlar bizə ad qoymaqdan ilk addımımıza, fiziki sağlamlığımızdan mənəvi sağlamlığımıza qədər hər məsələmiz üçün sevgiylə yorulmadan səy göstərirlər, qayğımıza qalırlar. Onların dualarında, göz yaşlarında, şəfqət dolu baxışlarında, gələcəyə aid xəyyallarında hər zaman biz varıq.

Bəs yaxşı, hər şeylərini biz balaları uğrunda gözlərini qırpmadan fəda edə bilən ata və analarımız üçün nə etməliyik? Allah-Təala bu barədə bizə belə buyurur: **“Onların hər ikisini acıyaraq mərhəmət qanadının altına alıb: “Ey Rəbbim! Onlar məni körpəliyimdən nəvazişlə tərbiyə edib böyütdükləri kimi, sən də onlara rəhm et!” - de”.** (İsra surəsi, 24)

Deməli, hər zaman onların bizə olan mərhəmətini xatırlayacağıq; onlar yanımızda olanda da, uzaqda olanda da, həyatda ikən də, öldükdən sonra da onlara daim dua edəcəyik. Həm dilimizlə dua edəcəyik, həm də etdiyimiz xeyirxahlıqlarla onlara yaxşılıq edəcəyik. Verdiyimiz sədəqələri onların ruhaniyyətlərinə hədiyyə edəcəyik ki, Rəbbimiz, qazandığımız savablardan onlara da pay versin.

Hədisi-şərifdə: *“Allahın razılığı ata və ananın razılığından keçir, Allahın narazılığı da ata və ananın narazılığından keçir”*, - deyə buyurulur. Digər bir hədisdə də Peyğəmbərimiz (s.ə.s): *“Onlar sənin ya cənnətin, ya da cəhənnəmindir”*, - deyə buyurur. Deməli, atamız və anamızı hər zaman razı etməyə çalışmalıyıq. Onlar günahkar, hətta kafir olsalar belə, onlara qarşı yaxşı davranıb razı salmaq lazımdır. Təbii ki, əgər Rəbbimizin bizdən razı qalmasını istəyiriksə.

Ata-anaya hörmət

Peyğəmbərimizin (s.ə.s) dövründə əshabi-kiramdan bir nəfər Allah Rəsulunun yanına gələrək belə dedi: “Ey Allahın Rəsulu, mənim anam xəstə bir qadındır. O, həccə getmək istədi. Yeriməyə taqəti olmadığı üçün mən onu belimə götürərək həcc ibadətini yerinə yetirməsini təmin etdim. İndi mən ona olan haqqımı ödəmiş oluramm?” Allah Rəsulu (s.ə.s) belə buyurdu: *“Xeyr! Bunu etməklə onun sənin üçün bir gecə yuxusuz qalmasının belə haqqını ödəyə bilməzsən. Ancaq yenə də bu etdiyin hərəkətin sənə çox böyük əcri vardır”.*

Bir gün onlar da qocalacaqlar. Bəlkə də, lap əldən-ayaqdan düşəcəklər. O zaman onlar bizim üçün yenə qazanc vəsiləsi olacaqlar. Bir vaxtlar sevgi ilə bizi saran qucaqlar indi bizim qucağımıza möhtac olacaqlar. Bu da Rəbbimizin hikmətlərindən biridir. Peyğəmbərimiz (s.ə.s): *"Atası və anası yanında yaşlandığı halda onların könlünü xoş edib cənnətə haqq qazana bilməyənin burnu yerə sürtülsün"*, - deyir. Deməli, bu böyük bir fürsətdir. O halda qocalar evində ölüb gedənlərin övladları üçün nə acı bir aqibətdir, elə deyilmi?

Dostlar!

Hər namazın axırında oxumağımız üçün öyrədilən bir dua var, mövzumuzu onunla yekunlaşdıraq: **"Ey Rəbbimiz! İnsanların hesaba çəkiləcəyi qiyamət günündə məni, ata-anamı və bütün möminləri bağışla!"** Amin!

5. Yaxınlarımıza və qohumlarımıza qarşı vəzifələrimiz



İnsan ictimai varlıqdır. Tənha qalaraq normal bir həyat yaşaya bilməz. Buna görə də istər-istəməz qohum-qardaş və dost-tanışlarla əhatə olunur. Onlara qarşı vəzifələrimiz bunlardır:

1. Onlara sevgi və hörmət göstərmək.
2. Ehtiyacı olanlara yardım etmək.
3. Onları unutmamaq, ziyarətlərinə getmək.
4. Uzaqda olanları məktub və ya telefonla axtarıb yada salmaq.

6. Qonşularımıza qarşı vəzifələrimiz



Ailə və qohumlarımızdan sonra bizə ən yaxın olan kəslər qonşularımızdır. Qonşularla davranış xüsusunda dinimizin bir çox tövsiyələri var. Bunları belə sıralaya bilərik:

1. Qonşuların haqqına hörmət göstərmək *(müsəlman əli və dili ilə başqasına əziyyət etməkdən qaçınmalı, evdə səs-küy salmaq və ya zibil tökməklə qonşuları çətin vəziyyətdə buraxmamalıdır)*.
2. Qonşusunu çarəsizlik və ehtiyac içində görəndə onun köməyinə çatmaq, sevinc və kədərlərinə ortaq olmaq.
3. Qonşunun evini, o olmadığı zamanlarda qorumaq.
4. Qonşuya aid olan əşya və ya meyvəsini ondan icazəsiz götürməmək.
5. Qonşuları vaxtaşırı ziyarət etmək, xəstələndiklərində baş çəkmək və yaxından maraqlanmaq.
6. Qonşumuz müsəlman olmasa belə, onlarla yaxşı rəftar etmək *(müsəlman öz həyatı ilə qonşularına gözəl nümunə olmalı, onlara əziyyət etməkdən çəkinməlidir)*.

7. Vətənə qarşı vəzifələrimiz



İnsan torpaqsız, vətənsiz yaşaya bilməz. Hər bir insan istər ki, üstündə azad yaşaya biləcəyi, öz dini vəzifələrini rahatca yerinə yetirə biləcəyi vətəni olsun. Bu mənada vətən də bir nemətdir. Müsəlmanın öz vətəninə-dövlətinə qarşı bir çox vəzifələri var. Bunları belə sıralaya bilərik:

1. Vətəni qeydsiz-şərtsiz çox sevmək.
2. Din və namusun vətən olmadan qoruna bilməyəcəyini unutmamaq.
3. Vətənin maddi və mənəvi inkişafı üçün çalışıb əlindən gələni etmək.
4. Vətəni sevməyin ona xidmət etməklə bərabər olduğunu bilmək.
5. Hər qarış torpağı şəhid qanları ilə sulanan vətənimizin qədir-qiymətini çox yaxşı bilmək.
6. Vətənin birlik və bərabərliyini qorumaq üçün dinimizi öyrənib başqalarına da öyrətmək.
7. Vətənin hər qarış torpağını düşmənlərdən qorumaqdan çəkinməmək və qanımızın son damlasına qədər vuruşaraq canımızı sevə-sevə verməkdən, şəhid olmaqdan qaçmamaq.
8. Vaxtı gəldiyi zaman vətən borcumuz olan əsgərlik xidmətini layiqincə yerinə yetirmək.

Vətən sizin üçün nə ifadə edir?
(OXU MƏTNİ)

Bir misal var, bülbülü qızıl qəfəsə qoymuşlar "Ah vətənim!" demiş. "Vətən haradır?" deyə soruşmuşlar, "bir ağacın budağı" demiş.

Heyvanlar belə, doğulduqları, yaşadıqları yerin həsrətini, sevgisini hiss edərkən, insanlar nə üçün bunu hiss etməsin, elə deyilmi?

Rəbbimiz bir çox aləm və bu aləmdə yaşayan bir çox varlıq yaratmışdır. Heyvanları, bitkiləri, canlı-canız varlıqları belə öz aralarında qruplar halında yaradan Rəbbimiz insanları da millətlərə ayırmışdır. Fərqli-fərqli irqdən milyonlarla insan bir dünya üzərində yaşayır və hər birinə də Rəbbimiz hökm edir. Düşünün ki, bir meydançada eyni anda iki oyun oynana bilərmi? Ortalıq bir anda qarışar. Kainatda isə milyonlarla nizam-intizam içində hər kəs öz həyat oyununa davam edir. Bu, Rəbbimizin böyüklüyünün nişanəsidir.

Qütbdə yaşayan heyvan mülayim iqlimdə yaşaya bilmir, tropik bölgədə yetişən meyvə başqa bir yerdə yetişə bilmir. Yaradılan hər varlıq olduğu yerin

Vətən uğrunda

Kim bu cənnət vətənin uğruna olmaz ki, fəda?
Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
Canı, cananı, bütün varımı alsın da Xuda,
Etməsin tək vətənimdən məni dünyada cüda!

(Mehmet Akif Ersoy)

xüsusiyyətlərinə görə rahat bir həyat yaşaya bilər. Məhz elə buna görədir ki, hər insanın da yaşadığı vətəni, yurdu, evi var.

İnsan bir yerə aid olaraq, bir yuvaya möhtac şəkildə yaradılır. İlk doğulduğu anda belə ana qucağına, onun istiliyinə ehtiyac hiss edir. Vətən sevgisi də buradan gəlir. Bir neçə gün belə olsa evinizdən ayrı yerdə qalsanız, eviniz üçün darıxarsınız. Hətta yatdığı yatağın belə həsrətini çəkənlər var. Bu sevgi bizim içimizə yerləşmişdir; bir vətənə aid olub o vətəni mənimsəmək sevgisi.

Vətəndən uzaqda yaşayanlar yenidən vətənlərinə qayıtmaq eşqi və ümidi ilə yaşayarlar. Orada eyni dili danışdıqları insanlar olsa da, ürəkləri doğulduqları torpağı axtarar. Bunları düşünərək yaşadığımız vətənin dəyərini bilməliyik, əziz dostlar!

"Vətən sevgisi imandandır", - deyə buyurulur. İnsanın doğulduğu yerə məhəbbəti eyni zamanda onun vəfasını da göstərir. Vəfamızı və sevgimizi davranışlarımızla göstərməli, vətənimiz üçün əlimizdən gələn hər şeyi etməkdən geri durmamalıyıq. Bu vətən indi bizim məsuliyyətimizdə olsa da, gələcəkdə bizdən sonrakı nəsillərə qalacaqdır. Onları da düşünərək yaşamaq, hər zaman daha yaxşısı üçün çalışmaq lazımdır. Unutmayın ki, bizdən əvvəlkilərdə vətən sevgisi və vətəni qoruma həyəcanı olmasaydı, bu vətən indi bizim olmazdı. Onlar heç bir zaman vətən uğrunda mübarizə aparmaqdan geri çəkilməmişlər, vətən yolunda şəhid olub bizim bu günlərə qovuşmağımıza səbəb olmuşlar. Bizim üzərimizə düşən vəzifə onların cəsarətini, əzmini, çalışqanlığını və vətənpərvərliklərini nümunə götürüb, bayrağımızı gələcək nəsillərə qürurla təhvil verməkdir. Doğulduğumuz torpaqlara vəfamızdan bir iz, məhəbbətimizdən bir damla qoya bilsək, necə də xoşbəxt insanlar olarıq!

Hicrət
(OXU MƏTNİ)

Peyğəmbərimiz (s.ə.s) və ən səmimi dostu Əbu Bəkr (r.a) müxtəlif işgəncələr və həqarətlərdən sonra Allahın verdiyi iznlə, nəhayət, Mədinəyə doğru hicrət yoluna çıxmışdılar. Ancaq Onun (s.ə.s) könlü acı və ələmlə dolu idi. Çox sevdiyi Kəbəsindən, yurdundan, ata-baba torpağından, uşaqlığını və gəncliyini keçirdiyi mübarək bölgədən, vətənindən qoparılmışdı. Həm də təkcə insanlara yaxşılığı əmr etdiyi, pislikdən uzaqlaşdırmağa çalışdığı üçün. Öz qanından, canından olan insanları səadətə, cənnətə çağırdığı üçün...



Gül dostunun isə gözləri dolmuşdu. Allah Rəsuluna hüznlə baxırdı. Nələr hiss etdiyini başa düşür və içi yanırdı. Öz acısı bir heç idi onun üçün; ancaq Allah Rəsulunun acısına kədərlənirdi. Onun qəm çəkməsini istəmirdi. Kaş ki, əlindən nə isə gələrdi. Ancaq ediləcək heç bir şey qalmamışdı. Allah Rəsulunu canından can bildiyi bu torpaqlardan ayırmamaq üçün bir çarə yox idi. Allahın əmri də gəldikdən sonra artıq hicrətin vaxtı idi.

Düşündü, Əbu Bəkr, başqa yerlərə vətən deyə bilərdilərmi? Başqa evlərə evim deyib girə bilərdilərmi? Başqa torpaqları özləri üçün vətən seçə bilərdilərmi? Çox çətin! Bəlkə də, qeyri-mümkündür! Ancaq buna məcbur idilər.

Gözü yaşlı Rəsul (s.ə.s) çevrilib son dəfə bu dərdli bölgəyə, qərib vətəninə baxırdı. Mübarək dodaqlarından bu sözlər tökülürdü göz yaşlarına qarışaraq: *"Vallahi, sən Allahın yaratdığı yerlərin ən xeyirlisi, Allah dərgahında ən sevimli olanısan! Səndən çıxarılmasaydım, buradan heç ayrılmazdım. Mənə səndən daha gözəl, daha sevimli vətən yoxdur. Qövmüm məni səndən çıxarmasaydı, səndən ayrılmaz, səndən başqa heç bir yerdə yurd-yuva qurmazdım".*

O hüznlü ürəyin sahibinə Rəbbindən bir təsəlli gəldi: **"***(Ey Peyğəmbər!)* **Şübhəsiz, Quranı** *(oxumağı və təbliğ etməyi)* **sənə fərz buyuran Allah səni qayıdacağın yerə** *(Məkkəyə)* **mütləq qaytaracaqdır..".** (Qəsəs, 85)

O ən gözəl insan həyatı boyunca ana vətəni olan Məkkə sevgisi ilə yaşadı. İslamın böyüdüyü Mədinəni isə özünə ikinci vətən olaraq mənimsədi, var gücü ilə oranı qorumağa çalışdı, güclənməsi və rifahı üçün əlindən gələni etdi. Çünki yaşanılan yerdə əmin-amanlıq olmasa, insanlar heç bir şeyə nail ola bilməz, əsla inkişaf edə bilməzlər.

8. Şəhidlik və qazilik



Şəhid: Allah yolunda, din və vətən uğrunda ölənlərə şəhid deyilir.

Qazi: Allah yolunda, din və vətən uğrunda vuruşub döyüşdən sağ qayıdan qəhrəmanlara qazi deyilir.

Allah-Təala şəhidlərlə əlaqəli Qurani-Kərimdə belə buyurur: **"Allah yolunda öldürülənlərə "ölülər" deməyin! Əksinə, onlar diridirlər, lakin siz bunu hiss etmirsiniz".** (Bəqərə, 154)



Bu ayə ilə şəhidlərin ölməzliyi bildirilmişdir.

Ölümlərin ən gözəli və ən şərəflisi şəhid olaraq ölməkdir. Peyğəmbərimiz (s.ə.s) belə buyurur: *"Sizdən biriniz qarışqa dişlədiyi zaman nə qədər acı hiss edirsə, şəhid olan kimsə də ölüm acısını ancaq o qədər hiss edir"*.

Bununla da Peyğəmbərimiz (s.ə.s) şəhidlərin ölüm acısını belə hiss etməyəcəyini bildirmişdir.

Şəhidlik qul haqqı xaric digər bütün günahların bağışlanmasına səbəb olan çox fəzilətli bir əməldir. Bu mövzuda Peyğəmbərimiz (s.ə.s): *"Şəhid olan şəxsin qul haqqından başqa bütün günahlarını Allah bağışlayar"*, - buyurur.

Atalarımızın bizə əmanət etdiyi bu müqəddəs vətəni lazım gələndə eyni inamla qorumaq və onun uğrunda canımızı sevə-sevə fəda etməyə hazır olmaq bizim ən vacib vəzifəmizdir.

9. Bayraq sevgisi



Bayraq bir millətin varlığının və müstəqilliyinin simvolu, tarixinin xatirəsi və dövlətləri təmsil edən milli nişanəsidir. Dəyəri pambıq, atlas və ya ipəkdən tikilməsinə bağlı olmayıb, təmsil etdiyi millətin qiyməti ilə ölçülür. Ona görə də:

1. Millətimizin və dövlətimizin gözətçisi olduğu üçün bayrağımızı sevirik.
2. Milli qürurumuzun, şərəfimizin, varlıq və davamlılığımızın göylərdə dalğalanan əzəməti olduğu üçün bayrağımızı sevirik.
3. Döyüşlərimizin, qələbələrimizin, sevinclərimizin adı olduğu üçün bayrağımızı sevirik.
4. Ruhumuzun, bədənimizin, inancımızın, fikrimizin, adımızın, andımızın, məqsədimizin və səyimizin bəsləyicisi olduğu üçün bayrağımızı sevirik.
5. Qəhrəman ordumuza, polislərimizə, liderlərimizə, dövlət adamlarımıza, igidlərimizə güc və qüvvət olduğu üçün bayrağımızı sevirik.
6. Bu gözəl vətənə qol-qanad verdiyi, insanımıza ümid olduğu, xainlərə, dövlət və millət düşmənlərinə keçid vermədiyi və qorxu saldığı üçün bayrağımızı sevirik.
7. Bütün müqəddəs dəyərlərimizin bağrında yaşadığı tariximizdən və şəhidlərimizdən bizlərə əmanət olduğu üçün bayrağımızı sevirik.
8. Xülasə, rəngini şəhidlərimizin qanından aldığı, imanın, mübarizənin, inkişafın, ümidin və milli kimliyimizin timsalı olduğu üçün bayrağımızı sevirik.

10. Böyüklərə qarşı vəzifələrimiz



Dinimizdə "böyük" deyiləndə yaşca böyük, elmi çox olan, bizdən daha çox ədəbli və əxlaqlı olanlar, həmçinin vəzifə baxımından böyük olanlar nəzərdə tutulur. Bu mənada bizdən böyük olanlara hörmət göstərməyimiz lazımdır. Böyüklərə qarşı vəzifələrimiz belədir:

1. Onlarla qarşılaşdığımız vaxt salamı birinci vermək.
2. Böyüklər gəldiyi vaxt (hörmət olaraq) ayağa qalxmaq, onlara yer vermək.
3. Böyüklər yanımızdan ayrılıb getdiyi vaxt ayağa qalxaraq onları yola salmaq.
4. Böyüklərin yanında yüksək səslə danışmamaq.

5. Böyüklər olan yerdə icazə almadan danışmamaq.

6. Böyüklərlə danışarkən istehza ilə (lağ eləyirmiş kimi) danışmamaq.

7. Əsla onları qəzəbləndirəcək hərəkətlər etməmək.

8. Yanlarında olduğumuz zaman duruş və oturuşumuzda ədəbə riayət etmək.

11. Məsciddə diqqət ediləcək ədəblər



Məscid sözü lüğətdə səcdə edilən yer mənasına gəlir. Məscidlər müsəlmanların ibadət etdikləri, namaz qıldıqları, Allahın evi sayılan məbədlərdir. Namazdan məqsəd Allah ilə bərabərlik olduğu kimi, məsciddə olmaqdan məqsəd də Allah ilə bərabərlikdir. Məscid ədəbi olaraq ilk diqqət etməmiz gərəkən şey məscidin sahibindən qafil olmamaqdır *(yəni məsciddə olarkən Allahın evində və Allahın hüzurunda olduğumuzu unutmamaq lazımdır)*. Peyğəmbərimiz (s.ə.s): *"Məscidlər cənnət bağçalarıdır"*, - buyurmuşdur. Buna görə də məscidlər yer üzərindəki məkanların ən üstünü və ən şərəflisidir.

Məsciddə diqqət edilməli ədəblər bunlardır:

1. Məscidə dəstəmaz almadan girməmək.

2. Məscidə sağ ayaqla girib sol ayaqla çıxmaq.

3. Məscidə girərkən (qapıdan ilk addımı atarkən) məscidə giriş duasını oxumaq: *"Allahum-məftəh aleynə əbvəbə rahmətik – Allahım, xeyir qapılarını üzərimizə aç"*.

4. Məsciddə boş-boş sözlərlə lağlağı etməmək, çığır-bağır salmamaq, yüksək səslə danışmamaq, qaçmamaq. *(Çünki yüksək səslə danışmaq və qaçmaq qurultuya səbəb olur, bu da digər namaz qılanların diqqətini yayındırır.)*

5. Girərkən boş olan yerə oturmaq, namaz qılanların qabağından keçməmək.

6. Məsciddə barmaqları şaqqıldatmamaq.

7. Çirkli, iylənmiş corabla məscidə girməmək, belə bir vəziyyətdə corablarımızı çıxartmaq və ayaqlarımızı yumaq.

8. Məscidə təmiz paltarlarla gəlmək.

9. Namaza başlayarkən birinci səfdə durmaq, özümüzdən böyüklərə yer vermək, birinci səf dolmadan ikinci səfdə namaza durmamaq,

10. Soğan, sarımsaq kimi qoxusu başqalarını narahat edəcək yeməklər yeyərək məscidə getməmək.

11. Məsciddəki ip, çör-çöp kimi xırda zibillərə rast gəldikdə yığıb çölə atmaq.

12. Namaz qılarkən sağa-sola baxmamaq.



Məscidi təmizləyən qadın
(OXU MƏTNİ)

Peyğəmbərimizin (s.ə.s) dövründə Mədinənin kənar məhəllələrində yaşayan Ümmü Mihcən adında yaşlı bir qadın vardı. Çox saf ürəkli və çalışqan bir xanım idi. Bir gün Ümmü Mihcən: "Allah-Təala məni İslamla şərəfləndirdi. Mən müsəlman oldum, qəlbim təmizləndi. Elə isə mən də Allahın evi olan məscidi təmizləyim", - deyə qərar verdi.

Ümmü Mihcən yaşlı olmasına baxmayaraq əlindən gəldiyi qədər məscidi təmizləyirdi. Namaz qılınan və Allah Rəsulunun söhbət etdiyi yeri təmizləmək Ümmü Mihcəni çox sevindirirdi. Hər dəfə təmizləyəndə sanki öz qəlbini təmizləyirmiş kimi sevinc və fərəhlə dolub-daşırdı.

Ümmü Mihcənin bu xidməti Peyğəmbərimizin (s.ə.s) də çox xoşuna gəlirdi. Kasıb və yaşlı olmasına baxmayaraq heç bir qarşılıq gözləmədən Ümmü Mihcənin bu şəkildə xidmət etməsini görəndə ona dua edirdi. Tez-tez hal-əhvalını xəbər alırdı.

Bir gün Ümmü Mihcən xəstələndi. Ancaq ən çox bu xəstəliyi səbəbi ilə məscidi təmizləyə bilmədiyi üçün kədərlənir, hər gün buna görə göz yaşı axıdırdı. Bir neçə gün keçməyinə baxmayaraq Allah Rəsulu (s.ə.s) onu məsciddə görmədikdə əshabından Ümmü Mihcənin harada olduğunu xəbər aldı. Səhabələr onun xəstələndiyini dedilər. Peyğəmbərimiz (s.ə.s) dərhal Ümmü Mihcənin evinə getdi. Bir neçə nəfər də Peyğəmbərimizdən (s.ə.s) əvvəl Ümmü Mihcənin evinə gələrək onu muştuluqladılar. Allah Rəsulunun onu görməyə gəldiyini xəbər verdilər. Ümmü Mihcən çox sevindi. Bir azdan Allah Rəsulu (s.ə.s) gəldi və xoş səsi ilə salam verdi...

Bu ziyarət xəstə ziyarəti olduğu üçün Peyğəmbərimiz (s.ə.s) Ümmü Mihcənin yanında qısa bir müddət qaldı. Ancaq bu qısa ziyarət Ümmü Mihcən üçün hər şeydən qiymətli idi. Artıq ölsə də, dərdi



olmazdı. Həmin gündən sonra Peyğəmbərimiz (s.ə.s) əshabından hər dəfə Ümmü Mihcənin halını xəbər alırdı. Bir gün qonşularına: "Əgər Ümmü Mihcən vəfat edərsə, mənə xəbər vermədən dəfn etməyin", - dedi.

Nəhayət, bir axşam Ümmü Mihcən tərtəmiz ruhunu təslim etdi. Səhabələr Peyğəmbərimizə (s.ə.s) vəziyyəti xəbər vermək üçün gəldilər. Ancaq Allah Rəsulu istirahət edirdi. Onu narahat etməmək üçün Ümmü Mihcəni özləri dəfn etmək qərarına gəldilər. Cənazə namazını qılaraq onu dəfn etdilər.

Allah Rəsulu (s.ə.s) sübh tezdən Ümmü Mihcəni soruşdu. Səhabələr vəziyyəti ona xəbər verdilər. Peyğəmbərimiz (s.ə.s) bunu eşidib çox kədərləndi. Dərhal qəbiristanlığa getdi. Səhabələri ona Ümmü Mihcənin qəbrini göstərdi. Peyğəmbərimiz (s.ə.s) Ümmü Mihcən üçün yenidən cənazə namazı qıldırdı və onun üçün dua etdi.

Beləliklə də, Peyğəmbərimiz (s.ə.s) Ümmü Mihcəni həm həyatda, həm də vəfatından sonra ziyarət etmiş oldu. Ümmü Mihcən bu mənəvi mükafatı Allahın məscidini təmizləyərək qazanmışdı.

12. Müəllimə qarşı vəzifələrimiz



İnsanın dünyada sahib olduğu sənət və ya vəzifədə, qazandığı dərəcədə mütləq onu öyrədən və yol göstərən müəllimin böyük əməyi və zəhməti var. İnsanı dünyaya gətirən anasıdır, ancaq insanı göylərə ucaldan müəllimidir. Bilmədiklərini öyrədərək, elm verərək gözəl yol göstərən onun müəllimidir. Bir şagird və ya tələbə müəlliminə hörmət etməzsə, lazım olan elmi öyrənə bilməz, öyrəndiklərində də bərəkət olmaz. Müəllimə qarşı vəzifələrimiz belə olmalıdır:

1. Müəllimi sevmək və hörmət göstərmək.
2. Qarşılaşdıqda səmimi duyğularla ona salam vermək.
3. Eyni yolda gedərkən müəllimdən qabağa keçməmək (tələsirsə icazə alaraq keçmək).
4. Müəllimin qüsur və eyiblərini araşdırmamaq, başqalarına danışıb gülməmək.
5. Müəllimin yanında gərəksiz və yüksək səslə danışmamaq, əli cibdə dayanmamaq.
6. Sual verərkən və ya bir söz demək istədikdə əl qaldırıb icazə istəmək.
7. Dərsə vaxtında gəlmək, sinifdə səssiz olmaq, dərs çalışmaq və dərs çalışanlara mane olmamaq.
8. Müəllimin verdiyi tapşırıqları oxuyaraq və hazırlaşaraq dərsə gəlmək.
9. Müəllimə qarşı kobudluq etməmək, ona qarşı gəlməmək, söz qaytarmamaq və müəllimdən küsməmək.
10. Müəllimin yerində müəllimdən icazəsiz oturmamaq.



Müəllimlərin könlünü fəth edən sultan
(OXU MƏTNİ)

Sultan II Muradın oğlu Fateh Sultan Mehmet xan şahzadəliyində Manisada valilik edir və dövlət idarəsinə dair təhsil alırdı. Atası şahzadənin yetişməsi üçün Manisaya bir çox alim göndərdi. Lakin şahzadə Mehmet anadangəlmə zəki və hərəkətli olduğu üçün dərsdən qaçar və heç bir müəllim onu yola gətirə bilməzdi. Şahzadəyə doğru-dürüst təhsil verə bilmirdilər. Hətta Qurani-Kərimi belə xətm edə bilməmişdi. Bu vəziyyətə çox kədərlənən atası Sultan II Murad heybətli və hiddətli bir müəllim olan Molla Güranini bu vəzifəyə təyin etdi. II Murad əgər oğlu sözlərinə qulaq asmazsa, onu döyməsi üçün müəllimə bir də çubuq verdi. Sonra da Molla Güraniyə belə dedi: "Aman, müəllim! Oğlumun təhsilinə çox əhəmiyyət ver! Oğlum sözünüzə qulaq asmasa, verdiyiniz dərsləri vaxtında hazırlamasa, bu çubuq ilə onu döyə bilərsən. Hətta onun yanında bu çubuq ilə məni də qorxuda bilərsən". Sultan ilə Molla Gürani bu şəkildə razılaşdılar.

Molla Gürani bir gün şahzadənin üstünə qışqırdıqda gedib müəllimini atasına şikayət etdi. Atası dərhal özünü hiddətlənmiş kimi göstərdi və yüksək səslə: "Elə şey ola bilməz! Mənim oğlumun üstünə kim qışqıra bilər?" - deyə qəzəblə müəllimin yanına getdi. Ancaq Molla Güraninin yanına gəldikdə gözlənilən olmadı. Atasının Molla Güraniyə yaxşıca dərs verəcəyini gözləyən şahzadə nə ilə qarşılaşdığını bilmədi. Əvvəlcə atası bir az səsini yüksəltdi, ancaq sonra gördü ki, Molla Güraninin səsi atasının səsindən bərk çıxır. Müəllim belə deyirdi:

- Məndən oğlunuzu oxutmağımı istəyirsiniz. Tənbəllik edərsə, istədiyim kimi hərəkət edərəm, istəsəm də, bu çubuqla döyərəm! Bir də tənbəl uşağı qarşımda müdafiə etməyə gəlməyin, hörmətli padşahım! Yoxsa...



Sultan Murad gözucu oğluna baxdı, oğlu baxıb qımışırdı, o da səsini yüksəltdi:

- Yoxsa nə olar ki, müəllim?!

Bu zaman Molla Gürani ondan gözlənilməyən bir hərəkətlə əlinə çubuğu aldı, sultanın və şahzadənin üstünə cumdu. Ata-oğul qaçmağa başladılar.

Nəticədə Sultan Muradın planı baş tutmuşdu. Xeyli qaçdı-qovdudan sonra sultan və oğlu yaşlı müəllimin əlindən çətinliklə xilas oldular. Atası gənc şahzadəyə belə dedi: "Görürsən, ey oğul! Sənə görə mən də danlandım. Bu müəllim padşahdan belə qorxmur! Görünür oxumaqdan, dərslərinə yaxşı hazırlaşmaqdan başqa çarən yoxdur!"

Görürsən, ey oğul! Sənə görə mən də danlandım. Bu müəllim padşahdan belə qorxmur! Görünür oxumaqdan, dərslərinə yaxşı hazırlaşmaqdan başqa çarən yoxdur!

Şahzadə bu hal qarşısında dərslərinə ikiəlli sarılmaqdan başqa yolu olmadığını anladı. Qısa vaxtda Qurani-Kərimi xətm etdi və bir çox elmləri öyrəndi. Ən əsası da müəllimlərə qarşı tərbiyəli və hörmətli olmağı öyrəndi. Bu sayədə dövrün ən böyük sultanlarından biri oldu.

Müəllimlərinə hörmət etməyi uşaq yaşda öyrənən II Mehmet, atası sultan II Muraddan sonra Osmanlı taxtına çıxıb padşah oldu. II Mehmetin elm adamlarına olan hörməti, gələcək illərdə daha da artmışdı.

İstanbulu fəth edərkən bir dövr bağlayıb yeni bir dövr açan Fateh Sultan Mehmet müəllimlərə və elm adamlarına dəyər verməyi fəth etdiyi şəhərin əhalisinə də öyrədirdi. Şəhərin fatehi əsgərləri ilə Konstantinopola girərkən şəhər əhalisi Osmanlı əsgərlərini sevinclə qarşılamaq üçün yollara çıxmışdılar. Yol boyunca düzülən əhali əllərindəki çiçək dəstələrini padşaha təqdim etmək üçün yaxınlaşırdılar. Ağ saqqalı və cübbəsi ilə Sultan Fatehin yanında heybətlə dayanan müəllimi Ağşəmsəddini padşah bilən əhali çiçəkləri ona verdi. Atını geri çəkən Ağşəmsəddin çox utanır və gözqaş edib Fateh Sultan Mehmeti göstərirdi. Fateh Sultan Mehmet isə bu vəziyyəti görüb çox razı qalır, əllərində çiçəklərlə ona doğru gələnlərə belə deyir: "Gedin çiçəkləri yenə ona verin. Sultan Mehmet mənəm, ancaq o mənim müəllimimdir".

Bizanslılar bu səhnə qarşısında çaşıb qalmışdılar. Çünki Konstantinopolun ən məşhur elm adamları Bizans imperatorunu tənqid etdikləri üçün sarayın zindanlarında aylarla məhkum həyatı sürürdülər. Sultan Fatehin elm adamlarına verdiyi dəyər sayəsində azadlıqlarına qovuşan bu elm adamları bir müddət sonra İslamın elmə və alimə verdiyi dəyəri görüb müsəlman oldular.

Yemək-içmək ədəbləri

Yediyimiz yeməyin və içdiyimiz suyun faydalı və bərəkətli olması üçün bir müsəlmanın diqqət etməsi tələb olunan ədəblər bunlardır:

Yemək yeyərkən:

1. Süfrə hazırlanarkən kömək etmək.
2. Yeməkdən əvvəl və sonra əlləri yumaq.
3. Böyüklər süfrəyə oturmadan süfrəyə oturmamaq, onları gözləmək.
4. Yemək yeməyə "bismillah" deyərək başlamaq və yeməyi sağ əl ilə yemək.
5. Ağzımıza kiçik loğmalar götürmək və yaxşı şəkildə çeynədikdən sonra udmaq *(ağzımızdakı loğmanı udmadıqca ikinci loğmaya əl uzatmamaq)*.
6. Qaynar yeməyi soyutmaq üçün yeməyin içinə üfürməmək.
7. Başqalarını iyrəndirəcək hərəkətlər etməmək və lazımsız sözlər danışmamaq.
8. Ağızda yemək varkən danışmamaq, gülməmək.



> "... yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!"
>
> **(Əraf surəsi, 31)**

9. Yeməyi eyni qabdan yeyərkən, qabın ortasından deyil, öz qarşısından yemək.
10. Yemək seçməmək, yeməkdən ötəri küsməmək.
11. Qabağında olan yeməyi axıra qədər bitirmək, boşqabda artıq yemək və çörək qırığı saxlamamaq.
12. Hamı yeməyini yeyib bitirmədikcə süfrədən qalxmamaq.
13. Yeməyi bitirəndə "əlhəmdulilləh" demək, Allaha şükür etmək.
14. Yeməyi bişirənə təşəkkür etmək.
15. Yeməkdən sonra əlləri yumaq, ağızı yaxalamaq *(mümkünsə dişləri fırçalamaq)*.
16. Küçələrdə və ya evdə gəzişərək yeməmək və içməmək.
17. Acmadan yemək yeməmək, kifayət qədər yemək *(nə gəldi yeyərək qarnı tıxa-basa doldurmamaq)*.
18. Halal və təmiz olanları yemək *(Allahın haram buyurduğu yeməklərdən və içəcəklərdən uzaq durmaq)*.

"...Biz göydən tərtəmiz su endirdik ki, onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvanlara və necə-neçə insanlara ondan içirdək."

(Furqan surəsi, 48-49)

Su içərkən:

1. Stəkanı sağ əllə tutub "bismillah" deyərək içmək.
2. Suyu qabdan içmək *(ağzımızı bulağa və ya su mənbəyinə dirəyib içməmək)*.
3. Suyu mümkün mərtəbə oturaraq içmək.
4. Stəkanın içərisinə nəfəs verməmək, öskürəcəyimiz zaman ağzımızı stəkandan kənara tutmaq.
5. Suyu bir nəfəsdə deyil, udum-udum *(üç qurtumda və ya üç dəfəyə)* içmək və sonunda "əlhəmdulillah" demək.

Bir hədisi-şərifdə Peyğəmbərimiz (s.ə.s) belə buyurur:

"Sizdən biriniz yemək yeyəcəyi zaman sağ əli ilə yesin, su içəcəyi zaman da sağ əli ilə içsin. Çünki şeytan sol əli ilə yeyər və içər".

Tualet ədəbləri

Təmiz insan mədəni insandır. Təmiz və sağlam bir həyat yaşamaq istəyən insan tualetə girərkən də bəzi xüsuslara diqqət etməlidir. Diqqət olunacaq tualet ədəbləri bunlardır:

1. İmkan daxilində corabları çıxartmaq, şalvarın ətəklərini yuxarı çırmalamaq və paltara pislik sıçratmamağa diqqət etmək.
2. Üstümüzdə və ya cibimizdə ayə, hədis və s. müqəddəs yazılar varsa bunları tualetə aparmamaq.
3. Tualetə girmədən əvvəl dua oxumaq (*"Allahummə inni əuzu bikə minəl xubsi vəl xabəis - Allahım, pislikdən və pis olan şeylərdən Sənə sığınıram"*.).
4. Tualetə sol ayaq ilə girmək.
5. Tualet ehtiyacını ayaq üstə deyil, oturaraq etmək.
6. Ön və ya arxamızın qibləyə tərəf dönməməsinə diqqət etmək.
7. Tualetdə danışmamaq, salam verməmək, salam almamaq, bir şeylər yeməmək.
8. Tualetdə tüpürməmək, ədəb yerinə və pisliyə baxmamaq.
9. Tualetdən çıxmadan təmizlik işlərini tamamlamaq *(ədəb yerlərin təmizliyi sol əllə edilir)*.
10. Təmizlik üçün sudan bol istifadə etmək *(israf etməmək şərtilə)*.
11. Suyla edilən təmizliyin ardından, mümkündürsə, qurulanmaq.
12. Ehtiyac bitdikdən sonra boş yerə orada gözləməmək.
13. Tualetdən çıxarkən tualetin təmiz saxlanmasına, kranın bağlanmasına və işığın söndürülməsinə diqqət etmək.
14. Tualetdən sağ ayaqla çıxmaq və çıxış duası oxumaq (*"Ğufranəkə. Əlhamdu lilləhil-ləzi əzhəbə annil əzə və afəni – Allahım! Məni bağışla! Məndən əziyyəti götürən və mənə rahatlıq verən Allaha şükürlər olsun"*.).
15. Çıxdıqdan sonra əlləri sabunla yumaq. *(Bir az gözlədikdən sonra dəstəmaz alınır.)*

İctimai davranışlarda ədəb qaydaları

Salam vermə ədəbləri

Hər bir müsəlman salam verməklə əlaqəli bunları bilməlidir:

1. Müsəlmanlar bir-birləri ilə qarşılaşınca salamlaşar və qucaqlaşar,
2. Salam vermək sünnə, verilən salamı almaq isə fərzdir,
3. Tanıdığı və tanımadığı müsəlmanlarla qarşılaşdığı zaman hər kəsə salam verər,
4. Verilən salama onun misliylə və ya ondan daha gözəl bir şəkildə cavab verməli,
5. Salamı belə verməliyik: Əssələmu aleykum, yaxud, Əssələmu aleykum və rahmətullah və ya Əssələmu aleykum və rahmətullahi və bərakətuhu. *(Nə qədər uzun ifadələrlə salam verilsə savabı bir o qədər artıq olar).*
6. Salam vermə qaydası belədir:
   a) Minik üzərində olan piyada gedənə,
   b) Gedən oturana,
   c) Az olanlar çox olanlara,
   d) Kiçiklər böyüklərə salam verərlər.
7. Danışmazdan əvvəl salam verər. (Peyğəmbərimiz (s.ə.s) bir hədisi-şərifdə belə buyurur: *"Kim salamdan əvvəl danışmağa başlayarsa ona cavab verməyin"*

> **"Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır."**
>
> **(Nisa surəsi, 86)**

Şəfqətli olmaq

Rəhmət və mərhəmət Peyğəmbərinin yolu ilə gedən şəfqətli müsəlman:

1. Uca Allahın yaratdığı bütün məxluqata şəfqət bəsləyər.
2. Şəfqətin qaynağının Uca Allah olduğunu bilər.
3. Kimsəsiz və möhtac insanlara qarşı mərhəmət hissi duyar və onlara yardım edər.
4. Şəfqətin olduğu yerlərdə birlik və bərabərlik hisslərinin qüvvətli olduğunu unutmaz.

Çalışqan və səbirli olmaq

Nə dünyada, nə də axirətdə heç bir nəticə çalışmadan əldə edilmir. Buna görə də çalışqan və səbirli müsəlman:

1. Halal qazanc olan hər işdə işləməkdən zövq alar.
2. Az da olsa davamlı işləməyin ən faydalı çalışma olduğunu bilər.
3. Xoşbəxtliyin ən yaxşı yolunun səbirlə işləməkdən keçdiyini bilər.
4. Hədəfi olanların çalışmaqla daha güclü və qüvvətli olduğunu düşünər.

Çalışan qazanır!
(OXU MƏTNİ)

Dünyaya gəldiyimiz andan etibarən daim mübarizə içindəyik. Körpə ikən, ilk addımlarımızı atarkən, ilk dişimizi çıxardarkən yaşadığımız çətinlikləri əksəriyyətimiz unutmuşuq, yəqin ki. Bundan başqa, məktəbə başladığımız ilk gün də heç asan olmamışdı. Oxumağı, yazmağı öyrənmək, yeni insanlarla tanışlıq və təbii ki, böyümək... Əminəm ki, hər birinizin həyatında bu mərhələlər fərqli çətinliklərlə keçmişdir. Kimimiz bu günləri atasından və anasından dəstək alaraq keçirərkən, kimimiz də yalnız başına keçirmək məcburiyyətində qalmışdır.

Yaxşı, həyat nə üçün asan deyil? Niyə çətinliklər dayanmadan qarşımıza çıxır? Çətinlik olmasa, asanlığı bilməzdik, cəhd etmək nədir bilməzdik. Ən əsası həyatı öyrənə bilməzdik, dostlar! Məsələn, məktəbdə imtahan olur, elə deyilmi? Çalışmasanız, yaxşı qiymət ala bilməzsiniz. Təsəvvür edin ki, çox çalışdınız, ancaq yenə də yaxşı qiymət ala bilmədiniz və bu dərsdə çox çətinlik çəkirsiniz. Nə edərsiniz? Dərhal məktəbdən çıxarsınız? Təbii ki, xeyr! Əlinizdən gəldiyi qədər səy göstərərsiniz, daha planlı bir çalışma ilə bunun öhdəsindən gələ bilərsiniz. Bəzi dostlar dərhal kədərlənib müvəffəqiyyət qazana bilməyəcəklərini düşünürlər. Lakin bir az cəhd etmək və əzmlə işə sarılmaq lazımdır. Yaxşı, bəs əzmlə cəhd etmək nədir, heç düşündünüzmü?

Çalışmaq bütün məxluqatın vəzifəsidir. Əslində ətrafınıza diqqətlə baxsanız, tənbəlliyin yalnız insanda olduğunu görərsiniz. Günəş heç "Mən bu səhər çox yorğunam, çıxmayacağam" deyirmi? Və ya bir çiçək açarkən çətinliyə düşüb bu işdən vaz keçirmi? Arılar "Bu gün heç kefim yoxdur, bal verməyəcəm!" deyirmi? Çalışmamaq insan üçün sakitcə oturub quyunun dibindən çıxarılmağı gözləmək kimidir. Quyudan yuxarı qalxmaq üçün çabalayacağıq, yuxarı səslənib kömək istəyəcəyik ki, çıxa bilək. Həyatın çətinliklərini onlarla mübarizə aparmadan keçə bilmərik.

Təbii ki, bu mübarizədə səbir də lazımdır. Peyğəmbərimizin (s.ə.s) Məkkə dövründə müsəlmanlar müşriklərin işgəncələri altında təxminən on üç il səbirlə dinlərini yaşamağa çalışdılar. Heç bir zaman üsyan etmədilər. Peyğəmbərimiz də onlara səbir etmələrini tapşırmışdı. Nəhayət, Allahın əmri ilə Mədinəyə hicrət edən müsəlmanlar Mədinədə böyük bir rahatlığa qovuşdular. Diqqət edin, burada da rahat günlər öz-özünə gəlmir. Bunun üçün əvvəla səbir, sonra da hicrət adı verilən böyük bir fədakarlıq yolunu keçirlər.

Elə isə, dostlar, ən gözəli və ən doğrusu budur: "səy göstərmək və səbir bizdən, kömək və güc vermək Allahdan" deyib çətinliklərin öhdəsindən gəlməyə çalışmaq lazımdır.



Ailəyə qarşı məsuliyyətimiz

Ailəyə qarşı məsuliyyətini bilən müsəlman:

1. Ailədə hər bir kəsin məsuliyyət daşıdığını və vəzifələri bölüşməyin zərurətini bilər,
2. Ailə böyüklərini tez-tez ziyarət edər,
3. Ailə üzvlərinin hər-hansı bir ehtiyacı olarsa, onlara yardım edər,
4. Ailə üzvlərinin bir-birilərinə qarşı məsul olduğunu unutmaz.

Qardaş-bacı
(OXU MƏTNİ)



Arif ilə Şəbnəm qardaş-bacıdır. Aralarında 3 yaş fərqi var. Arif bacısı Şəbnəm ilə bəzən heç yola getmir. Atasının və anasının bacısı ilə daha çox maraqlanmalarına hirslənir. Bacısının bir dediyi iki edilmir, dərhal yerinə yetirilir. O ağlamağa başladıqda atası və anası dərhal onu sakitləşdirmək üçün müxtəlif metodlardan istifadə edirlər. Yəni Arif bacısına qarşı bir az qısqanclıq edirdi.

Qardaş-bacı bəzən dalaşırlar. Dalaşmalarının səbəbi oyuncaqlarını bölüşə bilməmələridir. Oğlan və qız arasında nadir görülən bir haldır. Çünki biri gəlincikləri ilə oynayır, digəri maşınlar ilə. Ancaq iş kiçik əsgərlərlə oynamağa gəldikdə qardaş-bacı arasında böyük bir döyüş başlayır. Şəbnəm oyunun ssenarasini çoxdan qurmuşdur.

- Qardaş! Küpəgirən qarı məni əsir aldı! Qonşu ölkənin şahzadəsi əsgərləri ilə birlikdə məni xilas etməyə gələcək. Oyunumu pozursan!

- Yaman oyunmuş! Bacı, ordumla dərhal Qarabağı işğaldan azad etməliyəm! Məni bağışla! Qonşu ölkədə çevriliş olub, sənin şahzadəni də başqa ölkəyə sürgün ediblər. Mən qayıdanda həm onu, həm də səni azad edərəm. Sən bir az gözlə. Ha, ha, ha!..

Sonra Şəbnəm əsgərləri götürüb qaçarkən qardaşı Arif onu qovmağa başlayır. Yeddi yaşındakı bu qız on yaşındakı qardaşından nə qədər qaça bilər ki?! Qardaşı onu tutur. Qışqırda-qışqırda kiçik qızın əlində və cibində saxladığı kiçik ordunu son nəfərinə qədər alır. Yazıq Şəbnəm ağlayaraq qardaşına son sitəmini edir. “Bir buna bax, Qarabağı xilas edəcəkmiş. Sənin bu etdiyinin ermənilərin etdiklərindən nə fərqi var?!”

Demək olar ki, hər axşam bu hadisələr bəzi xırda dəyişikliklərlə təkrarlanırdı. Bir axşam evin anası Maral xanım oğlunu və qızını yanına çağırıb onlara deyir:

- Sizin dava-dalaşınızdan mən bezmişəm. Ancaq siz nə üçünsə heç yorulmadan hər gün səbəbsiz yerə dalaşırsınız!

- Anacan! Mən müsəlman qardaşlarımıza kömək etmək istəyirəm, - deyə Arif fikrini ifadə edir.

- Yaxşı, lap yaxşı fikirdir, övladım! Bunu bacını incitmədən, qəlbini qırmadan edə bilməzsən? Bacının erməni əsirliyindəki yazıq müsəlman qızlardan nə fərqi oldu? Siz qardaş-bacısınız! Qardaş-bacılar bir-biriləri ilə heç dalaşarmı? Həm də oyuncaq üstündə!

-Ey! Anama yaxşı-yaxşı qulaq as, qardaş! – Şəbnəm dillənir.

-Şəbnəm, eyni sözlər sənə də aiddir! – anası deyir. - İndi ikiniz də mənə yax-

şı-yaxşı qulaq asın! Sizə gözəl bir hekayə danışacağam:

"Bir zamanlar yaşlı bir ata vəfat etdikdə iki oğluna böyük bir tarla qoyub getmişdi. Qardaşların ikisi də atalarından qalma tarlada canla-başla işləyir, dolanışıqlarını təmin etmək üçün bütün günü zəhmət çəkirlərmiş. Qardaşların biri evliymiş və yeddi uşağı varmış. Kiçik qardaş isə subay olduğu üçün tək-tənha bir daxmada yaşayırmış.

Hər günün axırında iki qardaş əldə etdikləri məhsulu və satdıqlarından qazandıqlarını bərabər şəkildə bölüşürlərmiş. Bir gün subay qardaş öz-özünə belə düşünür: "Qazandıqlarımızı bərabər şəkildə bölüşməyimiz heç də haqlı, ədalətli bölgü deyil. Mən təkəm və bu qədər mala çox da ehtiyacım yoxdur. Ancaq qardaşımın külfəti var. Onun məndən çox ehtiyacı var. Dolayısı ilə onun daha çox pay alması lazımdır".

Beləliklə, hər gecə evdən cıxıb bir kisə taxılı qardaşının taxıl anbarına gizlicə aparmağa başlayır. Bu zaman evli olan qardaş da eyni günlərdə öz-özünə belə düşünürmüş: "Məhsulu bərabər şəkildə bölüşdürməyimiz heç də doğru deyil. Axı mən evliyəm. Qocalanda övladlarım mənə baxarlar. Ancaq qardaşım evlənməsə gələcəkdə heç kimi olmayacaq. Bu məhsula onun məndən daha çox ehtiyacı var".

Beləliklə, evli olan qardaş da hər gecə evindən çıxıb bir kisə taxılı gizlicə qardaşının taxıl anbarına aparmağa başlayır. İki qardaş da illərlə nə olub-bitdiyindən xəbərsiz qərar verdikləri yardıma davam etmişlər. Heç biri də bunu fərq etməyibmiş. Çünki hər gün ikisinin də anbarındakı taxılın miqdarı dəyişmirmiş. Bir gecə iki qardaş gizlicə bir-birilərinin anbarına taxıl apararkən qaranlıqda toqquşmuşlar və həmin anda olan-bitəni anlamışlar. Kisələri yerə qoyub göz yaşları içində bir-birilərinə sarılmışlar".

Qardaş və bacı analarının təsiredici bir səslə danışdığı bu hekayəni çox bəyənirlər. Bir-birilərinə qarşı eyni utanc hissləri ilə qısa bir müddət baxdıqdan sonra Arif bir az əvvəl bacısının əlindən zorla aldığı kiçik əsgərlərini Şəbnəmin qarşısına qoyub deyir:

- Şahzadənə de ki, küpəgirən qarının payını verib səni tezliklə xilas etsin! Mən maşınlarımla oynayacağam. Sənin işin qurtardıqdan sonra da Qarabağdakı əməliyyatlara başlayaram.

Sevincli gözlərlə qardaşına baxan Şəbnəm deyir:

- Qonşu ölkənin şahzadəsi sən ol, Qardaş!" Sonra da birlikdə Qarabağı alarıq. Mən də orada yaralanan əsgərlərin həkimi olaram, onları müalicə edərəm!

Bu təklif Arifin çox xoşuna gəlmişdi. Bacı-qardaş birlikdə oynayarkən Maral xanım uşaqların belə həssas könüllərə sahib olmasının verdiyi dərin hisslərlə Rəbbinə şükür edirdi.

Əslində, din qardaşı olan müsəlmanlar da yer üzünün ən böyük ailəsini təşkil edirlər. Ölkəmizdə bunları dərk edən neçə uşaq var?!





İkinci ana
(OXU MƏTNİ)

Həzrət Həsən və Həzrət Hüseyn üçün çox çətin bir dövr idi. Çünki hələ 6 ay əvvəl sevimli Peyğəmbər babalarını itirmişdilər. İndi isə analarını cənnətə göndərmişdilər. Bu dünyada onlar üçün atalarından başqa kimsələri qalmamışdı. Bu kədər ilə pərişan oldular. İşləri yalnız dua etmək idi.

Ataları Hz. Əli üçün isə vəziyyət daha da çətin idi. Həm vəfat edənlərin matəmi içində idi, həm də sevimli balalarının acısını təsəlli etməyə çalışırdı. Həsən və Hüseyn atalarının bu çətin halını başa düşürdülər. Onun bu halını görüb kədərlənsələr də, əllərindən bir şey gəlmirdi. Uzun bir müddətdən sonra Hz. Əli, çətin də olsa, mövzunu uşaqlarına açdı:

- Əziz balalarım! Cənnət xanımlarının xanımı sevimli həyat yoldaşımı, ananızı itirdiyimizdən bəri çox kədərlisiniz. Çox pərişan oldunuz. Sizin bu halınız məni çox narahat edir, tələşlandırır. Mənə nə tövsiyə edirsiniz? Sizin üçün nə etməyimi istəyirsiniz?

Hz. Həsən:

- Anamızın vəsiyyətini yerinə yetir, atacan, - dedi.

- Ananızın vəsiyyətini bilirsiniz?

- O gün mənimlə Hüseyn qapının qarşısında idik. Anamızın vəsiyyətini eşitdik.

- Yaxşı, nə idi ananızın vəsiyyəti?

- Anamız xəstə olub vəziyyəti ağırlaşdıqda sənə belə vəsiyyət etmişdi: "Mən vəfat etdikdən sonra sən mütləq evlənməlisən. Əks təqdirdə həm özün, həm də mənim gözümün nuru balalarım pərişan olarsınız. Ancaq yad bir ögey ananın əlinə də balalarımı vermək istəmirəm. Ona görə də rəhmətlik bacım Zeynəbin qızı Ümaməni al və uşaqlarımıza o baxsın. Ümamə bunu bacarar".

- Deməli, siz bu vəsiyyəti eşitmisiniz. O zaman buna nə deyirsiniz?

- Biz Ümaməni ana olaraq istəyirik, atacan. İstəyirsənsə, onu istəməyə biz də gələrik.

- Buna ehtiyac yoxdur, oğlum. Ananız eyni vəsiyyəti Ümaməyə də edib.

- O halda xeyirlisi olsun, atacan.

- İnşallah, oğlum.

Əvvəlcədən vəsiyyət hər iki tərəfə də edildiyi üçün hazırlıqlar çox çəkmədi. Həzrət Ümamə Həzrət Fatimənin yerini doldurmaq, onun əziz balalarına "ana" olmaq üçün gəldi bu evə. Həqiqətən də, elə oldu. Hər birinə qarşı çox gözəl davrandı. Əl üstündə saxladı onları. Belə ki, qulluqlarında durmaqda doğma analarından geri qalmadı. Bu vəziyyətdən başda Həzrət Əli olmaqla uşaqlar da çox razı qaldılar.

İki gülə ana olan Həzrət Ümamə bu müqəddəs evin sevinc qaynağı oldu. Uşaqlar da onun şəfqətli qucağında sabaha ümidlə baxmağa başladılar. İlahi təqdirə boyun əymək və içində yaşadıqları şərtləri qəbul etmək ağıllı insanların işidir. Üsyan edib hər şeyə qarşı çıxmaq isə heç də ağıllı işi deyil.

Dostluq

Həqiqi dostluğun qiymətini bilən müsəlman:

1. Dostunu Allah üçün seçər və sevər,
2. Dostuna hər zaman və hər yerdə kömək edər,
3. Dostuna yaxşılığı göstərər və onun pis yollara düşməsinə mane olar,
4. Dostunu yalnız dünya üçün deyil, həm də axirəti üçün sevər,
5. İnsanın dostluq etdiyi şəxslərə oxşayacağını bilər.

Yalnızlıq Allaha məxsusdur!
(OXU MƏTNİ)



İslam müsəlmanların birlik, bərabərlik və yardımlaşma içində ictimai bir şəkildə yaşamasını istəyən bir dindir. Yalnızlıq ancaq Allaha aiddir və Onun heç kimə ehtiyacı yoxdur. Ancaq biz insanların yaşaya bilməsi üçün həm Rəbbimizə, həm də ətrafımızdakı insanlara ehtiyacımız var. Yaradılışımıza uyğun olan da budur. Belə ki, məktəbdə heç yoldaşınız olmasaydı, məktəb çox darıxdırıcı olardı. Eyni şəkildə məhəllədə, binanızda sizinlə dostluq edə biləcək həmyaşıdlarınız olmasaydı, əminəm ki, bu heç xoşunuza gəlməzdi. İnsanın insana hər zaman ehtiyacı var. Rəbbimiz də insanlar arasında məhəbbət olmasını, onların birlik içində həyatlarını davam etdirməsini istəyir.

Hər insan fərqli bir xarakterə, mədəniyyətə, yaşayışa və düşüncəyə sahibdir. Ona görə də insanlar həyat tərzi özlərinə oxşayan insanlarla daha çox görüşərək onlarla dost olurlar. Bir zaman sonra da həyatımızın hər mərhələsində qurduğumuz dostluqlar könlümüzdə qiymətli bir yerə sahib olur.

Kimlərlə dostsunuz ?
(OXU MƏTNİ)



Bəzən elə dərdlərimiz, hüznlərimiz, sevinclərimiz olur ki, bunları atamıza, anamıza və ya qardaş-bacımıza belə deyə bilmirik. Məhz bu sevinclərimizi və hüznlərimizi bölüşdüyümüz insanlar həyatımızın ayrılmaz bir hissəsi halına gələn yoldaşlarımız, dostlarımızdır. Əvvəlcə məhəlləmizdə, yaşadığımız yerdə başlayan, sonra da məktəbdə davam edən dostluqlar bir müddət sonra ikinci ailəmiz olur. Ona görə də dostlarımızı seçərkən diqqət etməliyik ki, gözəl bir ailəmiz olsun. Ataların gözəl bir sözü var: "Mənə dostunu göstər, sənin kim olduğunu deyim". Məhz bu sözdən də başa düşüldüyü kimi, insan özü ilə həmfikir insanlarla dostluq edər və ya dostu ilə daim görüşdüyünə görə bir müddət sonra qarşılıqlı oxşarlıqlar yaranar. Yaxşı insanlarla qurulan dostluqlar bu mənada müsbət bir təsir yaradar. Belə ki, sizin fərqində olmadığınız, ancaq yanlış olan davranışlarınız şəxsiyyəti gözəl olan dostunuz sayəsində ortadan qalxa bilər. Məhz bu, qazanclı bir dotluq olar.



Allah üçün
(OXU MƏTNİ)



Müsəlmanlar eyni zamanda qardaşdırlar, elə deyilmi, əziz dostlar? Qardaşlıq həm də fədakarlıq tələb edən səmimiyyət və yardımlaşma deməkdir. Bunun ən gözəl nümunəsini "ənsar" və "mühacir" qardaşlığında görürük. Dini yaşamaq uğrunda Məkkədəki eveşiyini tərk edib başqa bir yerə köçən mühacirlərə mədinəli ənsar ev sahibliyi etmiş, onların hər cür ehtiyacını qarşılamaqda sanki yarışmışdılar.

Bunları qarşılıq gözləmədən, sırf Allah rizasını qazanmaq məqsədi ilə etmişdilər. Məhz Peyğəmbərimizin (s.ə.s) bizə təqdim etdiyi dostluq nümunəsi də budur. Qarşılıqsız fədakarlıq etmək, qardaşının dərdi ilə dərdlənmək və ona dayaq olmaq. Məhz bu sayədə qurulan dostluqlar həqiqi dostluq olur və yalnız bu dünyada deyil, axirət üçün də qazanc olur. Belə ki, Peyğəmbərimizin də müjdələdiyi kimi, bir-birini Allah rizası üçün sevənlər cənnətdə ərşin kölgəsində olan bəxtiyar insanlardan olacaq.

Həqiqi dost
(OXU MƏTNİ)

Nəhayət, gözlənilən an gəlmişdi. İllərlə davam edən əzab-əziyyətdən sonra Peyğəmbərimizə də Hicrət üçün ilahi icazə verilmişdi. Ancaq Əbu Bəkr ən çox buna deyil, Peyğəmbərimizin (s.ə.s) yol yoldaşı olacağına sevinirdi. Ən böyük həyəcanı və sevinci buna görə idi.

Son hazırlıqlar edildi və bir gecə Peyğəmbərimiz (s.ə.s) ilə mübarək səfərə çıxdılar. Hz. Əbu Bəkr Məkkəli müşriklərin onları izlədiklərini bilirdi. Onları çaşdırmaq və izlərini itirmək üçün dəvəsi ilə irəli-geri gedir, izləri silirdi. Peyğəmbərimiz (s.ə.s) isə dostunun bu tələşını xəfiflətməyə çalışaraq ona: "Qorxma, Allah bizimlə birlikdədir!" - deyirdi.

Axşam olmuş və çox yorulmuşdular. İstirahət etmək üçün yol üzərindəki bir mağaraya girdilər. Peyğəmbərimiz (s.ə.s) yorğun olduğu üçün başını əziz dostunun dizinə qoyaraq yatdı. O əsnada mağaranın divarındakı dəlikdən bir ilan başını çıxartdı. Bunu görən Əbu Bəkr (r.a) ilanın Peyğəmbərimizə zərər verməsindən qorxaraq tələşlandı. Ancaq dizində yatan Peyğəmbərimizi (s.ə.s) narahat etmək istəmirdi. Yavaşca ayağını uzadaraq ilanın çıxdığı dəliyi ayağı ilə bağladı. Elə həmin an ilan Əbu Bəkrin ayağını sancdı. Əbu Bəkr çox böyük bir ağrı ilə dişlərini birbirinə sıxdı. Səs çıxarıb Allah Rəsulunu



oyandırmaq istəmirdi. Ayağını dəlikdən də götürmədi. İlanın zəhəri getdikcə bütün ayağına yayılır və daha böyük ağrı verirdi. Əbu Bəkrin həmin an hiss etdiyi ağrı ilə gözləri yaşardı və göz yaşının Peyğəmbərimizin (s.ə.s) üzünə damladığının fərqində olmadı. Allahın sevimli bəndəsi üzünə düşən o yaş damlası ilə oyandı və Əbu Bəkrə baxdı. Əbu Bəkr ağrısını gizlədə bilmədi. Peyğəmbərimiz (s.ə.s) əziz dostunun başına gələn bu hadisəni görüb narahat oldu. Əbu Bəkrdən ilanın sancdığı yeri göstərməsini istədi. Sonra mübarək tüpürcəyini yaranın üstünə sürtdü. Həmin anda möcüzəvi şəkildə Əbu Bəkrin ağrısı sakitləşdi. Zəhər birdən-birə yox olmuş və ayağı sağalmışdı.

İçəridə bunlar yaşanarkən çöldə məkkəli müşriklər iki dostun izini tapmışdılar. Gecə qaldıqları mağaraya qədər gəlmişdilər. Ancaq Allahın əmri ilə mağaraya tor quran hörümçək və mağaranın qarşısında yuva quran göyərçin sayəsində Peyğəmbərimizin və Əbu Bəkrin içəridə olduqlarını təxmin edə bilmədilər. Allah ən çox sevdiyi insanı və öz canı bahasına onu qoruyan ən səmimi dostunu məhz belə qorumuşdu.

Biz də özümüzə dost olaraq seçdiyimiz insanlara diqqət etməliyik. Dostlarımıza və yoldaşlarımıza qarşı fədakarlıq etməkdən də qaçmamalıyıq.

Sözündə durmaq

Sözündə duran müsəlman:

1. Söz verməyin müsəlman üçün sənəd kimi ciddi məsuliyyət olduğunu bilər,
2. Sözündə durmayanın əmin və etibarlı insan olmayacağını bilər,
3. Sözündə durmamağın şeytanla ortaqlıq olduğunu bilər,
4. Sözündə durmamağın münafiqlik əlaməti olduğunu bilər,
5. Və əsla yerinə yetirə bilməyəcəyi sözü verməz.

Söz ağızdan bir dəfə çıxar
(OXU MƏTNİ)

"Söz ağızdan bir dəfə çıxar!" ifadəsini eşitmisiniz. Nə üçün belə deyirlər? Bir sözü iki dəfə təkrar edə bilmərikmi? Burada məqsəd sözün iki dəfə təkrar edilməsi deyil, əlbəttə. Bu ifadə deyilən sözün yerinə yetirilməsindəki həssaslığı bildirir. Söz ağızdan bir dəfə çıxar, dediyim sözü yerinə yetirərəm, unutmaram; söz verdimsə, verdiyim sözün məsuliyyətini bilirəm, sözümün üstündə duraram, deməkdir. İddialı bir cümlə kimi görünsə də, bu xasiyyət hər bir insanda olmalıdır. Necə?

Tutaq ki, atanız sinfi keçsəniz, sizə velosiped alacağını dedi. Ancaq bu sözünün üstündə durmadı, hansı hissləri keçirərdiniz? Eyni şəkildə siz də atanıza verdiyiniz sözü unutmuş olsanız, atanız bir daha sözünüzə inanarmı?

> **"Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində (qiyamət günü) cavabdehdir. (İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suala tutulacaqdır)"**
>
> **(İsra surəsi, 34)**

Başqa bir misal verək. Sinif yoldaşınız ilə müəyyən bir saatda görüşüb məktəbə birlikdə gedəcəyinizi planlaşdırmısınız. Ertəsi gün qərarlaşdırdığınız yerə dediyiniz saatda getdiniz, ancaq dostunuz gəlmədi. Sonra məktəbə getdiniz. Məktəbə gedib sinfə girdikdə nə görsəniz yaxşıdır? Dostunuz məktəbə çoxdan gəlibmiş! Hansı hissləri keçirərdiniz? Çox əsəbiləşdirici bir haldır, elə deyilmi? Hələ bir də dostunuzun qərarlaşırdığınız yerə gəlməməyinin heç bir səbəbi yoxdursa, yəni verdiyi sözü yaddan çıxarmışsa... Ona olan bütün etibarınız azalmağa başlayar.

Bilirsinizmi, buna oxşar bir hadisə böyük şair Mehmet Akif Ersoy ilə dostu arasında yaşanmışdır. Dostu onu günorta yeməyinə dəvət etmişdi. Ancaq həmin gün şiddətli yağış yağırdı. Dostu da M.Akifin bu yağışda gələ bilməyəcəyini düşünüb qonşuya gedir. Lakin şiddətli yağışa baxmayaraq, M.Akif söz verdiyi kimi dostunun evinə gəlir. Baxır görür ki, dostu evdə yoxdur. Evdəkilərə tapşırır ki, gələndə ona salamını çatdırsınlar. Sonra geri qayıdır. Ertəsi gün dostu nə qədər üzr istəsə də, M. Akif: "Bir söz ya ölüm, ya da ona yaxın bir fəlakətlə yerinə yetirilməzsə, üzrlü qəbul edilər!" - deyərək dostu ilə təxminən 6 ay görüşmür.

> **"O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar (onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər)"**
>
> **(Muminun surəsi, 8)**

Sözündə durmamaq özü ilə birlikdə etibarı, sevgini, fədakarlığı da insandan silib aparar. Peyğəmbərimiz (s.ə.s) bir hədisi-şərifində belə buyurmuşdur: *"Münafiqliyin əlaməti üçdür: Danışdığı zaman yalan deyər, söz verdikdə sözünün üstündə durmaz, bir şey əmanət edildikdə xəyanət edər"*. (Buxari, İman, 25; Müslim, İman, 25)

Münafiqlik ikiüzlülük deməkdir. Yəni sözü ilə əməli üst-üstə düşməyən insana münafiq deyilir.

Verdiyi sözü yerinə yetirməyən insan eyni zamanda yalan danışmış olur. Sözlərində yalan olan şəxs cəmiyyətin sevgisini də, hörmətini də itirər. Belə bir insana heç kim etibar etməz.

Verdiyimiz sözün üstündə durmaq qədər, yerinə yetirə bilməyəcəyimiz sözü verməməyimiz də çox mühümdür. Ona görə də nəyi nə üçün söylədiyimizi yaxşı bilməli, düşünərək danışmalıyıq.

Peyğəmbərimiz (s.ə.s) verdiyi sözü yerinə yetirmək üçün bir nəfəri üç gün gözləmişdi. "Muhammədüləmin" deyə xitab edilən gözəllər gözəli Peyğəmbərin ümməti olaraq həm danışdıqlarımızın, həm də hərəkətlərimizin məsuliyyətini dərk etməliyik.



Allah Rəsulunun sözündə durması
(OXU MƏTNİ)

Məkkə fəth edilmişdi. Hər yanda böyük bir coşqu vardı. Mühacirlər sevincdən nə edəcəklərini bilmirdilər. Dilə asan gəlir. Düz 10 il idi ki, böyüyüb boya-başa çatdıqları torpaqlardan ayrı düşmüşdülər. Məkkədən, Kəbədən uzaqda yaşamağa məcbur qalmışdılar. Düzdür, Mədinədəki qardaşları onlara çox yaxşı münasibət göstərmiş, onların Mədinədə özlərini yad kimi hiss etmələrinə imkan verməmişdilər. Lakin yenə də öz vətənlərinin, evlərinin həsrəti ilə yaşamışdılar. İndi isə Məkkə Allahın izni ilə fəth edilmişdi. Ən gözəli isə 10 il əvvəl sırf Allaha inandıqları üçün işgəncə gördükləri yurdlarına indi başları dik bir şəkildə girirdilər. İstədikləri kimi ibadət edəcək və istədikləri kimi imanlarını dilə gətirəcəkdilər. Bunlara sevinməsinlər, bəs nəyə sevinsinlər?

Ənsarlar isə qardaşlarının bu həyəcanını və sevincini bölüşsə də, içlərindəki hüznə də mane ola bilmirdilər. Onların dərdi başqa idi. Onlar 10 il ərzində qardaşlarını qonaq etmiş, onları özlərinə baş tacı etmişdilər. Hələ o qonaqlardan biri də var idi ki, o, içlərində ən xeyirlisi idi. O, aləmlərə rəhmət idi. O, Allahın sevimlisi, Rəsulu (s.ə.s) idi. O da bir mühacir idi. Məkkə Onun da yuvası, yurdu idi. Axı O da yurduna, yuvasına dönmək istəyəcəkdi. İndi onlar Peyğəmbərin (s.ə.s) ayrılığına necə dözəcəkdilər? Məkkəlilərin sevinclərini bölüşən Allah Rəsulu ənsarın tələşını və hüznünü hiss etdi. Onların bu qədər kədərlənməsinə dözə bilmədi. Dərhal onların yanına gedərək daha artıq narahat olmamalarını tapşırdı. Çünki O, Məkkəyə sığmırdı. Mədinədən ayrılmayacaq, Ənsarı yalnız və yetim qoymayacaqdı. Çünki O, Aqabədə Mədinəlilər ilə müqavilə bağlamışdı. Mədinəyə gələcəyinə və orada onlarla qalacağına dair söz vermişdi. İndi bu sözünə sadiq qalacaq və onları yalnız qoymayacaqdı.

Ənsarlar Allah Rəsulunun (s.ə.s) bu müjdəsini eşitdikdə sevinərək Allaha şükür etdilər. Allah Rəsulu (s.ə.s) onlara verə biləcək ən böyük müjdəni vermişdi. Həm də onlara yenə də gözəl bir nümunə olaraq; sözünə sadiq qalaraq. Məkkə Onun doğma yurdu idi. Uşaqlıq illərinin ən gözəl xatirələri vardı Məkkə torpaqlarında. Ancaq yenə də O (s.ə.s), sözünün üstündə durur və Mədinəlilərə vəfa borcunu ödəyirdi.

Allah Rəsulu Məkkə və Kəbə həsrəti ilə dolu olsa da, çox böyük bir fədakarlıq göstərərək verdiyi sözə ömrünün sonuna qədər sadiq qalmış, Mədinəlilər ilə yaşamış və onların yanında vəfat etmiş, elə Mədinədə də dəfn edilmişdir.

Əfv edici olmaq

Bağışlayan müsəlman:

1. Bağışlaya bilənlərin insanlar nəzərində və Allah dərgahında yaxşı insan olduğunu bilər,
2. Bağışlamağı bacaranların bağışlandığını bilər,
3. Bağışlayanların hər zaman ən az bir könül qazandığını bilər,
4. Bağışlamağın maddi və mənəvi qazancları olduğunu bilər,
5. Ancaq güclü insanların bağışlaya biləcəyini bilər.

Quyudan saraya
(OXU MƏTNİ)

Əfv edici olmaq və insanları bağışlamaq gözəl əxlaqlı insanların ən mühüm xüsusiyyətidir. Hansı birimiz xəta etmirik ki? Axı xəta etmək insan olmaqdan irəli gələn bir xislətdir. Mühüm olan xəta edən şəxsin səhvini başa düşərək peşman olması, Allaha tövbə etməsi və qarşısındakından üzr istəməsi; haqsızlığa düçar olanın da qarşısındakını əfv etməsidir.

Həzrət Yusifin hekayəsi bizə əfv edici olmanın nə qədər böyük bir fəzilət olduğunu göstərir. O, özünə qarşı pislik edən qardaşlarından intiqam alaraq asan yolu tutmamış, Allah üçün hər birini əfv etmişdir.

Qurani-Kərimdə peyğəmbərlərin başlarına gələn hadisələr anladılarkən Yusif peyğəmbərə xüsusilə diqqət çəkilir. Hətta onun hekayəsi "qissələrin ən gözəli" deyə adlandırılır. Haqqında xüsusi bir surə olan Yusif peyğəmbərin həyatı, həqiqətən də, çox maraqlıdır. Buyurun, birlikdə bu gözəl peyğəmbərin həyatına nəzər salaq:

> "O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər."
>
> **(Ali-İmran surəsi, 134)**

Həzrət Yusif (ə.s) Quranda adı çəkilən peyğəmbərlərdən biridir. Yaqub (ə.s) peyğəmbərin oğludur və soyu Hz. İbrahimə qədər gedir.

Yusif peyğəmbər uşaqlıqdan bəri həm əxlaq, həm də üzünün gözəlliyi ilə digər qardaşlarından seçilirdi. Ona görə də atası ən çox onu sevir, ona xüsusi münasibət bəsləyirdi. Qardaşlarından Bünyamin xaric, digərləri atalarının Yusifə qarşı sevgisini qısqanırdılar. Bu qısqanclıq o qədər böyüdü ki, nəhayət, onu öldürmək qərarına gəldilər. Öz aralarında ağlasığmaz bir plan qurdular. Atalarına min cür yalan danışaraq Yusifi gəzmək adı ilə uzaq bir yerə apardılar və orada heç acımadan su quyusuna atdılar. Sonra bir heyvan kəsib qanını Yusifin köynəyinə sürtdülər və yalandan ağlayaraq atalarının yanına gəldilər. Atalarına:

- Atacan! Biz öz aramızda oynayarkən Yusifi əşyalarımızın yanında saxlamışdıq. Lakin onu qurd yedi. Biz doğru danışsaq da, sən bizə inanmayacaqsan. Bizə inanmırsansa, bax, bu da qanlı köynəyi, - dedilər.

Yusifin köynəyi həqiqətən də qan içində idi. Ancaq cırılmamışdı. Bir qurd hücum etsəydi, köynəyi də paramparça edərdi. Yaqub peyğəmbər dedi:

- Xeyr, siz yalan danışırsınız. Bu necə bir qurddur ki, balamı yeyib, ancaq köynəyini parçalamayıb?! Siz çox böyük bir xəta etdiniz. Lakin əlimizdən gələn bir şey yoxdur. Bundan sonra mənim üzərimə düşən yalnız səbir edərək Allahdan kömək istəməkdir.

Yusif quyuya atıldıqdan sonra orada Allaha sığındı və Ondan kömək istədi. Yaxınlıqdan keçən bir karvan su götürmək üçün quyunun yanına gəlmişdi. Quyunun içinə bir qab saldıqda Yusifi gördülər və onu quyudan çıxartdılar. Yusif quyudan xilas oldu. Lakin bu dəfə də başqa bir imtahan onu gözləyirdi. Çünki onu quyudan çıxaranlar Misirdə qul bazarına apardılar və orada satdılar. Beləliklə də, balaca Yusif xidmətçi olaraq bir vəzirin sarayına gətirildi.

Həzrət Yusif (ə.s) aradan uzun illər keçdikdən sonra Allahın bir hikməti olaraq Misirdə idarəçi oldu. Gözəl əxlaqı səbəbiylə hər kəs tərəfindən çox sevilir, ölkəsini ədalətlə idarə edirdi.

O illərdə Misirdə çox şiddətli quraqlıq olmuşdu. Heç kimsənin evində yeyəcək bir şey qalmamışdı. Yusif (ə.s) quraqlıq başlamadan əvvəl tədarük görmüş və anbarları ərzaq ilə doldurmuşdu. Ona görə də insanlar hər yerdən axın-axın Həzrət Yusfin yanına ərzaq almağa gəlirdilər. Bu gələnlər arasında Yusifin qardaşları da vardı. Yusif (ə.s) qardaşlarını görən kimi tanıdı, ancaq onlar Yusifi (ə.s) tanımadılar. Çünki həm onun Misirə sultan olduğunu bilmirdilər, həm də aradan keçən illər onu çox dəyişmişdi. Yusif (ə.s) özünü təqdim etdikdə qardaşları çaşıb qaldılar. Əvvəlki illəri xatırlayaraq başlarını aşağı əydilər. Yusifin (ə.s) onlardan intiqam alacağını düşünürdülər. Ona görə də tir-tir əsməyə başladılar. Yusif (ə.s), vaxtı ilə pislik etsələr belə, qardaşlarını cəzalandırmadı, onları əfv etdi və belə dedi:

"Bu gün sizə (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, Rəhm edənlərin ən rəhmlisidir!"** (Yusif surəsi, 92)

Bəli, dostlar! Məhz quyudan saraya uzanan bir yolçuluğun hekayəsi belədir! Hz. Yusif (ə.s) bütün insanlar üçün misilsiz bir nümunədir. Biz bir-birimizin xətalarını əfv etsək, Allah da bizim günahlarımızı əfv edər.



Nəzakət qaydalarına diqqət etmək

Davranışlarında nəzakət qaydalarına riayət edən müsəlman:

1. Danışarkən nə deyəcəyini və nə zaman deyəcəyini bilər, ona görə danışar,
2. Kübarlığın və nəzakətin insanların gözəl xislətlərindən olduğunu unutmaz,
3. Yaşlısından cavanına, xəstəsindən sağlamına kimi, insanlarla necə davranacağını bilər və ona uyğun davranış göstərər,
4. Etik normaları bilmirsə, soruşub, oxuyub öyrənər və ona görə davranar,
5. Ədəbli olmağın insan davranışlarının və münasibətlərinin bəzəyi olduğunu bilər,
6. *"Ədəb bir tac imiş nuri-xudadan. Gey o tacı, əmin ol hər bəladan"* misalını əsla unutmaz.

> "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın."
>
> **(Əhzab surəsi, 70-71)**

Müsəlman nəzakəti
(OXU MƏTNİ)

Gündəlik həyatda, evdə, məktəbdə, yolda daim insanlarla münasibət qururuq. Yaşadığımız mühitdə diqqət etməli olduğumuz bir sıra qaydalar mövcuddur. Misal üçün, yoldaşınız sinfə girərkən qapını ayağı ilə vuraraq açsa, sizə salam vermədən yerinə keçib otursa, onun haqqında nə düşünərsiniz? İnsanlara yardım etməyən, hər zaman ətrafındakıların üstünə qışqırıb-bağıran insanlarla birlikdə olmaq istəyərsiniz? Nəzakəti, hörməti bilmədiklərini düşünərsiniz, elə deyilmi? Bəs yaxşı, bütün insanlar bu şəkildə hərəkət etsələr, bu dünyanın halı necə olar? Deməli, necə davranacağını bilmək bir insanlıq vəzifəsidir.



Nəzakət qaydaları gündəlik həyatımızda yerinə yetirəcəyimiz davranışları əhatə edir. Bu qaydalara **etik normalar** da deyilir. Ədəbli davranmaq cəmiyyəti gözəlləşdirir və hörməti, ehtiramı artırır. Böyüklərimiz adətən: "Ah! Bizim zamanımızda insanlar..." deyib həmişə keçmiş zamanda insanların daha zərif, alicənab olduqlarından bəhs edirlər. Deməli, bu mövzuda ciddi mənada bir geriləmə mövcuddur. Ona görə də bizdən sonrakı nəsillərə gözəl bir cəmiyyət qoyub getmək üçün bu vəzifə bizim üzərimizə düşür.

Elə isə nəzakət qaydalarına bir daha nəzər yetirək:

Ədəbli olmaq demək nəzakət qaydalarını yaxşı bilib tətbiq etmək deməkdir. Heyvanlara, bitkilərə və cansız əşyalara qarşı lazımi şəkildə nəzakətlə davranmaq da etika və davranış ədəblərinə daxildir. İlk növbədə



harada nə ediləcəyinin incəliklərini bilmək və ona görə hərəkət etmək lazımdır. Ətrafımızdakı böyüklərə qarşı hörmətlə davranmaq, səsimizi yüksəltmədən danışmaq, ictimai nəqliyyat vasitələrində yaşlılara yer vermək, evimizə gələn qonağı gülərüz qarşılamaq, qonağa ikram edərkən nəzakətlə davranmaq kimi. Və ya xəstə olanları ziyarət etmək, qonşularımızın və qohumlarımızın sevincli və kədərli günlərində yanlarında olmağa çalışmaq, müəllimlərə hörmət göstərmək, yoldaşlarımızla yaxşı münasibətdə olmaq və s. Əks təqdirdə bəyənilməyən, sevilməyən biri olarıq.

"Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!"

(Loğman surəsi, 19)

Rəsulullahın qonağı
(OXU MƏTNİ)

Bir nəfər Peyğəmbərimizin (s.ə.s) yanına gələrək:

- Mən acam, - dedi.

Allah Rəsulu xanımlarından birinə xəbər göndərərək yeməyə bir şeylər istədi. O da:

- Səni peyğəmbər olaraq göndərən Allaha and içirəm ki, evdə sudan başqa heç bir şey yoxdur, -dedi.

Peyğəmbərimiz (s.ə.s) bu dəfə digər xanımına xəbər göndərərək yeməyə bir şeylər istədi. O da eyni cavabı verdi. Bundan sonra Rəsuli-Əkrəm (s.ə.s) digər xanımlarından da eyni cavabı aldı. Bu zaman əshabına üz tutaraq:

- Bu gecə bu şəxsi kim qonaq etmək istəyir? - deyə soruşdu.

Ənsardan Əbu Talha (r.a):

- Mən qonaq edərəm, ya Rəsulallah, - deyərək həmin qonağı evinə apardı.

Evə çatdıqda xanımına:

- Rəsulullahın (s.ə.s) qonağına yaxşı qulluq edək, - dedi. Sonra da sözlərinə



davam edərək: - Evdə yeməyə nəsə varmı? - deyə soruşdu.

Xanımı:

- Xeyr, təkcə uşaqlarımızın qarnını doyuracaq qədər bir az yemək var, - dedi.

Əbu Talha:

-Elə isə uşaqların başını qat. Süfrəyə gəlmək istəsələr, onları yatır. Qonağımıza yeməyi verəndə də şamı bir bəhanə ilə söndür. Biz süfrədə özümüzü yemək yeyirmiş kimi aparaq, qonaq doyunca yesin, - dedi. Süfrəyə oturdular. Qonaq qarnını doyurdu, ev sahibləri isə ac olaraq yatdılar. Səhər tezdən Əbu Talha Peyğəmbərimizin yanına gəldi. Onu görəndə Allah Rəsulu (s.ə.s):

- Bu gecə qonağınıza göstərdiyiniz hörmətdən uca Allah razı qaldı, - buyurdu.

Allahın razılığını qazanmaq üçün bir-biriləri ilə yarışan əshabi-kiram sahib olduqları o uca əxlaqa Peyğəmbərimizi (s.ə.s) nümunə götürməklə qovuşmuşdular. Onun xoşlanmayacağı bir şəkildə davranmaqdan çəkinər və Allaha sığınardılar. Biz də eyni şəkildə davranmaq istəyiriksə, insanlara qarşı hərəkətlərimizdə: "Allah Rəsulu məni bu hərəkəti edərkən görsəydi, razı olardımı?" - deyə düşünməliyik.

Utanma hissi

Ədəbli və həyalı bir müsəlman:

1. Utanma hissinin insanı pis əməllərdən çəkindirən bir dəyər olduğunu unutmaz,
2. Utanma hissinin qaynağının iman olduğunu bilər,
3. Utanma hissinin gözəl xarakter sahibi insanlara xas olduğunu bilər,
4. Utanmaz insanların hər cür əxlaqsızlıq edə biləcəklərini də yaddan çıxarmaz.

Ədəb və həya
(OXU MƏTNİ)

Ədəb ağıllı-kamallı, itaətkar olmaq, davranış gözəlliyi və ya insanlara qarşı xoşrəftar olmaq mənalarını ifadə edir. Həya isə pis söz və pis hərəkətlərdən uzaq durmaqdır. Həya sahibi olmayan insanlar pis hərəkət etməkdən çəkinməzlər, çünki utanma hissləri azalmışdır. Əksər hallarda böyüklərimizdən eşidirik: "Utanmaza bax, böyüklər ayaq üstə dururkən, qalxıb bir yer də vermədi!" - deyə. Məhz həya və ədəb bir insanda olmadıqda yanlış davranışlar ard-arda gəlir. Məsələn, süfrə arxasında yemək yeyərkən ağzımızı mar-

çıldatmaq, böyüklərin yanında ayaqlarımızı uzadaraq oturmaq, danışarkən qeyri-etik kəlmələrdən istifadə etmək, ətrafımızdakılara qarşı kobud davranmaq kimi yanlış və çirkin hərəkətlər davam etdikcə həya hissimiz azalar, bunlar normal hal kimi vərdiş halına gələr. Ancaq bəzi hallarda da utanma hissi yaxşı bir davranışımızda çətinlik yarada bilər. Məsələn, evimizə gələn qonağa "xoş gəldin" deyib içəri dəvət etmək kimi. Belə hallarda nəzakət qaydalarını tətbiq edərkən ilk zamanlar utancaqlıq hiss etsək də, bunu tətbiq etdikcə o davranışlar bizim xarakterimizə nəqş olunar və bunu çəkinmədən yerinə yetirməyə başlayarıq.



Rəbbimiz bizi yaradarkən içimizə utanma hissini də yerləşdirmişdir. Bu hissin xeyirli yöndə bizə təsir etməsinə yol açmalıyıq. Məhz buna görədir ki, utanma hissi azaldıqca insan insanlıqdan uzaqlaşır. O halda ədəb və həya hər işin başında gəlməlidir. Təkcə insanlarla olan əlaqələrimizdə deyil, tənha olduqda belə ədəbə diqqət etməliyik. Əslində, Rəbbimizin bizi hər an gördüyünü bildiyimizə görə, heç bir zaman yalnız deyilik. Bunu nəzərə alaraq ədəbli olmağa, hərəkətlərimizə həya hissinə görə yön verməyə çalışmalıyıq. Peyğəmbərimiz *"Həya imandandır"* buyuraraq bizə ədəbin əhəmiyyətini bildirmişdir.

Həya abidəsi Hz. Osman
(OXU MƏTNİ)

Utanma hissi, ədəb, həya deyildikdə ağlımıza gələn ilk şəxs Hz. Osmandır. Hz Osman (r.a) müsəlmanların üçüncü xəlifəsidir. Peyğəmbərimizin kürəkəni olmuşdur. Eyni zamanda Peyğəmbərimizə iman edənlərin beşincisidir. Yəni ilk müsəlmanlardandır.

Hz. Osman (r.a) həya və ədəbi ilə məşhur idi. Çox həyalı idi. Dəqiqliyi və həssaslığı ilə də tanınırdı. Rəvayət edildiyinə görə, təkəbbürlü görünmək qorxusu ilə başını qaldırıb səmaya belə baxmazmış. Bu qədər təvazökar idi. Ayaqlarını belə göstərməkdən çəkinən, həya timsalı bir xəlifə idi. Onun haqqında: *"Onun həyasından mələklər belə utanır"*, - deyə hədis vardır.

Peyğəmbərimizin xanımı Hz. Aişə (r.anhə) nəql edir: "Rəsulullah (s.ə.s) bir gün evində istirahət edirdi. Çox yorulduğu üçün yerə uzanmışdı. Bu vaxt Əbu Bəkr (r.a) içəri girmək üçün icazə istədi. İcazə verildi və o, içəri girdi. Rəsulullah (s.ə.s) yenə uzanmış vəziyyətdə idi. Sonra Ömər (r.a) icazə alıb içəri girdi. Rəsulullah yenə eyni vəziyyətdə idi. Uzanmış halda onlarla söhbət edirdi. Bir az sonra Osman (r.a) qapıya gəlib içəri girmək üçün icazə istədi. Bunu görən Peyğəmbərimiz dərhal uzandığı yerdə

ayaqlarını yığdı, bir örtü ilə örtdü və ona içəri girməsi üçün icazə verdi. Hz. Osmanı bu şəkildə qarşıladı. Onlar getdikdən sonra mən soruşdum:

- Ya Rəsulallah! Atam Əbu Bəkr gəldi, halınızı dəyişmədiniz. Ömər gəldi, yenə də eyni halda qarşıladınız. Ancaq Osman gəldikdə ayaqlarınızı yığdınız və üstünü də örtdünüz. Bunun səbəbi nədir?

Peyğəmbərimiz (s.ə.s) belə buyurdu:

-Ey Aişə! Mələklər belə Osmandan həya edərlər. Mən necə həya etməyim?

Peyğəmbərimiz (s.ə.s) başqa bir hədisi-şərifdə: *"Mən həyanın şəhəriyəm, Osman da qapısıdır"*, -buyuraraq onun əxlaqi cəhətdən nə qədər üstün olduğuna işarə etmişdir.

Peyğəmbərimiz Həzrət Osmanı çox sevir, onun həlim xasiyyətini çox bəyənirdi.

Peyğəmbərimizin: *"Allah mənə qızlarım Ümmü Gülsümü və Ruqiyyəni Osmana verməyimi vəhy etdi"*, - sözləri ilə Hz. Osman (r.a) Peyğəmbərimizə iki dəfə kürəkən olma şərəfinə nail olmuşdur. Buna görə də ona "iki nur sahibi" mənasına gələn "zinnureyn" ləqəbi verilmişdir. Hz. Osman əvvəlcə Ruqiyyə ilə, onun vəfatından sonra isə Ümmü Gülsümlə evlənmişdi. Ümmü Gülsümün vəfatından sonra isə peyğəmbərimizin bu iltifatını qazanmışdır: *"Osman! (Evləndiriləcək) Bir qızım da olsaydı, onu da sənə verərdim"*.

Hz. Osman 12 il xəlifəlik etmişdir. Onun xəlifəliyi dövründə İslam torpaqları çox genişlənmişdir. Müsəlmanların sayı sürətlə artmışdır. Buna görə də o, Qurani-Kərimi çoxaltdıraraq hər yerə paylamışdır. Bu səbəblə ona Qurani-Kərimi yayan, paylayan mənasına gələn "Naşirul-Quran" deyilmişdir.

Hz. Osman gülərüz, alim və comərd bir səhabə idi. Eyni zamanda Peyğəmbərimizin vəhy katiblərindən biri idi. Peyğəmbərimizdən 146 hədis rəvayət etmişdir. Gözəl xətlə yazar, səlist danışardı. Yaxşı natiq idi. Qurani-Kərimi çox oxuyardı. Quranı çox oxuduğu üçün onun əlində iki Kitab köhnəlmişdir. Gecə vaxtı bir az yatar, sonra qalxıb ibadətlə məşğul olardı. Gündüzlər isə əksəriyyətlə oruc tutardı. Həyatda ikən cənnətlə müjdələnən on nəfərdən (aşəreyi-mübəşşirədən) biridir. Onu ən çox sevdirən xüsusiyyəti isə yüksək həya sahibi olması idi.



İslam əxlaqında xoş qarşılanmayan hallar

1. Yalan danışmaq

Ümumi mənada yalançılıq doğruluğun əksinə söz demək, baş vermiş bir hadisəni olmamış, baş verməmiş bir hadisəni isə olmuş kimi göstərməkdir. Yalan ən iyrənc pisliklərdən, günahlardan biridir. Yalan danışmaq insanın şərəf və heysiyyətini zədələyən və onu alçaldan davranışdır.

Yalan insanı cəmiyyətdə etibar və etimad edilməyən bir səviyyəyə qədər alçaldır. Çünki yalan danışanlar çox həsədçi və xəsis insanlardır. Bu cür insanlara, təbii olaraq, heç kim etibar etməz. Həmişə düz danışan insan olmaq nə qədər insani və əxlaqi bir keyfiyyətdirsə, yalançılıq da o qədər qeyri-insani və əxlaqdan kənar bir haldır. Çünki yalan danışmağın zərəri təkcə insanlar arasındakı münasibətləri sarsıtmır, həm də bir qisim insanların haqq və hüquqlarının tapdanmasına, haqsız olan insanların da haqq sahibi olmasına gətirib çıxarır. Qurani-Kərimdə belə buyurulur:

"Yalan söz danışmaqdan çəkinin". (Həcc, 30)

"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz, Allah) əməllərinizi islah edər və günahlarınızı bağışlayar..."

(Əhzab surəsi, 70-71)

"Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsl yalançıdırlar". (Nəhl, 105)

Yalanı ən böyük günahlardan biri olaraq qəbul edən Peyğəmbərimiz (s.ə.s) onun münafiqlik əlaməti olduğunu xəbər vermişdir.

Yalan insanın hər cür bəşəri münasibətlərinə mənfi təsir göstərir. Buna görə də, zarafat belə olsa, yalan danışmaq xoş qarşılanmamışdır. Yalan danışmaq çox vaxt ədalətin qurulmasına da mane olur. Buna görə də bir hadisəyə yalandan şahidlik edərək yalançı and içmək də qəti şəkildə qadağan edilmiş, hətta "böyük günahlardan" sayılmışdır.

2. Özündən razılıq

Bəşəri münasibətlərə mənfi təsir göstərən davranışlardan biri də insanın özündən razılığının nəticəsi olan təkəbbürdür. Təkəbbür -kibir insanın özünü hünər, şərəf, sərvət və müvəffəqiyyət baxımından üstün görüb lovğalanmasıdır. Uca Allah belə buyurur:

"Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz". (Loğman, 18)

Təkəbbürün pis və tənqid edilən davranış qəbul edilməsinin və Allahın təkəbbürlü insanları sevməməsinin səbəbi insanın bəzi qabiliyyətləri və nemətləri düzgün qiymətləndirməməsidir. Belə ki, təkəbbür sahibi insan o nemətlərin, var-dövlətin, elmin və özünün sahib olduğu digər qabiliyyətlərin əsl sahibini yaddan çıxardır, hər şeyi öz məharəti sanır. Beləliklə, o, Rəbbini unudur, öz kimliyini tanımır. Hal-



buki tövhid əqidəsinə əsasən hər şeyin həqiqi sahibi məhz Uca Allahdır. İzzət və Ucalıq da yalnız Ona aiddir. Bu həqiqəti bilən insan təkəbbürlənməməlidir. Peyğəmbərimiz (s.ə.s) belə buyurur:

“Qəlbində zərrə qədər iman olan kəs cəhənnəmə girməz. Qəlbində zərrə qədər təkəbbür olan kəs də cənnətə girə bilməz”. (Müslim, İman, 39)

3. Həsəd

Həsəd başqasının sahib olduğu nemətlərə görə narahat olub kədərlənmək, o insanın o neməti itirməsini istəmək deməkdir. Yəni həsəd insanın özündə olmayan qabiliyyətlərə sahib olanlara paxıllıq etməsidir. Həsəd cahillik və acgözlüyün birləşməsindən meydana çıxan pis bir xasiyyətdir.

Dünyada saysız-hesabsız nemət və qabiliyyətlər var. Bir insanın bunların hamısını özündə toplaması mümkün deyil. Özündə olmayan qabiliyyətlərə sahib olanları qısqanan, onlara paxıllıq edən insan hər cür pisliyi edəcək xarakterə sahibdir. Çünki paxıllıq edən şəxs özündə olmayan o nemətin digər insanların da əlindən çıxmasını arzulayar, özündə yoxdursa, digərlərində də olmamasını istəyər. İnsanın sahib ola bilmədiyi nemət və qabiliyyətlərə sahib olanları qısqanmaq yerinə özünün də o insanlar kimi olması üçün əmək sərf edib çalışmasına isə “qibtə” deyilir. Həsəd insanı əxlaqi cəhətdən alçaldan pis xasiyyətdir. Amma qibtə insanı əxlaqi baxımdan kamilləşdirir. Həsəd elə bir xasiyyətdir ki, Qurani-Kərim həsədçilərin həsədindən Allaha sığınmaq haqqında dua öyrətmişdir:

“De: “Sığınıram sübhün Rəbbinə, Yaratdıqlarının şərindən, qaranlıq çökən gecənin şərindən, düyünlərə üfürən (cadugər) **qadınların şərindən, və paxıllıq edən paxılın şərindən!”** (Fələq, 1-5)

İslam dini ehtiva etdiyi əxlaqi prinsiplərlə insanlar arasında sevgi və hörmətə əsaslanan bir qardaşlıq münasibəti yaratmağa çalışır. Həsəd isə bu sevgini zədələyir, insanlar arasında qurulan qardaşlıq əlaqəsini kəsir. Peyğəmbərimiz hədisi-şəriflərində buna diqqət çəkmişdir:

“Bir-birinizə hiddətlənməyin, bir-birinizə həsəd edib bir-birinizi qısqanmayın! Bir-birinizdən üz çevirməyin! Ey Allahın qulları, qardaş olun! Bir müsəlmana üç gündən çox qardaşı ilə küsülü qalmaq halal olmaz”. (Buxarı, Ədəbul-müfrəd, I, 491)



"Alovun odunu yandırıb bitirməsi kimi həsəd də yaxşılıqları məhv edər". (Əbu Davud, Ədəb, 44)

Həsəd etməkdən xilas olmağın çarəsi hər şeyin Allahdan gəldiyini qəbul etmək; "Onda niyə var, məndə niyə yoxdur" deyərək dərd çəkmək əvəzinə "Ona verən Allah mənə də verər" deyərək özü üçün də istəmək və bunun üçün cəhd göstərməkdir.

4. Böhtan

Böhtan bir insanın etmədiyi bir işi onun etdiyini söyləmək və ayıb bir işi ona aid etməkdir. İslam bunu qəbul etmədiyi kimi, ağıl da bunu münasib görmür. Çünki böhtan əxlaqi bir qüsur olmaqdan daha çox günahdır. Bir insanın üzərinə asanlıqla atılan bir böhtan mehribanlıqla qurulan ailələrin dağılmasına, dostluq münasibətlərinin pozulmasına gətirib çıxarır. Buna görə də böhtan həm ayrı-ayrı insanlara, həm də cəmiyyətə qarşı ediləcək ən böyük pislikdir.

Böhtan atan şəxs ən böyük zərəri özü də bilmədən özünə verir. Çünki böhtan atdığı məlum olan insan cəmiyyət tərəfindən rədd edilir, tənhalığa sövq edilir.

Böhtan deyəndə ağıla gələn ilk şey namuslu insanları əxlaqsız hərəkətlərlə günahlandırmaqdır:

> "Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!"
>
> **(Nisa surəsi, 54)**

> " Möminlər arasında pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. ancaq Allah bilir, siz bilməzsiniz!"
>
> **(Nur surəsi, 19)**

"Zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham edənlər dünyada və axirətdə lənətə düçar olarlar. Onları (qiyamət günü) **çox böyük bir əzab gözləyir. Qiyamət günü** (onlar dünyada qazandıqları günahlarını dandıqda) **dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir".** (Nur, 23-24)

Böhtan dinimizdə ən ağır və üz qızardan günahlardan biridir. Ağlı başında olan, Allaha və axirət gününə inanmış insan böhtan ataraq nə başqalarının həyatını, nə də öz gələcəyini məhv etməz.

5. Qeybət

Xoş qarşılanmayan çirkin davranışlardan biri də insanların arxasınca danışmaqdır. Bu hərəkətin başqa bir adı qeybətdir.

Qeybət bir insanın arxasınca, eşitdiyi zaman onun xoşuna gəlməyəcək şeyləri danışmaqdır. Danışılan işlərin həqiqət olması onun arxasınca danışmağa haqq qazandırmaz. Çünki qeybət elə həqiqətdə var olan bir xüsusu dilə gətirməkdir. Gerçək olmayanları iddia etmək isə o insana böhtan/iftira atmaq deməkdir. Qeybət insanlar arasında etibarı sarsıdan pis bir davranışdır. İnsanlar arasındakı etibarın sarsıdılması insanın və cəmiyyətin rahatlı-

"Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!"

(Qaf surəsi, 50)



ğını pozar, insanlar arasındakı yardım və qardaşlıq duyğularını zədələyər. Uca Allah belə buyurur:

"Ey iman gətirənlər!" Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) **günahdır.** (Bir-birinizin eybini, sirrini) **arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar** (qeybət də belədir). **Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!"** (Hucurat, 12)

Ayədə də ifadə edildiyi kimi, qeybət qırmaq insanın ətini yemək qədər iyrənc bir davranışdır. Bu pis və çirkin davranışdan uzaq olmaq və buna mane olmaq fərd və cəmiyyətin vəzifələrindəndir.

İnsanın qürurunu zədələyən, inciklik və düşmənliklərə gətirib çıxaran qeybətdən uzaq olmaq lazımdır. Qeybət qardaşlığa vurulan xəncər, sevgini solduran bir alovdur. Qeybət insanlar arasındakı birlik və bərabərliyi pozan fitnə və fəsadın mənbəyidir. Xülasə, qeybət günah bataqlığıdır.

6. Oğurluq

Oğurluq bir insanın özünə aid olmayan mal, pul, qiymətli əşya və s. gizlicə götürməsi, özünə aid etməsidir. Oğurluq dinimizdə qadağan edilən, haram olan davranışlardan biridir. Çünki oğurluq zəhmət çəkməyərək, cəhd göstərməyərək qazanmağa, başqalarının zərər görməsinə səbəb olmaqdır. Oğurluq bir cəmiyyətin əxlaqi baxımdan tənəzzülünün əlamətidir. Maddi və mənəvi tədbirlərə əl ataraq pis hərəkətin qarşısını almaq hər kəsin insanlıq vəzifəsidir.

İslam dini gözəl və təmiz olan hər şeyi qəbul etmiş, pis və çirkin olan işləri isə haram buyuraraq rədd etmişdir. Malın təmizi halal yoldan qazanılmış olandır. Dinimiz insanları oğurluğa aparan yollardan uzaqlaşdırmaqla yanaşı, zəkat verməyi, bir-birinə yardım etməyi, sədəqə və borc verməyi təşviq edərək ictimai asayişi təmin etməyə çalışmışdır. Rəbbimiz bu işlərin hamısını iman hissi ilə birləşdirərək insanların xoşbəxt olacaqları yolu göstərmişdir:

"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) **yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!".** (Nisa, 29)



"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin..."

(Bəqərə surəsi, 188)

"Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinərsinizsə, Biz də sizin qəbahətlərinizin (kiçik günahlarınızın) üstünü örtər və sizi (şərəfli bir mənzilə) çatdırarıq."

(Nisa surəsi, 31)

7. İçki və qumar

İslam ağılı, canı, nəsli, malı və dini qorumağa təşviq etmiş, bunlardan lazımi şəkildə və yerli-yerində istifadə etməyi əmr etmişdir. Bu dəyərlərə hər hansı bir şəkildə zərər verilməsini də şiddətlə qadağan etmişdir. Dinimiz insanın dünya və axirət səadətinə mane olan, ailəvi, ictimai və şəxsi bir çox problemlərə səbəb olan sərxoşluq verən maddələri və qumar oynamağı qadağan etmişdir. İçki və qumar bir çox ailələrin dağılmasına, xəstəliklərin yayılmasına, eyni zamanda psixoloji və iqtisadi zərərlərə yol açan əxlaqi problemlərdir.

Bu iki pis vərdiş bəşəriyyətin ən böyük düşmənidir. Çünki onlar birbaşa insanı hədəf seçərək onun həm bədənini həm də ruhunu xəstə edir. İçki və ya qumara mübtəla olan insanlar qazandıqlarını onlara xərcləyərək özlərini məhv etdikləri bəs deyilmiş kimi, övladlarının və ailəsinin pulunu və ruzisini də bu yola sərf etməkdən çəkinməzlər. Hətta daha da betəri, həyat yoldaşına və uşaqlarına fiziki və mənəvi zərər verər, müxtəlif cinayətlərə də səbəb olarlar. İçki və qumar insanların bir-biri ilə münasibətini pozur, kin və incikliklərin cəmiyyətdə yayılmasına və insanlara pislik edilməsinə şərait yaradır. Bu haqda Qurani-Kərimdə belə buyurulur:

"Ey iman gətirənlər! Şərab da (içki də), **qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoymayacaqsınızmı?"** (Maidə, 90-91)

Bu ayə həm içkini, həm də qumarı qadağan etmişdir.

Qumar haqsız bir qazancdır. Başqasının malını və pulunu hiylə ilə əldə etməyə gətirib çıxarır. İnsanların qazanma duyğusu güclüdür. Lakin bu müsbət duyğunu qumar mənfi bir hala salır, insanı əziyyət çəkmədən qazanmaq arzusuna sövq edir. İnsanda qazanma hərisliyini artıraraq onun ruhi sağlamlığını pozur. Qumar oynayanlar arasında yoldaşlıq və dostluqlar pozulur və onun yerini kin və ədavət tutur.

Bu cür zərərli vərdişlər bəzən təqlid, kiməsə bənzəməyə çalışmaq və pis mühit, bəzən isə yerli-yersiz maraq və xarakter zəifliyi nəticəsində meydana çıxır. Buna görə də ailə və təhsil müəssisələri gənclərin yetişməsində çox diqqətli olmalıdır. Ata-analar uşaqlarının haralara gedib-gəldiklərinə, kimlərlə yoldaşlıq etdiklərinə nəzarət etməli, onlarla sağlam münasibət qurmalıdır. Uşaqlar da öz növbələrində əsla valideynlərinə yalan danışmamalı, getdiyi yerlər, görüşdüyü insanlar haqda düzgün məlumat verməlidir.

"Səndən içki və qumar (meysir) haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət (dünya mənfəəti) vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür"!"

(Bəqərə surəsi, 219)

"O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir."

(Bəqərə surəsi, 255)

8. Rüşvət almaq və vermək

Rüşvət icra edilməsi istənilən bir işdə qeyri-qanuni asanlıq, haqqı olmadığı halda bir şeyin tez əldə edilməsi kimi məqsədlərlə kimməsə mal və ya pul şəklində verilən mənfəət deməkdir. Rüşvət cəmiyyəti fəlakətə aparan, birlik və qardaşlıq duyğularını kökündən sarsıdan, etimad və etibarı yox edən pis davranışdır.

Rüşvət almaq və vermək haqq-hüququn tapdanmasına və ictimai nizamın pozulmasına səbəb olan əxlaqi çürümədir. Rüşvət almaq və vermək dinimizdə haram edilmiş və böyük günahlardan sayılmışdır. Bu əxlaqsızlığı işləyənlərin axirət həyatları pərişan olacaqdır. Əməllərinin cəzalarını gec-tez çəkəcəklər. Hər işimizdən xəbərdar olan Uca Rəbbimiz belə buyurur:

"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin! Xalqın malının bir qismini (onun sizə haram olduğunu) **bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu** (malınızı) **hakimlərə** (rüşvət) **verməyin!"** (Bəqərə, 188)

Peyğəmbərimiz (s.ə.s) də: *"Allah rüşvət alana da, verənə də lənət etmişdir"*, (Tirmizi, Əhkam, 9; Əbu Davud, Əqdiyə, 4) - buyurmuşdur.

İnancsız və əxlaqsız insan Allahdan qorxmadığı üçün hər cür rəzalət və rüsvayçılığı işləyə bilər. Lakin inanan insan Allahın onun hər halından agah olduğunu bildiyinə görə, rüşvətə meyl etməz və digər günahları da işləməz. Rüşvət və vəzifədən sui-istifadə cəmiyyətləri fəlakətə aparan, birlik və qardaşlıq duyğularını kökündən sarsıdan, etimad və etibarı yox edən pis əməllərdəndir. Allah tərəfindən hər an hər yerdə görüldüyünə və bir gün hesaba çəkiləcəyinə inanan insanlardan meydana gələn cəmiyyətlərdə bu cür davranışlara yer yoxdur. Əgər müsəlman olduğunu deyən bir insan rüşvət kimi pis işlərə qarışıbsa, onun Allahdan lazımınca qorxmadığı aydın olur.





Rüşvət bir milləti maddi və mənəvi baxımdan tənəzzül etdirən bir davranış olduğuna görə ondan mütləq uzaq olmaq lazımdır. İslam əxlaqının nəzərdə tutduğu tərifəlayiq insan yaxşı və gözəl davranışları işləyər, pis və tənqid edilən davranışlardan çəkinər. O hər şeydən əvvəl insan olduğuna görə başqalarına kömək edər, hər cür günah və qəbahətdən uzaqlaşaraq namuslu və iffətli olmağa səy göstərər. Kamil insan həyatdakı bütün məsuliyyətlərin əmanət olduğunu qəbul edərək əmanətə riayət edər, öhdəliklərini lazımi şəkildə yerinə yetirərək ədalətli hərəkət edər. Bu nümunəvi insan həyatın çətinlik və problemlərinə səbir edərək nəticəni öz halal zəhməti ilə əldə etməyə səy göstərər.

9. Zina və fühuş

Zina aralarında nikah - qanuni/rəsmi bir evlənmə olmayan insanların bir-biri ilə cinsi münasibətdə olmalarına deyilir. Zina insanlığı fərd və cəmiyyət olaraq fəsada aparan, məhv edən, insan həyatının təmizliyini çirkləndirən bir davranış olduğuna görə dinimiz tərəfindən qadağan edilmiş, haram sayılmışdır. Belə ki, Qurani-Kərimdə: **“Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur”,** (İsra, 32) - buyurulmuşdur. Ağıllı bir insan zina etməz və zina edilməsinə də razı olmaz. Çünki ictimai həyatın nizam-intizamını pozması baxımından başqalarının namusunu ləkələməkdən daha qorxunc fəlakət təsəvvür edilə bilməz.

Zina və fühuş cəmiyyətin nüvəsini təşkil edən ailə quruluşunun tənəzzül etməsinə və nəslin pozulmasına səbəb olacağı, insanın sağlamlığını təhlükəyə atacağı, bir çox ağır xəstəliklərə yol açacağı, insanı ruhi çöküşə aparacağı və qadını iqtisadi istismar vasitəsi halına salacağı üçün qadağan edilmişdir. Zina və fühuş möminin mənəvi hisslərini zədələyər, çünki kamil iman ilə bu davranışın birlikdə mövcud olması mümkün deyil.

Zina və fühuş insanı ən böyük keyfiyyətindən - sevgi və mərhəmət duyğusundan da məhrum edər. Tarix boyu hansı cəmiyyətlərdə zina və fühuş kütləvi halda yayılmışsa, həmin cəmiyyəti tənəzzülə uğratmışdır.

Fərd və cəmiyyətin bu əxlaqsızlıqların qarşısını almaq üçün cəhd göstərməsi zərurətdir. İnsanın ən böyük fəziləti həvəs və istəklərinin əsirinə çevrilmək deyil, iradəsinə hakim olmaqdır. Belə olan insan Uca Allahın rizasını qazanmış olar. Qurani-Kərimdə belə buyurulur:

“Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), **zina etməzlər. Hər kəs bunu** (bu işləri) **etsə, cəzasını çəkər”.** (Furqan, 68)

Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Kim mənə dilini və ədəb yerini pislik və əxlaqsızlıqdan qoruyacağına söz verirsə, mən də o insanın cənnətə gedəcəyinə söz verirəm”.* (Buxari, Riqaq, 23)

Bu baxımdan əxlaqsızlığa sövq edən yollardan uzaq durmaq da çox mühümdür.

10. İsraf

> “Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar.”
>
> **(Furqan surəsi, 67)**

İslam həddi aşmağın hər növünü (ifrat və təfrit) həm fərdin, həm də cəmiyyətin xoşbəxtliyini zədələyən tənəzzül olaraq görür.

İsraf insanın hər hansı bir işdə həddini aşması, sözünü, gücünü, zamanını, malını-mülkünü lazımsız və haram işlərə xərcləməsi, lüzumsuz işlər görməsi şəklində tərif edilir.

İsraf edən insana müsrif deyilir. İsraf ilə əlaqədar Qurani-Kərimdə belə buyurulur:

“Yeyin, için, lakin israf etməyin. Çünki Allah israf edənləri sevməz”. (Əraf, 31)

İnsanın həyatda rahat yaşaması üçün iki şey lazımdır. Bunlardan biri qazanmaq, ikincisi isə əlində olanı yerində və lazım olduğu qədər xərcləməkdir. Bunlardan biri olmazsa, həyatın qanunauyğunluğu pozular, həyat çətinləşər, rahatlıq və xoşbəxtlik olmaz. Varın qiymətinin

Günümüzün texnoloji imkanları ilə ekranlara gələn əxlaqsızlıq səhnələri insanların haram səhnələrə baxaraq “göz zinası” etməsinə səbəb olur. Bu da gələcəkdə vərdiş halına gəlib insanın böyük bir mənəvi çöküşə düşməsinə yol açır. Müsəlman özünü bütün bədən üzvləri ilə günahdan qorumalıdır.





bilinməsi, yerində və yalnız ehtiyac olduqca istifadə edilməsi çox mühüm bir vəzifədir.

Hər mövzuda olduğu kimi bu barədə də orta yolu tutmaq, yəni pulu və əldəki digər nemətləri diqqətlə və lazım olduqca xərcləmək insan üçün ən yaxşı düsturdur. İsraf tarazlıq prinsipini pozduğuna görə tənqid edilmişdir. Uca Allah yer üzü süfrəsinə nemətlərini bərabər şəkildə bölmüşdür. İsraf edənlər bu tarazlığı öz xeyirlərinə pozan insanlardır. Tarazlığı qorumaq isə inanan insanların vəzifəsidir. Möminlərin mallarını xərcləmək xüsusundakı davranışları Qurani-Kərimdə belə ifadə edilir:

“Onlar (mallarını) **xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar”.** (Furqan, 67)

Bunu da unutmayaq ki, mal xüsusunda israf etməkdən çəkinən müsəlman digər nemətlərin də israfına yol verməməlidir. İnsanın sağlamlığı, elmi, vaxtı, gücü, ətraf mühitin qorunması kimi bir çox xüsuslarda da israfa yol açılmamalıdır. Bu xüsusda ən gözəl ölçü görülən işin Allahın rizasına uyğun olub-olmamasıdır.

11. Adam öldürmək

Adam öldürmək İslama görə Allaha şərik qoşmaqdan sonra ən böyük günah və ən böyük pislikdir. Günahsız insanları öldürmək fərd və cəmiyyətə zərər verən, maddi və mənəvi rahatlıq və asayişi yox edən dəhşətli bir cinayətdir. Uca Allah qəsdən adam öldürməyi qadağan etmiş və haqsız yerə bir insanı öldürməyi bütün insanları öldürməyə bərabər hesab etmişdir:

“**Kim bir adamı öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur**”. (Maidə, 32)

“Kim bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) **onun üçün böyük əzab hazırlayar!”** (Nisa, 93)

Uca Allahın insanlara verdiyi ən ülvi haqq onun həyat və yaşamaq hüququdur. Bu haqqı heç kim pozmamalıdır. Bu haqq tamamilə Allaha aiddir. Buna görə də insan həyatı müqəddəs hesab edilir. Onu öldürmək bir tərəfə, ona əziyyət etmək, hətta ona hörmətsizlik etmək də Allaha üsyan sayılmaqdadır.

Həyat haqqına təcavüz edən insanların digər haqq və hüquq qaydalarına, demək olar ki, heç əhəmiyyət verməyəcəklərini asanlıqla təxmin etmək mümkündür. Bundan başqa, belə həssas mövzuda cinayətlərin qarşısı alınmazsa, yer üzündə xaos və iğtişaşların da qarşısı alına bilməz. Qurani-Kərim bu barədə fərdi məsuliyyəti də önə çıxararaq haqsızlığın və zülmün yayılmasına mane olmaq üçün ən doğru olan yolu göstərir: **“**(Ey müsəlmanlar!) **Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz** (onlara); **yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız...”** (Ali İmran, 110)

SUALLAR



1. Əxlaq nə deməkdir?
2. Gözəl əxlaqlı olmaq üçün nə etmək lazımdır?
3. Gözəl əxlaqlı olmaq üçün kimləri örnək almaq lazımdır?
4. İslamın əxlaq prinsipləri bizə nəyi öyrədir?
5. İslam əxlaqı necə bir mühitin formalaşmasına xidmət edir?
6. Əxlaqın faydaları nələrdir?
7. Allaha qarşı vəzifələrimiz nələrdir?
8. Peyğəmbərimizə qarşı vəzifələrimiz nələrdir?
9. Qurani-Kərimə qarşı vəzifələrimiz nələrdir?
10. Ata-anaya qarşı vəzifələrimiz nələrdir?
11. Ata-ana ilə əlaqəli Qurani-Kərimdə hansı ayələr keçir?
12. Vətənə qarşı vəzifələrimiz nələrdir?
13. Vətən sizin üçün nə ifadə edir?
14. “Vətən sevgisi imandandır” ifadəsindən nə anlayırsız?
15. Şəhidlik və qazilik nədir?
16. Bayraq sevgisi nədir?
17. Məsciddə diqqət ediləcək ədəblər hansılardır?
18. Müəllimə qarşı vəzifələrimiz nələrdir?
19. İctimai davranışlarda ədəb qaydaları hansılardır?
20. İslam əxlaqında xoş qarşılanmayan hallar hansılardır?

SİYƏRİ-NƏBİ

- Hz. Muhammədin (s.ə.s) anadan olması və uşaqlığı 146
- Hz. Muhammədin (s.ə.s) gəncliyi və evliliyi 150
- Hz. Muhammədin (s.ə.s) peyğəmbər olması: Məkkə dövrü 153
- Hz. Muhammədin (s.ə.s) Mədinə dövrü 163

Hz. Muhammədin (s.ə.s) anadan olması və uşaqlığı

İslamiyyətdən əvvəl Ərəbistanın vəziyyəti

Peyğəmbərimiz Həzrət Muhammməd (s.ə.s) Ərəbistan yarımadasının Hicaz bölgəsində, Məkkə şəhərində doğulmuşdur. İslamiyyətdən əvvəl ərəblər cəhalət içində idilər, oxuyub yazan savadlı adamlar çox az idi. İnsanlar haqq və hüquqlarına riayət etmirdilər. Güclülər zəifləri əzirdi. Qadınlar sanki bir əşya kimi alınıb satılırdı. Qız uşaqlarını diri-diri torpağa basdıraraq öldürmək adət halına gəlmişdi və bu vəziyyətin qarşısını heç kim almırdı.

İslamdan əvvəl ərəblərin əksəriyyəti bütpərəst idi. Tək Allah inancı unudulmuşdu, insanlar öz əllərilə düzəltdikləri bütlərə inanırdılar. Kəbənin içərisində 360-dan çox büt vardı. Halbuki Kəbə Həzrət İbrahim və Həzrət İsmayıl tərəfindən Allaha ibadət məqsədi ilə tikilmişdi. Bundan əlavə, hər bir evdə də ən azı bir büt var idi və ailə üzvləri bu bütə sitayiş edirdilər. İçki, qumar və hər cür əxlaqsızlıq cəmiyyəti sarmış, insaf və mərhəmət duyğuları ürəklərdən silinmişdi.

İslamiyyətdən əvvəl təkcə ərəblər deyil, bütün dünya zülm və cəhalətin qaranlığı içində idi.

Qaranlıqlar içərisində qalan insanlığı bu qorxunc vəziyyətdən qurtaracaq, insanlara dünyada və axirətdə xoşbəxt olmağın yollarını göstərəcək olan son Peyğəmbərin (s.ə.s) gəlməsinə böyük ehtiyac var idi.





Həzrət Muhammədin (s.ə.s) nəsli

Peyğəmbərimizin (s.ə.s) atasının adı Abdullahdır. Abdullahın atası Qureyş qəbiləsinin Haşim oğulları qolundan və Məkkənin hörmətli adamlarından biri olan Əbdülmüttəlibdir. Anası isə Qureyş qəbiləsinin Zöhrə oğulları qolundan Vəhbin qızı Əminədir. Hər ikisinin soyu, bir neçə nəsil irəlidə birləşməkdədir. Hər ikisi də məkkəlidir.

Həm ata, həm də ana tərəfindən təmiz və şərəfli bir ailəyə mənsub olan Həzrət Muhammədin (s.ə.s) soyu Həzrət İbrahimə dayanır.

Həzrət Muhammədin (s.ə.s) nəsli





Həzrət Muhammədin (s.ə.s) anadan olması

Peyğəmbərimiz Həzrət Muhammməd (s.ə.s) 571-ci ilin aprel ayının 20-nə təsadüf edən, Rəbiuləvvəl ayının 12-də bazar ertəsi gecəsi səhərə yaxın Məkkədə doğulmuşdur.

Atası Abdullah Peyğəmbərimizin (s.ə.s) doğumundan iki ay əvvəl vəfat etdiyi üçün, yeqanə oğlunu görə bilmədi.

Hz. Əminə gözəlgöyçək bir uşaq dünyaya gətirincə, babası Əbdülmüttəlib böyük bir ziyafət verərək sevgili nəvəsinə "Muhammməd" adını qoydu. Əbdülmüttəlib nəvəsinin doğulması şərəfinə verdiyi ziyafətdə uşağın adını soruşanlara belə cavab verdi: "Muhammməd adını verdim. Diləyirəm ki, göydə Haqq, yerdə xalq, onu xeyirlə yad etsinlər". Anası isə Peyğəmbərimizə (s.ə.s) "Əhməd" adını qoydu.



Bilirsinizmi?

Muhammməd
adının mənası: üstün, çox-çox tərifləniб mədh edilən;

Əhməd
adının mənası isə: Allaha həmd edən kimsə deməkdir.

Peyğəmbərimizin (s.ə.s) anadan olduğu gecə dünyada bir çox hadisələr meydana gəldi. O gecə İranda hökmdar sarayının ondörd sütunu aşmış, Sava gölü qurumuş, məcusilərin min ildən bəri yanan odları sönmüşdü. Bu hadisələr gələcəkdə İran səltənətinin yıxılacağına və bütpərəstliyin ortadan qalxacağına işarə edirdi.

Həzrət Muhammədin (s.ə.s) uşaqlığı

Həzrət Peyğəmbərin (s.ə.s) atası Abdullah ticarət məqsədilə Şama getmiş, qayıdarkən Mədinədə xəstələnərək oğlunun dünyaya gəlməsindən iki ay əvvəl vəfat etmişdi. Peyğəmbərimiz (s.ə.s) dünyaya yetim olaraq gözlərini açmışdı.

Mübarək körpə, iqlim şəraitinə görə, ərəb adətinə uyğun olaraq dörd yaşına qədər süd anası Həlimənin yanında qaldı. Altı yaşında



ikən anası Əminə, atasının cariyəsi olan Ümmü Eyməni də yanına götürərək Peyğəmbərimizi (s.ə.s) atası Abdullahın qəbrini ziyarət etmək üçün Mədinəyə apardı. Səfərdə ikən Əminə anamız xəstələndi. Əbva deyilən yerdə gözlərini həyata yumdu və orada dəfn edildi. Peyğəmbərimiz (s.ə.s) bu şəkildə anadan da yetim qalaraq Ümmü Eymən ilə Məkkəyə qayıtdı.

Həm atası, həm də anası vəfat edən və yetim qalan Həzrət Peyğəmbərimizi (s.ə.s) babası Əbdülmüttəlib himayəsinə aldı. Həzrət Peyğəmbərimiz (s.ə.s) iki il onun yanında qaldı.

Peyğəmbərimiz (s.ə.s) səkkiz yaşında ikən babası Əbdülmüttəlib vəfat etdi. Onu əmisi Əbu Talib himayəsinə götürdü.

Peyğəmbərimizin (s.ə.s.) bizə öyrətdiklərindən:

☞ *Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir.*

☞ *İnsanların ən xeyirlisi insanlara faydalı olandır.*

☞ *Təmizlik imanın yarısıdır.*

Bir şey üçün ağlaram və bir şey üçün gülərəm

(OXU MƏTNİ)

Həzrət Ömər bir gün səhabələrlə oturarkən belə buyurdu:

- Cahiliyyə dövründə etdiyimiz şeylərdən biri var ki, xatırladığımda özümü tuta bilməyib ağlayıram, biri də var ki, xatırladığımda gülürəm. Soruşdular:

- Ya Ömər! Bunlar nələrdir?

- Ağlıma gəldiyində ağladığım şey: Bizlər cahiliyyə dövründə qız uşaqlarını utanc səbəbi sayardıq. Buna görə də onlardan xilas olmaq üçün hər yola əl atardıq. Birinin qızı olduğu zaman o insanla istehza edilərdi. Mənim də bir qızım olmuşdu. Müəyyən bir yaşa qədər onu böyütdüm, amma bir gün onu aparıb bir çuxur qazdım, onu içinə yatırdım və üzərini torpaqla örtməyə başladım. Diri-diri basdırdığım o günahsız uşaq da mənim paltarımdakı tozları kiçik əllərivlə təmizləyirdi. Mən isə bu qədər atasına düşkün övladımı basdırmağa davam etdim və o günahsız balanı diri-diri basdıraraq öldürdüm. Məhz bu hadisə qarşısında duyğulanır və ağlayıram.

- Ya Ömər! Bəs güldüyün hadisə nədir?

Bizlər yenə cahiliyyə dövründə xüsusilə uzun səfərə çıxacağımız zaman özümüzə halvadan bütlər düzəldərdik. Səfər boyunca onlara sitayiş edərdik. Bir müddət sonra halvadan düzəltdiyimiz bütlər quruyardı. Bir o qədər də ləzzətlənərdi. Bizlər də acdığımız zaman o tapındığımız, ilah saydığımız bütlərin qollarını, qıçlarını qoparar, onları ləzzətlə yeyərdik. Məhz bu hadisə ağlıma gəldiyində də özümü tuta bilməyib gülürəm.

Hz. Muhammədin (s.ə.s) gəncliyi və evliliyi



Həzrət Muhammədin (s.ə.s) səyahətləri və ticarət həyatı

Peyğəmbərimizin (s.ə.s) uşaqlıq və gənclik illəri təmiz və iffətli bir şəkildə keçdi. Peyğəmbərlikdən sonra necə bir əxlaqa sahibsə, peyğəmbərlikdən əvvəl də elə bir əxlaqa sahib idi. O həmişə təmiz və sadə yaşadı. Çünki Allah Onu Cahiliyyə dövrünün bütün çirkinliklərinə qarşı mühafizə edirdi.

Peyğəmbərimizin (s.ə.s) əmisi Əbu Talib ticarətlə məşğul olurdu. Bir səfərində Həzrət Peyğəmbərimizi də (s.ə.s) özüylə birlikdə götürdü. Şam yaxınlığında olan Busra qəsəbəsinə gəldilər və orada Bahira adında bir keşişlə qarşılaşdılar.

Bahira həmin vaxt on iki yaşında olan Həzrət Muhammədi bir buludun kölgələndirdiyinin fərqinə vararaq ondakı qeyri-adiliyi görür və İncildə oxuduğu vəsfləri düşünərək Peyğəmbərimizin (s.ə.s) belinə baxır. Oradakı nübüvvət möhürünü görüncə də, mübarək möhürü ədəblə öpür və Əbu Talibə:

"Ey Əbu Talib! Bu mübarək uşaq peyğəmbərlərin sonuncusudur. Onu diqqətlə mühafizə edin!"- deyir.

Əbu Talib Bahiranın bu tövsiyələrinə uyaraq Şama getməkdən daşınır və alışverişini burada tamamlayaraq Məkkəyə geri qayıdır.

Peyğəmbərimizin (s.ə.s) ikinci ticarət səyahəti on yeddi yaşında ikən əmisi Zübeyrlə birlikdə Yəmənə və üçüncüsü isə iyirmi beş yaşında təkrar Suriyaya olmuşdur.

Həzrət Muhammməd (s.ə.s) ticarət həyatında da düzgünlük və dürüstlüyü sayəsində böyük uğurlar əldə etmişdir. Bu düzgünlüyünə görə Həzrət Xədicə Peyğəmbərimizə (s.ə.s) sərmayə verərək Onu bir ticarət karvanıyla Suriyaya göndərmişdir.



Həzrət Muhammədin (s.ə.s) Həzrət Xədicə ilə evlənməsi və uşaqları

Həzrət Xədicə anamız Peyğəmbərimizin (s.ə.s) gözəl xislətlərini görüncə, Onun xanımı olub, xidmətilə şərəflənməyə meyl etdi. Peyğəmbərimiz (s.ə.s) o vaxtlar 25 yaşında idi. Həzrət Xədicə isə 40 yaşına gəlib çatmışdı. Xoşbəxt bir ailə yuvası quruldu.

Həzrət Xədicə anamız evlilik həyatı boyunca Peyğəmbərimizə (s.ə.s) daim qulluq edib, köməkçisi oldu. Peyğəmbərimizin (s.ə.s) bu evliliyi, Xədicə anamızın vəfatına qədər 25 il davam etdi. Peyğəmbərimiz Muhammməd (s.ə.s) ilk zövcəsi Həzrət Xədicə sağ ikən başqası ilə əsla evlənmədi. Həzrət Xədicədən 2-si oğlan, 4 qız olmaqla altı övladı oldu. Bunlar: Qasım, Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm, Fatimə və Abdullahdır. Peyğəmbərliyi əsnasında evləndiyi Həzrət Mariyədən isə İbrahim adında bir oğlu olmuşdur. Ən kiçik qızı Həzrət Fatimə, atasının ən sevimlisiydi. Hicrətdən on üç il əvvəl doğuldu.



Peyğəmbərimizin (s.ə.s) oğulları kiçik yaşlarda ikən vəfat etmişdir. Həzrət Fatimədən başqa bütün qızları da Ondan əvvəl vəfat etdilər. Sevimli Peyğəmbərimiz Muhammədin (s.ə.s) nəsli Həzrət Əli ilə evlənən Həzrət Fatimənin övladları ilə davam etmişdir.

Həzrət Muhammədin (s.ə.s) Kəbənin təmiri əsnasındakı hakimliyi

Rəsulullah (s.ə.s) 35 yaşına çatmışdı. O zaman, yağış və sellər Kəbəni uçurmuşdu. Binanı təzədən tikmək lazım idi. Bunun üçün Qureyş qəbiləsi Kəbəni Həzrət İbrahimin tikdiyi bünövrəyə qədər yıxıb, təzədən tikməyə başladı. Hər qəbiləyə bir hissəsini verərək divarları ucaltdılar. Bu işin böyük bir şərəf olduğunu bilən qəbilələr, Həcərül-Əsvəd (Qara daş) daşını yerinə qoyma məsələsində razılığa gələ bilmədilər. Hər qəbilə bu şərəfə nail olmaq istədiyindən aralarında anlaşmazlıq çıxdı. Dörd-beş gün çəkən bu anlaşmazlıq səbəbiylə az qala qan axıdılacaqdı.

Bu əsnada Əbdülmüttəlibin dayısı və yaşlı biri olan Hüzeyfə ibn Muğirə: "Ey Qureyş camaatı! Bir qərara gələ bilmədiyiniz iş haqqında hökm vermək üçün bu qapıdan ilk girən adamı aranızda hakim edin", - deyərək, Kəbəyə açılan Bəni Şeybə qapısını göstərdi. Orada olanlar bu təklifi qəbul etdilər və Bəni Şeybə qapısına baxaraq ilk girəcək adamı gözləməyə başladılar. Nəhayət, qapıdan doğruluğunu, üstün əxlaqını son dərəcə təqdir etdikləri və "əl-Əmin" dedikləri Muhammməd əleyhissalamın gəldiyini gördülər. "Budur əl-Əmin. Onun hökmünə razıyıq", - dedilər.

Vəziyyəti əziz Peyğəmbərimiz Muhammədə (s.ə.s) başa salınca, bir örtü istədi. Onu yerə sərərək Həcərül-Əsvədi örtüyün üzərinə qoyub: "Hər qəbilədən bir nəfər bir ucundan tutsun", - buyurdu. Peyğəmbərimiz (s.ə.s) daşı, qoyulacağı yerə qədər qaldırtdı. Sonra özü daşı götürüb yerinə qoydu. Beləcə, savaş həddinə çatan narazıçılığın yatışdırıldığını görən qəbilələr, bu hərəkətdən razı qaldılar. Peyğəmbərimiz (s.ə.s) sayəsində böyük bir anlaşmazlıq ortadan qalxmış oldu.



Kəbənin Allah tərəfindən qorunması: Fil hadisəsi
(OXU MƏTNİ)

Əziz Peyğəmbərimizin (s.ə.s) doğulmasına təxminən iki ay qalmışdı. Bu əsnada Fil hadisəsi meydana gəldi.

İnsanların hər tərəfdən dəstə-dəstə gəlib Kəbəni ziyarət etməyinə mane olmaq istəyən Yəmən valisi Əbrəhə, Bizans imperatorunun da köməyi ilə Sənada böyük bir kilsə tikdirdi, əhalinin bu kilsəni ziyarət etməsini istədi. Ərəblər isə qədimdən bəri Kəbəni ziyarət etdiklərindən, Əbrəhənin tikdirdiyi kilsəyə heç maraq göstərmədilər. Təhqir gözüylə baxdılar. Hətta aralarından biri kilsəni kirlətdi. Bu hadisədən əsəbiləşən Əbrəhə, Kəbəni yıxmağa qərar verdi və bu məqsədlə böyük bir ordu hazırlayıb Məkkə üzərinə hücuma keçdi. Əbrəhənin ordusu Məkkəyə yaxınlaşınca Qureyşin mallarını yağmalamağa başladı. Onlar Əbdülmüttəlibin də 200 dəvəsini ələ keçirmişdilər. Əbdülmüttəlib Əbrəhənin yanına gedib dəvələrini istədi. Əbrəhə: "Mən sizin müqəddəs Kəbənizi yıxmağa gəldim. Sən onu qorumaq yerinə dəvələrini istəyirsən?" - dedi. Əbdülmüttəlib: "Mən dəvələrin sahibiyəm. Kəbənin əlbəttə ki, öz sahibi vardır. Onu O qoruyar", - dedi. Əbrəhə: "Mənə qarşı onu qoruyan heç kim yoxdur", - dedi və Əbdülmüttəlibə dəvələrini verib göndərdi. Sonra ordusuna Kəbəyə hücum əmri verdi. Əbrəhənin ordusunda "Mahmu" adında bir fil vardı. Ordunun aparıcı fili o idi. Əbrəhə Kəbəyə tərəf hərəkət edincə, bu fil yere yatdı və hərəkət edə bilmədi. Halbuki üzü Yəmənə çevrilincə qaçaraq gedirdi. Bu zaman Allah-Təala Əbrəhənin ordusu üzərinə Əbabil quşlarını göndərdi. Bu quşların hər biri noxud böyüklüyündə üç daş daşıyırdı. Bu daşların biri ağızlarında, ikisi də caynaqlarında idi. Bunları Əbrəhənin ordusunun üstünə atdılar. Daşlar əsgərləri başdan-ayağa deşib keçirdi. Daşa hədəf olan hər əsgər dərhal ölürdü.

Ayədə də ifadə edildiyi kimi, ordu, çeynənmiş əkin yarpağı kimi darmadağın oldu. Bu vəziyyəti görən Əbrəhə özünü itirərək qaçmaq istədi. Ancaq yaralanmışdı. Bu yara ilə çox yaşaya bilmədi. Bu hadisə Qurani-Kərimin Fil surəsində belə ifadə edilmişdir: **"Rəbbinin fil sahiblərinə nə etdiyini görmədinmi?! Allah onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə qatar-qatar quşlar göndərdi. Quşlar onlara bişmiş gildən ibarət sərt daşlar atırdı. Beləcə, Allah onları yeyilmiş əkin yarpağı kimi etdi."** (Fil surəsi, 1-5).

Hz. Muhammədin (s.ə.s) peyğəmbər olması: Məkkə dövrü

İlk vəhyin gəlməsi

Həzrət Muhammməd (s.ə.s) hər il Ramazan ayında Hira mağarasına gedər və təfəkkürə dalaraq kainatı, yerin-göyün yaradılışını düşünərdi. Yenə sevgili Peyğəmbərimiz (s.ə.s) 40 yaşında ikən, Hira dağındakı mağaraya çəkilmiş və təfəkkürə dalmışdı. Ramazanın 17-si bazar ertəsi gecəsi bir səs eşitdi. Başını qaldırıb ətrafa boylanınca, ikinci dəfə eyni səsi eşitdi və hər tərəfi anidən bir nurun bürüdüyünü gördü. Sonra Cəbrayıl (ə.s) qarşısına gəldi və: *"Oxu!"* - dedi. Peyğəmbərimiz (s.ə.s) ona: *"Mən oxumaq bilmirəm"*, - cavabını verdi. O zaman mələk, tutub taqəti kəsilincəyə qədər sıxdı və; *"Oxu!"* - dedi. Yenə: *"Mən oxumaq bilmirəm"*, - cavabını verdi. Mələk bir daha sıxdı və: *"Oxu!"* - dedi. Bu dəfə də: *"Mən oxumaq bilmirəm"*, - buyurunca, üçüncü dəfə sıxdı. Sonra buraxdı və: **"**(Ey Muhammməd!) **Yaradan Rəbbinin adı ilə oxu! O, insanı ələqədən** (laxtalanmış qandan) **yaratdı! Oxu! Rəbbin ən böyük kərəm sahibidir. O, qələmlə** (yazmağı) **öyrətdi. O, insana bilmədiklərini öyrətdi"**, - mənasındakı Ələq surəsinin ilk beş ayəsini bildirdi. Peyğəmbərimiz də (s.ə.s) onunla birlikdə oxudu. İlk vəhy bu şəkildə gəldi və bütün cahanı aydınladan İslam günəşi beləcə doğdu.

Peyğəmbərimiz (s.ə.s) böyük bir qorxu və həyəcanla Hira dağındakı mağaradan çıxıb, aşağıya enməyə başladı. Evinə gəlincəyə qədər yanından keçdiyi hər daşın, hər ağacın: *"Əssələmu əleykə, ya Rəsulallah!"* - dediyini eşitdi. Evinə gəlib: *"Məni örtün! Məni örtün!"* - buyurdu və qorxusu keçincəyə qədər istirahət etdi. Sonra gördüklərini Həzrət Xədicə anamıza danışdı. Həzrət Xədicə: "Allah-Təala qorusun. Haqq-Təala sənə xeyir ehsan edər və xeyirdən başqa bir şey diləməz. Allah-Təalanın haqqı üçün, bu ümmətin peyğəmbəri olacağına inanıram. Çünki Sən qonağı sevirsən. Doğru danışırsan və etibarlısan. Acizlərə yardım edir, yetimləri qoruyur, qəriblərə köməklik göstərirsən. Xoş xasiyyətin var, bu xislətlərin sahibində qorxu olmaz", deyərək təsəlli etdi.

Sonra bu vəziyyəti soruşmaq üçün Həzrət Xədicənin əmisi oğlu olan Vərəqə ibn Nofəlin yanına getdilər. Vərəqə ibn Nofəl Tövrat və İncili yaxşı bilən bir Rahib idi. Vərəqə Rəsulullahın söylədiklərini dinlədikdən sonra: *"Müjdə ey Muhammməd! Allah-Təalaya and içirəm ki, Sən Həzrət İsanın xəbər verdiyi son Peyğəmbərsən. Sənə görünən mələk Səndən əvvəl Musaya (ə.s) gələn Cəbrayıldır. Kaş ki, gənc olsaydım. Səni Məkkədən çıxartdıqları zamanı görə bilsəydim və köməyinə gəlsəydim. Çox yaxın bir zamanda dəvət və cihadla əmr olunarsan"*, - dedi və Peyğəmbərimizin (s.ə.s) mübarək əlini öpdü. Çox keçmədən də vəfat etdi.





İslama dəvətin başlaması və ilk müsəlmanlar

Vəhyin gəlməsi ilə peyğəmbərlik vəzifəsi verilən Həzrət Muhammməd (s.ə.s), peyğəmbərliyini öncə etibar etdiyi adamlara söyləyir və onları İslam dininə dəvət edirdi. Peyğəmbərimizə (s.ə.s) öncə sadiq həyat yoldaşı Həzrət Xədicə, ondan sonra uşaqlardan Həzrət Əli, kölələrdən Zeyd ibn Harisə və böyüklərdən Həzrət Əbu Bəkr iman edərək müsəlman oldular.

İlk müsəlmanlar ibadətlərini gizli edirdilər. Bu vəziyyət üç ilə qədər davam etdi. Bu arada müsəlmanlığı gəbul edənlərin sayı otuzu keçmişdi.

Bir nəfər sevgili Peyğəmbərimizin yanına gəlib: "Mən niyə ölümdən qorxuram?", - deyə soruşur.

Həzrət Peyğəmbərimiz: "*Var-dövlətin varmı?*", - buyurur.

O adam: Bəli, var", - deyə cavab verir.

Peyğəmbərimiz yenə soruşur: "Sərvətini özündən əvvəl göndərmisənmi? (Yəni kasıblara verib, özün üçün axirət azuqəsi toplamısanmı?)".

Adam: "Xeyr" - deyə cavab verir.

Bu vaxt sevgili Peyğəmbərimiz belə buyurur: "Bax, elə buna görə də ölümdən qorxursan!"

Həbəşistana hicrət edilməsi

Rəsulullahın (s.ə.s) peyğəmbərliyinin 5-ci ilində, müşriklərin işgəncələrinə baxmayaraq, müsəlmanların sayı artmağa davam edirdi. Ancaq müşriklər də işgəncələrini artırır, əllərindən gələni edirdilər. Peyğəmbərimiz (s.ə.s) əshabının dözülməz işgəncələrə məruz qalmasına çox üzülürdü. Bir dəfə əshabi-kiramı başına yığdı və: *"Ey əshabım! İndi yer üzünə səpələnin. Allah-Təala yaxında sizi yenə bir yerə toplayar"*, - buyurdu. Onlar da: *"Ey Rəsulallah! Haraya gedək?"* - deyə soruşdular. Sevgili Peyğəmbərimiz (s.ə.s) mübarək əliylə işarə edərək Həbəş (hal-hazırdakı Efiopiya) ölkəsini göstərdi və: *"Həbəş torpağına gedin! Çünki orda heç kimə zülm etməyən bir hökmdar var. Həm də ora doğruluq ölkəsidir. Allah-Təala bu çətinliklərdən bir çıxış və xilas yolu açıncaya qədər siz orada qalın"*, - buyurdu. Beləcə, müsəlmanlar Həbəşistana hicrət etdilər.

Həbəş Nəcaşisi (hökmdarı) Əshamə müsəlmanları yaxşı qarşıladı. Ölkəsinə yerləşdirdi. Əshabi-kiram Həbəşistan üçün: *"Biz burada yaxşı bir qonşuluq və himayə gördük. Dinimizə toxunulmadı, incidilmədik. Xoşlanmadığımız bir söz də eşitmədik. Rahatlıq içində, Allah-Təalaya ibadət etdik"*, - dedilər.



Dəvətin açıqdan edilməsi

Peyğəmbərimiz (s.ə.s) İslama dəvəti üç il gizli davam etdirdi. Sonra bu ayə nazil oldu və xalqı açıqdan İslam dininə çağırma dövrü başladı: **"Yaxın qohumlarını Allah-Təalanın əzabı ilə qorxudaraq, onları haqq dinə çağır".** (Şuara, 214).

Bundan sonra Peyğəmbərimiz (s.ə.s) bütün qohumlarını eyni anda dinə dəvət etmək qərarına gəldi. Hz Əlini göndərdi və hamısını Əbu Talibin evinə çağırdı. Ziyafətdən sonra Peyğəmbərimiz, Allahdan aldığı əmrləri açıqlayaraq onları İslam dininə dəvət etdi. Əmisi Əbu Ləhəb Allah Rəsuluna (s.ə.s) qarşı çıxaraq ora yığışanların dağılışıb getməsinə səbəb oldu.

Bundan bir müddət sonra Peyğəmbərimiz (s.ə.s) dəvətini genişlətmək məqsədilə Səfa təpəsinə çıxdı. Buradan bütün Qureyş qollarının adlarını çəkərək onlara səsləndi: *"Ey Haşim oğulları! Ey Əbdü Mənaf oğulları, Ey Əbdülmüttəlib oğulları! Mən sizə mütləq baş verəcək olan şiddətli bir əzabın xəbərçisiyəm. Allah-Təala mənə, ən yaxın qohumlarımı axirət əzabı ilə qorxutmağımı əmr etdi. Sizi, La ilahə illallahu vəhdəhu la şərikə ləh (Allah birdir, Ondan başqa ilah yoxdur) deyərək iman etməyə dəvət edirəm. Mən də Onun qulu və rəsuluyam. Əgər buna iman etsəniz, Cənnətə girəcəksiniz. Siz, "La ilahə illəllah" demədikcə, mən sizə nə dünyada bir fayda, nə də axirətdə bir pay təmin edə bilərəm".* Qulaq asan qəbilələr arasından, yalnız Əbu Ləhəb: "Ay səni, bizi bunun üçün topladın?" - deyərək, yerdən aldığı daşı sevgili Peyğəmbərimizə (s.ə.s) atdı. Əbu Ləhəbin bu hərəkəti Rəsulullahın (s.ə.s) könlünü qırdı. Bunun üzərinə onun haqqında Ləhəb surəsi nazil oldu:

"**Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Nə mal-mülkü, nə də övladları ona fayda verdi. O, alovlu bir oda girəcəkdir. Arvadı da odun daşıyan olaraq** (oda girəcəkdir). **Arvadının boynunda xurma lifindən ip olacaqdır!**" (Təbbət, 1–5)

"Yaxın qohumlarını Allah-Təalanın əzabı ilə qorxudaraq, onları haqq dinə çağır"

(Şuara surəsi, 214)

Həzrət Muhammədə (s.ə.s) ən çox düşmənçilik edənlər

Bütpərəstlər istər Peyğəmbərimizə (s.ə.s), istərsə də digər müsəlmanlara çox əziyyət verirdilər. Həzrət Peyğəmbərimizə və müsəlmanlara ən çox əziyyət verənlər bunlardır:

Əbu Ləhəb: Peyğəmbərimizin (s.ə.s) evi Əbu Ləhəb ilə Ukbə ibn Əbi Muayt deyilən iki qəddar müşrikin evləri arasında idi. Bunlar hər fürsətdə sevgili Peyğəmbərimizə əziyyət verməyə çalışırdılar. Hətta gecələri heyvan içalatlarını Rəsulullahın qapısının önünə atardılar. Əmisi Əbu Ləhəb bununla kifayətlənməz, Həzrət Peyğəmbərimizə daş ataraq əziyyət verərdi. Əbu Ləhəbin yoldaşı Ümmü Cəmil də ondan geri qalmaz, yığdığı tikanlı ağac budaqlarını Rəsulullahın mübarək ayaqlarına batması üçün keçəcəyi yollara atardı.

Əbu Cəhil: Peyğəmbərimizə (s.ə.s) ən çox düşmənçilik edənlərin başında gəlir. Müsəlmanlara çox əziyyət vermişdir. Hətta bir dəfə Əbu Cəhil müşrikləri başına yığıb: *"Abdullahın yetimi burada namaz qılır?"* - deyə soruşdu. Onlar da: *"Bəli"*, - dedilər. Onsuz da bu cavabı gözləyən Əbu Cəhil: *"Əgər Onu elə görərsəm, başını ayağımla əzəcəm"*, - dedi.

Əbu Cəhil Bədir döyüşündə öldürülərək cəzasını almışdır.

As ibn Vail: Peyğəmbərimizə (s.ə.s) qarşı etdiyi düşmənçiliklə tanınan bu adam Həzrət Peyğəmbərimizin oğlu Qasım vəfat etdiyi vaxt, *"Muhammədin nəsli kəsildi"*, - deyərək ona istehza etmiş, övlad acısıyla ürəyi yanan Peyğəmbərimizi (s.ə.s) çox incitmişdi.

Kövsər surəsinin 3-cü ayəsi buna görə nazil olmuşdur: **"**(Ey Peyğəmbər!) **Şübhəsiz ki, sənə düşmənçilik edənin özü sonsuzdur".** (Kövsər, 3)

Vəlid ibn Muğirə, Ümeyyə ibn Xələf və **Utbə ibn Rəbiə** də Peyğəmbərimizə (s.ə.s) ən çox düşmənçilik edənlərin arasındadır.





Əbu Cəhilin əsl adı Amr ibn Hişamdır. Qüreyş qəbiləsinin liderlərindəndir. İslama düşmənliyindən ötrü Peyğəmbərimiz (s.ə.s) ona Əbu Cəhil adını vermişdir. Əbu Cəhil savadsızların və cahillərin atası (lideri) deməkdir.

İslamın ilk şəhidləri

Yasir və xanımı Sümeyyə müsəlman olmuşdular. Bundan xəbər tutan müşriklər onlara işgəncə verməyə başladılar. Kasıb və kimsəsiz olduqları üçün onları müdafiə edəcək heç kəs yox idi. Dinlərinə çox bağlı idilər. Əbu Cəhilin işgəncələrinə fikir vermədən dinlərini yaşamağa davam edirdilər. Onları dinlərindən döndərə bilməyən Əbu Cəhil sonunda hər ikisini nizə ilə şəhid etdi.

Həzrət Yasir və Həzrət Sümeyyə inancları uğrunda şəhid olan ilk müsəlmanlardır.

İlk müsəlmanlara verilən işgəncələr

Müşriklər təkcə Peyğəmbərimizə (s.ə.s) deyil, Onun əshabına da işgəncə edirdilər. Xüsusən də kasıb, kimsəsiz olanları seçir, əllərindən gələn, ağıla gəlməyən təzyiq və zülmü heç çəkinmədən edirdilər. İşgəncəyə məruz qalanlardan biri də Bilali Həbəşi idi. Ümeyyə ibn Xələf adında bir müşrikin köləsi olan Bilal, Həzrət Əbu Bəkr vasitəsi ilə müsəlman olmuşdu.

Ümeyyə, Həzrət Bilalın müsəlman olduğunu öyrənincə Ona bir çox işgəncələr tətbiq etmişdir. Günorta vaxtı günəş tam ortaya gəldiyində, onu soyundurar, istidən qızarmış daşları çılpaq bədəninin üstünə qoydurardı. Sonra da: *"İslam dinindən dön! Lat və Uzza bütlərinə iman et!"*, - deyər, Həzrət Bilal isə: *"Allah birdir! Allah birdir!"*, - deyərək imanını təsdiq edərdi.

Nəhayət, Həzrət Əbu Bəkr Bilalı satın alaraq azad etdi və onu zalım Ümeyyənin əlindən qurtardı.

Həzrət Həbbab ibn Ərət də dinindən döndərilmək üçün zülm edilənlər arasındaydı. Həzrət Həbbabın da heç kimi yoxdu və Ümmü Ənmar adlı müşrik bir qadının köləsi idi. Onu qoruyacaq bir qohumu olmadığı üçün müşriklər toplanır, mübarək bədənini soyundurub tikanla çırpardılar. Bəzən da çılpaq bədəninə dəmir paltar geyindirib günəş altında saxlayardılar. Günəşdə və ya odda isitdikləri daşları çılpaq bədəninə sıxardılar, *"Dinindən dön! Lat və Uzzaya sitayiş et!"*, - deyərdilər. Həbbab da imanında israr edər, *"La ilahə illallah, Muhammədun rəsulullah"*, - deyərək onlara qarşı gələrdi.



Müşriklər tərəfindən əzab görən Həzrət Əmmar ibn Yasir isə isti qumun üstünə uzadılaraq özündən gedincəyə gədər döyülmüşdür. Anası Həzrət Sümeyyə Əbu Cəhil tərəfindən nizə ilə qanlar içində yerə sərilərək öldürülmüş, atası Həzrət Yasir də bütpərəstlərin işgəncələri altında can vermişdi.



Mərhəmət etməyənə mərhəmət edilməz...

Əziz Peyğəmbərimiz (s.ə.s) bir gün nəvəsi Həsəni qucağına almış, onu öpürdü. Yanında da Təmim qəbiləsinin liderlərindən biri vardı. Baba ilə nəvə arasında olan bu yaxınlığa heyrət edərək:

"Mənim on uşağım var, amma heç birini öpmədim", - dedi.

Bunu eşidən Peyğəmbərimiz (s.ə.s): *"Mərhəmət etməyənə mərhəmət edilməz. İnsanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz"*, - buyurdu.



Həzrət Muhammədin (s.ə.s) Taif səfəri

Peyğəmbərimizin (s.ə.s) əmisi Əbu Talib və vəfalı xanımı Həzrət Xədicənin vəfatından sonra bütpərəstlər Rəsulullaha etdikləri əziyyəti daha da artırdılar. Müşriklər Peyğəmbərimizdən bir çox möcüzələr gördükləri halda inadları səbəbilə iman etmir, üstəlik əziyyət və zülm etməkdən də əl çəkmirdilər. Onların getgedə artan bu zülm və işgəncələrinə, əziz Peyğəmbərimiz çox üzüldü. Məkkə yaxınlarında yerləşən Taifə gedərək, oranın əhalisini İslama dəvət etməyi düşündü. Bu səbəblə, yanına Zeyd ibn Harisəni də götürüb Taifə getdi. Taifin başda gələnləri ilə görüşdü. Onlara İslamı izah edib, Allah-Təalaya iman etmələrini istədi. Onlar bu təklifi qəbul etmədilər.

Rəsulullah (s.ə.s) Səqif qəbiləsini bir neçə gün İslamiyyətə dəvət etdi, ancaq onlardan heç biri iman etmədi. Hətta Peyğəmbərimizi (s.ə.s) lağa qoyaraq işgəncə etdilər və sözlərinə əhəmiyyət vermədilər. Uşaqları və gəncləri Həzrət Peyğəmbərin keçəcəyi yolun kənarlarına yığaraq daşa tutdular. Həzrət Zeyd sevimli Peyğəmbərimizi qorumaq, ona sipər olmaq üçün gah sağa, gah da sola qaçdıqca, daşlar başına, bədəninə, ayaqlarına dəyirdi. Bu səbəblə Həzrət Zeydin hər tərəfi qan içində qalmışdı. Peyğəmbərimizi (s.ə.s) qorumaq üçün canla-başla cəhd edir, daş atan zalımlara səsi çıxdığı qədər: *"Dayanın! Atmayın! O Rəsulullahdır! Mənim bədənimi tikə-tikə edin, ancaq Peyğəmbərimizə bir zərər gəlməsin!"*, - deyə qışqırırdı. Zeyd ibn Harisəni keçib Rəsulullaha dəyən daşlar, Onun mübarək ayaqlarını qana boyamışdı.

Yol kənarında bir bağa sığınan Peyğəmbərimiz (s.ə.s) və Həzrət Zeyd, burada Addas adlı bir kölənin iman ilə şərəflənməsinə səbəb oldular. Bir az dincəldikdən sonra Məkkəyə geri qayıtdılar. Amma baş verən bu hadisələrdən sonra Peyğəmbərimiz (s.ə.s) heç ümidsizliyə düşmədi. Əsla yorulub geri çəkilmədi, əksinə, vəzifəsini yerinə yetirməyə davam etdi.

Gənc səhabələrdən Bəra ibn Azib Peyğəmbərimizi çox sevərdi. Onun təmiz qəlbi Peyğəmbərimizə dərin bir sevgi və hörmət hissiylə dolu idi. Əziz Peyğəmbərimiz ona hər vaxt Allaha güvənməyi ifadə edən aşağıdakı duanı öyrətmiş və hər gecə yatmadan əvvəl oxumasını tövsiyə etmişdi:

"Allahım! Özümü Sənə təslim etdim. Üzümü sənə çevirdim. İşimi Sənə həvalə etdim, Sənə güvəndim. Rizanı istəyərək, əzabından qorxaraq Sənə arxalandım, Sənə sığındım, Sənə qarşı Səndən başqa sığınacaq yoxdur. Endirdiyin kitaba və göndərdiyin peyğəmbərə inandım".



Həzrət Muhammədin (s.ə.s) Mədinəyə hicrəti və qarşılanması

"Hicrət" bir yerdən başqa bir yerə köç etmək deməkdir. İslam tarixində isə Peyğəmbərimizin (s.ə.s) və Ona iman edən ilk müsəlmanların Məkkədən Mədinəyə köçməsinə "Hicrət" deyilir.

Peyğəmbərimiz (s.ə.s) "Əqabə" deyilən yerdə mədinəli müsəlman bir qrupla görüşmüşdü. Onlar öz qapıların müsəlman qardaşlarına və Peyğəmbərimizə açmağı qəbul etmişdilər.

Müşriklərin təzyiq və zülmlərinin davam etməsi nəticəsində Peyğəmbərimiz (s.ə.s) müsəlmanların Məkkədən Mədinəyə hicrət etmələrinə icazə verdi. Müsəlmanlar qruplar halında Mədinəyə köçməyə başladılar. Din uğrunda doğulub böyüdükləri yurdlarını, mal və mülklərini buraxdılar. Mədinədə yanan ümid işığına getdilər.

Müsəlmanlar müşriklərin diqqətini cəlb etməmək üçün kiçik qafilələr halında yola çıxır və mümkün olduqca gizli hərəkət edirdilər. Bir müddət sonra müşriklər məsələni başa düşdülər və hicrət üçün yola çıxan müsəlmanlardan görə bildiklərini yoldan qaytarmağa, qadınları ərlərindən ayırmağa, gücü çatdıqlarını da həbsə atmağa və müxtəlif əziyyətlər verməyə başladılar. Müsəlmanlar isə buna baxmayaraq hər fürsətdən istifadə edərək Mədinə yolunu tuturdular.

Həzrət Əbu Bəkr də hicrət üçün icazə istədi. Peyğəmbərimiz (s.ə.s): *"Səbir et, ümid edirəm ki, Allah-Təala mənə də icazə verər. Birlikdə hicrət edərik"*, - buyurdu. Həzrət Əbu Bəkr; *"Atam-anam sənə fəda olsun! Belə ehtimal var mı?"*, - deyə soruşduqda, Peyğəmbərimiz: *"Bəli vardır"*, - buyuraraq onu sevindirdi.

Rəsulullahın da (s.ə.s) hicrət edib müsəlmanların başına keçəcəyi ehtimalı, Məkkəli müşrikləri narahat edirdi. Əhəmiyyətli işləri müzakirə etmək üçün bir yerə yığışdıqları Darunnədvədə toplandılar və nə edəcəklərini məsləhətləşməyə başladılar. Müxtəlif təkliflər edildi. Daha sonra Qureyşin başçısı olan Əbu Cəhil qorxunc bir təklif verdi: *"Hər qəbilədən güclü bir adam seçək. Əllərindəki qılınclarıyla Muhammədə hücum etsinlər. Kimin öldürdüyü müəyyən olmasın. Beləcə məcburən diyəyə razı olarlar. Biz də diyə verib, canımızı qurtararıq"*, - dedi. Müşriklər bunun hazırlığını görərkən Allah-Təala Rəsuluna hicrət əmri verdi. Sevgili Peyğəmbərimiz (s.ə.s) Həzrət Əliyə öz yatağında yatmasını, Ona əmanət etdiyi şeyləri sahiblərinə verməsini tapşırdı.

Rəsulullah (s.ə.s) Həzrət Əbu Bəkrin evinə qələrək: *"Hicrət etməyimizə icazə verildi"*, - buyurdu. Həzrət Əbu Bəkr yol göstərməsi üçün pulla bələdçi tutdu və dəvələri üç gün sonra Sevr dağındakı mağaraya gətirməsini söylədi. Səfər ayının



27-də, sevgili Peyğəmbərimiz və Həzrət Əbu Bəkr özləriylə bir miqdar yemək götürərək mağaraya tərəf yola çıxdılar. Həzrət Əbu Bəkr Rəsulullahın ətrafında bəzən sola, bəzən sağa, bəzən də qabağa və arxaya keçirdi. Peyğəmbərimiz ona nə üçün belə etdiyini soruşunca: *"Ətrafdan gələ biləcək bir təhlükənin qabağını almaq üçün. Əgər bir zərər gəlsə, əvvəlcə mənə dəysin. Canım Sənə fəda olsun, ey Rəsulullah!"*, - dedi.

Məkkəyə saat yarım məsafədə olan Sevr dağındakı mağaraya girən sevgili Peyğəmbərimiz (s.ə.s) mübarək başını Həzrət Əbu Bəkrin qucağına qoyub yatdı. Rəsulullah (s.ə.s) və Həzrət Əbu Bəkr içərdə ikən, müşriklər, izi təqib edə-edə mağaranın qabağına gəldilər. Girişində bir hörümçəyin tor hördüyünü və iki göyərçinin də yuva qurduğunu gördülər. İzi təqib edən müşriklərin bələdçisi: *"Baxın, burda iz qurtarır"*, - dedi. Kafirlər: *"Əgər onlar buraya girmiş olsaydılar, qapının üstündəki hörümçək toru dağılmış olardı*", - dedilər.

Həzrət Əbu Bəkr; *"Ey Rəsulallah! Canım Sənə fəda olsun! Onlardan biri başını əyib baxsa, bizi görər!"*, - deyincə, Rəsulullah: *"Ey Əbu Bəkr! Biz iki nəfərik, üçüncümüz də Allah-Təaladır. Narahat olma! Haqq-Təala bizimlədir"*, - buyurdu. Müşriklər içəri baxmadan dala qayıtdılar. Sevgili Peyğəmbərimiz ilə Həzrət Əbu Bəkr mağarada üç gün qaldıqdan sonra Mədinəyə getmək üçün yola düşdülər.

> *"Əgər onlar buraya girmiş olsaydılar, qapının üstündəki hörümçək toru dağılmış olardı"*

Müşriklər sevgili Peyğəmbərimizlə Həzrət Əbu Bəkri öldürənə və ya yerini xəbər verənə, yüz dəvə ilə birlikdə saysız-hesabsız mal və pul verəcəklərini vəd etdilər. Bu xəbər Sürəqa ibn Malikə də gedib çatdı. Sürəqa ibn Malik yaxşı iz təqib edərdi. Müşriklərin təkliflərini qəbul edərək təqibə başlayan Sürəqa Peyğəmbərimizlə (s.ə.s) Həzrət Əbu Bəkrin izlərini tapdı.

Sürəqa onlara hücum edə biləcək qədər yaxınlaşdı. *"Ey Muhammməd! Səni bu gün mənim əlimdən kim qurtaracaq?"*, - dedi. Sevgili Peyğəmbərimiz də: *"Məni Cabbar və Qahhar olan Allah-Təala qoruyar"*, - cavabını verdi. O əsnada Sürəqanın atının qabaq ayaqları dizlərinə qədər yerə batdı. Atı batdığı yerdən çıxardıb yenə hücum etməyə təşəbbüs



edincə, atının ayaqları təzədən yerə batdı. Sürəqa nə qədər əlləşdisə də, atını heç cürə çıxarda bilmədi. Çarəsiz qalınca şəfqət və mərhəmət sahibi olan Rəsulullaha yalvarmağa başladı. Peyğəmbərimiz (s.ə.s) onun bu diləyini qəbul etdi. Sürəqa: *"Ey Muhammməd! Qorunduğunu başa düşdüm. Dua et ki, xilas olum. Bundan sonra Sənə əsla zərər verməməm. Sənin dalınca gələnlərə də Səni görmədiyimi deyəcəyəm"*, - dedi. Peyğəmbərimiz (s.ə.s); *"Ey Rəbbim! Əgər o sözündə doğru və səmimi isə, atını qurtar"*, - deyə dua edincə, Allah-Təala bu duanı qəbul etdi. Sürəqa ibn Malikin atı bu duadan sonra çıxa bildi.

Sürəqa bundan sonra geri qayıtdı və başına gələnləri də qabağına çıxanlara danışmadı.

Sevgili Peyğəmbərimiz və Hz. Əbu Bəkr bir bazar ertəsi günü (Miladi 622-ci ilin sentyabr ayının 20-si) səhər tezdən Quba kəndinə çatdılar. Peyğəmbərimiz (s.ə.s) burada on gündən çox qaldı. Quba məscidini tikdirdi. Məscid inşa olunarkən mübarək əlləriylə daş daşıdı. Sevgili Peyğəmbərimiz Quba vadisində ilk Cümə namazını qıldırdı və ilk xütbəni oxudu. Quba məscidi Qurani-Kərimdə: **"...Təməli təqva üzərinə qurulan məscid"** (Tövbə, 108) - deyə buyurularaq tərif edilmişdir. İslam tarixində ilk inşa olunan məscid budur. Allahın aslanı Həzrət Əli də Peyğəmbərimizə burada gəlib çatdı. Bundan sonra Peyğəmbərimiz (s.ə.s) Mədinəyə doğru yola çıxdı.

Ay doğdu üzərimizə

Ay doğdu üzərimizə
Vəda təpələrindən.
Şükür gərəkdir bizlərə
Allaha dəvətindən.

Sən Günəşsən, Sən Aysan
Sən nur üstünə nursan.
Sən Süreyya ulduzusan
Ey sevgili, ey Rəsul!

Ey bizə göndərilən elçi
Uca bir dəvətlə gəldin.
Sən bu şəhərə şərəf verdin
Ey sevgili, ey Rəsul!

Mədinədə böyük bir sevgi ilə qarşılanan Peyğəmbərimiz (s.ə.s) müvəqqəti olaraq Xalid ibn Zeydin, yəni Həzrət Əbu Əyyub əl-Ənsarinin evində qonaq oldu və burada yeddi ay qaldı.



Həzrət Həmzənin müsəlman olması
(OXU MƏTNİ)

Həzrət Həmzə sevgili Peyğəmbərimizin əmilərindəndir. Süveybədən Həzrət Həmzə də süd əmdiyi üçün həm də Rəsulullahın (s.ə.s) süd qardaşıdır. Məkkə dövrünün 6-cı ilində, yəni miladi 616-cı ildə müsəlman olmuşdur. Həzrət Həmzənin İslamı qəbul etməsi belə baş verdi:

"Peyğəmbərimiz bir gün "Səfa" təpəsində oturarkən yanından Əbu Cəhil keçdi. Sevgili Peyğəmbərimizə (s.ə.s) çirkin sözlərlə həqarət etdi. Peyğəmbərimiz Əbu Cəhilin bu hərəkətinə qarşılıq, heç bir cavab vermədi.

Həzrət Həmzə o gün ova getmişdi. Dönüşündə, Abdullah ibn Cudanın xidmətçisi, hadisəni Həzrət Həmzəyə xəbər verdi. Həzrət Həmzə hələ müsəlman olmamışdı. Qardaşı oğlunun təhqir edilməsinə dözə bilmədi, birbaşa Qureyşin yığıncaq yerinə getdi. "*Qardaşımın oğlunu təhqir edən sənsənmi?*", - deyərək yayı ilə Əbu Cəhilin başına vurub yaraladı. Əbu Cəhil, "*Həmzə də müsəlman olar*" qorxusu ilə səs çıxartmadı. Əbu Cəhildən, Peyğəmbərimizə etdiyi təhqirin qisasını alan Həzrət Həmzə, Rəsulullaha (s.ə.s) gedərək Onu təsəlli etmək istədi. Rəsulullahın (s.ə.s) ancaq iman etməsi ilə məmnun olacağını söyləməsi üzərinə kəlməyi-şəhadət gətirərək müsəlman oldu.

Həzrət Həmzənin müsəlman olması ilə sevgili Peyğəmbərimiz (s.ə.s) çox sevindi. Müsəlmanlar onun da qoşulmasıyla çox qüvvətləndilər. Həzrət Həmzənin müsəlman olmasıyla vəziyyət dəyişdi. Çünki məkkəlilər Həzrət Həmzənin cəngavər, cəsur, mərd, pəhləvan və böyük bir qəhrəman olduğunu bilirdilər. Bunun üçün Qureyş müşrikləri artıq müsəlmanlara heç bir səbəb olmadan pis rəftar edə bilmədilər. Həzrət Həmzədən üç gün sonra da Həzrət Ömər müsəlman oldu. Bu ikisinin müsəlman olmalarıyla müsəlmanlar böyük dəstək tapdılar.

Hz. Muhammədin (s.ə.s) Mədinə dövrü

Mədinədə ilk fəaliyyətlər və Məscidi-Nəbəvinin tikilməsi

Sevimli Peyğəmbərimiz (s.ə.s) Mədinəyə gəldiyində birinci növbədə camaatla namaz qılına biləcək bir məscidin tikilməsini arzu edirdi. Rəsulullah (s.ə.s) Mədinəyə gəldiyində dəvəsi Qasvanın çökdüyü yerə məscid tikilməsinə qərar verdi. Oranı pulunu ödəyərək sahiblərindən almaq istədi. Sahibləri: *"Ey Rəsulullah! Biz onun əvəzini ancaq Allahdan gözləyirik. Oranı Sizə Allah rizası üçün hədiyyə edirik"*, - deyərək bağışlamağı çox arzu etdilər. Buna baxmayaraq, Rəsulullah qəbul etməyib, artıqlamasıyla pulunu ödədi.

Təmələ ilk daşı Peyğəmbərimiz (s.ə.s) mübarək əlləriylə qoydu. Məscidin tikilməsində, başda Rəsulullah (s.ə.s) olmaqla bütün əshabi-kiram canla-başla işlədilər.

Məscidin divarları az bir müddətdə tikilib qurtardı və üstü örtüldü. Ayrıca Rəsulullah üçün məscidə bitişik iki otaq da tikildi. Bunların damı da xurma budaqlarıyla örtüldü. Məscidin inşası qurtardıqdan sonra Peyğəmbərimiz (s.ə.s) qonaq kimi qaldığı Həzrət Xalid ibn Zeydin evindən özü üçün tikilən evə köçdü.

Azani Muhammədi

Məscidi-Nəbəvi tikilsə də, namaz vaxtlarında vaxtın gəlib çatdığını bildirəcək və müsəlmanları məscidə dəvət edəcək bir üsul yox idi. Təkcə "Əssalətu Camia" deyilirdi.

Rəsulullah əshabıyla məsləhətləşərək, namaz vaxtlarında möminlərin məscidə necə dəvət edilməsi lazım gəldiyini soruşdu. Bəzisi namaz vaxtlarını bildirmək üçün xristianlar kimi kilsə zəngindən istifadə edək, bəzisi yəhudilər kimi borudan istifadə edək dedilər. Bəzisi də: "Namaz vaxtı od yandırıb yuxarı qaldıraq", - deyə öz fikirlərini söylədilər. Rəsulullah bunlardan heç birini qəbul etmədi.

Abdullah ibn Zeyd və Həzrət Ömərin yuxuda azan oxunmasını görmələri nəticəsində Rəsulullah (s.ə.s): *"Yuxu haqdır, o sözləri Bilala öyrət, oxusun!"* - buyurdu. Buna **azan** adı verildi.

Həzrət Bilal da, Məscidi-şərifin yaxınlığında yerləşən hündür bir dama çıxaraq, ilk azanı, özünə öyrədildiyi kimi oxudu.



Ənsar və Muhacir arasında qardaşlıq

Məkkədən köçərək Mədinəyə gələn müsəlmanlara **muhacir**, Mədinənin yerli xalqına da muhacirlərə kömək etdiklərinə görə **ənsar** deyilir. Əziz Peyğəmbərimiz (s.ə.s) Mədinədə daha möhkəm bir birliyin qurulması üçün ənsarla muhacirləri birbirilərinə qardaş elan etdi. Rəsulullah (s.ə.s) hər muhaciri xasiyyətinə münasib olan bir ənsar ilə qardaş etmişdir.

Hər mədinəli tarlasını, bağını, bağçasını, evini, mallarını... nəyi varsa iki yerə bölür, beləcə, yarısını muhacir qardaşına öz xoşuyla verirdi. Muhacirlərdən Həzrət Əbdurrəhman ibn Əvf belə nəql etmişdir: "Biz Mədinəyə hicrət etdiyimizdə, Rəsulullah məni Səd ibn Rəbi ilə qardaş elan etdi. Bundan sonra qardaşım Səd mənə: "Ey qardaşım Əbdurrəhman! Mən mal cəhətindən mədinəli müsəlmanların ən varlısıyam. Malımı iki hissəyə böldüm, yarısı sənindir", - dedi. Mən də: "Allah-Təala malını sənin üçün mübarək və xeyirli etsin. Mənim mala ehtiyacım yoxdur. Sən mənə alış-veriş etdiyiniz bazarın yerini göstər", - dedim. Belə bir fədakarlıq ancaq İslam qardaşlığıyla mümkün olardı.

Ənsar və muhacirlər bu yeni İslam mərkəzində əl-ələ verərək İslam dininin qüvvətlənməsi üçün hər cür fədakarlığa söz verdilər. Bu şəkildə, Rəsulullahın ətrafında toplaşıb, İslam dininin əsaslarına riayət edərək yeni bir nizam və xoşbəxt bir həyat qurdular.

İslam tarixində həmişə sayğı ilə anılan ənsar və muhacirlər dinimizə böyük xidmətlər etmişdir.

Peyğəmbər (s.ə.s) məktəbi və əshabi-suffə

Sevimli Peyğəmbərimiz (s.ə.s) Məscidi-Nəbəvinin yanında xurma budaqlarıyla örtülmüş bir kölgəlik düzəltdirdi. Məkkədən hicrət edən, var-dövləti olmayan, subay səhabələrin buraya yerləşmələrini söylədi. Sayları dörd yüzə yaxın olan bu səhabələr gecə-gündüz Qurani-Kərim oxuyar, elm öyrənər, hədisi-şərifləri əzbərləyərdilər. Günlərinin çoxunu oruc tutaraq keçirər, ibadət və itaətdən bir an belə ayrılmazdılar.

Məsciddə Rəsulullahın (s.ə.s) heç bir söhbətini qaçırtmadan elm öyrənən bu seçilmiş əshaba qarşı mədinəli səhabilər çox məhəbbət göstərərdilər.

Suffə məktəbində İslam dinini, Qurani-Kərimi, hədisi-şərifləri çox yaxşı qavrayan və açıqlayan böyük alimlər yetişmişdir. Bu səbəblə Suffə adını daşıyan bu yer İslam tarixində ilk məktəbdir. Bu məktəbi qurtaranlar İslamiyyətin yayılmasında və dinin öyrədilməsində çox işlər görmüşdür.





Bədir döyüşü (miladi: 624)

Əziz Peyğəmbərimiz (s.ə.s) muhacirlərlə Mədinəyə yerləşdikdən sonra məkkəli müşriklər düşmənçiliklərindən əl çəkmirdilər. Mədinənin yaxınlıqlarına qədər gəlib, müsəlmanların otlamaqda olan dəvələrini götürüb gedirdilər. Bütpərəstlər münafiqlərin başçısı Abdullah ibn Übeyə xəbər göndərərək ya Muhammədi öldürməsini, ya da Mədinədən çıxartmasını xəbər etdilər. Əgər bunu yerinə yetirməzsə, Mədinəyə hücum edəcəklərini bildirdilər. Digər tərəfdən, müsəlmanlarla aparılacaq bir döyüşə hazırlıq üçün böyük bir ticarət karvanını Şama göndərdilər.

Rəsulullah (s.ə.s) müşriklərin böyük bir karvanı ticarət üçün Şama göndərdikləri xəbərini alınca, məsələni ətraflı öyrənmək üçün muhacirlərdən bir neçə nəfəri vəzifələndirdi. Züləşirə deyilən yerə çatdıqlarında karvanın keçdiyini öyrənib Mədinəyə qayıtdılar. Küfr əhlinin silah və malları əllərindən alınarsa, əhli-İslama zərərləri toxuna bilməz və müqavimətləri qırılardı. Bu səbəblə Rəsulullah Həzrət Təlha ibn Abdullah ilə həzrət Səid ibn Zeydi karvanın geri qayıdacağı vaxtı öyrənmək üçün göndərdi.

Müsəlmanların bu təhlükəyə qarşı ayıq olması və tədbir görməsi lazım gəlirdi. Karvanın hərəkətinin qarşısını almaq məqsədilə hicrətin ikinci ili (miladi 624) Ramazan ayında Peyğəmbərimiz (s.ə.s) 305 nəfərlik bir orduyla yola düşdü. Bunu eşidən Məkkəli müşriklər 1000 nəfərlik bir orduyla Mədinənin üzərinə hücuma keçdilər. Bədir deyilən yerə gəldilər və buradakı içməli suyu olan Bədir quyularını nəzarət altına aldılar.

Əziz Peyğəmbərimiz və mübarək ordusu qovurucu istidə Bədirə tərəf irəliləyərkən, müşriklərin Şamdan gələn karvanları da Bədirə yaxınlaşmışdı. Əslinə baxılarsa, müsəlmanlar Mədinədən döyüş üçün deyil, bütpərəstlərin ticarət karvanının hərəkətinin qarşısını almaq üçün çıxmışdılar.

Müşriklər əsgər sayı və silah baxımından müsəlmanlardan daha üstün vəziyyətdə idilər. Buna görə döyüşdə qələbə çalacaqlarını düşünür və müsəlmanların mənəvi gücünü hesaba qatmırdılar.

Ertəsi gün səhər iki ordu qarşı-qarşıya gəldi və döyüş başladı. Məhz o an Sevgili Peyğəmbərimiz (s.ə.s) əllərini səmaya qaldıraraq: *"Ya Rəbb! Mənə vəd etdiyin köməyi bu gün ver"*, - deyə dua etdi. Daha sonra səcdəyə qapanaraq Uca Allaha belə yalvardı: *"Ya Rəbb! Bu bir ovuc müsəlman bu gün tələf olsa, yer üzündə Sənə ibadət edən heç kim qalmayacaq"*.

Allah-Təala Peyğəmbərimizin (s.ə.s) duasını qəbul etdi. Müsəlmanlar Allahın köməyi ilə özlərindən qat-qat üstün olan düşmən ordusunu döyüş meydanında 70 ölü və 70 də əsir buraxıb qaçmağa məcbur etdilər. İslamın ən böyük düşməni Əbu Cəhil də ölənlər arasında idi. Müsəlmanlar isə 14 şəhid verdilər.

İslam ordusu qələbə sevinci ilə Mədinəyə qayıtdı. Əsirlər, sahibləri tərəfindən fidyə (müəyyən bir miqdar pul)



müqabili alınıncaya qədər əshabi-kiramın yanında qaldılar. Səhabənin hamısı əsirlərə çox yaxşı rəftar edir, onlarla öz yeməklərini paylaşırdılar. Fidyə ödəyəcək pulu olmayanlar isə müsəlmanlardan on nəfərə oxuma və yazma öyrətdikdən sonra azad edilirdilər. Əziz Peyğəmbərimizin (s.ə.s) bu hərəkəti oxumağa və bilik sahibi olmağa nə qədər əhəmiyyət verdiyini göstərməkdədir.

Raci hadisəsi

Hicrətin dördüncü ilində Adal və Karə qəbilələrindən bir heyət Rəsulullaha (s.ə.s) müraciət edərək qəbilələrinə müsəlmanlığı və Qurani-Kərimi öyrədəcək müəllimlər göndərməsini istədilər. Rəsulullah (s.ə.s) bunlara Asim ibn Sabit başçılığında 10 müəllim göndərdi. Yolda, Raci deyilən yerdə Hüzeyl qəbiləsindən 100 nəfərlik düşmən hücumuna məruz qaldılar. Səkkizi vuruşaraq şəhid oldu, ikisi isə əsir alındı. Zeyd və Hubeyb adndakı bu iki səhabəni Məkkə müşriklərinə satdılar.

Zeydi, Bədir döyüşündə öldürülən atası Ümeyyənin qisasını almaq üçün, Səfvan ibn Ümeyyə satın almış, öldürülməsini seyr etmək üzrə bütün Məkkə böyüklərini dəvət etmişdi. Əbu Süfyan Zeydə yaxınlaşaraq:

- Doğru söylə, həyatının qurtarılması üçün sənin yerinə Muhammədin (s.ə.s) öldürülməsini istəməzdinmi? - demişdi.

Zeyd heç tərəddüd göstərmədən:

- Əsla, mənim xilas olmam üçün nəinki onun öldürülməsini, hətta Mədinədə ayağına bir tikan batmasını belə istəmərəm, - deyə cavab verdi. Bu qüvvətli iman qarşısında Əbu Süfyan:

- Heç kimsə yoldaşları tərəfindən Muhammməd (s.ə.s) qədər sevilməmişdir, - deməkdən özünü saxlaya bilmədi.

Hubeyb, Uhud döyüşündə Haris ibn Amiri öldürmüşdü. Atasının intiqamını almaq üzrə onu da Harisin qızı satın almışdı. Hubeyb öldürüldüyü əsnada heç mətanətini itirmədi. İcazə alaraq iki rükət namaz qıldı. "Ölümdən qorxduğu üçün uzatdı, deməyəsiniz deyə qısa qıldım", - dedi. O zamandan bəri edam edilən müsəlmanların edamdan əvvəl namaz qılmaları adət olmuşdur.

Hadisə Mədinədə eşidilincə, Peyğəmbərimiz (s.ə.s) və müsəlmanlar son dərəcə kədərləndilər.



Uhud döyüşü (miladi: 625)

Bədir döyüşündə Məkkə müşriklərindən 70 adam ölmüşdü. Bunlar arasında Əbu Cəhil, Ümeyyə kimi Qureyşin qabaqda gedən insanları da vardı. Buna görə məkkəlilər Bədir məğlubiyyətini unuda bilmir, intiqam atəşiylə yanırdılar. Bədirdə atalarını, qardaşlarını, oğullarını və digər yaxınlarını itirənlər Məkkə rəisi Əbu Süfyana müraciət etdilər. Məkkə xaricindəki müşrik ərəb qəbilələrinə şairlər, natiqlər göndərdilər. Bunlar Bədirdə öldürülənlər üçün şeirlər, mərsiyələr söyləyərək xalqı həyəcana gətirdilər. Beləliklə, müşriklər Əbu Süfyanın əmrində 3000 nəfərlik bir ordu ilə Mədinə üzərinə getdilər.

Sevimli Peyğəmbərimizin (s.ə.s) əmisi Abbas o zaman hələ Məkkədə yaşayırdı. Müşriklərin Mədinəyə hücum etdiyini bir məktubla gizlicə Həzrət Peyğəmbərimizə bildirdi. (Rəsulullahın (s.ə.s) Məkkədəki əmisi Həzrət Abbas Bədirdə əsir düşdükdən sonra müsəlman olmuş, lakin müsəlmanlığını gizlətmişdi.)

Qureyş ordusu Mədinənin şimalındakı Uhud dağı ətəklərində qərargah qurmuşdu. Rəsulullah (s.ə.s) Abdullah İbn Ümmi Məktumu Mədinədə vəkil buraxaraq, 1000 nəfərlik ordu ilə cümə namazından sonra Mədinədən çıxdı. Səhər şəfəqlə birlikdə Uhud deyilən yerə çatdılar, döyüş üçün əlverişli mövqe seçdilər. Yolda münafiqlərin başçısı Abdullah ibn Übey, bəhanə gətirərək özünə bağlı 300 münafiqlə ordudan ayrıldı. Beləcə, müsəlmanların sayı 700-ə düşdü.

Münafiqlərin ordudan ayrılması müsəlmanlar üçün bir növ ilahi lütf oldu. Çünki onların bu davranışı ilə ordu zəifləməmiş, əksinə, ikiüzlü və qorxaqlardan təmizlənmiş, bu yolla da mənəvi baxımdan daha da güclənmiş və canlanmışdı. Çünki onların savaş zamanı xəyanətləri daha təhlükəli ola bilər, möminlərin mənəviyyatını sarsıdardı.

Həzrət Peyğəmbərimiz (s.ə.s) ordunu Uhud dağının ətəyinə yerləşdirdi. İslam ordusunun sol tərəfində Ayneyn təpəsi vardı. Bu təpədə dar bir keçid vardı. Rəsuli-əkrəm (s.ə.s) bu keçidə Abdullah ibn Cübeyr başçılığında əlli oxçu yerləşdirdi və onlara belə tapşırdı: *"Düşmən istər qalib gəlsin, istər məğlub olsun, məndən əmr almadıqca buradan əsla ayrılmayın. Düşmən atlıları gəlincə, ox atın"*.



İki ordu bir-birilərinə yaxınlaşmağa başladı. Artıq həyəcan son həddə çatmışdı. Bir az sonra, bir tərəfdə Allah-Təalanın dinini yaymaq üçün döyüşməkdə əsla tərəddüd etməyən İslam mücahidləri, digər tərəfdə də batil yolu tutmaqda israr edən İslam düşmənləri arasında böyük bir meydan müharibəsi başlayacaqdı.

Döyüş adəti üzrə yenə təkə-tək mübarizə ilə başladı. Allahın aslanı Həzrət Əli müşriklərin bayraqdarı Talhanı bir zərbə ilə yerə sərdi. Qureyş bayrağını götürən Talhanın qardaşı Osmanı da Həzrət Həmzə, üçüncü bayraqdarı isə Sad ibn Əbi Vaqqas öldürdü. Nəhayət, bütün şiddəti ilə döyüş başladı.

Müsəlmanların görünməmiş bir şövqlə düşmənin üzərinə atılması qısa zamanda zəfərlə nəticələndi. Sayı və təchizatı baxımdan üstün olan düşmən qaçmağa başladı. Ancaq müsəlmanlar bir müddət düşməni təqib etdikdən sonra zəfərlərindən tam əmin olub, qənimət toplamağa başladılar. Hətta Allah Rəsulunun təlimatını xatırladan komandirlərin israr etməsinə baxmayaraq, oxatanlar da yerlərini tərk edərək qənimət toplamağa başladılar. Təpədə yalnız oxatanların başçısı Abdullah ilə yeddi dostu qalmışdı.

Düşmənin ayıq komandirlərindən Xalid ibn Vəlid atlı birliyi ilə gözlədiyi fürsəti ələ keçirmişdi. Əmrindəki atlılarla tez oxatanların olduğu təpənin arxasından dolanaraq Abdullahı və başqa oxatanları qısa zamanda şəhid etdilər. Qənimət toplayan müsəlmanların arxasından hücuma keçdilər. Çaşqın halda qaçmaqda olan düşmən əsgərləri bu vəziyyəti gördülər, tez geri dönərək müsəlmanların üzərinə yenidən hücuma keçdilər. Bu hücum qarşısında müsəlmanlar çox çətin vəziyyətdə qaldılar. Müsəlmanların bu qəfləti qazanılmış olan bir zəfərin əldən getməsinə, Peyğəmbərimizin (s.ə.s) əmisi Həzrət Həmzə ilə birlikdə bir çox İslam qəhrəmanının şəhid düşməsinə səbəb oldu. Əziz Peyğəmbərimizin (s.ə.s) mübarək dişi qırılıb, üzü yaralandı.

Uhud döyüşündə müsəlmanlar 70 şəhid verdilər. Müşriklərdən isə 22 nəfər öldürüldü. Peyğəmbərimiz (s.ə.s) illər sonra Uhud döyüşünün olduğu yerdən keçərkən, həmin kədərli günü xatırlayaraq yanındakılara belə söyləmişdir: *"Müsəlmanlar! Bundan sonra təkrarən bütlərə sitayiş etməyinizə imkan yoxdur. Buna zərrə qədər də şübhə eləmirəm. Qorxduğum şey sizin dünyaya sitayiş etməyinizdir".*



Xəndək döyüşü (miladi: 627)

Xəndək döyüşü müşriklərin müsəlmanlara qarşı apardıqları ən qorxunc və çətin döyüşdür. Bu müharibə müsəlmanları və Mədinə İslam dövlətini tarixdən silmək üçün həyata keçirilmişdir.

Hicrətin beşinci ili idi. Mədinədən sürgün edilən fitnə və fəsad qaynağı Bəni Nadir yəhudilərinin, İslama və əziz Peyğəmbərimizə (s.ə.s) olan kin və intiqam duyğuları qəlblərini bürümüşdü. Onlar qureyşlilərə iş birliyi təklif etdilər. Hətta onların bütə tapmalarının müsəlmanlıqdan daha üstün olduğunu söyləyib, bütlərə sitayiş etdilər. Sevimli Peyğəmbərimizi məhv etmək və İslam dinini yıxmaq üçün and içdilər. Müşriklər onsuz da belə bir fürsət gözlədiklərindən tez işə başladılar. Uhud döyüşündən iki il sonra, bütpərəstlər Əbu Süfyanın başçılığıyla on min nəfərlik bir ordu ilə Mədinənin üzərinə hücum etdilər.

Baş verənləri xəbər alan Rəsulullah (s.ə.s) əshabı ilə məsləhətləşdi. Onlara Allahın əmrlərinə üsyan etməyəcəkləri, Allah yolunda məşəqqətlərə dözəcəkləri təqdirdə ilahi yardıma nail olacaqlarını vəd etdi.

Allah Rəsulu (s.ə.s) əshabına Mədinədən kənarda döyüşməyin, yoxsa müdafiə üçün şəhərin ətrafında xəndək qazmağın daha yaxşı olduğunu soruşdu. Salman Farsi (r.a):

-Ey Rəsulullah! Biz fars diyarında düşmən atlılarının basqınlarından qorxduğumuz zaman ətrafımızda xəndəklər qazırdıq! - dedi.

Salmanın (r.a) bu sözü Peyğəmbərimizin (s.ə.s) tövsiyəsini dəstəkləyən müsəlmanların xoşuna gəldi. Xəndəyin qazılmasında Allah Rəsulu da (s.ə.s) şəxsən iştirak etdi. Xəndək altı gündə hazır oldu.

Qış mövsümü idi. Müşriklər Mədinəni mühasirəyə almışdılar. Ancaq onlar qarşılarına çıxan keçilməz xəndəkləri görəndə çaşdılar. Mədinəyə girə bilmədilər. Müşriklər xəndək ətrafına tez-tez hücumlar edirdi. Gecə yarısınadək şiddətli çarpışmalar olur, Allah Rəsulunun çadırı belə tez-tez oxa tutulurdu.

Dərin xəndəkləri ancaq bir neçə müşrik keçə bilmişdi. Onlardan biri olan Amr ibn Abdived bütün Ərəbistanın ən məşhur pəhləvanlarından idi. Onun qarşısına



Həzrət Əli çıxdı və Allahın izni ilə onu öldürdü. O birilərinin aqibəti də eyni oldu.

Düşmən ordusunun mühasirəsi uzandıqca Mədinədə aclıq və qıtlıq özünü göstərməyə başladı. Sevgili Peyğəmbərimizin (s.ə.s) duası nəticəsində axşam üstü düşmən tərəfdə şiddətli külək əsməyə başladı. Qısa müddətdə böyük bir fırtınaya çevrilən külək qumu, torpağı düşmənin üzünə, gözünə çırpır, çadırları söküb atırdı. Yemək qazanlarını çevirib, ocaqları söndürürdü. Bu vəziyyət düşməni çox qorxutdu. Daha çox dura bilmədilər. Ordu həmin gecə böyük qorxu və dəhşət içərisində, hər şeyi döyüş meydanında buraxaraq qaçdı. Pərişan bir şəkildə qaçan müşriklər arxalarında bir çox minik, döyüş alətləri, ərzaq və əşya qoyub getmişdilər. Bunların hesabına Mədinədəki qıtlıq da ortadan qalxdı.

Səhər açılınca fırtına sakitləşmiş, Mədinə və ətrafında düşmən qalmamışdı. Müsəlmanlar onları bu vəziyyətdən qurtaran Allaha (c.c) şükür etdilər. Bədir, Uhud və Xəndək döyüşlərində heç bir nəticə əldə edə bilməyən Məkkəli müşriklər İslam nurunu söndürə bilməyəcəklərini başa düşdülər və bundan sonra bir daha müsəlmanlara hücum etmədilər.

Hüdeybiyə müqaviləsi (miladi: 628)

Xəndək döyüşündən sonra İslam dövlətinin gücünü ətrafda yerləşən qəbilələrin əksəriyyəti qəbul etdi. Artıq müsəlmanlarla dostluq qurmağın, hətta müsəlmanlığı qəbul etməyin ən doğru yol olacağını düşünməyə başlamışdılar. Hətta bəziləri Peyğəmbərimizin hüzuruna gəlib müsəlman olmaqla şərəfləndilər.

Hicrətin altıncı ili idi. Bir gecə Peyğəmbərimiz (s.ə.s) röyasında əshabi-kiramla Məkkəyə gedib Kəbəni təvaf etdiklərini, bir hissəsinin saçlarını qısaltdıqlarını, bir hissəsinin də tamamilə qırxdırdıqlarını gördü. Rəsulullah bu röyasını əshabına danışdığında onlar daha çox həyəcanlandılar. Hicrətdən bəri doğulub böyüdükləri, pis-yaxşı xatirələrlə dolu, o gözəl el-obaları olan Məkkəyə gedəcəkdilər. Beş vaxt namazda üzlərini çevirdikləri və həsrətini çəkdikləri müqəddəs Kəbəni ziyarət edib təvaf edəcəkdilər. Bu nə gözəl bir müjdə idi. Əshabi-kiram Peyğəmbərimizin: *"Siz, heç şübhə yoxdur ki, Məscidi-Harama girəcəksiniz!"* müjdəsini alan kimi vaxt itirmədən hazırlıqlara başladı.



Peyğəmbərimiz (s.ə.s) 1400 nəfərlə birlikdə Mədinədən Məkkəyə yola düşdü. Məkkəlilər vəziyyətdən xəbərdar olduqda, müsəlmanları Məkkəyə qoymamaq qərarına gəldilər. Bundan ehtiyat edən müsəlmanlar Hüdeybiyə deyilən yerdə dayandılar. Peyğəmbərimiz (s.ə.s) Həzrət Osmanı elçi kimi göndərib, Məkkəni ziyarət etmək istədiklərini bildirdi. Məkkəlilər müsəlmanların Kəbəni ziyarət etməsinə izin vermədilər və bunu gələn ilə təxirə salmaq istədilər. Uzun mübahisələrdən sonra müsəlmanlarla bütpərəstlər arasında bir muqavilə bağlandı.

O gün əziz Peyğəmbərimiz (s.ə.s) bir çox hikmətlərə görə müqaviləni imzaladı. Müqavilənin maddələrindən bəziləri belədir:

☑ *Müqavilənin müddəti on ildir.*

☑ *Müsəlmanlar bu il Kəbəni ziyarət etmədən Mədinəyə geri qayıdacaqlar.*

☑ *Gələn il ziyarətə gələnlər Məkkədə üç gün qalacaq. Bu müddət ərzində müşriklər Məkkədən kənara çıxacaqlar, müsəlmanlarla təmasları olmayacaq.*

☑ *Qureyşlilərdən biri müsəlman olsa və qaçaraq Mədinəyə sığınarsa, geri qaytarılacaq, ancaq Mədinədən Məkkəyə sığınanlar geri qaytarılmayacaq.*

☑ *Başqa ərəb qəbilələri istəsələr, müsəlmanların, istəsələr qureyşlilərin tərəfinə keçəcəklər.*

Müqavilədən sonra Peyğəmbərimiz (s.ə.s) və yanındakı müsəlmanlar Kəbəni ziyarət etmədən oradan geri dönüp Mədinəyə qayıtdılar.





Məkkənin fəthi və əfv bayramı (miladi: 630)

Mədinəli müsəlmanlarla Məkkəli müşriklər arasında bağlanan Hüdeybiyə müqaviləsinə görə, sülhün müddəti on il idi. Ancaq müşriklər İslamın gündən-günə bütün Ərəbistana yayılmasından narahat olurdular. Buna görə də, yavaş-yavaş sülh maddələrini pozmağa başladılar. Sonra sülh maddələrinə qarşı hörmətsizlik edərək bir az da irəli getdilər. Müşriklər onlara bağlı olan Bəni Bəkir qəbiləsini qızışdıraraq müsəlman olan Xuzaalıların üzərinə yönəltdilər. Onlardan bəziləri də bu çirkin cinayətdə iştirak etdilər. Beləliklə, məkkəlilər Hüdeybiyə müqaviləsini çox ağır bir şəkildə pozmuş oldular.

Ancaq bu hadisədən o əsnada Şama ticarət üçün gedən Qureyşin başçısı Əbu Süfyanın xəbəri olmamışdı. Şamdan qayıdan kimi hadisəni ona danışdılar və: *"Bu, mütləq düzəldilməsi lazım olan bir səhvdir. Gizli qalması mümkün deyildir. Əgər düzəldilməzsə, Muhammməd bizi Məkkədən sürgün edər!"* - dedilər. Əbu Süfyan isə: *"Hər nə qədər bu hadisədən mənim xəbərim olmayıbsa da, Xuzaalılara edilən qətl xəbəri Mədinəyə çatmamışdan qabaq, sülhü təzələyib uzatmaq üçün tələsik getməyim lazımdır"*, - dedi.

Əbu Süfyan Mədinəyə gəlməmişdən əvvəl Peyğəmbərimiz (s.ə.s) onun gələcəyini əshabına bildirdi və: *"Belə başa düşürəm ki, Əbu Süfyan sülhü təzələyib, sülh müddətini də uzatmaq gəlir. Lakin məqsədinə nail olmayıb əliboş qayıdacaq!"* - buyurdu.

Həzrət Peyğəmbərimizin (s.ə.s) hüzuruna gələn Qureyşin başçısı Əbu Süfyan: *"Mən, Hüdeybiyə sülhnaməsini təzələmək və müddətini uzatmaq üçün gəldim"*, - dedi. Peyğəmbərimiz (s.ə.s): *"Biz Hüdeybiyə sülhnaməsinə zidd bir hərəkət etmədik və onu dəyişdirmərik!"* - buyurdu. Qureyşin başçısı dəfələrlə,*"Sülhnaməni dəyişdirək! Təzələyək!"* - dedisə də, Peyğəmbərimiz (s.ə.s) ona razılıq vermədi. Sülhü onların öz tərəfdaşlarının pozduğunu dedi. Əbu Süfyan bütün cəhdlərinin puça çıxdığını görüncə Məkkəyə qayıdıb müşriklərə vəziyyəti başa saldı. Müşriklər: *"Demək heç bir şey edə bilmədən dala qayıtdın?!"* - deyərək onu qınadılar.

Aparılan danışıqlardan bir nəticə alınmadıqda Peyğəmbərimiz (s.ə.s) Məkkəni fəth etmək qərarına gəldi və 10.000 nəfərlik bir ordu hazırlayaraq, Hicrətin səkkizinci ili, Ramazan ayında Məkkəyə doğru hərəkət etdi.

Məkkəlilərin müsəlmanların qarşısına çıxaracaq bir gücü yox idi. İslam ordusu dörd tərəfdən Məkkəyə girdi. Peyğəmbərimiz (s.ə.s) Məkkənin qan tökülmədən alınmasını istəyirdi. Bunun üçün əsgərlərinə belə buyurdu: *"Qətiyyən qan tökməyin, silahlı vuruşmaya girməyin"*.

Dediyi kimi də oldu və Məkkə şəhəri qan tökülmədən fəth edildi. Həzrət Peyğəmbərimiz (s.ə.s) Harəmi-Şərifə gedərək Kəbəni bütlərdən təmizlədi və orada toplanan insanlara çox mühüm bir xütbə oxudu. Peyğəmbərimiz (s.ə.s) həmin xutbəsində:

Allahın birliyini, insanların bərabər olduğunu, keçmişdəki qan davalarının ortadan qaldırıldığını söylədikdən sonra, bu mənadakı ayəni oxudu:

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından *(Adəm və Həvvadan)* **yaratdıq. Bir-birinizlə tanış olasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır** *(Allahdan ən çox qorxanınızdır)***. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır".** (Hucurat, 13)

Bu sözlərə qulaq asan məkkəlilər bir zamanlar Peyğəmbərimizi (s.ə.s) öldürməyə təşəbbüs etmiş, ilk müsəlmanlara dözülməz əzab-əziyyət vermişdilər. İndi onlar boyunlarını bükmüş, haqlarında veriləcək qərarı gözləyirdilər. Peyğəmbərimiz (s.ə.s) onlardan soruşdu:

-Ey Qureyş cəmiyyəti! Haqqınızda nə edəcəyimi zənn edirsiniz?

-Sən əsil və şərəfli bir qardaşsan, - dedilər.

Peyğəmbərimiz (s.ə.s) burada da öz böyüklüyünü göstərdi və belə buyurdu:

-Bu gün qınamaq yoxdur, hamınız azadsınız.

Həzrət Peyğəmbərimiz (s.ə.s) bir zamanlar İslam dininə və özünə düşmən olan hər kəsi bağışlamışdı. Hətta şəhidlərin əfəndisi, Peyğəmbərimizin (s.ə.s) əmisi Həzrət Həmzənin qatili Hind və Vəhşini belə əfv etdi.





Peyğəmbərimizin (s.ə.s) Vida həcci

Məkkənin fəthindən sonra həcc fərz qılınmışdı. Sevimli Peyğəmbərimiz (s.ə.s) ailəsi və əshabıyla birlikdə həcc etmək üçün 22 fevral 632-ci ildə Mədinədən Məkkəyə doğru yola çıxdı. Məkkəyə gəlib həcc ibadətini yerinə yetirdilər.

Məkkənin fəthiylə İslam dini sürətlə yayılmağa başladı. Peyğəmbərimiz (s.ə.s) müxtəlif yerlərə elçilər göndərərək müsəlman olmayan qəbilələri İslama dəvətə davam etdi. Qısa zaman içində bütün Ərəbistan yarımadası müsəlmanların hakimiyyəti altına girdi.

Peyğəmbərimiz 6 mart 632-ci ildə Ərəfatda bir xütbə oxudu. Onu dinləmək üçün yüz mindən artıq insan toplaşmışdı. Xütbəsində insanların ilahının birliyini, eyni atadan dünyaya gəldiklərini və buna görə də hamının bərabər olduğunu söylədi. Qadın haqlarından bəhs edərək, sülh və əmin-amanlıq üçün nə ediləcəyini bildirdi. Peyğəmbərimiz (s.ə.s) Vida xütbəsi ilə İslam dininin prinsiplərini son dəfə bütün bəşəriyyətə çatdırmış oldu.

Həzrət Muhammədin (s.ə.s) Xəstələnməsi və Vəfatı

Əziz Peyğəmbərimiz (s.ə.s) Vida Həccini yerinə yetirdikdən sonra Mədinəyə qayıtdı. Altmış üç yaşına gəlmişdi. İnsanlara yaxşılığı və doğruluğu təbliğ etmək üçün çəkdiyi sıxıntılar onu çox yormuşdu. O günlərdə ölüm vaxtının yetişdiyini hiss edirmiş kimi ölümdən və bir gün öləcəyindən bəhs edirdi.

Allah Rəsulu (s.ə.s) bir müddət sonra xəstələndi. Xəstəliyinin gündən-günə artmasına baxmayaraq, xəstə ikən də azan oxununca məscidə gedib namazları qıldırırdı. Ancaq vəfatına üç gün qala xəstəliyi ağırlaşdı. Məscidə gedə bilmədi və camaata namaz qıldırma işini Həzrət Əbu Bəkrə həvalə etdi.

Peyğəmbərimizin (s.ə.s) xəstəliyi gündən-günə daha da ağırlaşırdı. Əshabi-kiram bu vəziyyətə çox üzülür, evlərində rahat dura bilmirdilər. Məscidə toplaşdılar. Peyğəmbərimizin (s.ə.s) vəziyyətindən xəbər tutmaq üçün Həzrət Əlini göndərdilər. Aləmlərin əfəndisi Peyğımbərimiz (s.ə.s) işarəylə: *"Əshabım nə deyir?"* - deyə soruşdu. O da: *"Rəsulullah aramızdan getsə halımız necə olacaq?! - deyib çox üzülürlər"* - dedi. Əshabına qarşı çox mərhəmətli olan sevgili Peyğəmbərimiz, xəstəliyinin ağrısına dözərək ayağa qalxdı. Həzrət Əli və Həzrət Fəzl ibn Abbasın qoluna girərək məscidə gəldi. Minbərə çıxaraq Allah-Təalaya həmd və səna etdikdən sonra, əshabi-kirama səsləndi: *"Ey Əshabım! Mənim ölümümü düşünüb narahat olursunuz. Heç bir peyğəmbər ümməti ilə birlikdə əbədi qalmadı. Mən də sizinlə birlikdə əbədi qalmayacağam. Bilin ki, mən Rəbbimə qovuşacağam. Sizə nəsihətim budur ki, muhacirlərin böyüklərinə hörmət edin! Ey muhacirlər! Sizə də vəsiyyətim budur ki, ənsara yaxşılıq edin! Onlar sizə yaxşılıq etdi. Evlərində*



qonaq saxladı. Mallarına sizi şərik etdilər. Hər kim ənsara başçılıq edərsə, onlarla xoş rəftar etsin, səhvə yol verənlərini bağışlasın”. Sonra çox gözəl təsirli nəsihətlər edib əlavə etdi: *“Allah-Təala bir quluna dünyada qalmaqla Rəbbinə qovuşmaq arasında seçim haqqı verdi. O qul, Rəbbinə qovuşmağı tərcih etdi”*. Həzrət Əbu Bəkr, Rəsulullahın sözləriylə vəfatına işarə etdiyini başa düşüb: *“Canımız Sənə fəda olsun, ya Rəsulallah!”* - deyərək ağlamağa başladı. Mərhəmət dəryası, əziz Peyğəmbərimiz (s.ə.s): *“Ağlama, ey Əbu Bəkr!”* - deyərək ona səbirli olmasını buyurdu. 8 iyun bazar ertəsi gecəsi Peyğəmbərimizin (s.ə.s) xəstəliyi bir az yüngülləşincə, məscidə getdi. Oturduğu yerdə Həzrət Əbu Bəkrə uyaraq, sabah namazını camaatla birlikdə qıldı. Məsciddən evə qayıdınca xəstəliyi şiddətləndi və: *“Ya Rəbbi! Ölümün şiddətinə qarşı mənə yüngüllük ver. Canımı asanlıqla al”*, - deyə dua etdi. Yanında bir qabda su vardı. Əlini suya batırıb, bununla mübarək üzünü sərinlədirdi.

Günorta yaxınlaşanda Peyğəmbərimiz (s.ə.s) mübarək əlini qaldırdı. Şəhadət barmağını yuxarıya doğru tutaraq belə buyurdu: **“Rəfiqi-əlaya, Uca Dosta”**. Peyğəmbərimiz Muhammməd Mustafanın (s.ə.s) vəfatından əvvəl son sözü bu oldu.

Əziz Peyğəmbərimizin vəfat xəbərini alan Həzrət Əbu Bəkr birbaşa məscidə gəldi. Hamı ağlayırdı. Həzrət Əbu Bəkr səssizcə Peyğəmbərimizin (s.ə.s) otağına girdi. Üzündəki örtünü qaldırdı. Ağlayaraq Peyğəmbərimizin alnından öpdü və:

- Atam, anam Sənə fəda olsun, ey Allahın Peyğəmbəri! Sənin həyatın kimi, ölümün də gözəldir, - dedi. Çölə çıxdı və orada toplaşanlara Ali-İmran surəsinin 144-cü ayəsini oxudu: **“Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişlər. İndi o ölsə, yaxud öldürülsə, geri** *(əvvəlki dininizəmi)* **dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər yetirmiş olmaz. Allah şükür edənləri mükafatlandıracaqdır”.** Həzrət Əbu Bəkrin bu sözləri Rəsulullahın vəfatı qarşısında şoka düşən bütün müsəlmanları sakitləşdirdi.

Həzrət Peyğəmbərimiz (s.ə.s) miladi 632-ci ildə, 63 yaşında mübarək ruhunu mövlaya təslim edərək, Uca dosta, Allaha qovuşdu. Biz müsəlmanlara iki əmanət qoyub getdi: Allahın kitabı Qurani-Kərim və öz örnək həyatı. Bunlara tabe olan müsəlmanların səadətə qovuşacağını müjdələdi. ***Əssalatu vəssalamu əleykə ya Rəsulallah! Əssalatu vəssalamu əleykə ya Həbiballah! Əssalatu vəssalamu əleykə ya Seyyidəl-əvvəlinə vəl-axirin!***

Peyğəmbərimiz (s.ə.s) vəfat etdiyi yerdə dəfn edildi. Mədinədə Onun qəbrinin olduğu yerə *“Ravzayi-Mutahhara”* deyilir. Sevgili Peyğəmbərimizin (s.ə.s) 23 illik peyğəmbərlik həyatının 13 ili Məkkədə, 10 ili də Mədinədə keçmişdir. O, insanlığın xoşbəxtliyi üçün çalışdı. Son peyğəmbər kimi vəzifəsini haqqıyla yerinə yetirdi və bu dünyadan axirətə köçdü.

Peyğəmbərimizin (s.ə.s) xrolonoji həyatı

571	-	Fil Hadisəsi. Yəmən valisi Əbrəhənin Kəbəyə hücum etməsi.
571	-	(20 aprel) - Peyğəmbərimizin (s.ə.s) dünyaya gəlməsi.
576	-	Anası Əminənin vəfat etməsi.
578	-	Babası Əbdülmüttəlibin vəfatı və əmisi Əbu Talibin himayəsinə girməsi.
583	-	Əmisi Əbu Taliblə Suriyaya ticarət karvanıyla getməsi.
588	-	Digər əmisi Zübeyr İbn Əbdülmüttəlib ilə Yəmənə səyahət etməsi.
596	-	Həzrət Xədicə binti Xuveylid ilə evlənməsi.
608	-	Həzrət Muhammədin (s.ə.s) Kəbədə hakimlik etməsi.
610	-	Hira mağarasında ilk vəhyin gəlişi və peyğəmbər olması.
616	-	Həzrət Həmzə və Həzrət Ömərin müsəlman olmaları.
619	-	Üç illik mühasirənin qaldırılması və Həzrət Xədicə və Əbu Talibin vəfatı.
620	-	Peyğəmbərimizin (s.ə.s) İslama dəvət üçün Taifə getməsi.
622	-	Peyğəmbərimizin (s.ə.s) Məkkədən Mədinəyə hicrət etməsi.
623	-	Mədinədə Məscidi-Nəbəvinin tikilməsi.
624	-	İslamda ilk döyüş olan Bədir zəfəri və Əbu Cəhilin öldürülməsi.
625	-	Uhud döyüşü, Həzrət Həmzənin şəhid edilməsi.
627	-	Xəndək (Əhzab) döyüşü.
628	-	Hüdeybiyə sülh müqaviləsi
629	-	Hüdeybiyə müqaviləsi hökmlərinə görə müsəlmanların Kəbəni ziyarət etmələri.
630	-	Məkkənin fəthi, əfv bayramı və Kəbənin bütlərdən təmizlənməsi.
631	-	Həzrət Əbu Bəkrin həcc əmirliyi.
632	-	Peyğəmbərimizin (s.ə.s) ilk və son həci - Vida həcci.
632	-	(8 iyun) - Peyğəmbərimizin (s.ə.s) xəstələnməsi və vəfat etməsi.



Peyğəmbərimizin (s.ə.s) Vida xütbəsindən parçalar

Ey Allahın qulları! Allahdan qorxmanızı və ona itaət etmənizi sizə vəsiyyət edirəm.

Ey insanlar! Sözlərimə yaxşı qulaq asın. Bəlkə bu ildən sonra bir daha sizinlə burada görüşə bilmədim.

Ey insanlar! Bu gününüz necə müqəddəs bir gün, bu ayınız necə müqəddəs bir ay və bu şəhəriniz Məkkə necə müqəddəsdirsə, bilin ki, canlarınız, mallarınız, namusunuz da eləcə müqəddəsdir. Bunlara təcavüz haramdır.

Ey əshabım! Keçmişdə cahiliyyə dövründə güdülən qan davaları da aradan qaldırılmışdır. Aradan qaldırdığım ilk qan davası Əbdülmüttəlibin nəvəsi Rəbiənin qan davasıdır.

Ey əshabım! Hər cür faiz (riba) aradan qaldırılmışdır. İlk aradan qaldırdığım riba Əbdülmüttəlibin oğlu Abbasın verdiyi borclardır. Allahın əmri ilə artıq faiz almaq yasaqlanmışdır. Cahiliyyə dövründən qalma bu çirkin adətin hər növü ayağımın altındadır.

Ey insanlar! Kimin əmanəti varsa onu sahibinə versin. Bu gün şeytan sizin torpaqlarınızda yenidən səltənət qurmaq gücünü əbədi surətdə itirmişdir. Fəqət siz bu aradan qaldırdığım şeylər xaricində kiçik gördüyünüz işlərdə ona tabe olsanız, onu sevindirmiş olarsınız. Dininizi qorumaq üçün bunlardan çəkinin.

Ey insanlar! Qadınların haqlarına riayət edin. Bu xüsusda Allahdan qorxun. Siz qadınları Allahın əmanəti olaraq aldınız. Sizin qadınlar üzərində haqlarınız olduğu kimi, onların da sizin üzərinizdə haqları var. Onlar sizin namus və şərəfinizi qorusun, siz də onların yemək-geyim kimi ehtiyaclarını halal yoldan təmin edin. Bir qadının yoldaşının izni olmadıqca onun malından bir şeyi başqasına verməsi halal sayılmaz. Kölələrinizə gəldikdə isə onları da öz yediklərinizdən yedirin, geydiklərinizdən geyindirin. Bağışlaya bilməyəcəyiniz bir xəta etsələr, əsla onlara əziyyət etməyin. Çünki onlar da Allahın quludur.

Ey möminlər! Sizə əmanət qoyub gedirəm. Siz ona sarıldıqca, yolunuzu azmayacaqsınız. O əmanət Allahın kitabı Qurani-Kərimdir.

Ey insanlar! Bir il on iki aydır. Bunlardan dördü haram aylardır. Bunlardan üçü arxa-arxaya Zilqadə, Zilhiccə, Məhərrəmdir. Dördüncüsü isə Rəcəbdir...

Ey insanlar! Nə zamansa məni sizdən soruşacaqlar. Nə deyəcəksiniz? Vəzifəsini layiqincə yerinə yetirdimi? (Səhabələr bu suala bir ağızdan "Bəli" dedilər. And içirik ki, təbliğ etdiniz. Buna şəhadət edirik).

Allah Rəsulu barmağını havaya qaldıraraq, üç dəfə: "Şahid ol, ya Rəbb!" - dedi.



Həzrət Peyğəmbərimizin (s.ə.s) əxlaqı Quran əxlaqı idi

Allahın ən sevimli qulu, son və ən böyük Peyğəmbər olan Həzrət Muhammməd (s.ə.s), sima yönündən insanların ən gözəli, əxlaq cəhətdən də insanların ən üstünü idi. Əziz Peyğəmbərimiz (s.ə.s): "*Sizin ən xeyirliniz əxlaqca ən üstün olanınızdır*"; "*Mən ancaq gözəl əxlaqı tamamlamaq üçün göndərildim*", - buyurmuşdur.

Peyğəmbərimizin (s.ə.s) əxlaqı tamamilə Qurani-Kərimə uyğun idi. Qurani-Kərimin göstərdiyi gözəl xasiyyətlərin hamısı Peyğəmbərimizdə (s.ə.s) cəmləşmişdi. Onun üçündür ki, Peyğəmbərimiz haqqında Quranı-Kərimdə Allah-Təala: **"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"** (Qələm, 4) - buyurmuşdur.

Həzrət Aişədən Rəsulullahın (s.ə.s) əxlaqı soruşulunca:

-"*Siz Qurani-Kərim oxumursunuzmu? Onun əxlaqı Qurandan ibarət idi*", - deyə cavab vermişdir.

Həqiqətən, Peyğəmbərimiz (s.ə.s), əxlaqın ən gözəl və ən yaxşı hallarını özündə toplamış, bunları ümmətinə də nəsihət etmiş və özünə uyanları mələklər dərəcəsinə yüksəltmişdir. Hətta bir çox insanın İslam dinini qəbul etməsinə Peyğəmbərimizin (s.ə.s) gözəl əxlaqı səbəb olmuşdur.

Uşaqlığından etibarən on il xidmətində olan Həzrət Ənəs:

- Rəsulullaha (s.ə.s) on il xidmət etdim. Bir dəfə belə canı sıxılıb, of, nə üçün bunu belə etdin, niyə bunu belə etmədin, deyə məni danlamadı", - demişdir

Həzrət Peyğəmbərimizə (s.ə.s) tabe olmaq

Peyğəmbərimizə (s.ə.s) tabe olmaq Onu təqlid etmək, Onun getdiyi yolu tutmaqdır. Onun yolu Qurani-Kərimin göstərdiyi yoldur. Bu yola İslam dini deyilir. Onu təqlid etmək üçün əvvəlcə iman etmək, müsəlmanlığı yaxşı öyrənmək, sonra da fərz olan dini əməlləri yerinə yetirib, haramlardan uzaq durmaq, daha sonra da, sünnələri yerinə yetirib məkruh olan şeylərdən çəkinmək lazımdır.

Allah-Təala Peyğəmbərimizi (s.ə.s) dünyadakı bütün insanları xoşbəxtliyə dəvət üçün göndərmiş və Səbə surəsinin 28-ci ayəsində: "*(Ey Peyğəmbərim!)* **Biz səni bütün insanlara yalnız müjdəçi və xəbərdar edən bir peyğəmbər olaraq göndərdik.**", - buyurmuşdur.

Sevimli Peyğəmbərimizə (s.ə.s) gənclik illərində bütlərə sitayiş edib-etməməsi və şərab içib-içməməsi barədə sual soruşanda **"xeyr"**, - deyə cavab verərdi. O, içində yaşadığı cəmiyyətin pisliklərinə əsla bulaşmamışdı.

Peyğəmbərimizin (s.ə.s) bizə öyrətdiklərindən:

❖ Sizin ən xeyirliniz qadınlara qarşı yaxşı rəftar edəndir.

❖ Mərhəmət etməyənə mərhəmət olunmaz.

❖ İnsanlara səviyyələrinə görə rəftar edin.

❖ Həya (utanma duygusu) imandandır.

Həzrət Peyğəmbərimizə (s.ə.s) tam mənasıyla və qüsursuz tabe ola bilmək üçün Onu tam mənasıyla və qüsursuz bir şəkildə sevmək lazımdır. Bütöv bir sevginin əlaməti də Onun düşmənlərindən uzaq durmaq, Onu bəyənməyənləri bəyənməməkdir. Ənəs ibn Malikin Rəsulullaha tabe olmaqla əlaqəli rəvayət etdiyi hədisi-şərifdə, Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Hər kim mənim sünnəmi əhya etsə (onunla əməl edərək yaysa), məni əhya etmişdir (şanımı ucaltmış, əmrimi izhar etmişdir). Məni əhya edən də cənnətdə mənimlə birlikdədir".*

Hər əsrdə yaşayan ümmətin Ona tabe olması vacibdir. Hər möminin Onun dininə yardım etməsi, Onun əxlaqını nümunə götürməsi, Onun mübarək adını çox zikr etməsi, adı çəkildikdə və eşidildikdə hörmət və sevgiylə salətu-salam gətirməsi, mübarək camalını görməyə həvəsli olması, gətirdiyi Qurani-Kərimi, dinini sevməsi və hörmət göstərməsi lazımdır.

Həzrət Muhammədin (s.ə.s) insanlığı aydınladan yüksək əxlaqı

❖ Həzrət Peyğəmbərimizin (s.ə.s) əxlaqı Quran əxlaqı idi.

❖ Həzrət Peyğəmbərimiz (s.ə.s) yüksək həya sahibi idi.

❖ Həzrət Peyğəmbərimizə (s.ə.s) tabe olmaq Uca Allahın əmridir.

❖ Həzrət Peyğəmbərimiz (s.ə.s) nizam-intizama çox əhəmiyyət verərdi.

❖ Qiyamətə qədər ən gözəl örnək Həzrət Muhammməd Mustafadır (s.ə.s).

Həzrət Peyğəmbərimiz nizam-intizama çox əhəmiyyət verərdi

Əziz Peyğəmbərimiz (s.ə.s) təmizliyə, nizam-intizama əhəmiyyət verər və: *"Kimin saçı varsa, ona yaxşı baxsın!"* və ya *"Təmizlik imandandır"*, - buyurardı.

Həzrət Peyğəmbərimiz məsciddə ikən saç-saqqalı daranmamış birisi içəri girmişdi. Peyğəmbərimiz (s.ə.s) ona, dərhal çölə çıxaraq saç-saqqalını düzəltməsini əli ilə işarə etdi. O adam saç-saqqalını düzəldib qayıdanda Peyğəmbərimiz: *"Sizdən birinizin bu vəziyyətdə olması daha yaxşıdır, yoxsa saç-saqqalı şeytan saçı kimi dağınıq vəziyyətdə olması?"* - buyurdu.

Əziz Peyğəmbərimiz (s.ə.s) güzgüyə baxdıqca Allaha həmd edər və: *"Allahım! Üzümü gözəl yaratdığın kimi, əxlaqımı da gözəlləşdir!"* - deyərək dua edərdi.

Rəsulullah (s.ə.s) misvakdan istifadə etməyə çox əhəmiyyət verərdi. Həmişə özüylə misvak gəzdirərdi. Peyğəmbərimiz: *"Arak ağacının çubuğuyla misvaklanın! Ağıza gözəl iy verər. O həm mənim, həm də məndən əvvəl gələn peyğəmbərlərin misvakıdır"*, - buyurmuşdur. Həzrət Peyğəmbərimizin, evinə girdiyi zaman, ilk işi dişini misvakla təmizləmək olardı.

Peyğəmbərimiz (s.ə.s) yanında misvak olmadan yatmaz, oyandığı zaman da işə dişlərini misvaklamaqla başlayardı. Peyğəmbərimiz gecə vaxtı təhəccüd namazına qalxdığı zaman da dişlərini misvakla təmizləyərdi. Həzrət Aişə anamız: *"Peyğəmbər (s.ə.s) oyandıqdan sonra və dəstəmaz almamışdan əvvəl mütləq misvakdan istifadə edərdi"*, - demişdir.

Ən gözəl örnək Həzrət Muhammməd Mustafa (s.ə.s)

Həyatının hər bir mərhələsi təfərrüatı ilə təsbit olunan tək Peyğəmbər və tək insan Həzrət Muhammməd Mustafadır. Onun bütün əməlləri, söz və duyğuları anbaan qeyd edilərək tarixdə bir şərəf lövhəsi kimi qalmışdır. Onun həyatı qiyamətədək gələcək nəsillərə örnəkdir.

Əziz Peyğəmbərimiz (s.ə.s) din liderliyi, dövlət başçısı, ticarət, çobanlıq, valideynlik, sərkərdə, müəllim... hər halı ilə şükür və təvazökarlıqda örnəkdir.

Əgər sərvət sahibi olan zəngin bir insansansa, bütün Ərəbistana hakim olan, bütün ərəb böyüklərini məhəbbətlə özünə tabe edən O uca Peyğəmbərin təvazökarlığını düşün!

Əgər zəif bir insansansa, Məkkədə zalım və amansız müşriklərin idarəçiliyi altında yaşayan Peyğəmbərin həyatından örnək al!

Əgər qalib bir fatehsənsə, Bədir və Huneyndə düşmənino qələbə çalan cəsarət və təslimiyyət Peyğəmbərinin həyatından ibrət al!

Əgər müəllimsənsə, məsciddə Suffə əshabının qəlbinə incə, zərif və həssas könlünün feyzlərini axıdaraq ilahi əmrləri təlim edən Peyğəmbəri düşün!

Əgər tələbəsənsə, Ona vəhy gətirən Cəbraili-Əminin qarşısında oturan Peyğəmbəri düşün!

Əgər öyüd verən bir vaiz və özünə arxayın bir müəllimsənsə, Məscidi-Nəbəvinin içində əshabına hikmət öyrədən Peyğəmbəri dinlə! Onun gözəl səsini eşit və könül ver!

Bil ki, Onun xarakteri zərif və müşk ətirli güllərlə bəzənmiş bir gülüstan kimi gözəl və bənzərsiz idi.



Nur içində nur

Bu kirlənmiş dodaqlarla səni öymək nə günah!
O dil-dodaq öysün səni - virdi Quran, Bismillah!
Nida gəlir göylərdən: La ilahə illəllah!
Ey kəlamı Kəlamullah! Müşk qoxuyan vücudu!
Sən öyrətdin ümmətinə haqq önündə sücudu.

Çəmən-çiçək pıçıldasın o mübarək ismini,
Bağ-bağçada qızıl güllər xətm eləyib rəsmini.
Həsrətindən coşan sular dil-dil ötür vəsfini,
İlahidən sevilən Sən, öyülən Sən, ancaq Sən!
Amalına, kamalına, camalına min əhsən!

Sübhə işıq, gözə nursan! İşıq ölməz, nur ölməz!
Təcəllinlə ölməyənlər qiyamətdə dirilməz!
Şəfqətinlə hörülməyən sınıq könül hörülməz!
Sən könüllər memarısan: şəfa Səndə, ruh Səndə!
Ömrümüzə bahar əsər: Sən qəlblərə əsəndə!

Məmməd Aslan

SUALLAR

1. İslamiyyətn əvvəl ərəbistanın vəziyyəti necə idi?
2. Hz. Muhammədin anadan olması haqqında məlumat verin?
3. Hz. Muhamədin uşaqlığı necə keçmişdi?
4. Hz. Muhammədin gəncliyi və səyahətləri haqqında məlumat verin?
5. Hz. Muhammədin evliliyi necə və kiminlə olmuşdu?
6. İlk vəhyin gəlməsi nə zaman və necə olmuşdu?
7. İslama dəvətin başlaması necə olmuşdu və ilk müsəlmanlar kimlər idi?
8. Həbəşistana nə üçün hicrət edilmişdi?
9. Dəvətin açıqdan edilməsi haqqında məlumat verin
10. Hz. Peyğəmbərin Taif səfəri haqqında məlumat verin.
11. Hz. Peyğəmbərin Mədinəyə hicrətini anladın.
12. Məscidi-Nəbəvinin tikintisi necə olmuşdu?
13. Ənsar və muhacir kimlərdir?
14. Bədir döyüşü nə zaman olmuşdu?
15. Uhud döyüşü nə zaman olmuşdu?
16. Xəndək döyüşü nə zaman olmuşdu?
17. Hüdeybiyə müqaviləsi haqqında məlumat verin.
18. Məkkə nə zaman fəth olunmuşdu?
19. Hz. Peyğəmbərimizin xəstələnməsi və vəfatından danışın.
20. Hz. Peyğəmbərimizin bizə öyrətdiklərindən hansı hədisləri bilirsiniz?

NAMAZIMI ÖYRƏNİRƏM

- Namaz 184
- Namazın qılınma qaydası 185
- Beş vaxt namazın qılınış qaydası 192
- Təsbihat - zikrlər 199
- Namazda oxunan dualar 200
- Namazda oxunan surələr 204

Namaz

Namaz nədir?

Namaz insanı maddi-mənəvi kirlərdən, günahlardan təmizləyən, dərəcəsini yüksəldən, Allahın rəhmətini qazandıran və dinimizin ən əhəmiyyətli ibadəti, İslamın təməl daşıdır. Bir hədisi-şərifdə əziz Peyğəmbərimiz səlləllahu aleyhi və səlləm: *"Namaz dinin dirəyidir. Onu tərk edən dini məhv etmiş olar (dini qoruya bilməz)"* (Tirmizi, İman 8) buyuraraq namazı tərif edir.

Namaz imandan sonra ən fəzilətli ibadətdir...

Buna görə insanın Allah qatındakı dəyəri namaza verdiyi dəyər qədərdir. Çünki bəndə namaz ilə Rəbbinə yaxınlaşar və qovuşar.

Namaz İslamın şərtlərindən ikincisidir. Namaz təkbirlə başlayıb salamla bitən ibadətdir.

Namaz ruhu təmizləyən, qəlbi işıqlandıran, insanı Allah-Təalanın hüzuruna yüksəldən bir ibadətdir. Allah-Təala Qurani-Kərimdə belə buyurur: **"Məni anmaq üçün namaz qıl"** (Taha 14). Peyğəmbərimiz (s.ə.s); *"Namaz dinin dirəyidir"* (Beyhəqi) buyuraraq namazın dinimizdə çox əhəmiyyətli bir ibadət olduğunu bildirmişdir.

Namazın faydaları

Namaz Allah-Təalanın bizə ehsan etdiyi ən böyük lütfüdür. İnsanın Allaha olan məhəbbət və bağlılığını artırır. Qəlbə qüvvət, ruha da fərəh verir. Müsəlmanlar arasında məhəbbəti artırır. İnsanı tənbəllikdən uzaqlaşdırıb, gümrahlıq qazandırır.

Qürur və kibiri yox edər, əsası da insanı günah və pis işlərdən, çirkinliklərdən uzaqlaşdırar. Və o insanın axirətdə şəfaətçisidir.



Namazın qılınma qaydası

İftitah (başlama) təkbiri

Namaza təkbirlə başlayaraq; Allahdan başqa hər şeyi arxamıza ataraq Onun hüzurunda dururuq.

اَللّٰهُ اَكْبَرُ

Allahu Əkbər

"Allah ən böyükdür"



İki əlin barmaqları qulaq uclarına qədər qaldırılır və **"Allahu Əkbər"** deyilir

Barmaq araları sərbəst, ovuc içi qarşıya baxacaq şəkildə olmalıdır

Ayaqlar ən az dörd barmaq genişliyində açıq tutulur

Gözlər səcdə yerinə baxmalıdır



İki əlin barmaqları çiyin səviyyəsinə qədər qaldırılır və **"Allahu Əkbər"** deyilir

Barmaq araları sərbəst, ovuc içi qarşıya baxacaq şəkildə olmalıdır

Ayaqlar dörd barmaq genişliyində açıq tutulur

Gözlər səcdə yerinə baxmalıdır

Qiyam-Qiraət

(ayaqda durma - oxuma)

Allahın hüzurunda əllərimizi bağlayaraq Ona itaət etdiyimizi göstərir, dua və surələr oxumaqla Rəbbimizlə danışmış sayılırıq.



- Əvvəlcə Sübhanəkə duası, sonra Əuzu-bəsmələ çəkilərək Fatihə surəsi, ardından da qısa surələrdən biri oxunur
- Sağ əl sol əlin üstündə sağ əlin baş barmağı və kiçik barmağı ilə sol əlin biləyi tutulur və əllər göbək altında bağlanır
- Ayaqlar dörd barmaq genişliyində açıq tutulur
- Gözlər səcdə yerinə baxır



- Əvvəlcə Sübhanəkə duası, sonra Əuzu-bəsmələ çəkilərək Fatihə surəsi, ardından da qısa surələrdən biri oxunur
- Əllər sinə üzərində, sağ əl sol əlin üstündə tutulur
- Ayaqlar dörd barmaq genişliyində açıq tutulur
- Gözlər səcdə yerinə baxır

Rüku

Rükuda; Allahın böyüklüyü qarşısında əyilərək acizliyimizi göstəririk

سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ

Subhanə rabbiyəl-azim
"Əzəmətli olan Rəbbim
hər cür nöqsanlıqdan uzaqdır"





Rükudan qalxış

سَمِعَ اللّٰهُ لِمَنْ حَمِدَهُ
Səmiallaahu limən hamidəh
“Allah Ona həmd edənləri eşidir”

رَبَّنَا وَ لَكَ الْحَمْدُ
Rabbənə və ləkəl-həmd
“Rəbbimiz! Həmd ancaq Sənə məxsusdur.”



“Səmiallaahu limən hamidəh”deyərək rükudan qalxılır

Belimiz tam düzəlib hərəkətsiz olunca **“Rabbənə və ləkəl-həmd”** deyilir

Gözlər səcdə yerinə baxır



“Səmiallaahu limən hamidəh”deyərək rükudan qalxılır

Belimiz tam düzəlib hərəkətsiz olunca **“Rabbənə və ləkəl-həmd”** deyilir

Gözlər səcdə yerinə baxır

Səcdə

سُبْحَانَ رَبِّيَ الْأَعْلَى

Subhanə rabbiyəl-əalə
“A`lə (ən uca) olan Rəbbim hər cür nöqsanlıqdan uzaqdır”

Ayaq ucları yerdən qaldırılmadan, topuqlar birləşdirilir

“Allahu Əkbər” deyərək dizlər, əllər, alın və burun sıra ilə yerə qoyulur və üç dəfə **“Subhanə rabbiyəl-əalə”** deyilir



Qollar gövdədən bir az ayrı, dirsəklər yerə dəyməyəcək şəkildə durur

Gözlər yumulmaz

Əllər başın iki yanında, barmaqlar birləşik olur



Səcdə arası

“Allahu Əkbər” deyib səcdədən qalxaraq “Rabbiğfirli” deyəcək qədər oturulur



İkinci səcdə

“Allahu Əkbər” deyərək ikinci dəfə səcdəyə gedilir

Ayaq ucları yerdən qaldırılmadan, topuqlar birləşdirilir

“Allahu Əkbər” deyərək dizlər, əllər, alın və burun sıra ilə yerə qoyulur və üç dəfə **“Subhanə rabbiyəl-əalə”** deyilir



Qollar bədənə yapışıq, dirsəklər yerə dəyəcək şəkildə olur

Gözlər yumulmaz

Oturuş



"Allahu Əkbər" deyərək səcdədən qalxılır

Əttəhiyyətu duası oxunur. Əgər son oturuşdursa, Salli-bərik və Rabbənə duaları da oxunur

Əllər dizlərin üstünə qoyulur

Gözlər dizlərə baxır

Sol ayaq yan yatırılıb üzərində oturulur. Sağ ayaq isə dik tutulur, barmaqlar üzüqibləyə baxır.



"Allahu Əkbər" deyərək səcdədən qalxılır

Hər iki ayaq da sağ tərəfə yatırılıb oturulur.

Əttəhiyyətu duası oxunur. Əgər son oturuşdursa, Salli-bərik və Rabbənə duaları da oxunur

Əllər dizlərin üstünə qoyulur

Gözlər dizlərə baxır

Salam

اَلسَّلَامُ عَلَيْكُمْ وَ رَحْمَةُ اللّٰهِ

Əssəl̲amu aleykum və rahmətull̲ah
“Allahın salamı və rəhməti üzərinizə olsun”



Rabbənə dualarını oxunduqdan sonra başı sağ çiyninə doğru çevirərək **“Əssəl̲amu aleykum və rahmətull̲ah”** deyilir

Daha sonra eyni qaydada başı sol çiyinə doğru çevirib salam verərək namaz tamamlanır

Rabbənə dualarını oxunduqdan sonra başı sağ çiyninə doğru çevirərək **“Əssəl̲amu aleykum və rahmətull̲ah”** deyilir.



Daha sonra eyni qaydada başı sol çiyinə doğru çevirib salam verərək namaz tamamlanır

Beş vaxt namazın qılınış qaydası

Sübh namazı

Sübh namazı 2-si sünnə, 2-si fərz olmaqla 4 rükətdir.

İki rükət sünnə

Niyyət etdim Allah rizası üçün sübh namazının sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət
İftitah təkbiri	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə
-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	Salam

İki rükət fərz*

Niyyət etdim Allah rizası üçün sübh namazının fərzini qılmağa.

1-ci rükət	2-ci rükət
İftitah təkbiri	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə
-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	Salam

** Fərz namazlarda kişilər niyyətdən əvvəl iqamə oxuyurlar. (bax; s. 69)*

"Səhər namazını qılan kəs Allahın himayəsindədir. Diqqət et, ey Adəmoğlu! Allah öz himayəsində olan bir mövzuda səni hesaba çəkməsin".

(Müslim, Məsacid 261-262)

"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!"

(Bəqərə surəsi, 43)

Günorta namazı

Günorta namazı on rükətdir. Dördü ilk sünnə, dördü fərz, ikisi də son sünnədir.

Dörd rükət ilk sünnə

Niyyət etdim Allah rizası üçün günorta namazının ilk sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

Dörd rükət fərz

Niyyət etdim Allah rizası üçün günorta namazının fərzini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi	- Bəsmələ Fatihə surəsi
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

İki rükət son sünnə

Niyyət etdim Allah rizası üçün günorta namazının son sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət
İftitah təkbiri	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə
-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	Salam

İkindi namazı

İkindi namazı səkkiz rükətdir. Dördü sünnə, dördü fərzdir.

Dörd rükət sünnə

Niyyət etdim Allah rizası üçün ikindi namazının sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat, Salli, Bərik)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

Dörd rükət fərz

Niyyət etdim Allah rizası üçün ikindi namazının fərzini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi	- Bəsmələ Fatihə surəsi
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

Axşam namazı

Axşam namazı beş rükətdir.
Üçü fərz, ikisi sünnədir. Fərz birinci qılınır.

Üç rükət fərz

Niyyət etdim Allah rizası üçün axşam namazının fərzini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət
İftitah təkbiri	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi
Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	Salam

İki rükət sünnə

Niyyət etdim Allah rizası üçün axşam namazının sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət
İftitah təkbiri	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə
-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	Salam

Yatsı namazı

Yatsı namazı on üç rükətdir. Dördü sünnə, dördü fərz, ikisi son sünnə, üçü də vacib olan *Vitrdir*.

Dörd rükət ilk sünnə

Niyyət etdim Allah rizası üçün yatsı namazının ilk sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat, Salli, Bərik)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

Dörd rükət fərz

Niyyət etdim Allah rizası üçün yatsı namazının fərzini qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət	4-cü rükət
İftitah təkbiri	-	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi	- Bəsmələ Fatihə surəsi
Rüku	Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	-	Salam

İki rükət son sünnə

Niyyət etdim Allah rizası üçün yatsı namazının son sünnəsini qılmağa.

1-ci rükət	2-ci rükət
İftitah təkbiri	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə
-	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	Salam

Vitr namazı (üç rükət)

Niyyət etdim Allah rizası üçün vitr namazını qılmağa.

1-ci rükət	2-ci rükət	3-cü rükət
İftitah təkbiri	-	-
Sübhanəkə Əuzu-bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə	- Bəsmələ Fatihə surəsi və bir surə
-	-	Təkbir
-	-	Qunud duaları
Rüku	Rüku	Rüku
Rükudan qalxış	Rükudan qalxış	Rükudan qalxış
İki səcdə	İki səcdə	İki səcdə
-	ilk oturuş *(Əttəhiyyat)*	Son oturuş *(Əttəhiyyat, Salli, Bərik, Rabbənə duaları)*
-	-	Salam

*Vitr namazının hökmü vacibdir.

Cümə namazı

Cümə namazı da həddi-buluğ yaşında hər kəsə fərz olan bir namazdır. Vaxt namazlarından fərqli olaraq həftədə bir dəfə, yalnız cümə günü (məsciddə, günorta namazının vaxtında camaatla) qılınan bir namazdır. 4 rükət ilk sünnə, 2 rükət fərz, 4 rükət son olmaqla cəmi 10 rükətli bir namazıdır.

Qılınma qaydası:

Günorta namazı saatında azan oxunduqdan sonra əvvəl 4 rükət ilk sünnə qılınır, sonra təkrar (cümə namazına xas olan) iç azan deyilən ikinci azan oxunur və ardından imam minbərə çıxaraq xütbə oxuyur. Daha sonra iqamə oxunur və imam mehraba keçərək 2 rükət cümə namazının fərzini qıldırır. Ardından da son 4 rükət sünnə qılınaraq cümə namazı tamamlanmış olur.

Cümə namazı günorta namazının da əvəzində qılınmış sayılır.

Bayram namazı

Dinimiz İslamda iki bayram namazı var; Ramazan və Qurban bayramı namazları. Bayram namazları vacib hökmündədir. 2 rükətdir. Digər namazlardan təkbir sayının çoxluğu ilə fərqlənir.

Qılınma qaydası:

Digər namazlardakı kimi azan və iqamə oxunmur. Qılınışı cümə namazına bənzəyir. Lakin cümə namazından fərqli olaraq əvvəlcə namaz qılınır, sonra xütbə oxunur. Bayram namazlarında birinci rükətdə sübhanəkə duasından sonra əlavə 3 dəfə təkbir gətirilir, sonra fatihə və zəm surə oxunur. İkinci rükətdə isə zəm surədən sonra rükuya getmədən əvvəl 4 dəfə təkbir gətirilərək sonra rükuya gedilir. Namaz qurtardıqdan sonra imam minbərə çıxaraq xütbə oxuyur. Xütbə oxunub imam minbərdən endikdən sonra bayram namazı tamamlanmış olur.

Təraveh namazı

Təraveh namazı Ramazan ayında qılınan və sünnə olan bir namazdır. Təraveh namazı orucun deyil, Ramazan ayının sünnəsidir. Ona görə də hər hansı bir səbəbdən oruc tuta bilməyənlər də təraveh namazını qıla bilərlər. Təraveh namazının vaxtı gecə (işa) namazının qılınmasından sonra başlayır və fəcrin çıxması ilə sona çatır. Təraveh namazı gecə (işa) namazı (4 rükət ilk sünnə, 4 rükət fərz, 2 rükət son sünnə) qılındıqdan sonra iyirmi rükət qılınır. Vitir namazı təraveh namazından sonra qılınır.

Qılınma qaydası:

Təraveh namazı dörd rükətdə və ya iki rükətdə bir salam verilərək qılınır. İki rükətdə salam verilərək qılındıqda sübh namazının sünnəsi kimi, dörd rükətdə bir salam verilərək qılındıqda isə ikindi namazının sünnəsi kimi qılınır. Yəni dörd rükətdə bir salam verilərək qılındıqda, birinci oturmada Əttəhiyyətu duasından sonra Salli və Bərik duaları da oxunaraq üçüncü rükətə qalxılır. Üçüncü rükətin başında da Sübhanəkə duası oxunur. Hər salamdan sonra azacıq istirahət edilir və həmin vaxt dualar edilir.

Təraveh namazı həm təkbaşına, həm də camaatla qılına bilər. Camaatla qılındıqda imam qiraəti bərkdən oxuyur, camaat isə sakit dayanıb ona qulaq asır.

اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ. لَا اِلٰهَ اِلاَّ اللّٰهُ وَاللّٰهُ اَكْبَرُ .اَللّٰهُ اَكْبَرُ وَلِلّٰهِ الْحَمْدُ.

Allah ən böyükdür, Allah ən böyükdür. Allahdan başqa heç bir məbud yoxdur. Allah ən böyükdür, Allah ən böyükdür. Həmd Allaha məxsusdur.

Namazdan sonra oxunan təsbihat - zikrlər

Namaz qılınıb qurtardıqdan sonra edilən zikr və dualar bu ardıcıllıqdadır:

1) Salam verdikdən sonra oxunur *(ancaq fərz namazlardan sonra oxunur)*

أَللّٰهُمَّ اَنْتَ السَّلامُ وَ مِنْكَ السَّلامُ

تَبارَكْتَ يَاذَا الْجَلالِ وَالْإِكْرَامْ

Oxunuşu: Allahummə əntəs-səlamu və minkəs-səlam. Təbəraktə yə zəl-cəlali vəl-ikram.

Mənası: Allahım! Sən nöqsanlardan uzaqsan, hər cür əmin-amanlıq Səndəndir. Ey əzəmət və kərəm sahibi Allahım! Sənin şanın ucadır.

2) Bütün namazlar qurtardıqdan sonra oxunur *(fərz və sünnələr tamamilə qurtardıqdan sonra)*

سُبْحانَ اللّٰهِ وَ الْحَمْدُ لِلّٰهِ وَ لا اِلٰهَ اِلاَّ اللّٰهُ

وَاللّٰهُ اَكْبَرُ وَلا حَوْلَ وَلا قُوَّةَ اِلّا بِاللّٰهِ

الْعَلِيِّ الْعَظِيمِ

Oxunuşu: Subhanəllahi vəlhamdu lillahi və lə ilahə illəllahu vəllahu əkbər. Və lə havlə və lə quvvətə illə billahil `aliyyil `azim.

Mənası: Allah hər cür nöqsandan uzaqdır. Həmd Onadır. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür. Həqiqi güc-qüvvət sahibi yalnız uca və böyük olan Allahdır!

3) Ardından Ayəti-Kürsi oxunur ondan sonra hər zikrdən 33 dəfə oxunur

سُبْحَانَ اللّٰهِ — Subhanəllah

Allah hər cür nöqsandan uzaqdır,

اَلْحَمْدُ لِلّٰهِ — Əlhamdulillah

Hər cür həmd Allaha məxsusdur

أَللّٰهُ أَكْبَرُ — Allahu əkbər

Allah ən böyükdür

4) Zikrlərdən sonra oxunacaq

لا إِلٰهَ اِلَّا اللّٰهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلٰى كُلِّ شَيْءٍ قَدِيرٌ

Oxunuşu: Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləh. Ləhul-mulku və ləhul-hamdu və huvə `alə kulli şəy-in qadir.

Mənası: Allahdan başqa ilah yoxdur. O, təkdir, şəriki yoxdur. Mülk Ona aiddir. Hər cür həmd Onadır. O, hər şeyə qadirdir.

سُبْحَانَ رَبِّيَ الْعَلِيِّ الْاَعْلَى الْوَهَّابُ

Oxunuşu: Subhanə rabbiyəl-`aliyyil əalel-vəhhəb.

Mənası: Ehsanı bol olan uca Rəbbim hər cür nöqsandan uzaqdır.

5) Dua

Zikrlər və təsbihat sırası ilə bu şəkildə qurtardıqdan sonra əl açaraq dua edilir. *(Duaya Allaha həmd, Peyğəmbərimizə salavatla başlayaraq ehtiyacına görə istədiyi şəkildə dua edilər.)*

Namazda oxunan dualar

Subhanəkə duası

سُبْحَانَكَ اللّٰهُمَّ وَبِحَمْدِكَ ❋ وَتَبَارَكَ اسْمُكَ ❋ وَتَعَالٰى جَدُّكَ ❋ (وَجَلَّ ثَنَآؤُكَ) ❋ وَلَآ إِلٰهَ غَيْرُكَ

Oxunuşu: Subhanəkəl-lahummə və bi hamdik və təbarakəsmuk və tə`alə cədduk (və cəllə sənauk) və lə ilahə ğayruk.

Qeyd: *mötərizə içindəki "Və cəllə sənauk" cümləsi yalnız cənazə namazında oxunur.*

Mənası: Allahım! Sənə həmd edərək Səni hər cür nöqsandan uzaq tuturam. Sənin adın mübarəkdir. Varlığın hər şeydən üstündür. Sən tərifə ən layiq olansan. Səndən başqa ilah yoxdur.

Əttəhiyyat Duası

أَلتَّحِيَّاتُ لِلّٰهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ ❋ أَلسَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللّٰهِ وَبَرَكَاتُهُ ❋ أَلسَّلَامُ عَلَيْنَا وَعَلٰى عِبَادِ اللّٰهِ الصَّالِحِينَ ❋ أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ

Oxunuşu: Əttəhiyyətu lillahi vəssaləvatu vəttayyibat. Əssəlamu aleykə əyuhən-Nəbiyyu və rahmətullahi vəbərakətuh. Əssəlamu `aleynə və `alə `ibədillahis-salihin. Əşhədu ənlə ilahə illəllah və Əşhədu ənnə Muhammədən `abduhu və rasuluh.

Mənası: Salamlar, dualar və bütün gözəlliklər Allaha məxsusdur. Ey Peyğəmbər! Allahın salamı, rəhmət və bərəkəti Sənin üzərinə olsun. Salam bizim və Allahın saleh qullarının üzərinə olsun. Mən şahidlik edirəm ki, Allahdan başqa (ibadətə layiq heç bir) ilah yoxdur. Və mən yenə şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın qulu və rəsuludur.

Allahummə Salli Duası

أَللّٰهُمَّ صَلِّ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ ❋ كَمَا صَلَّيْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ ❋ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Oxunuşu: Allahummə salli `alə Muhammədin və `alə əli Muhammməd. Kəmə salləytə `alə İbrahimə və `alə əli İbrahim. İnnəkə hamidun məcid.

Mənası: Allahım! Muahmmədə (s.ə.s) və Muhammədin (s.ə.s) ailəsinə rəhmət eylə. İbrahimə (ə.s) və İbrahimin ailəsinə rəhmət etdiyin kimi. Şübhəsiz tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

Allahummə Barik Duası

أَللّٰهُمَّ بَارِكْ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ ❋ كَمَا بَارَكْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ ❋ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Oxunuşu: Allahummə bərik `alə Muhammədin və `alə əli Muhammməd. Kəmə bəraktə `alə İbrahimə və `alə əli İbrahim. İnnəkə hamidun məcid.

Mənası: Allahım! Muahmmədə (s.ə.s) və Muhammədin (s.ə.s) ailəsinə bərəkət ver. İbrahimə (ə.s) və İbrahimin ailəsinə bərəkət verdiiyn kimi. Şübhəsiz tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.

Rabbənə Duaları

رَبَّنَآ اٰتِنَا فِی الدُّنْیَا حَسَنَةً وَفِی الْاٰخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ

Oxunuşu: Rabbənə ətinə fiddunyə hasənətən və fil axirati hasənətən və qinə azəbən-nər.

Mənası: Rəbbimiz! Bizə dünyada da, axirətdə də gözəl nemətlər ver və bizi cəhənnəm əzabından qoru!

رَبَّنَا اغْفِرْ لِی وَلِوَالِدَیَّ وَلِلْمُؤْمِنِینَ یَوْمَ یَقُومُ الْحِسَابُ بِرَحْمَتِكَ یَآ اَرْحَمَ الرَّاحِمِینَ

Oxunuşu: Rabbənəğfirli vəli-vəlidəyyə vəlil mu`minînə yəvmə yəqumul hisəb.

Birahmətikə yə ərhəmərrahimin.

Mənası: Rəbbimiz! Məni, valideynlərimi və bütün möminləri hesab günündə (qiyamətdə) bağışla!

Ey mərhəmətli olanların ən mərhəmətlisi!

Qunut Duaları

أَللّٰهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَ نَسْتَغْفِرُكَ وَ نَسْتَهْدِيكَ ❋ وَ نُؤْمِنُ بِكَ وَ نَتُوبُ اِلَيْكَ ❋ وَ نَتَوَكَّلُ عَلَيْكَ ❋ وَنُثْنِی عَلَيْكَ الْخَيْرَ كُلَّهُ نَشْكُرُكَ وَ لَا نَكْفُرُكَ ❋ وَ نَخْلَعُ وَ نَتْرُكُ مَنْ يَفْجُرُكَ

Oxunuşu: Allahummə innə nəstə`inukə və nəstəğfirukə və nəstəhdik. Və nu`minu bikə və nətubu ileyk. Və nətəvəkkəlu `aleyk. Və nusni `aleykəlxayra kulləhu nəşkurukə və lə nəkfurukə və nəxlə`u və nətruku mən yəfcuruk.

Mənası: Allahım! Biz Səndən kömək istəyir, günahlarımızı bağışlamanı, bizi doğru yola yönəltməni diləyirik. Sənə iman edir, tövbə edib Sənə dönürük və işlərimizdə Sənə arxalanıb, Sənə güvənirik. Səni tərifləyirik. Bütün xeyirlərin Səndən olduğunu söyləyirik. Sənə şükr edirik və nankorluq etmirik. Sənə qarşı nankorluq edənlərdən ayrılıb onlarla əlaqəmizi kəsirik.

أَللّٰهُمَّ اِيَّاكَ نَعْبُدُ وَ لَكَ نُصَلِّی وَ نَسْجُدُ ❋ وَ اِلَيْكَ نَسْعٰی وَ نَحْفِدُ ❋ نَرْجُو رَحْمَتَكَ وَ نَخْشٰی عَذَابَكَ ❋ اِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحِقٌ

Oxunuşu: Allahummə iyyəkə nəabudu və ləkə nusalli və nəscud. Və ileykə nəs`ə və nəhfid. Nərcu rahmətəkə və nəxşə `azəbək. İnnə `azəbəkə bil kuffəri mul-hiqq.

Mənası: Allahım! Yalnız Sənə ibadət və qulluq edir və yalnız Sənin üçün namaz qılırıq. Ancaq Sənə səcdə edirik. Yalnız Sənə yönəlir, Sənə sevgi ilə ibadət edirik. Sənin rəhmətini diləyib, əzabından qorxuruq. Çünki Sənin əzabın kafirləri tutar.



İftitah duası

وَجَّهْتُ وجْهِيَ لِلَّذي فَطَرَ السَّمٰوَاتِ وَالْأَرْضَ حَنِيفًا مُسْلِمًا وَمَا اَنَا مِنَ الْمُشْرِكِينَ. إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّٰهِ رَبِّ الْعَالَمِينَ. لَا شَرِيكَ لَهُ. وَبِذٰلِكَ أُمِرْتُ وَأَنَا مِنَ الْمُسْلِمِينَ

Oxunuşu: Vəccəhtu vəchiyə lilləzi fətaras-səməvəti vəl ərda hanifən muslimən və mə ənə minəl muşrikin. İnnə saləti və nusuki və məhyəyə və məməti lilləhi rabbil `aləmin. Lə şərikə ləhu və bizəlikə umirtu və ənə minəl-muslimin.

Mənası: Şübhəsiz ki, mən üzümü yerləri və göyləri yaratmış olan Uca Allaha (c.c) çevirdim. Mən müşrik qullardan deyiləm. Şübhəsiz ki, mənim namazım, ibadətlərim, həyatım və ölümüm heç bir ortağı olmayan bütün aləmlərin yaradıcısı olan Allah (c.c.) üçündür. Sənin ortağın/şərikin yoxdur. Mən ancaq bununla əmr olundum və mən müsəlman olanlardanam.

Təhiyyat Duası

أَلتَّحِيَّاتُ الْمُبَارَكَاتُ الصَّلَوَاتُ الطَّيِّبَاتُ لِلّٰهِ، اَلسَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللّٰهِ وَبَرَكَاتُهُ، اَلسَّلَامُ عَلَيْنَا وَعَلٰى عِبَادِ اللّٰهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَآ إِلٰهَ إِلَّا اللّٰهُ، وَ أَشْهَدُ أَنَّ سَيِّدَنَا مُحَمَّدًا رَسُولُ اللّٰهِ

Oxunuşu: Əttəhiyyətul-mubərakətus-saləvətut-tayyibətu lilləhi, əssələmu `aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuh. Əssələmu `aləynə və `alə `ibədilləhis-salihin, əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə səyyidənə Muhammədən rasulullah.

Mənası: Təhiyyalar (salamlar, təriflər), bərəkətlər, salavatlar və gözəl şeylər Allahındır. Ey Peyğəmbər! Allahın salamı, rəhməti və bərəkəti Sənin üzərinə olsun. Bizə və saleh qulların üzərinə də salam olsun. Mən şahidlik edirəm ki, Allahdan başqa ilah yoxdur və yenə şahidlik edirəm ki, Muhammməd (s.ə.s) Allahın rəsuludur.

Salli - Bərik Duaları

أَللّٰهُمَّ صَلِّ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ ❋ كَمَا صَلَّيْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ ❋ وَ بَارِكْ عَلٰى مُحَمَّدٍ وَعَلٰى اٰلِ مُحَمَّدٍ ❋ كَمَا بَارَكْتَ عَلٰى إِبْرَاهِيمَ وَعَلٰى اٰلِ إِبْرَاهِيمَ فِي الْعَالَمِينَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ

Oxunuşu: Allahummə salli `alə Muhammədin və `alə əli Muhammməd. Kəmə salleytə `alə İbrahimə və `alə əli İbrahim. Və bərik `alə Muhammədin və `alə əli Muhammməd. Kəmə bəraktə `alə İbrahimə və `alə əli İbrahimə fil-`aləmin. İnnəkə hamidun məcid.

Mənası: Allahım! İbrahimə (ə.s) və İbrahimin ailəsinə rəhmət etdiyin kimi Muhammədə (s.ə.s) və ailəsinə rəhmət elə. İbrahimə (ə.s) və İbrahimin ailəsinə bərəkət verdiyin kimi Muhammədə (s.ə.s) və ailəsinə bərəkət ver. Şübhəsiz, tərifəlayiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən.



Qunut Duaları

أَللّٰهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ ❋ وَعَافِنِي فِيمَنْ عَافَيْتَ ❋ وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ ❋ وَبَارِكْ لِي فِيمَا اَعْطَيْتَ❋ وَقِنِي بِرَحْمَتِكَ شَرَّ مَا قَضَيْتَ ❋ فَإِنَّكَ تَقْضِي وَلَا يُقْضٰى عَلَيْكَ ❋ إِنَّهُ لَا يَذِلُّ مَنْ وَالَيْتَ وَلَا يَعِزُّ مَنْ عَادَيْتَ ❋ تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ ❋ فَلَكَ الْحَمْدُ عَلٰى مَاقَضَيْتَ ❋ وَلَكَ الشُّكْرُ عَلٰى مَاأَعْطَيْتَ ❋ اَسْتَغْفِرُكَ اللّٰهُمَّ وَاَتُوبُ اِلَيْكَ

Oxunuşu: Allahumməhdini fimən hədeytə. Və `afini fimən `afeytə. Və təvəlləni fimən təvəlleytə. Və bərik li fimə əataytə. Və qini birahmətikə şərra mə qadaytə. Fə-innəkə təqdi və lə yuqda `aleykə. İnnəhu lə yəzillu mən vəleytə və lə yə`izzu mən `adeytə. Təbəraktə rabbənə və tə`aləytə. Fələkəl-hamdu `alə mə qadaytə. Vələkəş-şukru `alə mə əataytə. Əstəğfirukəl-lahummə və ətubu ileykə.

Mənası: Allahım! Məni hidayət verdiklərindən et. Məni şəfa verdiklərindən et. Məni himayənə aldıqlarından et. Mənə verdiyini mübarək eylə. Təqdir etdiyin şeyin şərindən məni qoru. Sən haqla hökm edərsən, heç kəs Sənə hökm edə bilməz. Sənin dost olaraq qəbul etdiyin zəlil olmaz. Sənin düşmən olduğun əziz olmaz. Hökm etdiklərinə görə Sənə həmd olsun. Bəxş etdiklərinə görə Sənə şükürlər olsun. Səndən məni bağışlamanı diləyir və Sənə tövbə edirəm



Namazda oxunan surələr

Fatihə Surəsi

أَعُوذُ بِاللّٰهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ ﴿١﴾

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعَالَمِينَ ﴿٢﴾ اَلرَّحْمٰنِ الرَّحِيمِ ﴿٣﴾

مَالِكِ يَوْمِ الدِّينِ ﴿٤﴾ اِيَّاكَ نَعْبُدُ وَاِيَّاكَ نَسْتَعِينُ ﴿٥﴾

اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ ﴿٦﴾ صِرَاطَ الَّذِينَ اَنْعَمْتَ

عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ ﴿٧﴾

Oxunuşu: Əuzubillə**h**i minəş-şeyta**n**ir-raci**m**.

1.Bismillə**h**ir-Rahma**n**ir-Rahi**m**. 2. Əl-hamdu lillə**h**i rabbil-`ale**m**in. 3. Ərrahma**n**ir-rahi**m**. 4. Məliki yəvmiddi**n**. 5. İyyə**k**ə nəabudu və iyyə**k**ə nəstə`i**n**. 6. İhdinəs-sıra**t**-tal-müstəqi**m**. 7. Sıra**t**al-ləzi**n**ə ən`amtə aley-him ğayril-məğdu**b**i `aleyhim vələd-da**l**li**n**.

Mənası: 1. Rəhman və Rəhim olan Allahın adı ilə! 2. Həmd olsun aləmlərin *(insan, cin və mələklər aləminin)* **Rəbbi olan Allaha. 3. Rəhman və Rəhim olana. 4. Din** *(axirət)* **gününün sahibinə! 5. Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik. 6. Bizi doğru yola yönəlt! 7. Nemət bəxş etdiyin kəslərin yoluna** *(yönəlt)***, qəzəbə düçar olmuşların və azmışların yoluna yox!**

Fil surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِاَصْحَابِ الْفِيلِ ﴿١﴾ اَلَمْ

يَجْعَلْ كَيْدَهُمْ فِي تَضْلِيلٍ ﴿٢﴾ وَاَرْسَلَ عَلَيْهِمْ طَيْراً

اَبَابِيلَ ﴿٣﴾ تَرْمِيهِمْ بِحِجَارَةٍ مِنْ سِجِّيلٍ ﴿٤﴾ فَجَعَلَهُمْ

كَعَصْفٍ مَأْكُولٍ ﴿٥﴾

Oxunuşu: Bismillə**h**ir-Rahma**n**ir-Rahi**m**

1. Ələm tərə kəyfə fə`ələ rabbukə biəsha**b**il-fi**l**. 2. Ələm yəc`al kəydəhum fi tadli**l**. 3. Və ərsələ aleyhim tayran əba**b**i**l**. 4. Tərmi**h**im bihica**r**atin min sicci**l**. 5. Fəcə`ələhum kə`asfin mə`ku**l**.

Mənası: 1. Rəbbinin fil sahiblərinə nə etdiyini görmədinmi?! *(Bu ayədə Kəbəni yıxmaq məqsədilə Məkkəyə hücum edən Əbrəhə və onun fillərdən ibarət olan ordusunun məhv edilməsindən bəhs edilir.)* **2. Allah onların hiyləsini boşa çıxartmadımı?! 3. Onların üstünə qatar-qatar quşlar göndərdi. 4. Quşlar onlara bişmiş gildən ibarət sərt daşlar atırdı. 5. Beləcə, Allah onları yeyilmiş əkin yarpağı kimi etdi.**

Qureyş Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

لِاِيلَافِ قُرَيْشٍ ﴿١﴾ اِيلَافِهِمْ رِحْلَةَ الشِّتَاءِ وَالصَّيْفِ ﴿٢﴾

فَلْيَعْبُدُوا رَبَّ هٰذَا الْبَيْتِ ﴿٣﴾ اَلَّذِي اَطْعَمَهُمْ مِنْ

جُوعٍ وَاٰمَنَهُمْ مِنْ خَوْفٍ ﴿٤﴾

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rahi**m**

1. Li-i**l**əfi quray**ş**. 2. İ**l**əfihim rihlətəş-şitə**i** vəs-say**f**. 3. Fəl-yəabudu rabbə hə**z**əl-bə**y**t. 4. Əlləzi ət`əməhum min cu`in və ə**m**ənəhum min xa**v**f.

Mənası: 1. Qüreyşə asanlaşdırıldığı üçün, *(Qüreyş qəbiləsi Kəbənin idarəçiliyinə və təmizliyinə nəzarət etdikləri üçün bütün ərəb qəbilələri tərəfindən böyük hörmət görürdülər. Buna görə də onlar rahat, təhlükəsiz və sərbəst bir şəkildə Taifə, Yəmənə və Şama ticarət səfərləri edə bilirdilər. Burada Allah-Təala, onlara verdiyi bu nemətı xatırlatmaqdadır.)***. 2. Onların qış və yay səyahətləri asanlaşdırıldığı üçün. 3. Onlar bu evin**

Rəbbinə ibadət etsinlər! 4. O Rəbb ki, onlara aclıqdan sonra yemək, qorxudan sonra əmin-amanlıq verdi.

Maun Surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَرَاَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ ۝١ فَذٰلِكَ الَّذِي يَدُعُّ
الْيَتِيمَ ۝٢ وَلَا يَحُضُّ عَلٰى طَعَامِ الْمِسْكِينِ ۝٣ فَوَيْلٌ
لِلْمُصَلِّينَ ۝٤ اَلَّذِينَ هُمْ عَنْ صَلَاتِهِمْ سَاهُونَ ۝٥
اَلَّذِينَ هُمْ يُرَاۤؤُنَ ۝٦ وَيَمْنَعُونَ الْمَاعُونَ ۝٧

Oxunuşu: Bismillahir-Rahmanir-Rahim
1. Əra əytəlləzi yukəzzibu-biddin. 2. Fəzəlikəl-ləzi yədu`ul-yətim. 3. Və lə yəhuddu `alə ta`amil-miskin. 4. Fəvəylul-lil musallin. 5. Əlləzinə hum `an salətihim səhun. 6. Əlləzinə-hum yurəun. 7. Və yəmnə`unəl mə`un.

Mənası: 1. Haqq-hesab gününü yalan hesab edəni gördünmü?! 2. O elə kimsədir ki, yetimi qovar. 3. Və heç kimi yoxsulu yedirtməyə təşviq etməz. 4. Vay o namaz qılanların halına ki, 5. Onlar namazlarına səhlənkar yanaşırlar. 6. Onlar riyakarlıq edirlər. 7. Az bir şey verməkdən belə boyun qaçırırlar.

Kövsər surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اِنَّآ اَعْطَيْنَاكَ الْكَوْثَرَ ۝١ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ ۝٢
اِنَّ شَانِئَكَ هُوَ الْاَبْتَرُ ۝٣

Oxunuşu: Bismillahir-Rahmanir-Rahim
1. İnnə əataynəkəl-kəvsər. 2. Fəsalli lirabbikə vənhar. 3. İnnə şəniəkə huvəl əbtər.

Mənası: 1. *(Ey Peyğəmbər!)* **Biz sənə Kövsəri verdik.** *("Kövsər" kəlməsinə "cənnətdəki kövsər hovuzu, bol nemətlər, Quran, elm və şərəf" kimi mənalar verilmişdir.)* **2. Ona görə də Rəbbin üçün namaz qıl və qurban kəs! 3. Şübhəsiz ki, sənə düşmənçilik edənin özü sonsuzdur.**

Kafirun surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ يَاۤ اَيُّهَا الْكَافِرُونَ ۝١ لَاۤ اَعْبُدُ مَا تَعْبُدُونَ ۝٢
وَلَاۤ اَنْتُمْ عَابِدُونَ مَاۤ اَعْبُدُ ۝٣ وَلَاۤ اَنَا عَابِدٌ مَا
عَبَدْتُّمْ ۝٤ وَلَاۤ اَنْتُمْ عَابِدُونَ مَاۤ اَعْبُدُ ۝٥ لَكُمْ
دِينُكُمْ وَلِيَ دِينِ ۝٦

Oxunuşu: Bismillahir-Rahmanir-Rahim
1. Qul yə əyyuhəl kəfirun. 2. Lə əabudu mə təabudun. 3. Və lə əntum `abidunə mə əabud. 4. Və lə ənə `abidum-mə `abədtum. 5. Və lə əntum `abidunə mə əabud. 6. Ləkum dinukum vəliyədin.

Mənası: 1. De: "Ey kafirlər! 2. Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm! 3. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. 4. Mən də sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! 5. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. 6. Sizin dininiz sizə, mənim dinim də mənə!

Nəsr surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اِذَا جَاۤءَ نَصْرُ اللّٰهِ وَالْفَتْحُ ۝١ وَرَاَيْتَ النَّاسَ
يَدْخُلُونَ فِي دِينِ اللّٰهِ اَفْوَاجاً ۝٢ فَسَبِّحْ بِحَمْدِ
رَبِّكَ وَاسْتَغْفِرْهُ اِنَّهُ كَانَ تَوَّاباً ۝٣

Oxunuşu: Bismillahir-Rahmanir-Rahim
1. İzə cə-ə nəsrullahi vəl fəth. 2. Vəraəytənnəsə yədxulunə fi dinillahi əfvəcə. 3. Fəsəbbih bihamdi rabbikə vəstəğfirh. İnnəhu kənə təvvəbə.

Mənası: 1. Allahın köməyi *(zəfəri)* **gəldiyi zaman, 2. Və insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördüyün zaman, 3. Rəbbinə həmd edərək Onu təsbeh et və Ondan məğfirət dilə! Şübhəsiz ki, O, tövbələri qəbul edəndir.**

Təbbət surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

تَبَّتْ يَدَآ اَبِي لَهَبٍ وَتَبَّ ۝١ مَآ اَغْنٰى عَنْهُ مَالُهٗ ۝٢
وَمَا كَسَبَ ۝٣ سَيَصْلٰى نَارًا ذَاتَ لَهَبٍ ۝٤ وَامْرَاَتُهٗ
حَمَّالَةَ الْحَطَبِ ۝٥ فِي جِيدِهَا حَبْلٌ مِنْ مَسَدٍ

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rahi**m**
1. Təbbət yədə əbi ləhəbiv-və təbb. 2. Mə əğnə `anhu mə**l**uhu və mə kəsəb. 3. Səyəslə nə**r**an zə**t**ə ləhəb. 4. Vəmra-ətuh. Hammə lətəlhatab. 5. Fi ci**d**ihə hablum-mim-məsəd.

Mənası: 1. Əbu Ləhəbin əlləri qurusun, qurudu da! 2. Nə mal-mülkü, nə də övladları ona bir fayda verdi. 3. O, alovlu bir oda girəcəkdir. 4. Arvadı da odun daşıyan olaraq *(oda girəcəkdir)***. 5. Arvadının boynunda xurma lifindən ip olacaqdır.**

İxlas surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ هُوَ اللّٰهُ اَحَدٌ ۝١ اَللّٰهُ الصَّمَدُ ۝٢
لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۝٣ وَلَمْ يَكُنْ لَهٗ كُفُوًا اَحَدٌ ۝٤

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rahi**m**
1. Qul huvəllə**h**u əhad. 2. Allə**h**us-samə**d**. 3. Ləm yəlid və ləm yu**l**əd. 4. Və ləm yəkullə**h**u kufuvən əhəd.

Mənası: 1. De: "O Allah təkdir! 2. Allah heç bir şeyə möhtac deyildir. 3. O nə doğmuş, nə də doğulmuşdur. 4. Onun heç bir bənzəri və tayı-bərabəri yoxdur".

Fələq surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ اَعُوذُ بِرَبِّ الْفَلَقِ ۝١ مِنْ شَرِّ مَا خَلَقَ ۝٢ وَمِنْ
شَرِّ غَاسِقٍ اِذَا وَقَبَ ۝٣ وَمِنْ شَرِّ النَّفَّاثَاتِ فِي
الْعُقَدِ ۝٤ وَمِنْ شَرِّ حَاسِدٍ اِذَا حَسَدَ ۝٥

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rahi**m**
1. Qul ə`**u**zu birabbil fələq. 2. Min şərri mə xaləq. 3. Və min şərri ğ**a**siqin izə vəqab. 4. Və min şərrin-nəffə**s**ə**t**i fil `uqad. 5. Və min şərri h**a**sidin izə həsəd.

Mənası: 1. De: "Sığınıram sübhün Rəbbinə, 2. Yaratdıqlarının şərindən, 3. Qaranlıq çökən gecənin şərindən, 4. Düyünlərə üfürən *(cadugər)* **qadınların şərindən, 5. Və paxıllıq edən paxılın şərindən!"**

Nas surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ اَعُوذُ بِرَبِّ النَّاسِ ۝١ مَلِكِ النَّاسِ ۝٢
اِلٰهِ النَّاسِ ۝٣ مِنْ شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ ۝٤
اَلَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ ۝٥
مِنَ الْجِنَّةِ وَالنَّاسِ ۝٦

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rahi**m**
1. Qul ə`**u**zu birabbin-nə**s**. 2. Məlikin-nə**s**. 3. İlə**h**in-nə**s**. 4. Min şərril vəsvə**s**il xannə**s**. 5. Əlləzi yuvəsvisu fi sud**u**rin-nə**s**. 6. Minəl cinnəti vənnə**s**.

Mənası: 1. De: "Sığınıram insanların Rəbbinə, 2. İnsanların hökmdarına, 3. İnsanların ilahına, 4. Vəsvəsə verib *(Allahın adı çəkildiyi zaman)* **gizlənənən şeytanın şərindən! 5. O, insanların qəlblərinə vəsvəsə salar. 6. O, cinlərdən də olur, insanlardan da".**

Ayətəl-kürsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

اَللّٰهُ لَآ إِلٰهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ ۚ لَا تَأْخُذُهُ سِنَةٌ وَلَا نَوْمٌ ۚ
لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ ۗ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ
إِلَّا بِإِذْنِهِ ۚ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ ۖ وَلَا يُحِيطُونَ بِشَيْءٍ
مِنْ عِلْمِهِ إِلَّا بِمَا شَآءَ ۚ وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ ۖ
وَلَا يَئُودُهُ حِفْظُهُمَا ۚ وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ ﴿٢٥٥﴾

Oxunuşu: Bismillə**h**ir-Rahmə**n**ir-Rah**i**m
Allə**h**u lə ilə**h**ə illə huvəl hayyul-qayyu**m**. Lə tə`xuzuh**u** sinətun vələ nə**v**m. Ləh**u** mə fissəmə**v**əti və mə fil-ərd. Mən zəlləz**i** yəşfə`u indəh**u** illə bi-iznih. Yəaləmu mə bəynə əyd**i**him və mə xalfəhum. Və lə yuh**i**t**u**nə bişəy-in min `ilmih**i** illə bimə şə**ə**. Və si`a kursiyyuhussəmə**v**əti vəl ərd. Vələ yə**u**duh**u** hifzuhumə və huvəl `aliyyul-`az**i**m.

Mənası: Allahdan başqa ilah yoxdur! O diridir, bütün məxluqatı idarə edir. O nə mürgüləyər, nə də yuxulayar. Göylərdə və yerdə nə varsa hamısı Onundur. İzni olmadan Onun yanında kim şəfaət edə bilər?! Önlərindəkini *(edəcəkləri əməlləri)* **də, arxalarındakını** *(etdikləri əməlləri)* **də O bilir.** *(Yaradılanlar)* **Allahın elmindən, Onun dilədiyi qədərindən başqa heç nəyi qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları mühafizə etmək isə Ona çətin deyildir. Ən uca və ən böyük olan da Odur!** *(İçində "kürsü" kəlməsi keçdiyi üçün bu ayəyə "Ayəti-kürsi" deyilmişdir. Burada sözügedən kürsü bildiyimiz kürsü və ya taxt mənasında deyil, Allahın şəninə layiq olan və mahiyyətini bilmədiyimiz bir şeydir.)*

(Bəqərə, 255)